

*Pedaqoji elmlər doktoru, professor, 1990-cı ildən SSRİ PEA-nın müxbir üzvü, 1993-cü ildən Beynəlxalq Pedaqoji Akademiyanın akademiki, 1999-cu ildən isə Rusiya Təhsil Akademiyasının üzvü Hüseyn Mustafa oğlu Əhmədov 1926-cı ildə Qərbi Azərbaycanda anadan olub.*

*300-dən artıq elmi pedaqoji əsərin müəllifi olan H.Əhmədovun əsərləri bir çox dünya dillərində çap edilmişdir.*

**HÜSEYN ƏHMƏDOV**

# SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ

## ON İKİ CİLDLİK

BAKI – TƏHSİL – ABU – 2006



*«... Xalqlar dostluğu ideyalarının qızğın tərəfdarı... Nəriman Nərimanov böyük və qaynar həyatını bütünlüklə xalq işinə sərf etmişdir».*

*Heydər Əliyev*

**HÜSEYN ƏHMƏDOV**

74,03(5Aze)-8
Ə 36

# SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ

## VI CİLD

**(NƏRİMAN NƏRİMANOV. Həyatı, fəaliyyəti pedaqoji və tibbi fikirləri)**

BAKI – TƏHSİL – ABU – 2006

Elmi redaktor: **Alxan Bayramoğlu,**
*Filologiya elmləri doktoru*

**H.M.ƏHMƏDOV**. Seçilmiş pedaqoji əsərləri. VI cild. Bakı. «Təhsil» NPM. 2006, səh.284+16 şəkil

Bu cildə Azərbaycanın görkəmli ictimai xadimi, pedaqoqu və həkimi Nəriman Nərimanovun həyatı, çoxşaxəli fəaliyyəti, pedaqoji və tibbi fikirləri daxildir. Əsər pedaqogika və tibb sahəsində elmi fəaliiyyət üçün faydalıdır.

Ə $\frac{M - 002135}{700122}$ 2006

© «Təhsil» NPM, ABU, 2006



## ÜÇÜNCÜ NƏŞRƏ MÜQƏDDİMƏ

Oxuculara təqdim olunan bu kitab müəllifin 1979 və 2000-ci illərdə nəşr etdirdiyi «N.Nərimanovun pedaqoji fikirləri» adlı əsərinin yenidən işlənmiş üçüncü nəşridir.

Bu kitabdakı yenilik ondan ibarətdir ki, buraya bir tərəfdən N.Nərimanovun bu gün daha aktual səslənən məqalə və çıxışlarından nümunələr seçilərək daxil edilmişdir. Digər tərəfdən də Azərbaycan Beynəlxalq Universitetində müstəqil tibb fakültələri fəaliyyət göstərdiyindən bu fakültələrin tələbə və müəllimlərinin Nərimanovun tibbə aid fəaliyyəti və fikirləri ilə daha yaxından tanış olması üçün onun bir sıra məqalələri, xüsusilə də Həştərxan sürgünündə olarkən nəşr etdirdiyi «Tibb və islam» adlı məqalələrindən nümunələr kitaba əlavə edilmişdir. Onu da qeyd edim ki, N.Nərimanovun «Burhani-tərəqqi» qəzetində çap olunmuş məqalələrinin üslubu olduğu kimi saxlanılmışdır. Məqalələri ərəb əlifbasından latın qrafikası ilə ABU-nun «İlahiyyat və regionşünaslıq» fakültəsinin müəllimləri çevirmişlər.

Materialların seçilməsində redaktə və korrektə edilməsində Tariyel İsmayılov yaxından iştirak etmişdir.

Kitabın üçüncü nəşrinin hazırlanıb çap edilməsinə köməklik edənlərə müəllif öz razılığını bildirir.

Güman edirik ki, tibb fakültəsinin tələbə və müəllim kollektivi bundan faydalana bilər.

***Müəllif***
***27 mart 2004-cü il***

## REDAKTORDAN: «ŞİKƏST EDİLMİŞ ÖVLAD» YAXUD MİLLİ ELMİ DÜŞÜNCƏNİN REPRESSİYASI.

*Nəriman Nərimanov XIX əsrin ortalarından başlayan və Azərbaycan xalqının ictimai-milli düşüncəsinin inkişafında, milli mənlik şüurunun formalaşaraq milli müstəqillik uğrunda mübarizəyə qalxmasında xüsusi rol oynayan maarifçilik hərəkatının qabaqcıl nümayəndələrindəndir. Onun bir mütəfəkkir kimi xalqımızın milli sərvətinə çevrilən həm elmi, pedaqoji, bədii irsinin, həm də maarifçilik (məktəbdarlıq), ictimai, dövlətçilik fəaliyyətinin hərtərəfli tədqiq və təbliği elmimizin mühüm vəzifələrindəndir. Azərbaycanda məktəb və pedaqoji fikir tariximizin tanınmış araşdırıcılarından olan pedaqoji elmlər doktoru, professor, Rusiya Təhsil Akademiyasının həqiqi üzvü Hüseyn Əhmədovun «Nəriman Nərimanovun pedaqoji fikirləri» (Bakı, Maarif, 1979) monoqrafiyası bu istiqamətdə atılan uğurlu addımlardan birinin bəhrəsi kimi diqqətəlayiqdir.*

*Monoqrafiyada N.Nərimanovun həyatı, mühiti və pedaqoji fəaliyyətinin həm praktik, həm də elmi nəzəri sahəsi və istiqamətləri araşdırılmış, onun müəllimliyi, yeni ruhlu proqram və dərsliklərin yaradılması, xalqın kütləvi şəkildə maarifləndirilməsi istiqamətində göstərdiyi xidmətlər, milli təhsildə ana dilinin, əqli tərbiyənin, qız məktəblərinin, vətənpərvərlik tərbiyəsinin və s. rolu haqqında söylədiyi fikirlər, onların tarixi və müasir əhəmiyyəti haqqında sistemli və əhatəli elmi təsəvvür yaradılmışdır. Bu zaman alim özünün elmi-nəzəri müddəalarını mütəfəkkir ədibin həm bədii («Nadanlıq», «Nadir şah», «Dilin bəlası, yaxud Şamdan bəy», «Bahadır və Sona», «Pir») əsərlərinə, həm məqalə və çıxışlarına, həm də fəaliyyəti ilə əlaqədar çoxunun özü tərəfindən üzə çıxarılıb tədqiqata birinci olaraq cəlb edilən müxtəlif xarakterli sənəd və arxiv materiallarına istinadən inandırıcı məntiqi dəlillərlə əsaslandırmışdır. Sətirlərin arasından Hüseyn Əhmədovun milli təəssüb hissi ilə alışıb yanan vətəndaş – alim siması canlanır. Lakin, Hüseyn müəllimin də dediyi kimi, N.Nərimanova, onun elmi-nəzəri və bədii pedaqoji irsinə, tarixi mövqeyinə münasibət ayrı-ayrı zaman kəsiyində «dalğavari» olmuş, onun xidmətləri gah lüzumsuz yerə qabardılmış, gah da inkar edilmişdir. Hüsyen Əhmədovun araşdırmaları isə həmişə bu cür meyllərdən uzaq olaraq tarixi həqiqətə, sağlam elmi vicdana və faktik həqiqətlərə söykənmişdir. Elə bu cəhətinə görə də alimin başı xeyli bəla çəkmiş, bir vətəndaş – alim*





*olaraq mənəvi-psixoloji repressiyalara məruz qalmışdır. Alim sovet ideoloji siyasət kursunun bütün qəddarlığı ilə haqqında söhbət gedən monoqrafiyanın çapı zamanı da üzləşmiş, senzuranın (qlavlitin) kitabdan bir sıra hissənin, bəzi mühüm məsələlər barədə söylənən fikirlərin çıxarılması tələbi ilə razılaşmadığı üçün monoqrafiyanın çapına icazə verilməmişdi. Hüseyn Əhmədovla sovet senzura idarəsi arasındakı mübahisə və münaqişə düz dörd il davam etdikdən sonra alim heç olmasa kitabın işıq üzü görməsi naminə təslimə məcbur olmuşdur. Beləliklə, 1975-ci ildə nəşr olunacaq «Nəriman Nərimanovun pedaqoji fikirləri» monoqrafiyası yalnız 1979-cu ildə işıq üzü gördü. Özü də «kəsilib doğranmış» şəkildə. Hüseyn Əhmdov isə kitabın 1975-ci ildə çıxmalı olan variantının 1975-ci ilin iyununa aid olan və senzorun ixtisarlarını özündə əks etdirən «müəllif korrekturası» nüsxəsini kitab şəklində cildlədərək özünün şəxsi kitabxanasında, həmin kitabla bağlı niskilin qübarını isə ürəyində saxladı... Monoqrafiya ilə bağlı söhbətlərimizin birində Hüseyn müəllimin yarasının közü qopdu və yaradan axan qan qarışıq belə bir inilti qulağımıza çatdı; Hüseyn Əhmədov kədərlə köks ötürərək, bir anlıq sükutdan sonra dedi: «Nəriman Nərimanov haqda olan bu kitabı mən özümün şikəst edilmiş övladım hesab edirəm. Şikəst övlad valideyni necə ağrıdırsa, bu kitabın aqibəti də məni bax, beləcə ağrıdır». Sonra o, marağımızı və istəyimizi nəzərə alıb monoqrafiyanın «repressiya güllələrindən» «şan-şan olmuş» nadir 1975-ci il nüsxəsini əyani tanışlıq üçün bizə verdi...*

*Hüseyn Əhmədovun «Nəriman Nərimanovun pedaqoji fikirləri» monoqrafiyasının 1975-ci ildə çıxmalı olan nadir nüsxəsi əsas etibarı ilə dörd istiqamətdən «gülləyə tutularaq» dörd il həbsdən sonra təhrif və şikəst edilmiş şəkildə oxuculara təqdim edilmişdir. Əslində işıq üzü görən kitabın «qan daman yaraları» senzorun «redaktor qələmi» ilə məharətlə kosmetika edilmiş, orijinal isə düz 25 (əsrin dörddə biri qədər)*il həbsdə qalmışdır. İndi dörd və dörddə bir (25) rəqəmlərinin qəribə və məntiqi qanunauyğunluqlarının fonunda «Nəriman Nərimanovun pedaqoji fikirləri» monoqrafiyasına tuşlanaraq, onu şan-şan edən repressiya güllələrinin istiqamətlərinin xarakterinə keçək;*

1) *monoqrafiyada çar Rusiyasının, SSRİ gerçəkliyinin bir sıra mühüm, ibrətamiz mənzərələri ilə analoji eyniyyət təşkil edən cəhətlərinin təhlil və tənqid edilməsi, 2) imperiyanın (çarizm və SSRİ dövründə) ruslaşdırma siyasətinin mahiyyətinin açılması, 3) bu siyasətə*

qarşı N.Nərimanovun milli məktəblərin şəbəkəsinin genişləndirilməsi və ana dilinin tədrisinə xüsusi diqqət yetirilməsi tələbi ilə etdiyi çoxsaylı çıxışların elmi şərhi, 4) imperiyanın xalqlar dostluğu siyasətinin riyakarlığının iç üzünün açılması və Qarabağ ətrafında köklənən erməni-müsəlman qırğını ilə əlaqədar milli-tarixi yaddaşımızın bərpası senzoru heç cürə razı salmırdı və bu mümkün də deyildi.

Kitabın (söhbət monoqrafiyanın 1975-ci il tarixli nadir nüsxəsindən getdiyi üçün səhifələr də həmin nüsxə üzrə göstərilir) 83 — 84-cü səhifəsində N.Nərimanovdan belə bir sitat gətirilib; «Nərimanov yazırdı: **«Avropa dövlətlərində rus kəndlisi kimi kasıb, fəqir, dilsiz, vücudsuz rəiyyət tanımaq çətindir. Şimaldan Cənuba, Ağ dənizdən Qara dənizədək, Şərqdən Qərbə, Uraldan Baltik dənizinədək əkin yerlərini nəzərə aldıqda zənn olunur ki, rus kəndlisinin güzəranı gərək yaxşı olsun. Lakin beləmi? 80 milyon kəndlidən bir milyonunun məxsusi cəmiyyət yeri var desək, səhv olmaz zənn edirik.**

**Rusiyada vəziyyət belə olanda, sonralar Rusiyaya tabe olan yerlərdə vəziyyət daha pis idi. Belə ki, dövlət sonradan tabe olan millətləri bütün ixtiyardan məhrum etmişdi.»**

Sitatın birinci abzası Rusiyada zəhmətkeşlərin geniş kütləsinin — kəndlilərin torpaqdan məhrum edilib ac qalmalarını göstərməklə, eyni vəziyyəti, yəni sovetləşmə, kolxoz quruculuğu ilə sovet kəndlisinin də eyni vəziyyətdə olduğunu, ikinci abzası isə müstəmləkə («müttəfiq» və «muxtar» respublika əhalisinin — üzdə razılıqla, əslində isə zorla SSRİ tərkibinə daxil edilən) xalqlarının, o cümlədən azərbaycanlıların o zamankı vəziyyətlərini tam dolğunluğu ilə canlandırdığına görə tamamilə çıxarılmışdır. Başqa cür ola da bilməzdi. Çünki xalqın, kütlələrin duyuq düşməsinə səbəb ola bilən ən kiçicik işartı belə söndürülməlyidi.

Kitabın 151-ci səhifəsində N.Nərimanovun «Kommunizm nə verəcəkdir?» məqaləsindən gətirilən aşağıdakı sitat da çıxarılmışdır: **«İnsanları hürriyyət yoluna dəvət edən, millətləri hər cəhətdən qüvvətləndirən, ona can verən, onu qeyrətli edən, onun ruhunu ucaldan, ruhunu təmizləyən, ona təbii tərəqqi yolunu açan və onu sağlam mədəniyyətə dəvət edən, dövlətlər arasında həqiqi məhəbbəti bərpa edən, dövlətlər arasında təbii rabitə meydana gətirən, onların sərhədlərini pozan, zorba qalaları topsuz uçurub yox edən kommunizmdir».**

Çünki kommunizmin mahiyyəti haqqında N.Nərimanovun bu aldanışının işığında sovetlər ölkəsinin dünyaya hegemonluq siyasətinin, bütövlükdə SSRİ və sosializm sistemi ərazisini tikanlı məftillərlə əhatə edilmiş düşərgəyə çevirməsinin və s. bütün riyakarlığının mahiyyəti aydın şəkildə görünürdü.





Sovet cəmiyyətində müəllimlərin nüfuzunun xeyli aşağı düşdüyünü, ictimai həyatdan və dövlət işlərindən onların çox ustalıqla kənarlaşdırıldığını yada saldığı, yatanları oyada biləcəyi üçün 60-cı səhifədən **«Bir sıra burjua ziyalılarının fitnələri üzündən mütərəqqi müəllimlərin ictimai işlərindən kənar edilməsinə etiraz edən N.Nərimanov yazırdı:" Bir vaxt var idi ki, müəllimlərsiz millətə dair işlərə baxılmazdı. Məclislərdə səs, rəy verən müəllimlər olurdu. Təsəvvürlərinə** (yəni, onların fikir və mülahizələrinə — A.B.) **diqqət olunurdu. Lakin bir vaxtdan bəri camaat həman müəllimləri məclislərdə görmədi, onların fikirlərindən xəbərdar ola bilmədi. Sözü açıq deyəlim: onlar indi lüzumsuz bir üzv olub, artıq araya qoyulmayırlar.»** cümlələri mətindən çıxarılmışdır. Çünki daima xalqın yol göstərəni, onun milli şüurunu düzgün istiqamətləndirən, xalqın və vətənin tərəqqisi naminə nümunəvi milli kadrlar yetişdirmək üçün fədakarlıq nümunəsi göstərən müəllimlərimizin geniş və sərbəst fəaliyyəti imperiyanın və Kommunist partiyasının manqurtlaşdırma siyasətinə əl vermir, mane olurdu.

Xalqın milli şüurunun formalaşması və dünyəvi təhsilə yiyələnməsində xüsusi mərhələ olan Azərbaycan müəllimlərinin 1906 və 1907-ci illərdə Bakıda keçirilən I və II qurultayları, onların proqram və məramnamələri, tarixi əhəmiyyəti və s. bağlı olan hissələr də (səh. 45,46,51,53...) çıxarılmışdır.

Xalqın milli şüurunun inkişafında, onun milli varlığının qorunmasında ana dilinin və milli etiqadın rolu əvəzsizdir. Ona görə də professor Hüseyn Əhmədov öz əsərində N.Nərimanovun ana dili və milli dini etiqad, onların inkişaf etdirilməsi, bu sahədə qarşıya çıxan problemlərin aradan qaldırılması yolları və s. haqqında mövcud fikir və mülahizələrinin elmi şərhinə xüsusi bölmə ayırmışdır. Senzura da öz növbəsində bu məsələdə nəzərə çarpan fikir və mülahizələrin xalqa çatdırılmasına imkan verməmişdir. Məsələn, monoqrafiyanın 79, 81-ci səhifələrini tutan və qız məktəblərinin şəbəkəsinin genişləndirilməsinə, varlıların öz adlarının əbədiliyi naminə maarifin, gənc nəslin təhsil almasının genişləndirilməsi üçün pul xərcləməyə çağırışa həsr edilmiş böyük bir hissə, (səh. 85-də) **«təlimin ana dilində aparılması zərurətini xalqa başa salır, bu məsələdə mürtəce mövqe tutanları tənqid edirdi»** cümləsi, səh.90-da **«Özünüz üçün qanunlar verin, məktəblər açın, dininizi, dilinizi inkişaf etdirin»** çağırışı, milli ruhun saflığının və milli şüurun davamlılığının qorunmasında ana dilinin roluna əhəmiyyət verən

N.Nərimanovdan gətirilən fikirlərdən **«Ona görə də hər bir millətə dilini sadələşdirmək, asanlaşdırmaq üçün ciddi səy göstərilməlidir»** (səh.91), səh. 34-də **«Ana dilinin tədrisinə böyük əhəmiyyət verən və bu məsələnin həllində fəal iştirak edən»** (N.Nərimanova aid epitet) sözləri, yenə səh. 91-də N.Nərimanovun dilimizin saflığının qorunması uğrunda mübarizəsindən bəhs edən yerdə öz dilini bəyənməyən, qeyri dildə naşıcasına danışanların tənqidinə həsr edilən və onun özündən gətirilən sitatdakı **«və bir neçəsi də öz hissiyyatını qeyri dildə qələmə verir»** sözləri çıxarılmışdır. Bütün bunların başlıca səbəbi həmin fikir, mülahizə və çağırışların imperiyanın yeritdiyi ruslaşdırma siyasətinə zidd olduğu üçün zərərli hesab edilməsi idi. Elə həmin mövqedən yanaşıldığı üçündür ki, kitabın 152-ci səhifəsindəki **«N.Nərimanov deyirdi ki, ana dili əvəzinə rus dilində «şaltay-baltay» eləyənlər müsəlman balalarına xəyanət etmiş olurlar. Belə adamları bu əqidədən daşındırmamaq isə millətə xəyanət etmək deməkdir...**

**N.Nərimanov göstərirdi ki, «məclislərdə döşlərinə vurub «pojalusta» deməklə milləti qabağa aparmaq olmaz». Millətin dilini bilməmiş onun dərdinə dərman etmək çətindir»** və s. cümlələr, o cümlədən digər bu yönlü fikirlər abzaslarla, səhifələrlə çıxarılmışdır.

Senzoru narahat edən, haldan çıxaran məsələlərdən biri də gənc nəslin layiqli vətəndaş kimi yetişdirilməsi üçün N.Nərimanovun insanların din, iman və vicdan azadlığını ciddi müdafiə edib, bu məsələlərin hökmən nəzərə alınması barədə söylədiyi fikirlərin elmi izahı idi. İmperiyaya əqli cəhətdən inkişaf etmiş milli intellektlər deyil, simasını itirmiş, mənəvi aşınmaların təsiri ilə əslini danmış kölələr daha çox lazım idi. Odur ki, 137—138-ci səhifələrə düşən **«əvvəlcə insanları qatilliyə, oğurluğa məcbur edən səbəbləri öyrənməli, sonra isə bu səbəbləri aradan qaldırmalı, səma allahlarının və onların nümayəndələri olan peyğəmbərlərin minlərcə qanunlarına, müxtəlif kəlamlarına baxmayaraq pisliklər edilir və ediləcəkdir»** sözlərini, habelə **«N.Nərimanov din, iman və vicdan azadlığı məsələlərinə toxunur və göstərir ki, din də, iman da, vicdan da azad olmalıdır. İnsanın imanı onun vicdanı ilə əlaqədardır. Nərimanovun fikrincə, iman hər bir kəsin müqəddəs və toxunulmaz hissidir. İmanı satmaq və almaq olmadığı kimi, bir başqasına güc ilə qəbul etdirmək də olmaz».** (səh. 172—173) və s. və i. a. cümlələrini çıxartmış, səh. 172-də Nikolay keşişlərinin, missioner İlminskilərin fəaliyyətləri ilə əlaqədar Nərimanovun söylədiyi fikirlərdən **«Bunlar pula, rütbəyə və vəzifəyə satılaraq sizin içərinizdə xristianlığı yayırdılar»** ifadəsi **«din pərdəsi ilə xalqın gözünü bağlayırdılar»** sözləri ilə əvəz edilmişdir. Ona görə ki, bütün bunlar imperiyanın "vahid sosialist milləti" yaratmaq prinsipinə





zidd idi. Çünki "vahid sosialist milləti" dini, zatı, əqidəsi, vicdanı qarışıq, bir sözlə, kimliyi bilinməyən hibridlərdən ibarət olmalı və təhsil də, tərbiyə də, mədəniyyət də, — hər şey bu amala xidmət etməli idi.

Məlumdur ki, imperiyanın (Çarizm və Sovet) «parçala, hökm sür!» siyasətinə xalqlar arasına milli qırğın salmaq tədbirləri də daxildir. Bundan başqa həmin yolla nisbətən «dikbaş», yəni əsarət boyunduruğuna boyun əyməyən xalqları imperiya zəncirində saxlamaq üçün də həmin üsuldan vaxtlı-vaxtında və lazımınca istifadə edilir. Ermənilərlə azərbaycanlılar arasında, 1906—1907 və 1918—1919-cu illərdə törədilən, 1987-ci ildən bəri davam edən milli zəminli münaqişələr, «Qarabağ kartı» və s. fikrimizə sübutdur. İmperiyanın öz siyasətinin iç üzünün açılmasına heç vəchlə yol verməK istəmədiyi də təbiidir. Odur ki, onun senzoru monoqrafiyada erməni-azərbaycanlı qırğınlarının mahiyyəti ilə bağlı N.Nərimanovun müəyyən qədər obyektiv fikirlərinin xatırlanmasına, beləliklə də xalqımızın milli tarixi yaddaşının oyadılmasına yol verə bilməzdi. Məhz bu səbəbdən də kitabın 144—145-ci səhifələrinə düşən aşağıdakı böyük bir parça ixtisar edilmişdir: «O (N.Nərimanov — A.B.), 1906-cı ildə **«Həyat» qəzetində dərc etdirdiyi «Müsəlman-erməni kasıb-fəqirlərinə bir neçə söz» adlı məşhur məqaləsində çar hakimiyyətinin törətdiyi milli qırğınlara qarşı özünün kəskin etiraz səsini ucaldaraq yazırdı:»...** insafsız, mürvətsiz, dinsiz, imansız provokatorlar köhnə xasiyyətlərindən əl çəkmirlər... Bağda, bazarda, küçədə, meydanda, restoranlarda, klublarda, hər yerdə, hər məqamda fürsət tapırlar, söyləyirlər: **«Qarabağda «erməni-müsəlman davası» başlandı, yəqin ki, Bakıda da başlanacaqdır... «Bunlar vicdansız bir sinif olub hər tövr cildə girirlər. Müsəlmanı görəndə deyirlər: heç xəbərin varmı, ermənilər müsəlmanların başlarına Qarabağda nə gətirirlər? Evlərini yandırıb, arvad-uşaqlarını əsir ediblər, mallarını talan edib özlərini Qarabağdan qovurlar...**

**Bunlar erməni görəndə deyirlər: vay yazıq ermənilər! Heç bilirsinizmi neçə yüz erməni tələf olubdur? Kənar erməni kəndləri bilmərrə yanıb qurtarıbdır...**

**Nərimanov fikrini davam etdirərək yazırdı ki, hər iki millət düşmənlərini gərək tanısın, belə bir vicdansız adamların sözlərinə uyub iki bədbəxt millətin düşdüyü fəlakət quyusunu bir daha dərinləşdirməsin».**

Milli ədavət toxumunun ideoloji və siyasi köklərinin dərkinə yönəlmiş bu sətirlər, əlbəttə, imperiya siyasətinə zidd idi və ona görə də xalqların qəflətdə qalması üçün işıq üzü görə bilməzdi.

*Senzuranın ixtisarını, alimin, milli elmi fikrimizin məruz qaldığı «represiya gülləbaranını» tam əks etdirməyən bu qeydlər, bizcə professor Hüseyn Əhmədovun çəkdiyi mənəvi-psixoloji ağrılar, keçirtdiyi ruhi sarsıntılar, düçar olduğu vətəndaş əzabları haqda müəyyən təsəvvür yarada bilir. Axır ki, əsrin dörddə biri qədər davam edən alim—vətəndaş nisgilinə son qoyulmaq üçün fürsət yarandı və Hüseyn Əhmədovun «senzura tərəfindən şikəst edilmiş övladı», «Nəriman Nərimanovun pedaqoji fikirləri» monoqrafiyası əvvəlki 1975-ci il variantı əsasında bərpa edilib yenidən işlənərək, ikinci nəşri ilə oxucuların görüşünə gəldi...*

*Alxan Bayramoğlu,*
*filologiya elmləri doktoru*

*5 sentyabr 1999-cu il*





## GİRİŞ

XIX əsrin axırları və XX əsrin əvvəllərində yaşayıb-yaradan görkəmli dramaturq, nasir, publisist və həkim Nəriman Nərimanovun adı Azərbaycanın maarif və mədəniyyət tarixinə tanınmış müəllim və pedaqoq kimi daxil olmuşdur.

N.Nərimanov, özünün çoxcəhətli fəaliyyəti ilə Zaqafqaziya xalqlarının azadlığı uğrunda aparılan mübarizə tarixində mühüm yer tutur. O, bütün həyatını zəhmətkeşlərin azadlığı, səadəti, xalqların birliyi və qardaşcasına dostluğunun möhkəmlənməsi işinə həsr etmişdir.

Təsadüfi deyil ki, xalqımızın böyük oğlu cənab Heydər Əliyev N.Nərimanovun anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli yığıncaqdakı məruzəsində demişdir:

«... xalqlar dostluğu ideyalarının qızğın tərəfdarı ... Nəriman Nərimanov böyük və qaynar həyatını bütünlüklə xalq işinə sərf etmişdir»[1].

N.Nərimanov milli pedaqoji fikrin inkişafında da xüsusi xidmət göstərmişdir. O, təkcə praktik pedaqoq olmamış, eyni zamanda pedaqogika tarixi, psixologiya, Azərbaycan dili və onun tədrisi metodikasının bir sıra məsələləri ilə də yaxından məşğul olmuşdur. Odur ki, N.Nərimanovun zəngin elmi ədəbi irsi bu baxımdan da qiymətli olub öyrənilməyə layiqdir. Onun bədii əsərləri, məqalələri və zəhmətkeşlər qarşısında etdiyi çıxışları, çarizmə qarşı apardığı inqilabi təbliğat xalqın qüvvəsini azadlıq uğrunda mübarizəyə yönəltməyə xidmət edirdi.

N.Nərimanov xalqın maariflǝndirilməsi, milli vətənpərvər kadrların yetişdirilməsi işinə azadlıq və istiqlaliyyət uğrunda mübarizənin tərkib hissəsi kimi baxırdı. Odur ki, sadə xalq müəllimliyindən görkəmli partiya və dövlət xadimi vəzifəsinə qədər yüksələn, Azərbaycanda İnqilab Komitəsinin sədri, Azərbaycan Xalq Komissarları Sovetinin ilk sədri vəzifələrində çalışan N.Nərimanov Sovet Azərbaycanının iqtisadi və mədəni inkişafına, milli təhsil şəbəkəsinin genişləndirilməsi məsələlərinə də xüsusi fikir vermişdir. Bu baxımdan onun ictimai fəaliyyətini təkcə Azərbaycanla məhdudlaşdırmaq doğru olmazdı. N.Nərimanov Zaqafqaziyanın və bütövlükdə

[1] «Kommunist» qəzeti, 30 iyun 1972-ci il.

Şərq xalqlarının azadlıq uğrunda mübarizəsində də fəal iştirak etmişdir.

N.Nərimanov praktik pedaqoq kimi fəaliyyətə Gürcüstan və Azərbaycan məktəblərində ana dilindən dərs deməklə başlamış, azərbaycanlı uşaqların elm öyrənmələri, onların əqli və zehni inkişafları yolunda böyük zəhmət çəkmişdir.

Bu onunla əlaqədar idi ki, maarifçilik hərəkatının nümayəndələri xalqın tərəqqisi, vətənin çiçəklənməsi işində xalq maarifinin, təlim-tərbiyə məsələlərinin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verirdilər. Odur ki, digər maarifçilər kimi N.Nərimanov da 90-cı illərdən başlayaraq cəmiyyətin islahı üçün məktəbin, maarifin, mədəniyyətin və tərbiyənin roluna üstünlük verir və bunu hələlik xalqın yeganə qurtuluş yolu sayırdı.

N.Nərimanov həmişə və hər şeydə özünün sələfi M.F.Axundov və müasiri C.Məmmədquluzadə kimi, doğma xalqının ümumbəşəri səviyyəyə qalxmasına, həmvətənlərinin qabaqcıl xalqların cərgəsinə çıxmasına cəhd edir, bunun üçün xalq maarifinin inkişafı, maarifçiliyin ictimai-milli hərəkat kimi canlandırılması yolunda əlindən gələni edirdi.

Bu məqsədlə bədii ədəbiyyatdan, dövri mətbuatdan, teatrdan, kütləvi yığıncaqlardan bir təbliğat aləti kimi istifadə edərək, dövrünün maarif və məktəb işinin ən mühüm məsələlərinə toxunur, öz fikirlərini xalqın anlayacağı və başa düşəcəyi bir şəkildə ifadə edirdi. Məhz aydın vətəndaşlıq mövqeyindən yazıldığı üçündür ki, N.Nərimanovun bədii əsərləri və publisistik məqalələri xalqın oyanmasına kömək etmiş, onu cəhalətə, nadanlığa qarşı mübarizəyə ruhlandırmış, gənc nəsli elm öyrənməyə, təhsil almağa istiqamətləndirmişdir. N.Nərimanov yalnız gənclərin tərbiyəsi və təhsili ilə deyil, həmçinin yaşlı əhalinin, bütün əməkçi kütlənin savadlandırılmasına çalışırdı. Təsadüfi deyil ki, Azərbaycanda pedaqoji fikrin və xalq maarifinin inkişafı tarixinin bütöv bir dövrü N.Nərimanovun adı ilə bağlıdır.

N.Nərimanovun xidmətlərinin bir xüsusiyyəti də budur ki, o, dövrünün mühüm həyati məsələlərinə toxunur və mütərəqqi pedaqoji ideyaları özünəməxsus ustalıqla yayırdı. Onun fikirləri dövrün mühüm ictimai- pedaqoji problemləri ilə səsləşir, dövrünün ictimai-siyasi məsələləri ilə vəhdət təşkil edirdi. N.Nərimanov müxtəlif istiqamətli mətbuat orqanlarında çıxış edərək, dövrə görə vaxtı keçmiş təlim-





tərbiyə sistemini təhlil və tənqid edərək, qələm yoldaşlarını da bu nöqsanlara qarşı amansız olmağa çağırırdı.

N.Nərimanov birinci rus inqilabından sonrakı dövrdə təlim-tərbiyə məsələlərində marksist mövqeyindən çıxış edir, bu məsələləri XX əsr Azərbaycan şəraitinə uyğunlaşdırmağa, marksizmi xalqın mübarizəsi, arzuları və ideyaları ilə üzvi şəkildə birləşdirməyə çalışırdı. O, inqilabi ideyaları, marksizm nəzəriyyəsini, həmçinin pedaqoji fikirlərini, özü dediyi kimi, «sətirlər arasında» oxucularına çatdırır, yorulmadan yayırdı.

N.Nərimanov Azərbaycan pedaqoji fikir tarixində inqilabi demokratik meyllərin artmasına və inkişafına ciddi təsir göstərmişdir. O, pedaqogikanın ayrı-ayrı məsələlərinə dair orijinal fikirləri ilə öz maarifçilik fəaliyyətində və pedaqoji görüşlərində təlim və tərbiyəyə aid demokratik maarifçi fikirlərdən marksist baxışlara qədər yüksəlmiş, təlim və tərbiyə haqqında Marks-Lenin təlimini Azərbaycan şəraitində yaradıcı surətdə inkişaf etdirmiş və praktik olaraq həyata keçirməyə çalışmışdır.

N.Nərimanovun xatirəsini əziz tutan xalqımız Azərbaycan Tibb Universitetinə, Bakının bir rayonuna və böyük bir prospektinə, bir sıra idarə və müəssisələrə, qəsəbələrə onun adını vermişdir.

Respublikamızın müxtəlif elmi idarələrində Nərimanovun ədəbi, pedaqoji və fəlsəfi görüşləri dərindən öyrənilir, siyasi-ictimai və tibbi fəaliyyətinə həsr edilmiş elmi-tədqiqat işləri aparılır.

Qafqaz xalqları arasında N.Nərimanov böyük hörmətlə yad edilir. Onun əsərləri qardaş gürcü xalqının dilinə tərcümə edilmişdir.

Moskvanın Bədii Ədəbiyyat Nəşriyyatı 1971-ci ildə N.Nərimanovun povest və pyeslərini «Bahadır və Sona» adı ilə rus dilində yenidən nəşr etmişdir.

1972-ci ildə Azərbaycan xalqı Nəriman Nərimanovun anadan olmasının 100 illiyini digər qardaş xalqlar ilə birlikdə böyük təntənə ilə qeyd etmişdir. Yubiley zamanı N.Nərimanovun iki cilddən ibarət məqalə və nitqlərinin birinci cildinin çap edilməsi oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

Azərbaycan Respublikası Elmlər Akademiyasının Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi yubiley ərəfəsində Nərimanovun bədii əsərlərini ərəb əlifbası ilə nəşr etdirməklə çox faydalı bir iş görmüşdür.

Respublika Elmlər Akademiyasının Nizami adına Azərbaycan Ədəbiyyat İnstitutunun N.Nərimanovun ədəbi əsərlərini və ədəbi-bədii xarakterli publisistik məqalələrini nəşr etdirməsi təqdirəlayiqdir. Son illərdə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən N.Nərimanovun əsərləri kütləvi tirajla çap olunmuş, respublikamızda Nərimanovun həyat və fəaliyyətinə həsr edilmiş bir sıra qiymətli tədqiqat əsərləri yazılmışdır.[1]

Oxuculara təqdim etdiyimiz bu kitabda müəllim və müəllim kadrları hazırlanması, əqli təhsil, ana dili və onun tədrisi, qadın təhsili, tərbiyənin məqsədi və rolu, xalqlar dostluğu və s. məsələlər haqqında Nəriman Nərimanovun fikirləri şərh edilir.

Nəriman Nərimanovun fəaliyyəti çoxcəhətli olduğundan, şübhəsiz, kitabda, bəzi qüsurlar da yox deyildir. Həmin qüsurları nəşriyyata və ya müəllifə yazıb göndərən oxuculara əvvəlcədən öz razılığımızı bildiririk.

[1] Teymur Əhmədov. Nəriman Nərimanovun yaradıcılıq yolu. Bakı, Elm, 1991; Arzu Hacıyeva. Nəriman Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı, Azərbaycan Ensiklopediyası. NPB., 1998; Xeyrulla Məmmədov. Yenə «Bir şəxs» haqqında, «Bir şəxs» N.Nərimanovdurmu? «Azərbaycan» jurnalı, 1997, № 7–8, səh.145—154. Firdovsiyyə Əhmədova. Nəriman Nərimanov—ideal və gerçəklik. Bakı — 1998.





## NƏRİMAN NƏRİMANOVUN HƏYATI VƏ MAARİFÇİLİK FƏALİYYƏTİ

Nəriman Nəcəf oğlu Nərimanov 1870-ci il aprelin 14-də Tiflis şəhərində anadan olmuşdur. Doğulduğu və gənclik illərini keçirdiyi Tiflis mühiti onun əqli və mənəvi inkişafında böyük rol oynamışdır. Tiflisin inzibati mövqeyi ona Rusiya ilə daha sıx əlaqə saxlamağa imkan yaratdığı üçün bu işdə qabaqcıl rus mədəniyyəti və Tiflisdə yaşayıb işləyən mütərəqqi fikirli adamların rolunu da danmamalıyıq.

Ümumiyyətlə, Tiflis XIX əsrin ikinci yarısında bütün Zaqafqaziya və Qafqaz xalqlarının siyasi-ictimai həyatı ilə bağlı olan bir şəhər idi. O zaman Dağıstan və Qafqaz xalqlarının, o cümlədən azərbaycanlıların az-çox mədəni-maarif ocaqlarını idarə edən təşkilatlar da burada yerləşirdi. Odur ki, dövrün qabaqcıl fikirli ziyalıları burada yerləşən gimnaziyalarda, şəhər məktəblərində müəllimlik edərək qabaqcıl mədəniyyəti, dünyəvi elmləri yaymaqla məşğul idilər.

Bütün bunlar kiçik yaşlı Nərimanın dünyagörüşünün təşəkkülünə müsbət təsir göstərməyə bilməzdi.

Hələ ilk gənclik yaşlarında müəllimliyə xüsusi maraq göstərən Nərimanov 1882-ci ildə 12 yaşında ikən Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının nəzdində olan ibtidai məktəbə, 1885-ci ildə isə seminariyaya daxil olur. Seminariyanın Gürcüstan xalq maarifi muzeyində saxlanılan arxivində Nərimanovun tələbəlik illərinə aid maraqlı sənədlər vardır. O, sərt pansion şəraitində səylə çalışaraq, hələ tələbə ikən pedaqoji elmlərə böyük maraq göstərmiş, psixologiyanı öyrənmiş, Azərbaycan, rus və dünya ədəbiyyatı ilə yaxından tanış olmuş, bütün bu elmlər isə onun gələcək inkişafına böyük təsir göstərmişdir. Təkcə onu qeyd edək ki, seminariyanın rəhbərlərindən D.D.Semyonov, A.O.Çernyayevski və onun digər mütərəqqi görüşlü pedaqoqlarından çoxusu öz fəaliyyətlərində böyük rus pedaqoqu K.D.Uşinskinin təlim-tərbiyə prinsiplərini əsas tuturdular.

Nəhayət, klassik Azərbaycan və rus ədəbiyyatının nümayəndələrindən M.F.Axundov, A.S.Puşkin, N.V.Qoqol, M.Y.Lermontov, F.D.Dostoyevski, K.D.Uşinski, L.N.Tolstoy və başqalarının həyat və yaradıcılığı ilə tanış olması N.Nərimanovun fikri fəaliyyətinin inkişafına xüsusi təsir göstərmişdir.

Azərbaycan xalqının feodal-patriarxal vəziyyətdə yaşaması, digər qabaqcıl millətlərə nisbətən geridə qalması, ölkədə hökm sürən

savadsızlıq, nadanlıq, cəmiyyətdə möhkəm kök salmış dini xurafat və mövhumat gənc Nərimanı düşündürürdü.

N.Nərimanov 1890-cı ildə Qori seminariyasını bitirərək elə həmin il Tiflis quberniyası Borçalı qəzasının Qızıl Hacılı kənd məktəbində pedaqoji fəaliyyətə başlamışdır.

1875-ci ildə kənd əhalisinin vəsaiti ilə təsis edilən Qızıl Hacılı məktəbi bütün Borçalı qəzasında azərbaycanlılara dünyəvi təhsil verən yeganə müəssisə idi. Qızıl Hacılı kəndinin ümumi geriliyi, əhalinin avam hissəsinin elmə və məktəbə laqeyd münasibəti Nərimanovun hələ seminariyada ikən yazmağa başladığı "Nadanlıq" əsəri üçün çoxlu material vermişdi. O, Qızıl Hacılı kəndində müəllim işləyərkən "Nadanlıq" əsərini yazıb qurtarmışdı.

N.Nərimanov özünün coşğun fəaliyyəti, kənd əhalisinə olan qayğısı nəticəsində zəhmətkeşlərin dərin hörmətini qazanmışdı. Vaxtilə onun dərs dediyi həmin məktəbə sonralar Nərimanovun adı verilmişdir.

Qızıl Hacılı kənd məktəbində bir il müəllimlik edən Nərimanov 1891-ci ildə Bakı şəhərinə köçmüş və burada daha geniş miqyaslı ictimai-pedaqoji fəaliyyətə başlamışdı.

Bu zaman Qori seminariyası məzunlarının çoxu Bakıda xalq maarifi sahəsində çalışırdı. Onlar M.F.Axundov ənənələrini davam etdirərək, xalq arasında qabaqcıl elmi və mədəni fikri yayırdılar. Belə bir dövrdə Bakıya gələn N.Nərimanov yeni məktəb açmağa təşəbbüs göstərir. Lakin onun bu təşəbbüsü nəticə vermir və o, S.M. Qənizadənin köməyi ilə A.İ. Pobedonostsevin 6 sinifli progimnaziyasının hazırlıq sinfinin aşağı şöbəsinə müəllim qəbul edilir. Həmin məktəb xüsusi məktəb olduğundan orada işləyənlər dövlət qulluqçusu hesab edilmirdilər. Onlar dövlət məktəblərində çalışan müəllimlər üçün ayrılmış imtiyazlardan istifadə etmək hüququndan məhrum idilər. Maddi vəziyyətinin ağır keçməsinə baxmayaraq Nərimanov bu məktəbdə 5 il fəaliyyət göstərmiş, azərbaycanlı balalarının təhsilə cəlb edilməsinə, şagirdlərin sayının artmasına çalışmışdır.[1]

Bakı şəhər pedaqoji ictimaiyyətinin və əhalinin dərin hörmətini qazanan Nərimanov Bakı realnı məktəbinin direktoru tərəfindən 1896-

[1] Arxiv sənədlərində bu məktəbin müvəffəqiyyətinə aid bir sıra qeydlər vardır. Bakı qubernatoru 1893-cü ildə yazırdı ki, sinif otaqlarında yer olmadığından arzu edənlərin bir çoxu qəbul edilməmişdir. Başqa bir yerdə isə oxuyuruq: «Pobedonostsevin 6 sinifli klassik gimnaziya kurslu progimnaziyası həqiqətən diqqətəlayiqdir» və «əgər təhsil haqqı nisbətən azaldılarsa bu məktəbə daxil olanların sayı daha da artıq olardı». (SPBMDTA, f.K-na, oxu salonu, s. 1, iş № 6, v. 48 və 109 arx.).





cı ilin əvvəllərində məktəbə Azərbaycan dili müəllimi və sinif mürrəbbisinin köməkçisi vəzifəsinə dəvət edilmişdir.

Bakı şəhər dumasının qərarı ilə Pobedonostsevin göstərilən məktəbi əsasında 1896-cı il sentyabrın 1-də Bakı oğlan klassik gimnaziyası təşkil edildi və N.Nərimanov artıq dövlət qulluqçusu vəzifəsinə təsdiq edildiyindən həmin məktəbə ştat üzrə Azərbaycan dili müəllimi və sinif mürəbbisinə köməkçi vəzifəsinə qəbul olundu. O, həmin vəzifədə 1902-ci ilə qədər çalışmış, «özünün bacarığı, xeyirxahlığı və ümumiyyətlə ləyaqəti ilə fərqlənmişdir».[1]

N.Nərimanovun əməli pedaqoji fəaliyyəti həm də Bakı bazar günü məktəbi və axşam kursları ilə əlaqədardır. Keçən əsrin sonlarında Bakı şəhərində qabaqcıl müəllimlər tərəfindən müxtəlif tədris müəssisələri nəzdində bazar günü məktəbi və axşam kursları fəaliyyət göstərirdi.[2] Bakı bazar günü məktəbləri demokratik fikirli ziyalıların, maarifçilərin təsiri altında idi. Bazar günü məktəblərində və axşam kurslarında mütərəqqi ziyalılar — müəllimlər, həkimlər, yazıçılar pulsuz işləyir, yaşlı əhaliyə savad öyrədir, qabaqcıl ideyaları yayır, bu məktəb və kursların xeyrinə teatr tamaşaları göstərirdilər[3].

Onların içərisində Bakı klassik gimnaziyasının Azərbaycan dili müəllimi və sinif mürəbbisi köməkçisi, gələcəyin məşhur maarifçisi N.Nərimanov, görkəmli yazıçı Ə.Haqverdiyev və başqaları da var idi[4].

Bazar günü məktəbləri və axşam kurslarının genişlənməsi, orada qabaqcıl görüşlü ziyalıların mühazirələr oxuması hökumətin diqqətini cəlb edirdi. Rusiya xalq maarif naziri qraf Delyanov Qafqaz Təhsil Dairəsinə göndərdiyi xüsusi məktubunda bazar günü məktəblərini «etibarsız» şəxslərdən təmizləməyi, orada yalnız Daxili İşlər Nazirliyinin razılığı olan şəxslərin dərs deməsinə icazə verməyi tələb edirdi[5].

Hökumətin bu məktəbləri «sayıq-nəzarət altında saxlamaq» siyasəti yürütməsinə baxmayaraq N.Nərimanov və onun məslək

[1] *Bax:* Gürcüstan Respublikası MDTA, f. 422, s. 1, iş № 5693, v. 3.

[2] Bakı şəhərində ilk bazar günü məktəbi 1886-cı ildə Qara şəhərdəki iki sinifli məktəbin nəzdində, şəhərin mərkəzində isə1893-cü il oktyabrın 3-də açılmışdır. Bakı bazar günü məktəbi özünün müvəffəqiyyətləri ilə cəmi Rusiya bazar günü məktəbləri içərisində fərqlənmiş, 1896-cı ildə Nijni-Novqorodda açılmış Ümumi Rusiya sərgisinin ikinci dərəcəli diplomu ilə təltif edilmişdir. (*Bax:* SPBMDTA f. 1284, s. 223, iş № 110, v. 26; Краткий отчет о деятельности Бакинской мужской воскресной школы в 1895/1896 уч. год. Баку 1896, стр. 3).

[3] *Bax:* «Qafqaz Təhsil Dairəsinin sərəncamları» məcmuəsi, Tiflis, 1898, № 12, səh.1209—1210 (rusca).

[4] *Bax:* Gürcüstan Respublikası MDTA, f. 422, s. 1, iş № 7212, v. 22 və 50.

[5] Y e n ə o r a d a, iş № 5471, v. 1 və arx.

dostları yaşlı əhalini savadlandırır, əhali arasında sosial ictimai və pedaqoji fikirləri təbliğ edirdilər.

Bakıda müəllimlik edən N.Nərimanov digər qabaqcıl ziyalılarla bərabər, ictimai məsələlərin həllində də fəal iştirak etmiş, ilk milli kütləvi kitabxana-qiraətxananın təşkilatçılarından biri olmuş, Azərbaycan ziyalılarının qabaqcıl dəstəsinin, xüsusilə S.M.Qənizadə, H.Mahmudbəyov, Ə.Cəfərzadə və başqalarının yaxından iştirakı ilə 1894-cü ildə Bakıda ilk milli kütləvi kitabxana-qiraətxananın əsasını qoymuşdur. Kitabxana-qiraətxanada Nizami, Füzuli, Firdovsi, Vaqif, Zakir, S.Ə.Şirvani, M.F.Axundov və başqa şair və yazıçıların əsərləri, «Əkinçi», «Ziya», «Ziyayi-Qafqaziyyə», «Kəşkül» qəzetlərinin ələ keçən nüsxələri toplanmış, onlara kataloq düzəldilmişdi.

N.Nərimanov müxtəlif ölkələr və şəhərlərlə məktublaşır, nəşriyyat və redaksiyalardan xeyriyyə yolu ilə kömək istəyirdi. Məhz bunun nəticəsidir ki, kitabxana-qiraətxana Konstantinopoldan «Tərcümani-Həqiqət», «Məlumat», «Xəzineyi-Fünun», «Maarif» və «Əxbar», Qahirədən "Əl-Nil", Sofiyadan "Ettefaq", Təbrizdən "Nasire" və s. kimi qəzetlər, həmçinin Tiflisdə və Peterburqda nəşr olunan bir sıra qəzet və jurnallar alırdı. Alınan qəzet və jurnallar müxtəlif dildə olduğundan, kitabxana-qiraətxananın oxucularının milli tərkibi də müxtəlif idi. Buraya azərbaycanlılarla yanaşı, ruslar, ermənilər və gürcülər də cəlb olunmuşdu ki, bu da onun üstün cəhətlərindən idi.

"Nərimanov qiraətxanası" adlanan bu kitabxana xalq arasında maarifin yayılması işindəki səmərəli fəaliyyəti ilə az müddət ərzində şəhər zəhmətkeşləri və ziyalılarının böyük rəğbətini qazanır. Çox keçmədi bu qiraətxana-kitabxana təkcə Bakıda deyil, bütün Zaqafqaziyada məşhur oldu. Onun təşkilatçısı N.Nərimanovun adına Rusiyanın bir sıra şəhərlərindən və xaricdən təbrik teleqramları, məktublar gəlirdi. Zaqafqaziyanın müxtəlif yerlərindən buraya adamlar gələrək, iş qaydasını öyrənir, mütaliə edirdilər.

Azərbaycan xalqının savadlanması, mədəni tərəqqisi uğrunda N.Nərimanovun göstərdiyi bu təqdirəlayiq fəaliyyət Zaqafqaziyanın məşhur maarifçi və yazıçılarının nəzər-diqqətini özünə cəlb etmişdi. Bu dövrün tanınmış yazıçısı V.Papazyan (1866—1920) 1896-cı ildə Tiflisdə erməni dilində nəşr olunan "Murc" («Çəkic») adlı jurnalın 6-cı nömrəsində dərc etdirdiyi "Qafqaz türklərinin (azərbaycanlıların — *H.Ə.*) ədəbiyyatı haqqında bir-iki söz" adlı məqaləsində Nərimanovun





Bakıda təşkil etdiyi kitabxana-qiraətxana haqqında müfəssəl məlumat vermiş kitabxana-qiraətxana vasitəsi ilə xalqın maarifə, mədəniyyətə cəlb olunması işini təqdirəlayiq hal hesab edərək onu yüksək qiymətləndirmişdi.

V.Papazyan N.Nərimanovun fəaliyyətindən bəhs edərək yazırdı ki, o, hər şeydən əvvəl, bir kitabxana-qiraətxana açdı. Rusiyadan və bir sıra Şərq ölkələrindən müxtəlif qəzetlər almağa başladı. İlk qəzetlərin oxuculara verilməsilə N.Nərimanov özü məşğul olurdu. İlk vaxtlar ruhanilər, xüsusən çahil molla və seyidlər onun əleyhinə çıxdılar. Lakin bütün maneə və təzyiqlərə baxmayaraq, Nərimanov get-gedə öz işində yeni-yeni müvəffəqiyyətlər qazanırdı. Maraqlıdır ki, kitabxana-qiraətxana ilə get-gedə ruhanilər də maraqlanır, buraya gələn qəzetləri oxumaq üçün başqalarının vasitəsi ilə evlərinə gətirdirdilər.

N.Nərimanovun təşkil etdiyi kitabxana-qiraətxana işində diqqəti cəlb edən cəhətlərdən biri də buraya gələnlərin — oxucuların sayının digər şəhərlərdəki kitabxana-qiraətxanalara nisbətən xeyli çox olması idi. V.Papazyanın verdiyi məlumata görə 1896-cı ilin yanvar ayında qiraətxananın 642, mart ayında 633, aprel ayında 647 nəfər oxucusu olmuşdur. Bu rəqəmləri o dövrün ən yaxşı erməni qiraətxanaları ilə müqayisə edən V.Papazyan yazırdı: "Bu rəqəmlər bəlkə də bizim erməni qiraətxanalarının bir çoxunda yoxdur"[1].

O, dövrdə Azərbaycanda ana dilində heç bir mətbu orqan yox idi. «Tərcüman» o dövrün yeganə türk — Azərbaycan qəzeti idi. Xalqın oyanmasında və maariflənməsində mətbuatın böyük rolunu dərk edən Nərimanov bu sahədəki mövcud boşluğu doldurmaq üçün sonralar özü Bakıda ana dilində qəzet nəşr etmək istəmiş, lakin təşəbbüsü baş tutmamışdır.

Nərimanovun 1896-cı ildə məşhur müəllim və ədib Sultan Məcid Qənizadə ilə birlikdə ana dilində "Sovqat" adlı uşaq jurnalı nəşr etmək istəyi də həyata keçməmişdir. Lakin xalqın ictimai-milli şüurunun inkişafında mətbuatın rolunu aydın dərk edən Nərimanov 1899-cu ildə "Təzə xəbərlər" adlı həftəlik qəzet nəşr etmək fikrinə düşmüş və bunun üçün yenidən mətbuat işləri Baş idarəsinə və Qafqaz senzura komitəsinə müraciət etmişdir[2]. Qəzetin proqramında başqa bölmələrlə yanaşı, "Pedaqoji" bölmə də nəzərdə tutulurdu.

[1] "Murc" jurnalı, 1896, № 6, səh. 755 (ermənicə).
[2] SPBMDTA, f. 776, s. 13, iş № 135, v. 1—15.

Qafqaz senzura komitəsi müxtəlif bəhanələrlə Nərimanovun ərizəsini bu dəfə də rədd etdi. Onun müraciətinə verilən bu cavablar imperiyanın yerli xalqlara münasibətinin mahiyyətini çox gözəl bilən N.Nərimanovu öz əzmindən döndərə bilmirdi. Odur ki, o, 1900-cü ildə "Məktəb" adlı xüsusi pedaqoji jurnal nəşr etmək üçün yenidən Qafqaz senzura komitəsinə müraciət etdi.[1] Qafqazın mülki işlər üzrə baş dəftərxana rəisinin Qafqaz senzura komitəsinə göndərdiyi məktubda N.Nərimanovun həmin müraciəti haqqında belə yazılmışdı: "İmperator III Aleksandr adına Bakı kişi gimnaziyasının sinif mürəbbisi köməkçisi Nəriman Nərimanov mətbuat işləri üzrə Baş idarəyə müraciət edərək senzuranın qabaqcadan icazəsi ilə surəti verilmiş məramnamə əsasında özünün redaktəsi ilə Bakıda tatar (Azərbaycan — *H.Ə.*) dilində "Məktəb" adlı elmi-pedaqoji jurnal nəşr etməyə icazə verilməsini xahiş etmişdir".

Jurnalın proqramında aşağıdakı bölmələr nəzərdə tutulmuşdu:

1. Xalq məktəblərinə aid hökumət sərəncamları.
2. Pedaqoji xarakterli baş məqalələr.
3. Rus məktəbləri. -
4. Şəhər və kənd məktəbləri haqqında müxbir məktubları.
5. Elmi məlumatlar.
6. Məşhur rus pedaqoqlarının tərcümeyi-halı və pedaqoji fəaliyyətləri.
7. Rus dilində nəşr olunan pedaqoji jurnalların xülasəsi.
8. Elanlar.

Buradan göründüyü kimi, Nərimanov rus məktəblərinin təcrübəsinin, rus klassik pedaqoqlarının həyat və fəaliyyətinin öyrənilməsinə və müəllimlər arasında geniş yayılmasına ayrıca fikir verirdi. O, məktəb və mədrəsələrin köhnə tədris üsullarına qarşı mübarizə apararaq, Azərbaycan məktəblərinin qabaqcıl rus və dünya pedaqogikası yolu ilə getməsinə çalışır, rus klassik pedaqoqlarının pedaqoji ideyaları, Rusiyanın qabaqcıl təlim-tərbiyə sistemi ilə Azərbaycan müəllimlərini tanış etmək, pedaqogika elminin yeniliklərini yaymaq istəyirdi. Lakin Qafqaz senzura komitəsinin jurnalı nəşr etməyə icazə verməməsi üzündən Nərimanov bu arzusuna da çata bilmədi.

.Hökumət orqanları bütün bu səyləri süründürməçiliyə salaraq, gah belə qəzet və jurnalların məqsədəuyğun olmadığını, gah oxucu

[1] Yenə orada, iş № 28, v. 1—7.





tapmayacağını, gah da yaxşı mütəxəssis olmadığına görə jurnalın keyfiyyətsiz çıxacağını, habelə Bakıda Şərq dillərini bilən senzorun olmadığını bəhanə edərək, Nərimanova qəzet və jurnal nəşr etmək imkanı vermədi. Beləliklə, Nərimanovun qəzet və jurnal nəşr etmək üçün Qafqaz canişininin mətbuat işlərinə baxan Baş idarəsi və xüsusi şöbəsi, Qafqaz senzura komitəsi, Daxili İşlər Nazirliyi, Bakı qradonaçalniki ilə dəfələrlə yazışması nəticəsiz qaldı. Ruhdan düşməyən Nərimanov zəhmətkeş balalarına təlim-tərbiyə verməklə bərabər, Bakıda rus dilində çıxan "Kaspi" adlı qəzetə, Bağçasaray şəhərində çıxan "Tərcüman" qəzetinə, Hindistanın Kəlküttə şəhərində farsca nəşr olunan liberal "Həblül-mətin" jurnalına müxtəlif məsələlərə aid məqalələr göndərir, Hindistanın, Bolqarıstanın, Misirin mütərəqqi naşirləri və qəzet idarələri ilə əlaqə saxlayırdı. O, eyni zamanda tərcümə ilə də məşğul olur, qabaqcıl rus elm və ədəbiyyatını azərbaycanlılar arasında yayırdı.

Beləliklə, N.Nərimanov Bakıya gəldiyi ilk günlərdən xalq maarifi sahəsində böyük səy və həvəslə çalışmış, qızğın pedaqoji, ədəbi və ictimai fəaliyyət göstərmiş, o, bir-birinin ardınca "Dilin bəlası" və ya "Şamdan bəy"(1894), "Bahadır və Sona"(1896), "Nadir şah"(1899) kimi məşhur əsərlərini yazıb nəşr etdirmişdir.

N.Nərimanov bu illərdə bədii əsərlərlə yanaşı, bir sıra dərsliklər də tərtib etmişdir. Bu baxımdan onun 1899-cu ildə yazdığı "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhfi", "Türk dilini müəllimsiz öyrənməkdən ötrü ruslar üçün asan kitabça", "Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü asan kitabça" adlı əsərləri diqqəti cəlb edir. Bu kitablardan, xüsusilə "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" adlı dərslikdən uzun müddət Azərbaycan məktəblərində istifadə edilmişdir.

N.Nərimanovun pedaqoji fəaliyyətində nəzəri cəlb edən məsələlərdən biri onun dövrünün mütərəqqi pedaqoji tələblərini düzgün təyin edə bilməsidir. XIX əsrin sonunda Rusiyada olduğu kimi, Zaqafqaziya və Azərbaycanda da böyük bir mütərəqqi hərəkat mövcud idi. Bu hərəkat ədəbiyyat, mətbuat ilə bərabər əsasən məktəb və xalq maarifi sahəsində özünü daha çox göstərirdi. Geniş xalq kütləsi arasında maarif və mədəniyyəti yaymağı qarşısına məqsəd qoyan bu hərəkatın genişlənməsi çar məmurlarını ciddi vahiməyə salmışdı. Rusiya Daxili İşlər nazirliyi bütün quberniya və vilayətlərə məxfi məktublar göndərərək, bu hərəkatın məqsədinə,

onun başçılarına aid məlumat toplayırdı. Polis departamentinin məxfi məktublarından birində deyilirdi: "Polis departamentinə daxil olan məlumatlarda son zamanlar tatar (Azərbaycan — *H.Ə.*) ədəbiyyatında tamamilə yeni təsir göründüyü göstərilir və bu yeni təsir hər şeydən əvvəl, yeni məktəb ideyası, ana dili təlimi ilə əlaqədardır[1]". İrəvan və Bakı qubernatorlarının cavab məktublarında yenilik tərəfdarları siyahısında M.T.Sidqi, H.Zərdabi, S.M.Qənizadə, H.Mahmudbəyov ilə bərabər N.Nərimanovun da adı vardı[2].

Cavan vaxtından ömrünü Azərbaycan xalqının maariflənməsi, onun tərəqqisi uğrunda mübarizəyə həsr edən Nərimanovun səhhəti pozulmağa başlayır və həkimlərin məsləhəti ilə 1902-ci il yanvarın 1-də gimnaziyadan çıxır. Bununla da onun müəllimlik fəaliyyəti əsasən başa çatır. Lakin o, bilavasitə pedaqoji fəaliyyətlə məşğul olmasa da, mətbuatda dərc etdirdiyi silsilə məqalələrində və çoxlu çıxışlarında dövrünün bir sıra mühüm pedaqoji problemlərinin həllinə çalışmışdır.

N.Nərimanov orta təhsil haqqında sənəd almaq üçün imtahanlara hazırlaşır və 1902-ci ilin mayında müvəffəqiyyətlə imtahan verib attestat alır. Sonra təhsilini davam etdirmək üçün Odessa şəhərinə gedir və universitetin tibb fakültəsinə daxil olur. O, universitetdə oxumaqla yanaşı, inqilabi işlə məşğul olur, fəhlə və tələbə hərəkatının fəal rəhbərlərindən biri kimi məşhurlaşır. 1905-ci il inqilabı zamanı Nərimanov Odessada ilk inqilabi sınaqdan keçir və həmin ildə «Hümmət» partiyasına daxil olur.

Birinci rus inqilabı dövründə universitetdə oxuyan tələbələr inqilabi hərəkatda iştirak etdiklərinə görə çar hökuməti universiteti müvəqqəti olaraq bağlayır. Nərimanov Bakıya gəlir. Həmin illərdə Bakı və eləcə də bütün Azərbaycan 1905-ci il inqilabının təsiri ilə mədəni intibah dövrü keçirirdi. Bu zaman inqilabi fəhlə mətbuatı yaranır, məktəb şəbəkəsi genişlənir, xüsusən azərbaycanlı uşaqların oxuduqları «rus-tatar» məktəblərinin sayı sürətlə artır, Azərbaycan dilində yeni-yeni dərsliklər yaradılırdı.

N.Nərimanovun yaxından iştirak etdiyi «Nicat», «Nəşri-maarif» xeyriyyə cəmiyyətləri öz fəaliyyətlərini xeyli genişləndirmişdi. Bu dövrdə mətbuatda, ədəbi cəmiyyətlərdə tərəqqipərvər və demokratik qüvvələrlə mürtəcelər arasında ciddi mübarizə gedirdi. Həmin mübarizənin ön sırasında gedən N.Nərimanov bir müddət «İrşad»

[1] *Bax:* Gürcüstan Respublikası MDA. f. 12.s. 7, iş № 2457, v.2
[2] Y e n ə   o r a d a , iş № 2457, v.29.





qəzetinin redaksiyasında işləyir və qəzetin səhifələrində «Cümə söhbətləri», «Həyat» qəzetində isə «Həftə fəryadı» başlığı altında «Nəriman», «Nər.» və «N.» imzaları ilə silsilə məqalələr nəşr etdirir.

N.Nərimanov 1907-ci ildə təhsilini davam etdirmək üçün yenidən Odessa şəhərinə gedir. 1908-ci ildə isə Odessa universitetinin tibb fakültəsini bitirib, Bakıya qayıdır və şəhər xəstəxanasında həkim işləyir.

Bakıda yaşayıb işləmək, qabaqcıl fəhlələrlə bilavasitə görüşmək, Bakı proletariatının inqilabi hərəkatı ilə tanış olmaq, marksizm ədəbiyyatını öyrənmək — bütün bunlar N.Nərimanovun baxışlarının təşəkküllündə həlledici rol oynadı, onun həyat yolunu müəyyən etdi. Odur ki, hələ Odessada tələbə ikən inqilabi ideyalar ilə tanış olan N.Nərimanov, Bakıya qayıtdıqdan sonra geniş ictimai-siyasi və inqilabi fəaliyyətə başlayır. Ona görə də Nərimanovun fəaliyyəti çar hökuməti tərəfindən nəzarət altına alınır. Bunu hiss edən N.Nərimanov 1909-cu ilin fevral ayında Tiflis şəhərinə gedir və burada həkimliklə yanaşı inqilabi fəaliyyətini davam etdirir. Lakin bununla hökumətin təqib və nəzarətindən yayına bilmir və 1909-cu il martın 1-də polis onu həbs edir.

Tiflis quberniya jandarm idarəsi daxili işlər nazirinə göndərdiyi məktubunda xahiş etmişdi ki, *«həkim Nərimanov yalnız ölkədə yaşayan İran təbəələrinə deyil, həmçinin rus təbəəsi olan iranlılara da son dərəcə zərərli təsir göstərdiyinə görə... beş il müddətinə Sibirin uzaq yerlərindən birinə sürgün edilsin...»*[1] Ancaq Tiflisdə həbsə alınan N.Nərimanov 7 ay Metex qalasında saxlanıldıqdan sonra 1909-cu ilin oktyabr ayında 2 il müddətinə Qafqazdan xaricə, Həştərxana sürgün edilir. N.Nərimanov siyasi məhbus kimi sürgün edilməsinə baxmayaraq yerli əhali onu rəğbətlə qarşılamışdır. Nərimanovun Həştərxana gəlməsindən 5 gün sonra, oktyabrın 11-də yerli «Bürhani-tərəqqi» qəzetinin 98-ci nömrəsində dərc edilmiş «Doktor Nəriman bəy» adlı bir məqalədə deyilirdi:

*«Əziz cənab Nəriman! Siz heç bir vaxt fikirləşməyin ki, qürbətdə və ixtiyarsızsınız. Yox, savadlı adam üçün qürbət yer yoxdur. Onun üçün hər yer vətəndir. Siz xalq üçün hər yerdə eyni ilə qiymətləndirilən ən dəyərli cavahirsiniz. Bu qiymətli cavahirlər vətəndə o qədər qiymətləndirilmir, nə qədər ki, başqa yerdə. İndi Həştərxan sakinləri*

[1] Gürcüstan Respublikası MDA, f.13 (m), s 27, iş № 5137, v.20

*Sizin gəlişinizə gərək sevinsinlər. Siz onlara böyük xeyir verəcəksiniz».*[1]

Məqalənin müəllifi fikrin bu sözlərlə bitirir: «Yaşasın belə hörmətli şəxsiyyətlər! Məhv olsun ictimai xadimlərə quyu qazanlar!».

N.Nərimanov sürgündə olmasına baxmayaraq, ictimai-siyasi işlərdə yaxından iştirak etmiş, xalq arasında maarif və mədəniyyətin həmçinin hifz — səhiyyə və ümumiyyətlə tibbi biliklərin yayılmasına çalışmışdır. O, Həştərxan xalq universiteti adlı cəmiyyətin işində fəal iştirak etmişdir. Beləliklə, Həştərxana gəldiyi gündən etibarən N.Nərimanov inqilabi, ictimai və pedaqoji fəaliyyətini genişləndirir; Həştərxanda sürgündə olan digər inqilabçılarla, əlaqəyə girir və çar üsuli-idarəsinə qarşı mübarizəni davam etdirir.

1905—1907-ci illərin birinci rus inqilabından sonrakı irtica dövründə xalq universitetləri xalq kütləsi içərisində mədəni-maarif işi aparan bir cəmiyyət idi. Rusiyanın digər yerlərində olduğu kimi, Həştərxan xalq universiteti cəmiyyətinin də məqsəd və vəzifəsi Həştərxan şəhərində və quberniyasında xalq üçün elm, maarif müəssisələri təsis etməkdən, xalq kütlələrinin maariflənməsinə kömək etməkdən ibarət idi.

Xalq universiteti cəmiyyətinin nizamnaməsində deyilirdi: «Həştərxan xalq universiteti öz vəzifələrini həyata keçirmək üçün müvafiq nizamnaməyə əsasən müntəzəm surətdə təhsil və ixtisas kursları, daimi və səyyar mühazirələr, ekskursiyalar təşkil edir, evlərdə müstəqil oxuyanlara kömək edir, əhalinin boş vaxtını səmərəli keçirməyə kömək edən xalq universiteti evləri, elmi-təhsil muzeyləri, sərgilər, laboratoriyalar və digər elmi-yardımçı müəssisələr təsis edir; kitabxana-qiraətxana, kitab mağazaları və buna bənzər müəssisələr açır... kitab, cədvəl, xəritə... və s. nəşr edir; Rusiyada və xaricdə maarifin vəziyyəti haqda məlumatlar toplayır, müraciət edən ayrı-ayrı şəxslərə və müəssisələrə özünün səlahiyyəti dairəsindəköməklik edir».[2]

1905-ci il burjua-demokratik inqilabından sonra Həştərxan müsəlman ziyalıları iki qrupa bölünmüş və hər qrup özünəməxsus cəmiyyət yaratmışdı. Bu cəmiyyətlərdən biri ruhaniləri və fanatik

[1] «Bürhani-tərəqqi» qəzeti, 11 oktyabr 1909-cu il, № 98. Dərin siyasi xarakter daşıyan bu məqaləni çap etdiyinə görə qubernator qəzetin nəşrini dərhal dayandırmışdır. Eyni zamanda qəzetin naşiri və müəllifi Mustafa İsmayılov 200 manat cərimə edilmişdir. (Bax: Həştərxan vilayət dövlət arxivi. F. 286, s.1, iş 518).

[2] *Bax:* Həştərxan vilayət dövlət arxivi, «Ustav Astraxanskoqo Obhestva Narodnıx Universitetov». inv. № 23627. v.3.





burjuaziyanı əhatə edən «Cəmiyyəti-İslamiyyə», o biri isə 1905-ci il inqilabının nəticələri ilə kifayətlənməyən ziyalıları əhatə edən «Şurayi-İslam» cəmiyyəti idi. Söz yox ki, N.Nərimanov «Şurayi-İslam»ın tərkibində fəaliyyət göstərir. «Şurayi-İslam» cəmiyyəti 1905-ci il 17 oktyabr manifesti əsasında təsis edilmişdi.

Cəmiyyətin məqsədi xalq arasında mədəni-kütləvi işlər aparmaqdan, «kitabxana-qiraətxana, mühazirə, söhbət, ədəbi gecələr, tətbiqi elmlər kursu, məktəblər təşkil etmək və pedaqoji xarakterli jurnallar nəşr etməkdən ibarət idi».[1] Sürgündə olan N.Nərimanov yerli şəraitdən məharətlə istifadə edərək, «Şurayi-İslam» cəmiyyəti ətrafında toplanan müsəlman gənclərinin ideya-siyasi və demokratik fikri inkişafında xüsusi rol oynayır. Beləliklə də Həştərxan müsəlman ziyalılarının şüurlu dəstəsini mütləqiyyətə qarşı mübarizəyə hazırlayırdı. Eyni zamanda «Şurayi-İslam» cəmiyyəti vasitəsi ilə xalq maarifi işinin tərəqqisinə, xalqın savadlanmasına çalışırdı.

Nərimanov sürgündə olarkən yerli «Bürhani-tərəqqi», «Astraxanski listok», «Astraxanski kray», «Astraxanski vestnik», «Prikaspiyski kray» adlı qəzetlərdə, «Semeynoe vospitanie» adlı jurnalda təlim-tərbiyə, xalq maarifi və məktəb məsələlərinə dair çoxlu məqalələrlə çıxış etmiş, 1911-ci ilin fevral ayından «Prikaspiyski kray» qəzetində müsəlman şöbəsinə rəhbərlik etmişdir. O, 5 illik sürgün həyatından sonra, 1913-cü ildə hökumətin rəsmi icazəsi ilə Bakıya qayıdır. Nərimanov Bakıya yola düşərkən Həştərxan şəhərinin zəhmətkeşləri ona üzərində:

«Əziz həkimimiz, fədakar ictimai xadimimiz Nəriman Nərimanova minnətdarlıq əlaməti olaraq. Həştərxan şəhəri müsəlmanları. 14/VII—1913-cü il» sözləri yazılmış qiymətli bir hədiyyə təqdim etmişdilər[2].

Bakıya gəldikdən sonra N.Nərimanov burada nəşr olunan «Bəsirət», «Açıq söz», «İqbal», «Yeni iqbal» qəzetlərində elmə, təhsilə və tərbiyəyə aid qiymətli məqalələr dərc etdirir və "Pir", "Bir kəndin sərgüzəşti" adlı bədii əsərlərini yazır. 1916-cı il dekabrın 13-də isə "Fikir" adlı məcmuə nəşr etməyə icazə almaq üçün Bakı şəhər rəisinə ərizə ilə müraciət edir. Lakin onun bu xahişi də nəticəsiz qalır.

[1] *Bax:* Ustav Obhestva Astraxanskix Musulğman (Medjlisi Şurai-İslam) Həştərxan vilayət dövlət arxivi inv 18815, səh 1

[2] Həmin hədiyyə hazırda Azərbaycan Respublikası EA Azərbaycan tarixi muzeyində saxlanılır

Nərimanov 1917-ci ildə Qara şəhərdəki xəstəxanadan çıxıb bütünlüklə inqilabi işlə məşğul olur. O, bolşevik "Hümmət" təşkilatının sədri, həmin təşkilatın eyni adda çıxan qəzetinin redaktoru olmuş və bolşeviklərlə birlikdə Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda mübarizə aparmışdır. Nəhayət, 1918-ci il aprelin 26-da Bakıda Xalq Komissarları Soveti təşkil olunduğu zaman Nərimanov da Xalq Komissarları Sovetinin tərkibinə daxil edilmiş və şəhər təsərrüfatı komissarı vəzifəsinə seçilmişdi.

1918-ci il iyun ayında Nərimanov ağır xəstələnir və Bakı kommunasının tapşırığı ilə müalicə üçün Həştərxana göndərilir.[1] Onun müalicəsi başa çatanda artıq Bakı kommunası devrilmişdi. Odur ki, Həştərxanda qalıb fəaliyyətini davam etdirir.

N.Nərimanovun Həştərxandakı fəaliyyətinin sonrakı dövrü (1918-ci ilin iyunundan 1919-cu ilin iyul ayına qədər) birinci dövrə nisbətən, az vaxt əhatə etsə də, onun maarifçilik fəaliyyətinin ən məhsuldar dövrüdür. N.Nərimanov bu illərdə Həştərxanda peşəkar inqilabçı, görkəmli dövlət və maarif xadimi kimi daha da məşhurlaşmış və mətinləşmişdir. Bu illərdə N.Nərimanov həmçinin (1918-ci ilin sentyabrından 1919-cu ilin fevralına qədər) Həştərxanda müsəlman işləri üzrə Ölkə Hərbi-Siyasi Komissarlığının səhiyyə şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərmişdir. Öz fəaliyyətində N.Nərimanov bir həkim kimi yoxsulların, məktəbli uşaqların müalicəsinə xüsusi fikir vermişdir. Həştərxan Ölkə Müsəlmanları Maarif Şöbəsinin şəhər və onun qəzalarının maarif şöbə müdirlərinə yazdığı bir məktubda deyilir: *«Xəstələnən kasıb uşaqların valideynlərinə elan olunsun ki, onlar həkim yardımı üçün səhər saat 9-dan 11-ə qədər Kanavada Yaqudinin evində (N.Nərimanovun yaşadığı evdir — H.Ə.) və saat 1-dən 2-yə qədər müsəlman hərbi xəstəxanasında həkim Nərimanova təcili müraciət etsinlər».*[2]

Burada N.Nərimanov həm də bir sıra siyasi mövzularda, məsələn, "Kommunizm", "Bizim həftəmiz" mövzularında mühazirələr oxuyur, əhali arasında ideya-siyasi və mədəni-kütləvi iş aparırdı. O, 1919-cu il fevral ayının əvvəllərində quberniya xalq maarif şöbəsinin müdiri təyin olunur və bu vəzifədə həmin il iyul ayının 2-nə qədər çalışır. Bu zaman vətəndaş müharibəsinin çətin günlərinə baxmayaraq

[1] *Bax*: "Hümmət" qəzeti, 10 iyun 1918-ci il, №86.
[2] Həştərxan vilayət dövlət arxivi F. 1362, s. 1, iş №18, v. 20.





N.Nərimanov xalq maarifi işinin yenidən qurulması və inkişafı üçün bir sıra ciddi tədbirlər görür.

Bu dövrdə xalq maarifi sahəsində qarşıda duran mühüm məsələ yeni tipli məktəblərin təşkili idi. Bu da çox mürəkkəb və çətin idi. Köhnə məktəblərdən fərqli olaraq, yeni tipli məktəblərin qarşısında duran ən mühüm vəzifə gənc nəsli yeni həyata, əməyə hazırlamaq, onları elmlərin əsasları ilə silahlandırmaq və nəcib ruhda tərbiyələndirmək idi.

Yeni tipli məktəblərin yaradılması bir sıra şərtlərdən, o cümlədən pedaqoji kadrlardan çox asılı idi. Bu dövrdə məktəblərdə müəllim çatışmırdı. Köhnə müəllimlərin bir hissəsi müharibəyə səfərbər edilmiş, bir hissəsi isə yeni məktəblər üçün tam hazırlıqlı deyildi.

N.Nərimanovun sədrliyi ilə keçirilən quberniya xalq maarif şöbəsi kollegiyasının bir sıra iclaslarında Həştərxan şəhərində qısamüddətli pedaqoji kursların təşkili haqqında məsələ müzakirə edilir. Həştərxan Quberniya Xalq Maarif şöbəsinin məsul işçisi V.Poroxun müəllim kadrları hazırlığının vəziyyəti haqqında QXMŞ-nin kollegiyasına yazdığı hesabatda deyilir: "Qısamüddətli ilk pedaqoji kurslar aprel ayının 28-də açılmışdır. Kurslarda məşğələlərin gedişi prosesində qarşıya bir sıra çətinliklər çıxırdı: məsələn, məktəb binası və yataqxananın çatışmaması; emalatxanaların və burada istifadə ediləcək alətlərin azlığı, tədris vəsaiti, kitabların olmaması və s. Lakin bizim möhkəm ideya və inamımız bizi bu çətinliklərdən qurtardı. İşin gedişi göstərdi ki, sovet orqanları və onun möhkəm idarəli rəhbərləri üçün qarşısı alınmaz heç bir çətinlik yoxdur".[1]

Doğrudan da N.Nərimanovun rəhbərlik etdiyi QXMŞ bu işin öhdəsindən lazımınca gəlmiş və qısa müddətdə quberniya xalq maarifinin müxtəlif sahələrində çalışan yüzlərlə müəllim kadrları hazırlanmışdır.

Bu kurslarda pedaqoji ideyalar tarixi, əmək məktəbinin əsas prinsipi, psixologiya, sosializm tarixi, əl əməyi, gil işi, uşaq oyunu və fənlərin metodikası tədris edilirdi. Tədris prosesində ölkənin öyrənilməsinə, onun təbiətinə, məişətinə və sənayesinə də fikir verilir, elmi xarakter daşıyan bir sıra ekskursiyalar da təşkil edilirdi. Müəllimlər kursunda kənd təsərrüfatına aid əməyin müxtəlif növləri ilə dinləyiciləri tanış etmək məsələsi də mühüm yer tuturdu.

[1] Həştərxan vilayət dövlət arxivi, f. I, s. 4, iş №2, v. 92.

Beləliklə, N.Nərimanov bu dövrdə bir sıra çətinliklərə baxmayaraq, qısamüddətli (ikiaylıq, üçaylıq, birillik) müəllimlər kursu təşkil edir və burada hazırlanan müəllim kadrlarının vasitəsi ilə quberniya daxilində xalq maarifi işinin yenidən bərpa edilməsinə çalışırdı.

Professor K.Qubaydullin sovet hakimiyyətinin ilk günlərində Həştərxanda xalq maarifinin yenidən qurulması işində N.Nərimanovun böyük xidmətlərindən danışaraq yazmışdır: "Yoldaş Nərimanov köhnə sxolastik məktəbin elmi əsasda yenidən təşkilində böyük rol oynamışdır, zira bu məsələ o dövrdə ən mübariz məsələ idi".[1]

N.Nərimanovun pedaqoji fəaliyyətində diqqəti cəlb edən məsələlərdən biri də uşaqların yurdsuz qalmasına qarşı mübarizə idi. Vətəndaş müharibəsinin ağır illərində cəbhədə həlak olanların uşaqları evsiz-eşiksiz qalmışdı. Sovet hökuməti həmin uşaqların yurdsuz qalmasını aradan qaldırmaq üçün bir sıra ciddi tədbirlər görürdü. Həmin tədbirlərdən biri də uşaq koloniyaları təşkil etməkdən ibarət idi. Uşaq koloniyalarının təşkili məsələsində mühüm rol oynayan N.Nərimanovun xüsusi göstərişi ilə 1919-cu ildə Həştərxan şəhərində 692 uşağı əhatə edən iki koloniya və 800 uşağı əhatə edən iki kommuna yaradılmışdı.

N.Nərimanovun ictimai və pedaqoji fəaliyyəti, onun xalq maarifi uğrunda mübarizəsi həştərxanlılar tərəfindən yüksək qiymətləndirilmişdi.

Həştərxanın pedaqoji ictimaiyyəti və bir qrup qabaqcıl adamları N.Nərimanovun ədəbi, ictimai və siyasi fəaliyyətinin otuz illik yubileyi münasibəti ilə ona göndərdikləri təbrik teleqramında yazmışdılar: "Sizin şagirdləriniz olan biz Həştərxan türk (azərbaycanlı — *H.Ə.*) — tatar işçiləri, otuz illik yubileyiniz günündə, sizin Həştərxandakı sürgün illərində keçən və 1917-ci il proletar inqilabının qələbəsindən sonra davam edən ictimai-siyasi və ədəbi-maarifçilik fəaliyyətinizi qeyd edirik. Siz öz işinizdə bütün çətinlik və maneələrə baxmayaraq, bir mübariz insan və rəhbər kimi qırmızı bayrağı əllərinizdə möhkəm tutub, vüqarla və cəsarətlə gedirsiniz.

Sizin, bir xalq müəllimi, pedaqoq və ictimaiyyətçi kimi səmərəli işinizin canlı şahidi olan biz, görürük ki, türk-tatar kəndli və fəhlə

---

[1] K.Q u b a y d u l l i n."Tov. Narimanov v Astraxani", bax: Jurnal "İzvestiə Astraxanskoqo Qubkoma RKP(B)". 1925. №2. (14). s.2.





sinfinin maariflənməsi üçün Siz nə qədər çoxlu işlər görmüsünüz, bunlar bizim gözümüzün önündə canlanır".[1]

N.Nərimanov xırda millətlərin, o cümlədən qazax, qırğız, tatar xalqlarının tərəqqisi üçün də xeyli iş görmüşdür. O, 1919-cu ildə Urda şəhərində çağırılmış Qırğızıstan vilayətinin III qurultayının işində RK(b)P Həştərxan komitəsinin nümayəndəsi sifəti ilə fəal iştirak edərək qurultayın işində xalq maarifi məsələlərinin diqqət mərkəzinə çəkilməsinə çalışmışdır. Nərimanov sonralar yazırdı ki: «Qurultay zamanı xüsusi mühazirə oxumağa vaxt olmadığına görə, mən hər halda tənəffüslərdən istifadə edərək xalq maarifinə, kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasına dair də rus-tatar, qırğız və rus dillərində mühazirə oxumağa vaxt tapdım».[2]

Qurultaydan sonra Urda şəhərinin rayon partiya komitəsi Həştərxan Quberniya Partiya Komitəsinə yazmışdı: «May ayının 27-dən iyunun 6-dək Urda şəhərində qırğızların üçüncü qurultayında iştirak edən yoldaş Nəriman Nərimanov həm təşkilat, həm də təşviqat işində zəhmətkeş qırğızların böyük rəğbətini qazanmışdır.

Qırğız çöllərinin rayon partiya komitəsi, Qırğız çöllərinə diqqət verdiyinə görə Quberniya Partiya Komitəsinə yoldaşlıq təşəkkürü edir və ümid edir ki, Quberniya Partiya Komitəsi gələcəkdə də Nərimanov kimi yoldaşları göndərəcəkdir».[3]

Beləliklə, Həştərxan vilayətində yaşayan müsəlman, tatar və qırğızların maarif və məktəbinin inkişafı Nərimanovun adı ilə əlaqədardır.

N.Nərimanovun həyat və fəaliyyətinin Həştərxan dövründən bəhs edən K.Qubaydullin 1925-ci ildə onun vəfatı münasibəti ilə «N.Nərimanov yoldaş Həştərxanda» adlı məqaləsində yazmışdır: «Hazırda Həştərxanda və bir sıra başqa quberniyalarda işləyən tatar, qırğız millətindən olan fəal kommunistlər, dərin zəka sahibi, Şərq xalqlarının rəhbəri, köhnə bolşevik yoldaş Nərimanovun şagirdləri və yetişdirmələridir. Biz tatar-qırğız kommunistləri, bunu heç bir zaman unutmayacağıq və kommunizm bayrağı bütün yer üzərində

---

[1] Azərbaycan Respublikası. EA Azərbaycan tarixi muzeyi, sovet dövrü fondu. İNV 428.
[2] N.N ə r i m a n o v. Qırğızıstan vilayət qurultayı haqqında. «Kommunist» qəzeti (Həştərxan). 6 iyul 1919-cu il, № 146.
[3] Gürcüstan KP MK Partiya Tarixi İnstitutunun arxivi. N.Nərimanovun fondu, iş № 20, vərəq 23.

dalğalanacağı vaxtadək öz böyük müəllimlərimizin yolunu davam etdirəcəyik.[1]

N.Nərimanov bu illərdə Həştərxanda işləməsinə baxmayaraq, Azərbaycanla da fəal əlaqə saxlayır, buradakı siyasi-ictimai hadisələri izləyir, inqilabi hərəkata istiqamət verirdi.

1920-ci il mayın 17-də Bakı zəhmətkeşlərinin mitinqində çıxış edən Nərimanov bu məsələdən danışarkən demişdir: *«Bu iki ilin müddətində[2] Rusiyada olarkən biz kommunistlərin tamam fikri Azərbaycanda olub, hər an onun qeydini çəkməkdə idik. Bizim cismimiz Rusiyada idisə də, ruhumuz Azərbaycanda idi».*[3]

N.Nərimanov Həştərxandan yazdığı «Zaqafqaziya komissarlığının sosialistlərinə açıq məktub», «Zaqafqaziyaya biz nə kimi şüarlarla gedirik», «Dağıstanın ruhani mürşidi Hotsalı Şeyxhacı Nəcməddin əfəndiyə məktub», «Möhtərəm Nəsibbəy Yusifbəyov cənablarına» adlı və digər böyük siyasi və ictimai əhəmiyyətə malik olan məqalə və məktublarında Bakı və Zaqafqaziyadakı vəziyyəti təhlil edir və ona münasibət bildirirdi.

N.Nərimanov Həştərxan Quberniya İcraiyyə Komitəsinin 1919-cu il 2 iyul tarixli iclasının qərarı ilə (protokol № 29) xalq maarifi məsələləri ilə əlaqədar olaraq Qırğız Çöllərinə və oradan da Moskvaya — RSFSR Xalq Maarif Komissarlığına və digər idarələrə ezam olunur.[4]

Moskvada ezamiyyətdə olan Nərimanov bir daha Həştərxana qayıtmır. O, Moskvanın tapşırığı ilə orada qalır və mərkəzdə işləməyə başlayır.

Nərimanov Moskvada əvvəlcə Xarici İşlər Komissarlığında Şərq şöbəsinin müdiri, sonra isə Xalq Millətlər Komissarının müavini vəzifələrində işləmişdir.

Bu vaxt RK(b)P MK Qafqaz bürosunun üzvü olan Nərimanov 1920-ci il aprelin 5-də Millətlər Komissarlığı tərəfindən Zaqafqaziya müsəlman işlərinə baxan şöbənin fəaliyyətini qüvvətləndirmək üçün Zaqafqaziyaya göndərilir. Lakin o, yolda ikən təcili olaraq Bakıya getmək əmri alır.

---

[1] К.Г у б а й д у л л и н. «Тов Нариманов в Астрахани», «Журнал Известия Астраханского Губкома РКП(б)». 1925, № 2 (14), стр 4

[2] 1918-ci ilin avqustundan 1920-ci ilin aprelinədək olan müddət nəzərdə tutulur. _H.Ə.

[3] Azərbaycan Sosialist Şura Cümhuriyyəti Müvəqqəti İnqilab Komitəsinin «Əxbarı», 21 may 1920-ci il, № 2.

[4] Həştərxan vilayət dövlət arxivi, f. 1, s 4, iş № 2, v, 31.





N.Nərimanov Moskvadan yola düşməzdən əvvəl V.İ.Leninin qəbulunda olmuş, Azərbaycanın gələcəyi haqqında ona ətraflı məlumat vermişdir. V.İ.Lenin Nərimanovun məlumatında göstərilən mülahizələri dinlədikdən sonra ona öz razılığını bildirmişdir.[1]

N.Nərimanov hələ Moskvada ikən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi müsavat hakimiyyətinə qarşı zəhmətkeşlərin silahlı üsyanına rəhbərlik etmək üçün onun başçılığı ilə Müvəqqəti Hərbi İnqilab Komitəsi yaratmışdı.*

May ayının 16-da Bakıya gələn N.Nərimanov zəhmətkeşlər tərəfindən böyük təntənə ilə qarşılanmış və yerli qəzetlər bu münasibətlə iri hərflərlə «Xoş gəlmisən» başlığı ilə məqalələr dərc etdirmişdi.

N.Nərimanov 1920-ci il sentyabrın 30-dan oktyabrın 12-nə qədər respublikamızın Ucar, Göyçay, Şuşa, Qazax, Tovuz, Salyan və digər şəhər və rayonlarını gəzərək, fəhlə sinfi ilə kəndlilərin möhkəm əlaqə yaratmaq yollarını, xalq maarifi sahəsində qarşıda duran vəzifələri izah etmişdir. S.Ağamalı oğlu bu barədə yazırdı: «Respublika daxilində etdiyi səfərində N.Nərimanov yoldaşı müşaiyət etdiyim vaxt, Azərbaycanın zəhmətkeşləri arasında onun nə qədər böyük nüfuza və təsirə malik olduğunu öz gözlərimlə görüb inandım. Hər yerdə N.Nərimanov yoldaşı bütün xalq səmimi, təntənə ilə qarşılayırdı. Görüş yerlərində tezliklə böyük mitinqlər təşkil edilirdi. Bütün bu mitinqlərdə və yığıncaqlarda Nərimanov xalqa yaxın və tanış dil tapmağı, qarşıya qoyulmuş məsələləri həll etməyi bacarırdı. Yeni quruluşun möhkəmləndirilməsi üçün bu səfərin o zaman şübhəsiz ki, böyük əhəmiyyəti olmuşdur».[2]

Bu səfər, məruzə və çıxışlarında N.Nərimanov hələ bolşeviklər partiyasının proqram və nizamnaməsinə, xalqa verdiyi şirin vədlərə qəlbən inanırdı. O, xalqımızın işıqlı gələcəyini sosializmin proqram və vədlərində gördüyü üçündür ki, dərin inam və vətəndaşlıq eşqi ilə xalqı səadət naminə sosializmə səsləyirdi.

Bu inamı möhkəmləndirən başlıca cəhətlərindən biri sovet hakimiyyətinin ilk illərində zəhmətkeşlərin vəziyyətlərinin

---

[1] *Bax*: N.N ə r i m a n o v. V.İ.Lenin haqqında. Azərnəşr. 1957. səh 9--10.

* Əlbəttə, N Nərimanovun adı bu işdə bolşevik imperiyasının öz qanlı niyyətlərini Azərbaycanda həyata keçirmək üçün bir vasitə, bir örtük idi. — Red.

[2] S.Ağamalı oğlu. Yol. N.Nərimanov haqqında xatirələrim. Bax: N.Nərimanov. Seçilmiş əsərləri, cild I, M. I 1926-cı il, səh 14–15 (rusca).

yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi ilkin tədbirlərin ardıcıl və davamlı olacağı qənaəti idi. Təsadüfi deyil ki, Azərbaycanda sovet hakimiyyətinin qalib gəldiyi ilk gündən etibarən gənc respublikanın siyasi və iqtisadi cəhətdən möhkəmləndirilməsi ilə yanaşı, burada xalq maarifini inkişaf etdirmək və mədəni quruculuq işlərini genişləndirmək üçün də bir sıra mühüm tədbirlər görülməyə başlandı. Məsələn, Azərbaycan Sovet Sosialist Respublikasının fəhlə-kəndli hökuməti 1920-ci ilin mayında Sovet hakimiyyətinin xalq maarifi sahəsindəki əsas prinsiplərini elan etdi. Köhnə orta və ibtidai məktəbləri politexnik məktəblərlə əvəz etmək haqqında, vicdan azadlığı haqqında və s. dekretlər verildi. Azərbaycan Sovet Sosialist Respublikasında vahid əmək məktəblərinin əsasnaməsi qəbul olundu.

Azərbaycan İnqilab Komitəsinin sədri və respublika hökumətinin başçısı olmaq etibarilə N.Nərimanov mədəni quruculuq sahəsindəki tədbirlərin hazırlanmasına bilavasitə rəhbərlik edirdi. 1920-ci il sentyabr ayının 19-da Bakı şəhərində maarif və sosialist mədəniyyəti işçilərinin Birinci Ümumazərbaycan qurultayında cari siyasətə dair məruzə ilə çıxış edən N.Nərimanov xalq maarifi sahəsində partiyanın siyasətini izah edərək, göstərirdi ki, sosializm quruculuğu vəzifələri xalq maarifi və təhsil sisteminin yenidən qurulmasını tələb edir. «Köhnə quruluşun məhv edilməsi ilə məktəb də yeniləşməli, tədris və tərbiyə üsulları da yeni olmalıdır».[1] O, müəllimləri, Sovet Rusiyasının üç illik təcrübəsinə istinad edərək bu işdə ciddi-cəhdlə çalışmağa çağırırdı.

N.Nərimanov xalqın maarif və mədəniyyətə yiyələnməsinin sosializm quruculuğu üçün birinci dərəcəli əhəmiyyəti olduğunu dönə-dönə xatırladır və ziyalılara müraciətlə deyirdi: «Bu gün hər bir ziyalının borcudur ki, bir an fürsəti əldən verməyib adamlar hazırlasın, azərbaycanca savadlılar yetişdirsin».[2]

N.Nərimanovun Azərbaycan müəllimlərinin qarşısında qoyduğu başlıca vəzifələrdən biri vahid əmək məktəblərinin yaradılması idi. O, vahid əmək məktəbini ölkədə bütün fərdlərin qabiliyyətinin süzgəci, bilik kəsb etməyin, eyni zamanda həyatın sirlərini dərk etməyin, ən doğru və ən qısa yolu, əməyə məhəbbət hissinin mənbəyi

[1] «Kommunist» qəzeti (rusca), 27 sentyabr 1920-ci il, № 122.
[2] «Kommunist» qəzeti 6 mart. 1921-ci il № 27.





hesab edirdi. O deyirdi: bu bizim üçün başlıca məsələdir, çünki biz yer üzərində əmək hökmranlığını yaratmaq istəyirik.

N.Nərimanov köhnə məktəblərdə tərbiyə alan müəllim kadrlarının yeni həyat quruculuğuna cəlb edilməsi məsələsini də xüsusi vəzifə kimi irəli sürürdü. Bu istiqamətdə göstərdiyi qızğın, ardıcıl, məqsədyönlü fəaliyyətin nəticəsidir ki, Azərbaycanda xalq maarifinin yenidən qurulması, məktəblərin yenidən təşkili, yeni üsulla dərs keçilməsi və tərbiyə işinin yaxşılaşdırılmasında Nərimanov böyük rol oynamışdır. Müəllim kurslarının təşkili, ali pedaqoji institutun açılması, yeni milli pedaqoji kadrların yaradılması və s. kimi tədbirlərin həyata keçirilməsi N.Nərimanovun adı ilə bağlıdır. N.Nərimanovu yaxından tanıyan və Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində mədəni quruculuq sahəsində onunla birlikdə işləyən yazıçı Pyotr Sibirtsev, 1925-ci ildə özünün xatirələrində yazmışdır:

«O, (N.Nərimanov. — *H.Ə.*) zəhmətkeşlərin maariflənməsinə böyük əhəmiyyət verərək Azərbaycandakı bütün mədəni təşəbbüsləri sevinclə qarşılayırdı. Maddi cəhətdən Azərbaycanın ən çətin günlərində respublikanın bütün mədəniyyət ocaqları — uşaq evləri, məktəblər, rus və müsəlman teatrları həmişə Nərimanov yoldaşın diqqət mərkəzində olmuşdur».[1]

N.Nərimanov 1920-ci il sentyabrın 12-də Şərq xalqlarının Bakıda keçirilən birinci qurultayının çağırılmasının fəal təşəbbüsçüsü və təşkilatçısı olmaqla bərabər, Bakıda birinci türkoloji qurultayın çağırılmasında da böyük rol oynamışdır. Azərbaycan dili üçün münasib olmayan ərəb əlifbasından latın sistemli əlifbaya keçmək məsələsi ilə N.Nərimanov hələ 1922-ci ildən məşğul olmağa başlamışdı.[2]

N.Nərimanov 1922-ci ilin mart-may aylarında Sovet hökumətinin xaricə gedən ilk diplomatik nümayəndə heyətinin tərkibində İtaliyanın Genuya şəhərində keçirilən beynəlxalq konfransda iştirak etmiş[3] və hələ Genuyada ikən Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR nümayəndələrinin 1922-ci il martın 12-də çağırılan Səlahiyyətli konfransında Zaqafqaziya federasiyası İttifaq Sovetinin sədrlərindən biri təsdiq edilmişdir. Bir qədər sonra, 1922-ci il dekabrın 30-da birinci Sovetlər qurultayında Sovet Sosialist Respublikaları

[1] «İskusstvo trudəşixsə» jurnalı. 1925. № 18. səh 3
[2] *Bax*: Azərbaycanda Sovet quruculuğunun yekunları. «Sovet Qafqazı» jurnalı, oktyabr. 1921-ci il. № 1
[3] *Bax*:«Bakinskiy raboçiy» qəzeti, 1 və 3 iyun 1922-ci il. № 120-122.

İttifaqı təşkil edildiyi zaman isə N.Nərimanov SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri seçilmiş və ömrünün sonunadək bu vəzifədə işləmişdir.

N.Nərimanov SSRİ MİK-in sədri vəzifəsində işlərkən yaradıcılıq işi ilə də məşğul olmuş, bir sıra əsərlər yazmışdır. Buraya «Lenin və Şərq», «Bir il Leninsiz» adlı əsərlər də daxil idi.

Lakin ömrünün son illəri N.Nərimanovun bolşeviklər partiyasının sosializm haqqında yaratdığı ideya-siyasi illuziyaların mahiyyətini, sovet gerçəkliyinin iç üzünü görməsi dövrü hesab edilməlidir. N.Nərimanov gözləri qarşısında canlanan siyasi və əxlaqi riyakarlıqla dolu qəddarlıq və amansızlıq mənzərəsindən dəhşətə gələrək, ömrünün qalan hisəsini bu eybəcərliklərin ifşasına həsr etdi. Məşhur «Oğluma məktublar»ı, «Stalinə müraciət»i, «Leninə məktub»u və s. qələmə aldı. Bütün bu çırpıntılarda öz gücsüzlüyünü və köməksizliyini görsə də, geri çəkilmədi. Maraqlıdır ki, N.Nərimanovun sovet rejiminə qarşı yönələn nalə və nifrətlərinin tüğyan etdiyi günlərdə 1925-ci il fevralın 15-də SSRİ MİK yanında Ümumittifaq Şərqşünaslıq Cəmiyyəti onun ictimai-inqilabi və ədəbi fəaliyyətinin 30 illik yubileyini təntənə ilə qeyd etdi... Həmin il mart ayının 19-da isə Moskva vaxtı ilə axşam saat 8-də SSRİ MİK sədri N.Nərimanov müəmmalı şəkildə vəfat etdi və Qızıl Meydanda, Kreml divarları yanında dəfn edildi. N.Nərimanovun ideya-siyasi və şəxsi aldanışları, faciəli taleyi özündə Azərbaycanı irəlidə gözləyən faciələri, repressiyaları əks etdirməsi ilə də ibrətamizdir.

## Müəllim və müəllim kadrları hazırlanması problemi

N.Nərimanovun pedaqoji fikirlərində müəllim, onun şəxsiyyəti, müəllim kadrlarının hazırlanması məsələləri mühüm yer tutur. Məktəblərdə təlim-tərbiyə işlərinin müvəffəqiyyətlə həyata keçirilməsində müəllimin roluna aid bir sıra qiymətli fikirlər söyləyən N.Nərimanov xalq arasında savadın yayılmasında, xalqın ümumi tərəqqisində müəllimin rolunu yüksək qiymətləndirirdi. O, müəllim sözünü geniş mənada başa düşür, müəllimin xalq kütlələri arasında apardığı işə, onun ictimai fəaliyyətinə böyük əhəmiyyət verirdi. Elə «Nadanlıq» adlı əsərində Nərimanovun yaratdığı Məhəmməd ağa da XIX əsrin sonlarında kənd məktəblərində çalışan xalq müəllimi





obrazıdır. Məhəmməd ağa kənddə zəhmətkeş balalarını məktəbə cəlb etmək üçün var qüvvəsi ilə çalışır, elm və təhsilin əhəmiyyətini xalqa başa salır, təbliğ edirdi.

N.Nərimanovun müəllim və onun hazırlığı məsələlərinə dair görüşləri 1905—1907-ci illərin birinci rus inqilabı illərində, xüsusilə Azərbaycan müəllimlərinin 1906-cı ildə çağırılmış birinci qurultayı ərəfəsində yazdığı bir sıra məqalələrində öz əksini tapmışdır.

Məlum olduğu kimi 1905—1907-ci illərin burjua-demokratik inqilabı Azərbaycan ziyalılarının milli şüurunun inkişafına böyük təsir göstərdi. Bu zaman təlimin ana dilində aparılması məsələsi də Azərbaycanda milli azadlıq hərəkatının tələbləri sırasında mühüm yer tuturdu. Həmin tələbi xalq müəllimləri və inqilabi demokratik cərəyan tərəfdarları müdafiə edirdilər. Məktəblərin azlığı və müvafiq dərsliklərin olmaması, tədris üsullarının yaramazlığı, müəllimlərin hüquqsuzluğu və s. kimi məsələlər Azərbaycan ziyalılarının qabaqcıl dəstəsini düşündürürdü. 1905—1907-ci illərdə azərbaycanlı müəllimlərin çar hökumətinə göndərdikləri kollektiv ərizələrdə təlimin ana dilində aparılması, uşaqlar üçün ümumi, icbari, pulsuz ibtidai təhsilin müəyyən edilməsi, azərbaycanlı müəllimlərin hüquqlarının başqa millətlərdən olan müəllimlərin hüquqları ilə bərabərləşdirilməsi, azərbaycanlı müəllimlər hazırlamaq üçün xüsusi müəllimlər seminariyası açılması və s. tələb olunurdu.

1905—1907-ci illər inqlabı dövründə mitinqlərdə, iclaslarda, qurultaylarda, dövrü mətbuatda irəli sürülən qətnamələrdə, müraciətnamələrdə xalq maarifi sahəsində milyonların fikrini ifadə edən bir sıra demokratik tələblər verilirdi.

Xalq maarifi sahəsində irəli sürülən demokratik tələbləri ümumiləşdirsək, onları aşağıdakı formada qruplaşdırmaq olar:

1) xalq maarifini yerli əhalinin idarəsinə vermək;
2) müəllim kütləsini xalq maarifinin idarə işinə cəlb etmək;
3) üçillik ibtidai məktəb həcmində ümumi icbari təhsili həyata keçirmək;
4) qadınlara kişilərlə bərabər təhsil hüququ vermək;
5) tədrisi ana dilində aparmaq;
6) orta məktəb şəbəkəsini genişləndirmək, onun hüququnu artırmaq, maddi vəziyyətini yaxşılaşdırmaq;
7) məktəbəqədər tərbiyə müəssisələrini, mədəni-maarif müəssisələrini inkişaf etdirmək.

Bu illərdə Azərbaycanda, xüsusən Bakıda müxtəlif mədəni-maarif müəssisələri, xeyriyyə cəmiyyətləri təşkil edilmiş, bir sıra yeni qəzet və jurnallar nəşr edilməyə başlamışdı. Bolşevik hümmətçilər bu cəmiyyət və müəssisələrdə siyasi-ictimai və mədəni- kütləvi iş aparır, onların vasitəsilə zəhmətkeşlərin siyasi şüurunun mütəşəkkiliyinin artmasına yardım göstərir, demokratik ziyalıları inqilabi hərəkata cəlb edir, digər tərəfdən də əhali arasında mədəni-maarif işini yayır, məktəblər açılmasına, təlim-tərbiyə işlərinin yaxşılaşdırılmasına çalışırdılar. Bu məqsədlə onlar "Nicat və "Nəşri-maarif adlı xeyriyyə cəmiyyətlərindən geniş istifadə edirdilər. Məsələn, "Nicat cəmiyyəti sədrinin müavini N.Nərimanov 1906-cı ildə həmin cəmiyyət vasitəsi ilə Bakıda Qafqaz müsəlman müəllimlərinin qurultayının çağırılması və müəllimləri düşündürən bir sıra vacib məsələlərin həll edilməsi üçün az iş görməmişdir. O, qurultayda iştirak edən müəllimlərin qabaqcıl hissəsini birləşdirməkdə, vacib məsələlərin müzakirəsində və bu məsələlər üzrə mühüm qərarlar qəbul edilməsində də müstəsna rol oynamışdır.

Qurultayın uğurla keçməsi üçün onu hazırlayan və keçirilməsinə rəhbərlik edən müəllimlərin, maarif xadimlərinin, xüsusilə bu qurultayın təşəbbüskarları olan N.Nərimanovun, H.Zərdabinin, F.Ağayevin, S.S.Axundovun, A.Şaiqin, Ü.Hacıbəyovun, M.Mahmudbəyovun və bir çox başqa tərəqqipərvər ziyalıların apardıqları hazırlıq işlərini, göstərdikləri xidmətləri xüsusi qeyd etmək lazımdır. Onlar qurultay ərəfəsində bir sıra məqalələrlə çıxış edərək, qurultayın qarşısında duran vəzifələri ətraflı şərh edirdilər. Bu cəhətdən N.Nərimanovun "Müəllimlər ictimainə dair. "Müsəlman müəllimləri yığıncağı münasibəti ilə bir neçə söz "Mühüm bir məsələ, "Bu gün və s. məqalələri xarakterikdir.

"Müsəlman müəllimləri yığıncağı münasibətilə bir neçə söz adlı məqaləsində mövcud məktəblərin vəziyyətini təhlil edən N.Nərimanov yazırdı ki, biz öz məktəblərimiz barəsində nə söyləyə bilərik? Bir neçə şəhərdə iki cüt, bir tək şəhər xərcinə açılan məktəblərimi nəzərə alıb təsəlli tapacağıq? O, xalqı məktəblərin kəmiyyət və keyfiyyəti məsələsində qabaqcıl qonşu xalqlara çatmağa çağırır və deyirdi ki, yoxsa getdikcə qaranlıqda qalıb, işlərimiz fəna, özümüz zəlil olacağıq.

N.Nərimanov Bakıda Qafqaz müsəlman müəllimlərinin qurultayının məqsədini izah edərək yazırdı ki, müəllimlər bir yerə





yığılıb dərdləşəcək, bir-biri ilə fikir mübadiləsi edəcəklər. Ümumi bir proqram düzəldib, ittifaq ilə iş görəcəklər. Həmin məclisdə millətin ümumi qüsurlarını diqqətə alıb, dərdimizə əlac arayacaqlar.

N.Nərimanov qurultayın işini canlandırmaq məqsədi ilə xalq kütlələrini səfərbər etməyə çalışır, onları "Hər şəhərdən, hər kənddən Bakı ictimainə, heç olmazsa bir məktəbdar göndərilməsi üçün müəllimlərə kömək etməyə çağırırdı. Nərimanovun bu məqaləsi qurultaya hazırlıq üçün bir çağırış idi. Qurultayın canlı keçməsi üçün Nərimanov müəllimlər qarşısında böyük və məsul vəzifələr qoyurdu. O, müəllimlər arasında birlik yaratmağa çalışır, xalqın ümumi işinə laqeyd münasibət bəsləyən, mütərəqqi fikirlərin əksinə hərəkət edən, öz işlərindən ötrü, ümumi dərdlərinə əlac aramaqdan ötrü bir məclisə dəvət edilərkən "görəsən plov da olacaqmı, - deyən bir para müəllimləri ciddi tənqid edirdi. Çünki, beləlləri xalq maarifinin inkişafı yolunda gecə-gündüz çalışan "ürəyi atəşli müəllimlərə (F.Köçərli) baxıb gülürdülər. Onlar deyirdilər: "Ay biçarə, aldığın çoxca məvacib, üç-dörd müftə otaq, müftə odun, müftə çıraq, müftə qulluqçu, hər ildə "çox zəhmətlərdən sonra "azarlayıb şəhər kassasından aldığımız "posobiya qamımızımı dəlir?! Bizə nə düşübdür özümüzü bəlaya salaq! Millət qeyrətini gərək bizmi çəkək? Arxayın ye, iç, keyf çək. Kim kimədir? Bayılı görmürsənmi? Daha qoymazsınızmı bir doyunca şəhərin pullarından xərc edək... Həm də tərəqqi edək ....[1]

N.Nərimanov yazırdı ki, belə müəllimləri zəmanə özü yarı yolda qoyacaq. O, xalqın qeydinə qalmayan, öz vəzifələrini unudan müftəxor müəllimlərin hərəkətini xalqa xəyanət hesab edirdi. Üzünü belələrinə tutan Nərimanov deyirdi: «Yetər, müftəxor, cənablar! Siz ayın 20-sini gözləyirsiniz. Millətin pulunu aşırıb da ona xəyanət edirsiniz. Çıxınız oradan, millət qeyrəti çəkənlərə yol veriniz».[2]

N.Nərimanov dövrün mütərəqqi, yenilikçi müəllimlərinin işlərini təqdirəlayiq hesab edirdi. Bunların yeni tipli "rus-müsəlman məktəbləri açıb gənc nəsli yeni ruhda tərbiyə etmələrini, xalqın ümumi tərəqqisi uğrunda mübarizə aparmalarını, ümumiyyətlə o dövrdə maarif, məktəb, təlim və tərbiyə sahəsində nəzərə çarpan tərəqqinin və onun səbəbkarlarının fəaliyyətini geniş təhlil edərək, belə müəllimlərin işinə yüksək qiymət verirdi. Nərimanov yazırdı ki, cavan müəllimlər "rus-müsəlman məktəblərində müvafiq qayda ilə iş

[1] *Bax:* N.N ə r i m a n o v. Seçilmiş əsərləri. «Elm» nəşriyyatı, 1973, səh.258—259.
[2] *Bax: Yenə orada*, səh. 261.

aparıb böyüklər üçün də tərəqqi yolu arayırlar. O, məktəb proqramlarının İlminski kimi pedaqogikadan, elm və tərbiyədən başı çıxmayanlar tərəfindən tərtib edilməsini, tədrisin ana dilində aparılmamasını, ana dilində dərs kitablarının olmamasını, şəriət müəllimlərinin nağıl danışmalarını ciddi tənqid edir və göstərirdi ki, bu məsələlərin hamısını müəllimlər qurultayı nəzərdən keçirib, ana dilində proqram, dərsliklər tərtib edəcək və beləliklə bizim milli müəllimlər də digər tayfaların müəllimləri kimi camaata yol göstərə biləcək, millətin dərdinə əlac arayacaqlar.

Beləliklə, qurultaya hazırlıq dövründə N.Nərimanov yuxarıda haqqında bəhs etdiyimiz mühüm məqalələrlə çıxış edərək, qurultayın həll edəcəyi məsələlər barəsində bir çox qiymətli fikirlər söyləmişdi. O, müəllimlər qarşısında konkret olaraq aşağıdakı vəzifələri qoyurdu:

1) qurultayın məqsədini xalqa düzgün başa salmaq;
2) müəllimlər arasında birlik yaratmaq;
3) tə'lim-tərbiyəyə aid nöqsanları rədd etmək;
4) yeni tədris proqramları tərtib etmək;
5) ana dilində yeni dərsliklər yaratmaq;
6) yeni tədris üsulları müəyyən etmək;
7) müəllim kadrı hazırlığı məsələsini nəzərdən keçirmək və s.

1906-cı ilin yazında müəllimlərin birinci qurultayına böyük hazırlıq işi aparılır. Qurultayın proqramını hazırlamaq üçün başda N.Nərimanov olmaqla xüsusi komissiya təşkil olunur. Komissiyanın üzvləri ayrı-ayrı şəhərlərə gedərək qurultayın çağırılması və keçirilməsi ilə əlaqədar olan məsələləri həll edir, yerli mətbuatda qurultayın məqsəd və vəzifəsinə aid məqalələrlə çıxış edirdilər.

Qurultaya hazırlıq komissiyası may ayından başlayaraq qurultay açılanadək N.Nərimanovun sədrliyi ilə 11 dəfə iclas keçirmiş və bir sıra hazırlıq işləri aparmışdır.

Qurultay 1906-cı il avqust ayının 15-də Bakı şəhərində çağrılmışdır. Qurultayın çağrılması və onun gündəliyini xəbər verən məlumatda deyilirdi:

«Qafqaz müsəlman müəllimləri məclisinin məramnaməsi:

1. Qafqaz müsəlman müəllimləri məclisi (syezdi) bu il Bakıda avqust ayının 15-dən başlayıb axıra qədər davam edəcəkdir.

2. Məclisə dəvət olunur: Qafqaz qitəsindən cəmi şəhər və kənd müsəlman müəllimləri (elmi-ilahi müəllimləri dəxi buraya





daxildirlər), həmçinin o şəxslər ki, təlim və tərbiyə məsələlərinə məhəbbətləri vardır, onlar dəxi məclisə dəvət olunurlar.

Qurultayın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

1. Mövcud tədris proqramlarını nəzərdən keçirib, zəmanəyə görə təzə proqramlar tərtib etmək;

2. Təzə tərtib olunan proqramlara müvafiq tədris vəsaiti hazırlamaq;

3. Oxumaq və yazmağı asanlaşdırmaq üçün ümumi bir tədris üsulu müəyyən etmək;

4. Kənd müəllimlərinin məişətinə və güzəranlarına dair məsələlərə baxmaq;

5. Darülmüəllimlərin proqramını müzakirə edib dövrün tələblərinə uyğun dəyişdirmək;.

6. Üzvlər tərəfindən təqdim olunan məsələləri həll etmək;

Ehtiyacı olan müəllimlərin yol xərclərinin mümkün qədər ödənilməsi də gündəlikdə nəzərdə tutulurdu.

Qurultayın çağırılmasına aid mətbuatda verilmiş elanda həmçinin deyilirdi: Qurultay başlanana qədər kimin sualı, təklifi və digər bir fikri olarsa, əvvəlcədən aşağıdakı ünvanlara müraciət edə bilərlər:

Bakı şəhərində «Həyat» idarəsində Nəriman Nərimanova.
«Kaspi» idarəsində Həsənbəy Məlikova.
«İrşad» idarəsində Fərhad Ağayevə.
Komisyonun sədri N.Nərimanov.
Üzvləri: Həsənbəy Məlikov.
Əliskəndər Cəfərzadə.
Katib: Yusif Əfəndizadə».[1]

Qurultay şəhər iki sinifli «rus-müsəlman» məktəbinin binasında keçirilmişdir. Burada Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstandan gəlmiş 100-dən artıq nümayəndə var idi. Qurultayda müəllimlərdən başqa təlim-tərbiyə ilə maraqlananlar və yerli mətbuat nümayəndələri də iştirak etmişlər.

İclasın sədrliyinə H.Zərdabi, müavinliyə N.Nərimanov, ona köməkçi sifəti ilə S.Acalov, katibliyə isə F.Ağayev seçilirlər.

Avqustun 15-dən 28-nə qədər (13 gün) davam etmiş bu qurultaya ayrı-ayrı şəxslərdən, təşkilatlardan və cəmiyyətlərdən çoxlu təbrik teleqramları göndərilmişdi. Təbrik teleqramlarından biri də həmin günlərdə Ermənistanda (Eçmiazdində) öz qurultaylarına toplanmış er-

[1] «Dəbistan» jurnalı. 1906-cı il, № 8, səh. 12.

məni müəllimlərindən gəlmişdi. Bu teleqramda hər iki qonşu xalqın müəllimləri birləşməyə, ermənilərlə müsəlmanlar arasındakı qədim dostluğu möhkəmləndirməyə çağırılırdı.

Azərbaycan müəllimlərinin qurultayı tərəfindən ayrılmış komissiya erməni müəllimlərinin qurultayına aşağıdakı məzmunda cavab teleqramı göndərmişdi:

«Biz çoxdan bəri hər iki qonşu xalq arasında sülh istəyirik və çox sevinclə əlimizi Sizə doğru uzadıb sizin qara camaata təsir etmək çağırışınıza qoşuluruq və müsəlmanlarla ermənilər arasında möhkəm sülhün xeyrini xalqa anlatmağı özümüzə vəzifə bilirik».[1]

Zaqafqaziyanın bütün tərəqqipərvər ziyalıları, qabaqcıl maarif xadimləri, ədib və şairləri müəllimlər qurultayının böyük ictimai əhəmiyyəti haqqında mətbuat səhifələrində ruh yüksəkliyi ilə çıxış edirdilər. Həmin çıxışlarda əlifbanın islahı, imla, proqram və dərsliklər tərtibi, yeni mütərəqqi tədris üsulları axtarmaq, tədrisin ana dilində aparılması, müəllim hazırlığı və s. məsələlər müzakirə olunurdu.

Qurultayın müzakirə etdiyi məsələlərdən biri də ana dili proqramının təsdiqi və uşaqların orta məktəblərə az daxil olmalarının səbəblərini müəyyən etmək idi. Bu məsələ ətrafında çıxış edən Nərimanov azərbaycanlı uşaqların orta məktəbə az daxil olmasının səbəbini mövcud ictimai və siyasi quruluşda görürdü. Çünki o zaman mərkəzi maarif müfəttişliyinin əmri ilə müəllimlər azərbaycanlı uşaqlara «lal metod»la dərs deməli idilər. Bu üsulla dərs demək müəllimlər üçün çətinlik törədirdi. Məsələn, müəllim şagirdlərə «it hürür», «pişik miyoldayır» cümləsini rusca öyrətmək istərkən, bu cümləni əvvəlcə rusca söyləməli, mənasını isə yalnız səs və hərəkətlə anlatmalı, hər şeyi əyani olaraq göstərməli idi. Həmin üzdəniraq «üsul» müəllimlərin nüfuzdan düşməsinə səbəb olurdu. Odur ki, qabaqcıl müəllimlər qurultayda bu «üsulun» ləğv olunmasını tələb edirdilər. Qurultayın bəzi nümayəndələri təklif edirdilər ki, «Qurultay, «nemoy metodun» ləğv edilməsini Qafqaz canişinindən xahiş edir» məzmununda bir teleqram göndərsin. N.Nərimanov isə «xahiş edir» sözünə etiraz edərək deyir ki, biz bu vaxta qədər çox xahiş etmişik, lakin faydası olmamışdır. Biz bundan sonra tələb etməliyik.[2]

[1] «Каспи» qəzeti, 7 sentyabr 1906-cı il, № 192.
[2] *Bax:* Abdulla Şaiq. Xatirələrim, Bakı, «Gənclik» nəşriyyatı, 1973, səh 227.





Beləliklə, qurultay Nərimanovun təklifinə tərəfdar çıxır və onu yekdilliklə qəbul edir. Ertəsi gün iclasa gələn məşhur milyonçu H.Z.Tağıyev çıxış edərək demişdi:

«Dünənki qərarınızdan görünən budur ki, qurultayı Nərimanov kimi heç bir şeydən başı çıxmayan bir adam idarə etmişdir.

Bilirsinizmi Nərimanov kimdir? Onun cibində bir qəpiyi yoxdur. Mənim pulumla oxuyur (Nərimanov Odessada Tağıyevin təqaüdü ilə oxuyurdu — *H.Ə.*). İndi gəlib burada inqilabi danışıq danışıb, sizi də ağıldan-başdan çıxarmaq istəyir. Xahiş edirəm dünənki qərarınızı dəyişin. Çünki hökumət yanında bütün millətimizə ayıb gətirən işdir».[1]

H.Z.Tağıyev bir sıra başqa xidmətləri ilə yanaşı, xalqın maarifləndirilməsi, yeni tipli qız məktəblərinin açılması və onların maliyyələşdirilməsi istiqamətində də xeyli işlər görmüşdür. Lakin o, bütün bunları imperiyanın qəzəb və təhdidləri ilə hesablaşmaqla həyata keçirməyə çalışırdı. Çünki Rusiyanın imperiya əzəməti və qəddarlığını, onun maraqlarına uyğun gəlməyən hər hansı işi məhv etmək üçün heç nədən çəkinmədiyini bilirdi. Odur ki, yeni-yeni yaranan işıqlı qüvvələri qorumaq və qarşıda duran milli məqsədlərə çatmaq üçün bu kabusla son dərəcə diplomatik taktikalarla davranmağa üstünlük verirdi. Onun çıxışındakı sərt notlar həm də bu qayğıdan irəli gəlirdi. Bununla belə, N.Nərimanovun məğrur ruhu, mənlik duyğusu və üsyankarlığı izzət-nəfsinin bu cür tapdanması ilə çətin barışardı. H.Z.Tağıyevin bu çıxışından sonra sükuta dalan qurultay nümayəndələri ürək döyüntüsü ilə N. Nərimanovun cavabını gözləyirdilər. Nəhayət, Nərimanov tribunaya qalxdı və H.Z.Tağıyevin mövqeyi, onun təkəbbürlü sözləri ilə qətiyyən barışmadığını həm də gəncliyə xas üsyankarlıqla belə bildirdi:

«Cənab Tağıyevdən oxumaq üçün pul alanların biri də mən idim. Ancaq mən bilmirdim ki, cənab Tağıyev kasıb tələbələrə oxumaq pulu verməklə onların danışıq ixtiyarını əlindən alır. Hərgah bu ana qədər cənab Tağıyev tələbələrə kömək etmiş ki, cənab Tağıyevin dediyini desinlər, hər halda mən bunu etməyi bacarmaram, keçmişimi və gələcəyimi heç zaman ləkələyə bilmərəm. O yerdə ki, fəryadlar qoparmaq istər, orada dinməmək yaramaz, heç zaman, nə keçmişdə və nə indi mənim ixtiyarımı murdar pul gücü ilə əlimdən almamışlar və almazlar da. Başqaları qanlarını axıdıb çar zülmündən qurtarmaq üçün

[1] *Bax:* N. N ə r i m a n o v. Məqalə və məktublar, Bakı 1925.

mübarizə etdikləri zaman, biz barı danışmayaqdamı! Bütün qurultay qarşısında, çox şadlıqla mən cənab Tağıyevin mənə etdiyi yardımı rədd edirəm, bəlkə bununla zəmanəmizin zalımlarından xilas olaq və bəlkə gələcək nəsil də özlərini murdar qızıla qul etməsinlər».[1] Qurultay iştirakçıları tərəfindən alqışlarla qarşılanan N.Nərimanovun bu çıxışı o zaman inkişaf etməkdə olan Azərbaycan ziyalılarının milyonçulara və çar hökumətinin üsuli-idarəsinə qarşı çevrilmiş etiraz və üsyan «dalğası» idi.

N.Nərimanovla Tağıyevin arasındakı bu ixtilaf Nərimanovun özünün dediyi kimi, xalqın təlim-tərbiyəsi ilə məşğul olan, onun tərəqqisinə çalışan bir inqilabçı maarifçi ilə güclü milyonçunun arasında baş vermiş məslək mübarizəsi idi. N.Nərimanov sonralar, 1909-cu ildə, Həştərxan sürgünündə olarkən orada çıxan «Astraxanski kray» qəzetində dərc etdirdiyi «Bəsdir özünüzü rüsvay etdiniz» adlı məqaləsində bu haqda yazırdı:

«15 il xalq üçün çalışmış, ən yaxşı, gənc qüvvələrini Bakıda maarifin yayılmasına sərf etmiş olan mən hər hansı ailə didişməsinə deyil, bütöv bir xalqa, onun tərbiyəsinə və mənəvi inkişafına aid bir məsələdə cəsarət edib Hacının əleyhinə çıxdığım üçün qüdrətli Hacı tərəfindən təhqir edilib alçaldılmışdım. Mənim kimi kasıb bir tələbə ilə milyonçu Hacı arasında gedən mübarizə ideya mübarizəsi idi».[2]

Göstərilən hadisədən sonra Bakı ziyalılarının bir dəstəsi Nərimanovu töhmətləndirib deyirdilər: «Doğrudur, Nəriman haqlı idi, amma yenə də möhtərəm Hacıya zidd çıxmaq lazım deyildi».

Belələrinə cavab verən Nərimanov sonralar yazırdı: «Yaxşı işlərinə görə qolçomaq ictimai xadimin hörmətini saxlamaq, onu tərifləyib həvəsləndirmək lazımdır, ancaq müəyyən bir millətin bütün müqəddəratını ictimai inkişafa özünəməxsus yanlış baxışı olan bir qolçomağa tapşırmaq, lap azı axmaqlıqdır».[3]

N.Nərimanov bu mövqedə duran ziyalıları tənqid etmiş, onları «maskalı gəzməyə adət etmişlər» və «cəmiyyətin eybəcərləri» adlandırmışdır. Nərimanov yazmışdı ki, onlar ruhdan kasıb, əqidədə möhkəm deyillər. Ona görə də heç bir zaman xalq səsinin səmimi ifadəçisi ola bilməz, ictimai həyatda möhkəm mübariz ola bilməzlər.

[1] *Bax:* N. N ə r i m a n o v. Məqalə və məktublar, Bakı 1925.
[2] *Bax:* N.N ə r i m a n o v. Məqalələr və nitqlər, I-ci cild, Bakı, Azərnəşir, 1971, səh. 103.
[3] *Bax:* N.N ə r i m a n o v. Məqalələr və nitqlər, I-ci cild, Bakı, Azərnəşir, 1971, səh 105.





N.Nərimanovun fikrincə, hər bir millətin mədəni tərəqqisi məktəblə, məktəbin tərəqqi tapması isə müəllimlərlə bağlıdır. Müəllim təkcə dərs verməklə kifayətlənməməli, ictimai-mədəni işlərdə fəal iştirak etməlidir.

N.Nərimanov göstərirdi ki, ictimaiyyətçi müəllimlərin mədəni-kütləvi işləri xalqın ümumi tərəqqisinə kömək etdiyi kimi, müəllimlərin özlərinin fəaliyyət dərəcəsini də genişləndirir, Nərimanovun dediyi kimi Azərbaycan müəllimlərinin ictimai-kütləvi işləri, xalqın tərəqqisi yolundakı hərəkətləri Qafqaz xalqlarını və hətta Rusiya xalqlarını da sevindirir. Bakı müəllimlərinin fəaliyyəti barəsində Rusiya qəzetində məqalələr dərc edilirdi. Bu məqalələrdə müsəlman camaatı təbrik olunur, «işığın yolunu daha ziyadə asan etmək üçün cavan müsəlman müəllimlərinə yol göstərilirdi».

Bakı müəllimlərinin xalqın ictimai-mədəni həyatında böyük rol oynadığına xüsusi əhəmiyyət verən N.Nərimanov deyirdi ki, «Bakının tarixini yazan biqərəz şəxs «bir neçə ildə» milli müəllimlər tərəfindən görülən hümməti, qeyrəti unutmayacaqdır». Onun məqalələrində xalqın savadlanması və ümumi tərəqqisi üçün kütləvi kitabxana-qiraətxana açan, teatrın böyüklər üçün məktəb olmasını anlayıb bu işə artıq diqqət yetirən və bu məqsədlə yeni-yeni əsərlər yazan, qeyri dillərdən tərcümələr edən müəllimlərin işi təqdirəlayiq hesab edilir.

N.Nərimanov xalqın mədəni tərəqqisinə çalışan müəllimlərin işini yüksək qiymətləndirdiyi kimi, xalqın ictimai və mədəni yüksəlişinə səy göstərməyənləri tənqid edir, onları «çinovnik» adlandırırdı. O, müəllimlərin yalnız məktəb çərçivəsi ilə məhdudlaşan fəaliyyətini tənəzzül dövrü hesab edirdi. «Müəllimlər ictimainə dair» adlı məqaləsində bu məsələyə toxunan Nərimanov yazırdı ki, belə müəllimlər ancaq «bir neçə il» tərəqqi yolunda mübarizə aparарkən, iki o qədər tənəzzül yolunda dövran sürüblər, yəni məktəbdənkənar millət işlərinə qarışmayıb, qeyri rus çinovnikləri kimi ayın iyirmisini gözləyiblər və boş vaxtlarını öz keflərinə sərf edib camaat tərəfindən töhmətə layiq olublar.

Nərimanov çox haqlı olaraq göstərirdi ki, müəllim «universitet nişanı ilə» deyil, əməli pedaqoji fəaliyyəti ilə özünü göstərməli və fərqlənməlidir.

N.Nərimanov xalqın içərisindən çıxan, xalqa xidmət edən, zamanın mütərəqqi tələblərinə uyğun hərəkət edən müəllimləri, ağzı köpüklənə-köpüklənə danışan çinovniklərə qarışıb günlərini ceş-

işrətdə keçirən burjua ziyalılarına qarşı qoyurdu. O, boş-boğaz burjua ziyalılarından fərqli olaraq, xalqa küy-kələksiz xidmət edən, balalara elm və tərbiyə verən xalq müəllimlərinə rəğbət bəsləyirdi. «Diplomlu» burjua ziyalılarının namuslu, «hər tərəqqinin başı məktəb olmasını anlayan», öz işinə can yandıran xalq müəllimlərinin üzərində «böyüklük edib amir olmaq» iddiası Nərimanovu qəzəbləndirirdi. Boş hay-küy qaldıraraq rəsmi dairələrə danos-material yazmaq yolu ilə tərəqqipərvər, iş bacaran və camaatın xeyrinə çalışan müəllimləri aradan çıxartmağa cəhd edən, sonra da özlərini «Millətin dərdinə dərmanşünas» kimi qələmə verən «alimnümaların» bədxahlığını, xalqın maariflənməsinə zidd əməllərini Nərimanov var qüvvəsi ilə pisləyirdi. O, göstərirdi ki, xalq yaxşı ilə pisi seçir, ümumi camaatın nəf'inə çalışan müəllimlərlə, «ancaq aldıqları məvacibə görə işləyib, boş vaxtlarını şəxsi mənfəətlərinə sərf edən» müəllimləri bir-birindən ayırır və qiymətləndirir.

N.Nərimanovun müəllim haqqında baxışlarında belə bir cəhət də özünü göstərir ki, müəllimlər xalqın ümumi tərəqqisinə çalışdıqları kimi, xalq da müəllimlərin fəaliyyəti ilə yaxından maraqlanmalı, onların başladıqları ictimai-kütləvi işləri müdafiə etməlidir.

Bu məsələdən bəhs edərkən N.Nərimanov üzünü həqiqi xalq müəllimləri tərəfindən camaata tutaraq yazırdı: « Ey camaat! Ey millət! Biz sizdən ötrü elm-təhsil etmişik. Axırda bizləri dürlü-dürlü azarlara, mərəzlərə mübtəla edən bu sənəti sizin balalarınızın xatirəsi üçün özümüzə qəbul etmişik. Bizə təlim-tərbiyə verən ustadlarımız «Siz camaatdan, millətdən ötrü hazırlanırsınız», — deyib, nəsihətlər verirdilər. Bizim aldığımız tərbiyə və təhsilə görə biz gərək sizin ailəniz əfradından hesab olunaq. Biz sizin dərdinizə qalanda, siz də bizim dərdimizə gərəkdir qalasınız. Əl-ələ verib bir külfətin üzvləri kimi ümumi bir məqsəd üçün çalışmalıyıq».[1] Göründüyü kimi, N.Nərimanovun fikrincə, müəllim olmaq böyük səadətdir, lakin bu səadət xalq tərəfindən rəğbətlə qarşılandıqda, müdafiə edildikdə və qiymətləndirildikdə daha xeyirli olur.

Bir sıra burjua ziyalılarının fitnələri üzündən mütərəqqi müəllimlərin ictimai işlərdən kənar edilməsinə ciddi etiraz edən N.Nərimanov yazırdı; *«Bir vaxt var idi ki, müəllimlərsiz millətə dair işlərə baxılmazdı. Məclislərdə səs, rəy verən müəllimlər olurdu. Təsəvvürlərinə diqqət olunurdu. Lakin bir vaxtdan bəri camaat haman*

[1] *Bax:* N.N ə r i m a n o v. Seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh. 315.





*müəllimləri məclislərdə görmədi, onların fikirlərindən xəbərdar ola bilmədi. Sözü açıq deyəlim; onlar indi lüzumsuz bir üzv olub, artıq araya qoyulmadılar».*[1] Sözünə davam edən Nərimanov bildirirdi ki, qabaqcıl müəllimlər Bakıda iki qiraətxana açdılar. Qiraətxanalar bir vaxtadək *«davam edib, sonra bir ayın ərzində ikisi də bağlandı. Camaat heç xəbər almadı; niyə, nə səbəbə bunlar bağlandı».*

N.Nərimanov müəllimdən pedaqogikanı, təlim və tərbiyənin pirinsip və üsullarını yaxşı bilməsini tələb edirdi. O, bunu müəllimin şagirdlərin fərdi xüsusiyyətlərinə istinad etməyinin təlim və tərbiyə işində müvəffəqiyyətinin rəhni hesab edirdi. O, göstərirdi ki, müəllim təlim və tərbiyə işində şagirdlərin fərdi xüsusiyyətlərini bir an belə nəzərdən qaçırmamalıdır. Çünki:

«..Hər uşağın özünə görə bir qeyri xasiyyəti, təbiəti olmağa binaən hamıya bir qayda və qanunla dərs verməK, hamıya bir dildə bəyan etmək olmaz, hamını bir «ölçü ilə ölçmək» olmaz; uşaqların bir parası zehinli, zəkavətli, bir parası zehinsiz, fəhmsiz, bir parasının qüvveyi-hafizəsi qüvvətli, bir parasınınkı naqis, bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olur. Uşaqlara məhəbbəti olan müəllim bunların hamısını mülahizə edər, hər kəsin öz biliyinə, qanacağına görə hərəkət edərsə, hər kəsin eybinə görə çarə ararsa, əlbəttə, təlim və tərbiyə düz yol ilə gedib tərəqqi-ali dərəcəyə çatar».[2]

N.Nərimanov müəllimləri ömrünü xalq yolunda, zəhmətkeş balalarının təlim və tərbiyəsi uğrunda fəaliyyət göstərməyə sərf etmiş pedaqoqlar kimi hərəkət etməyə çağırmışdı. O, müəllimlərdən uşağı sevməyi, ona böyük qayğı göstərməyi, pedaqoji işdə yaradıcı olmağı, daim yeni-yeni təlim-tərbiyə üsulları axtarmağı tələb edirdi. Bunun üçün isə uşaqları və müəllimlik sənətini sevməyi lazım bilirdi. Nərimanovun fikrincə, müəllim yalnız uşaqların müəllimi deyil, həm də özünün müəllimidir.

N.Nərimanov pedaqogika və psixologiyanın nəzəri məsələləri ilə bərabər pedaqogika tarixini də bilməyə, klassik pedaqoqları, keçmişin zəngin pedaqoji irsini öyrənməyə və ondan faydalanmağa ayrıca əhəmiyyət verirdi. O, böyük və fədakar pedaqoqların — müəllimlərin həyat və fəaliyyətindən gətirdiyi ibrətli misallarla göstərirdi ki, xalqını, zəhmət adamlarını, yoxsulları və məzlumları sevən

[1] *Bax: Y e n ə o r a d a*, səh. 319.
[2] *Bax: Y e n ə o r a d a*, səh.322.

müəllimlər onların xoşbəxtliyi və tərəqqisi üçün hər cür cəfalara və məşəqqətlərə dözməyə razı olmuşlar. Onlar yalnız sözlə deyil, əməli işləri ilə xalqa xeyirxah olduqlarını sübut etmişlər.

N.Nərimanova görə, müəllimlik sənətinə hazırlanan hər bir kəs klassik pedaqogikanın Y.A.Komenski (1592-1670), J.J.Russo (1712-1778) İ.H.Pestalotsi (1746-1827), K.D.Uşinski (1824-1870) kimi görkəmli nümayəndələrinin pedaqoji görüşlərini öyrənməli, onların fəaliyyətində və baxışlarındakı xeyirli cəhətləri götürməlidir. Bu cəhətdən Nərimanovun Pestalotsi haqqında yazdığı məqalələr çox xarakterikdir. «Bir müəllim müəllimliyə hazırlanarkən ola bilərmi ki, Henrix Pestalotsinin adını eşitməsin? Ola bilərmi ki, bunun uşaqlara olan məhəbbətini bilməsin? Təlim və tədrisə dair nəsihətlərini oxumasın?», - deyən Nərimanov göstərirdi ki, pedaqogika, o cümlədən, didaktika Pestalotsidən sonra tərəqqi etmiş və gələcəkdə də edəcəkdir. Lakin Pestalotsinin fikirləri yenə də öz qiymətini saxlayacaqdır. Nərimanova görə, Pestalotsinin böyüklüyü orasındadır ki, o, yalnız nəzəriyyəçi deyil, eyni zamanda öz fikirlərini təcrübi olaraq həyata keçirən və bununla da öz şöhrətini bir daha artıran bir pedaqoqdur.

Məlum olduğu kimi, pedaqogika tarixində Pestalotsinin özünəməxsus yeri vardır. Demokrat pedaqoq olan Pestalotsi tarixdə ilk dəfə olaraq öz hesabına açdığı yetimlər evində əməklə təhsili birləşdirmiş, özünün əməli fəaliyyəti ilə böyük hörmət qazanmış, qiymətli bir irs qoymuşdur. Pestalotsinin fikrincə, bu və ya digər xalqın geridə qalmasının əsas səbəbi, onun təlim və tərbiyə sisteminin qüsurlu olmasıdır. Nərimanov yazırdı: «Bu sözləri sadə demək hünər deyildir. Bir deyib də əməl etməlidir. Henrix Pestalotsi bu sözləri həm dedi, həm də dediyinə əməl etdi. Ağlını, ruhunu, malını ömrünü axır nəfəsinədək millət yolunda, daha dürüst yetim uşaqların yolunda sərf edib dünyaya əlvida etdi».[1] Göründüyü kimi, Nərimanov Pestalotsini ona görə yüksək qiymətləndirir ki, Pestalotsi xalqın tərəqqisinə aid təkcə qiymətli fikirlər söyləməklə kifayətlənməmiş, həm də bütün həyatını xalqının mədəni tərəqqisinə həsr etmişdi.

N.Nərimanov Pestalotsini bir də ona görə yüksək qiymətləndirirdi ki, Pestalotsi təlim və tərbiyə işlərində uşaqlara şəfqət və məhəbbəti hər şeydən üstün tuturdu. Pestalotsi həmişə deyirdi: «Mən heç vaxt, heç kəsdən üsuli-tədris və təlim öyrənməmişəm. Tərbiyəyə

---

[1] N.N ə r i m a n o v. Seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh. 321.





dair elmlər oxumamışam, lakin uşaqlara mənim bir mənfəətim olurdusa, ancaq məhəbbət, şəfqət sayəsində olurdu».[1]

Pestalotsinin fəaliyyətinin bu cəhətinə xüsusi əhəmiyyət verən Nərimanov yazırdı ki, bu günlərdə Bakı müəllimlərinin qurultayı olduğuna görə məşhur pedaqoq Henrix Pestalotsinin barəsində bir az söhbət edək, tainki bilənlər bir də təkrar etsinlər və bilməyənlər bilsinlər ki, təlim və tərbiyə işlərində şəfqət və məhəbbətin gücünə edilən tərəqqi heç bir pedaqogika elmlərinin gücü ilə edilməz. N.Nərimanova görə müəllimin uşaqlara şəfaqəti olarsa, «elm—ruhsuz, elm—tədrissiz də (yəni psixologiya və pedaqogikasız da — H.Ə.) məqsədə çatmaq mümkündür».

N.Nərimanovun bu fikrindən heç də o nəticə çıxmır ki, müəllim üçün psixologiya, pedaqogika və fənlərin tədrisi üsullarını öyrənmək lazım deyil. Burada Nərimanovun əsas tələbi müəllimlərin yaradıcı olması, vəzifə xatirinə işləmək deyil, vicdan qarşısında məsuliyyət hissi ilə hərəkət etmələri məsələsi idi.

Təlim və təribiyə işində uşaqlara məhəbbəti böyük amil hesab edən Nərimanovun fikrincə, uşaqlara qayğı və məhəbbəti olmayan müəllimin təlim tərbiyəsi həmişə səmərəsiz və nəticəsiz qalacaqdır.

N.Nərimanov təlim və tərbiyə işində uşaqların fərdi xüsusiyyətinə istinad etmək, onlara hörmət və məhəbbət göstərmək, qayğı ilə yanaşmağa aid Pestalotsinin fikirlərini müəllim üçün yol göstərən hesab edir, onun fəaliyyətindən nümunə götürməyə, ondan öyrənməyə çağırırdı. O, yazırdı ki, Henrix Pestalotsinin «...təlim və tərbiyəyə dair əfkar və təsəvvüratı, əqval və hərəkatı bu vaxtadək müəllimlərə dəsturüləməl olduğu kimi, bundan sonra gərək rəhnümalıq etsin, ibrət olsun».[2]

N.Nərimanov məqaləsinin sonunda Pestalotsinin qəbrinin üstündə yazılan məşhur sözləri misal gətirir və onun timsalında vətənpərvərliyin nümunəsini görürdü. O, yazırdı ki, «Pestalotsi səhərdən axşamadək yetim, fəqir, müxtəlif xəstəliklərə mübtəla uşaqların üstə böyük zəhmətlər çəkir, onların ağıllarına, ruhlarına ğizai-mənəviyyələrini verir, onlara ana-baba kimi qulluq edirdi. Əllərini, ayaqlarını, bədənlərini öz əlləri ilə yuyardı. Gecə-gündüz azarlıların yanında oturub kiminin söz ilə, təsəlli ilə, kiminin dərman və ğizai münasibətı

---

[1] Y e n ə o r a d a, səh. 322.
[2] N.N ə r i m a n o v. Seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh. 327.

ilə imdadına yetişirdi. Bir an uşaqlardan kənar olmayıb, hər işdə onlara kömək edirdi».[1]

N.Nərimanovun Pestalotsi haqqında verdiyi bu məlumatdan məqsəd, M.Ə.Sabirin dediyi kimi, "dərbədər gəzib ürəyi qan olan çocuqların" tərbiyəsinə diqqəti cəlb etmək idi. Pestalotsinin pedaqoji fəaliyyətində, Nərimanovun diqqətini cəlb edən başlıca cəhət hər şeydən qabaq, uşaqlara olan böyük və hədsiz məhəbbət idi.

Təsadüfi deyil ki, uşaqları sonsuz bir məhəbbətlə sevən Nərimanov onlara daim ata qayğısı ilə yanaşmağı, təlim və tərbiyənin də ancaq bu məhəbbət sayəsində yarana biləcəyi fikrini təbliğ edirdi.

Bu dövrün diqqəti cəlb edən məsələlərindən biri də müəllim kadrları hazırlığı problemi idi. Bu məsələ dövrün qabaqcıl ziyalılarını, o cümlədən N.Nərimanovu ciddi düşündürürüdü. Heç də təsadüfi deyildir ki, müəllim kadrı hazırlığı problemi Azərbaycan müəllimlərinin birinci qurultayının gündəliyinə daxil edilmiş və qurultay ərəfəsində ictimaiyyət tərəfindən mətbuatda geniş müzakirə edilmişdir.

N.Nərimanov vaxtilə Qori müəllimlər seminariyasının uzaq bir vilayətdə yerləşdirilməsini, onun tədris planını, xalq maarifi sahəsində çar hökumətinin siyasətini kəskin tənqid edən məqalələr yazmışdı. O, "Mühüm bir məsələ" adlı bir-birinin ardınca çap etdirdiyi silsilə məqalələrində seminariyanın nə üçün Qoridə açılmasının səbəblərini izah edir və bunu rus çarizminin mürtəce siyasətinin nəticəsi kimi qiymətləndirirdi. Məlum olduğu kimi Qori seminariyasında azərbaycanlılar üçün ayrıca bir şöbə var idi və orada 60 nəfərə qədər tələbə təhsil alırdı. Nərimanov yazırdı ki, bu seminariyaya tələbə toplamaq üçün əvvəllər şəhərbəşəhər gəzir, hətta yol pulu da verirdilər. Sonralar tələbə toplamaq üçün şəhərləri gəzmək bir yana qalsın, yol pulu da verilmədi. İndi isə elə bir vəziyyət əmələ gəlmişdir ki, azərbaycanlı balaları "illik pulunu verib oraya çətinliklə qəbul olunurlar".

N.Nərimanov seminariyanın müəllim kadrları hazırlığı işindəki rolunu yüksək qiymətləndirməklə, onun nöqsan cəhətlərini də qeyd edir və deyirdi ki, seminariyanın tədris planı elə düzəldilib ki, seminariyanı bitirib, gələcəkdə uşaqlara təlim-tərbiyə verəcək "müəllimlərimiz türk əlifbasını belə bilmirlər". Çünki gələcəkdə ibtidai məktəb

---

[1] Yenə orada, səh. 326.





müəllimi olacaq tələbələrə seminariyada verilən məlumat—bilik çox cüzidir.

Seminariyanın harada olması məsələsindən bəhs edən Nərimanov yazırdı ki, "nə səbəbə dövlət müsəlman şöbəsini İrəvan seminariyası nəzdində açmayıb, Qori seminariyasında açmışdır?"

N.Nərimanov göstərir ki, Qori əhalisi gürcü və ermənilərdən ibarət olan bir balaca şəhərdir ki, Qafqaz müsəlmanlarından burada bir nəfər də daimi sakin deyildir. Belə bir şəhərdə dövlət tərəfindən müsəlman şöbəsi açılması xalqın gözünü pərdələməkdən başqa bir şey deyildir.

Seminariyanın Azərbaycan şöbəsinin yaranmasından keçən 27 il ərzində (1879—1905) onun fəaliyyətini təhlil edən Nərimanov göstərir ki, seminariya iki səbəbə görə:

1) təlimin ana dilində aparılmamasına,

2) seminariyanı çox az adam bitirməsinə görə artmaqda olan məktəblərin ehtiyacını ödəyə bilmir.

N.Nərimanov müəllim kadrları hazırlığı məsələsini ana dilinin tədrisi ilə əlaqələndirir. O, deyirdi ki, ümumtəhsilin həyata keçirilməsi üçün qanun veriləcək olarsa, müəllimə olan ehtiyac daha da artacaqdır. O, yazırdı: "Bu günlərdə Duma "təlimi - ümumi -külli" qanunu elan edəcəkdir, hamı kəndlərdə, şəhərlərdə milli məktəblər açılacaqdır. Fəqət bu dili təlim edən müəllimləri haradan almalı?"

Seminariyanın tədris planında bəzi dəyişiklik etməklə məsələnin həllinin qeyri-mümkün olmasını Nərimanov belə əsaslandırırdı: "Tutalım ki, Qori darülmüəlliminin əvvəlki proqramı dəyişib zəmanənin təqazasına görə yeni proqram düzəldi. Türk (Azərbaycan - *H.Ə.*) dili - ürəyimiz istəyən kimi təlim olundu. Bununla kifayətlənib seminariyanı yenə də Qori şəhərində qoymaq olarmı?"

N.Nərimanov göstərirdi ki, tədris plan və proqramında dəyişiklik edilsə belə, yəni Azərbaycan dili və qeyri dərslər kifayət dərəcədə təlim olunsa da, yenə seminariyanın Qoridə qalması ilə razılaşmaq olmaz.

O, seminariyanın fəaliyyətini və Azərbaycan məktəblərinin vəziyyətini təhlil və müqayisə edərək yazırdı:

«Açıq söyləməli; biz seminariyadan nə gözləyirik? Biz istəyirik, əvvəla seminariyanı qurtaran müəllimlərimiz öz dilini, ədəbiyyatını layiqincə bilib, ibtidai məktəblərimizdə oxuyan uşaqlara zəmanənin təqazasınca təlim versinlər, millət və vətən üçün tərbiyəli, məlumatlı

balalar hazırlasınlar; ikincisi, seminariyadan dərdimizə tez əlac olmasını gözləyirik.' Yəni bu vaxtadək seminariya ildə kurs qurtarmış on müəllim verirdisə, indi ən azı qırx müəllim verməlidir. Vətənimizdə "təlimi-ümumi" qanunu verilərsə, ildə yüz müəllim də az olacaqdır».

N.Nərimanov Qori müəllimlər seminariyasının fəaliyyətini hər iki məsələ üzrə təhlil edərək, belə nəticəyə gəlir ki, Qori seminariyası öz proqramında düzəliş edib əvvəlinci tələbimizi ödəyərək, ibtidai məktəblərimiz üçün ana dilində dərs verən layiqli müəllimlər hazırlamağa qadir olsa da, ikinci tələbi, yəni oranı bitirənlərin sayının artırılması tələbimizi yerinə yetirə bilməz. Çünki Qori şəhərində oxuyan müsəlman uşaqları əsasən pansiona qəbul olunurlar. Seminariyanın pansionu isə ildə cəmi 40-50 nəfərdən artıq uşaq qəbul edə bilmir. Nərimanov yazırdı ki, hətta seminariyada bir ildə cəmi 40-50 nəfərin təlim almasına və bunlardan ildə 10 nəfərinin məktəbi qurtarmasına sevinmək, şükür etmək lazımdır. Belə ki, ildə təxminən 6-7 müəllim hazırlanırdı. Bu isə bəs etmirdi. Kənd məktəbləri müəllimsizlikdən qapanırdı.

Məktəblərin artmaqda olan tələbini nəzərə alan Nərimanov müəllimlərin sayını artırmaq üçün 2-3 seminariya açılmasını lazım bilir. Lakin xalq maarifi sahəsində çar hökumətinin siyasətinin mahiyyətini yaxşı başa düşən Nərimanov göstərirdi ki, "dövlət hal-hazırda üç yox, birini də açmayacaqdır". Qori seminariyasının isə ildə 6 və ya 7 nəfərdən artıq müəllim hazırlamağa mümkünü olmayacaqdır. Ona görə də Nərimanov Qori seminariyasının Azərbaycan şöbəsini Azərbaycan şəhərlərindən birinə köçürməyi lazım bilirdi.

Qori seminariyasının Azərbaycan şöbəsinin Azərbaycan şəhərlərindən birinə köçürülməsini məqsədəmüvafiq hesab edən Nərimanov çox düzgün və əməli əhəmiyyəti olan təkliflər irəli sürürdü. O yazırdı: "Açıq deməli, Qori darülmüəllimi Bakıda, ya Gəncədə və ya qeyri müsəlman şəhərində olsa, padşahlıq xərcinə oxuyan altmış nəfərdən savayı, altmış nəfər müsəlman uşağı da daha ziyada öz evlərində yaşamaqla seminariyada elm təhsil etməyə mümkünləri olacaqdır. Yəni gündüzlər padşahlıq xərcinə oxuyan uşaqlar ilə bərabər dərs oxuyub, axşamlar öz evlərinə gedərlər".[1]

N.Nərimanov göstərirdi ki, seminariyanın Azərbaycan şəhərlərindən birinə köçürülməsinin çoxlu müəllim kadrlarının hazırlığı

[1] N. Nərimanov. Seçilmiş əsərləri. "Elm" nəşriyyatı, 1973, səh. 282.





işinə kömək etməklə bərabər, qeyri məsələlərdə də xalqa böyük mənfəəti olar, yəni xalqın ümumi mədəni tərəqqisinə də təsir edər.

N.Nərimanov Qori seminariyasının Azərbaycan şəhərlərindən birinə köçürülməsini və beləliklə də müəllim hazırlığı vəziyyətini yaxşılaşdırmağı ümumxalq işi hesab edir, camaatın, şəhər duması üzvlərinin qeyrət göstərmələrini tələb edirdi. Xalqın ayılıb öz dərdinə əlac etməsini, qonşu millətlər kimi müəllimlərin sayını artırmağı və beləliklə də məktəb şəbəkəsini genişləndirməyi mühüm vəzifə kimi qarşıya qoyurdu.

Birici rus inqilabı illərində, bütün xalqların baş qaldırıb öz tərəqqisi uğrunda mübarizə meydanında vuruşduqları bir dövrdə Nərimanov Azərbaycan xalqını da öz tərəqqisi uğrunda mübarizəyə çağırırdı. O yazırdı ki, hal-hazırda Rusiyada bütün millətlər dərya kimi hərəkətə gəlib azadlıq uğrunda vuruşurlar. Belə bir şəraitdə "üzmək bilənlər həmin mövclərdən (dalğalardan — *H.Ə.*) xilas olub, kənara çıxacaqlar, üzmək bacarmayanlar ləpələrin arasında qalacaq, əlləri hər şeydən üzülüb, "dərya heyvanlarına" yem olacaqlar...[1].

N.Nərimanov dalğa və burulğandan xilas olmaq nəhənglər, timsahlar tərəfindən udulmamaq və ümumi camaatı sahilə çıxarmaq üçün hamının, bütün xalq kütləsinin əlbir hərəkət etməsini, xalqın azadlığı, maarifi və mədəniyyəti uğrunda yekdil mübarizə aparmasını yeganə qurtuluş yolu hesab edirdi. Nərimanovun müəllim kadrları hazırlığı haqqında olan bu fikirləri öz dövrü üçün böyük əhəmiyyətə malik idi.

İnqilabdan əvvəl olduğu kimi, sovet hakimiyyəti illərində də Nərimanov müəllim kadrları hazırlığı məsələlərinə xüsusi yer verirdi 1919-cu ildə Həştərxan quberniya Xalq Maarif Şöbəsinin müdiri vəzifəsində işlərkən yeni müəllim kadrları hazırlığı işində onun xüsusi fəaliyyəti olmuşdu. Mövcud şəraiti nəzərə alan Nərimanov qısa müddətli pedaqoji kurslar vasitəsilə yüzlərlə müəllim hazırlanmasını təşkil etmişdi.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində müəllim hazırlığı işində Nərimanovun böyük xidmətləri olmuşdur. Azərbaycan məktəblərini ali təhsilli müəllimlərlə təmin etmək üçün təsis edilən ilk Ali Pedaqoji İnstitutun yaradılması N.Nərimanovun adı ilə bağlıdır. Azərbaycanda sovet hakimiyyətinin ilk illərində respublikanı yüksək ixtisaslı maarif işçiləri ilə, vahid əmək məktəbləri ideyasını həyata keçirməyi bacaranlarla təmin etmək məqsədi ilə Azərbaycan

[1] Yenə orada, səh. 282.

SSR Xalq Komissarları Sovetinin xüsusi qərarına əsasən, Azərbaycanda ilk Ali Pedaqoji İnstitut təşkil edildi. Azərbaycan sovet hökumətinin N. Nərimanovun imzası ilə verilən 26 avqust 1921-ci il tarixli dekretində deyilirdi: «Bu ilin sentyabr ayının 1-dən etibarən Bakı şəhərində ikinci dərəcəli məktəblər üçün dövlət dilində (türk-Azərbaycan) müəllimlər hazırlayan birinci Azərbaycan Dövlət Pedaqoji kişi institutu təsis edilsin. Həmin dekret elan olunduqdan sonra dərhal institutun təşkilinə başlanılsın».[1] 1921-ci ildə bünövrəsi qoyulan və hal-hazırda Azərbaycan alimi Nəsrəddin Tusinin adını daşıyan Azərbaycan Dövlət Pedaqoji Universiteti yaradıldığı gündən bəri ölkəmizə minlərlə ali təhsilli, yüksək ixtisaslı müəllim kadrları vermişdir.

N.Nərimanov müəllim kadrları hazırlığı işinə xüsusi diqqət verməklə yanaşı, gənc azərbaycanlı müəllimlərin qarşısında bir sıra mühüm vəzifələr də qoymuşdu.

Bu vəzifələrdən birincisi əmək məsələsidir. Cəmiyyətin əmək üzərində qurulması ideyasını əsas götürən Nərimanov belə hesab edirdi ki, müəllimlərin tərbiyə etdiyi gənclər ilk növbədə əməksevər olmalıdırlar. 1924-cü ildə APİ-nin ilk məzunlarının buraxılışı münasibəti ilə Moskvadan göndərdiyi «Elmlərini yenicə tamam etmiş müəllimlərə açıq məktub»unda bu məsələni ön planda çəkən Nərimanov yazmışdı:

*«Əziz yoldaşlar! Təzə həyata qədəm qoymanızı təbrik edirəm. Vəzifəniz hər nə qədər qayət çətin, ağır və məsuliyyətli bir vəzifədirsə də, bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəhmətidir».* Ona görə də «sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmətsevər olsunlar, yəni başqasının yox, öz zəhmətlərinin qüvvətilə ehtiyaclarını rəf edici olsunlar».[2]

N.Nərimanov göstərirdi ki, gənc nəsildə əməyə hörmət, məhəbbət hissləri, aşılamaq üçün təbiəti sevdirmək, təbiətin əlamətləri ilə onları maraqlandırmaq lazımdır.

N.Nərimanovun müəllimlər qarşısında qoyduğu vəzifələrdən biri də yeni cəmiyyət quruculuğu üçün ləyaqətli adamlar: doğruçu və vicdanlı adamlar yetişdirməkdən ibarətdir.

Həmin məktubunda N.Nərimanov yazmışdı: «Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cürətli və dəyanətli olsunlar. Yəni bir

[1] "Kommunist qəzeti, 26 avqust 1921-ci il, № 194.
[2] Ali pedaqoji institutunun salnaməsi, Bakı 20 may 1924 —cü il, səh.39.





parça çörəkdən ötəri ikiüzlülük etməsinlər, filankəsin xoşuna gəlmək üçün «qatığa qara deməsinlər».

Bu məsələnin kommunizm quruculuğu üçün əhəmiyyətini xüsusilə qeyd edən Nərimanov müəllimlərə müraciətlə deyirdi: «Amandır, yoldaşlar! Buna yaxşı fikir verin, mənsəbdən ötəri yalan söyləyən, gündə vicdanını satan ikiüzlü adamlar bizim gələcək kommunaya üzv ola bilməzlər».[1]

Şagirdlərin düzlük və doğruçuluq ruhunda tərbiyəsində müəllimin şəxsi nümunəsinə böyük üstünlük verən və şagirdlərin yaş xüsusiyyətlərini nəzərə alan N.Nərimanov göstərirdi ki, «uşaqlarla daimi əlaqədar olan hərəkətinizdə, sözünüzdə artıq dərəcədə ehtiyatlı olmalısınız, çünki uşaq gördüyünü tez götürər».

N.Nərimanovun müəllimlər qarşısında qoyduğu üçüncü vəzifə daha genişdir. O, göstərirdi ki, «Azərbaycan Şərq üçün bir məktəbdir. Yəni Şərq hazırki halında qalarsa biz ona hər cəhətdən müəllim olacağıq».

N.Nərimanovun həmin fikirləri öz aktuallığını bu gün də saxlayır və müstəqil Azərbaycan Respublikasının gənc qurucularının təlim-tərbiyəsi işi ilə məşğul olan müəllimlər ordusunu yeni-yeni müvəffəqiyyətlərə ruhlandırır.

### Əqli təhsil haqqında

XIX əsrin sonlarında Azərbaycan xalqının ağır vəziyyətdə yaşaması, ölkədə hökm sürən savadsızlıq, nadanlıq, məktəblərdə möhkəm kök salmış sxolastika, dini elmlərin tədrisi Nərimanovu dərindən düşündürürdü. Maarifpərvər müəllim ölkədə maarifin yayılmasına və xalqın əsarətdən qurtarmasına çalışırdı. O, öz sələfi M.F. Axundov və müasiri H.Zərdabinin pedaqoji fikirlərini yeni şəraitdə inkşaf etdirərək, dünyəvi elmlərin öyrənilməsi məsələsini zəruri sayır və bu vəzifəni həyata keçirməyə böyük səy göstərirdi.

XIX əsrin sonlarında Rusiyada və digər milli ucqarlarda olduğu kimi, Azərbaycanda da maarifpərvər müəllimlər yalnız dərs deməklə kifayətlənmirdilər. Onlar ədəbiyyat və incəsənətə, mətbuata xalqın ictimai yaralarını müalicə edən qüdrətli bir vasitə kimi baxırdılar. Buna görə də bu müəllimlərin bir çoxu bədii əsərlər yazır, tərcümə

[1] Ali pedaqoji institutunun salnaməsi, Bakı 20 may 1924 -cü il, səh 39.

edir, qəzet və jurnallar nəşr etməyə çalışır, məktəb, qiraətxana və kitabxanalar açır, dərsliklər tərtib edirdilər. Belə müəllimlərdən biri də N.Nərimanov idi. O, XIX əsrin 90-cı illərindən başlayaraq Azərbaycanda elm, maarif və mədəniyyətin inkşafında xüsusi fəaliyyət göstərmişdir. N.Nərimanov bir tərəfdən bədii əsərlər yazır, nadanlığa, avamlığa, kapitalizm quruluşunun törətdiyi faciələrə qarşı mübarizə aparır, digər tərəfdən də gənc nəslin dünyəvi təhsilinə, xalqın maariflənməsinə, insanlığın mənəvi yüksəlişinə çalışırdı. Onun «Nadanlıq» pyesində köhnə kəndin faciələri, xüsusilə kənd müəllimlərinin ağır vəziyyəti, ölkədə nadanlığın hökm sürməsi çox real təsvir olunur. Pyesdə əsasən uşaqların məktəbə cəlb edilməsi, təhsil alması, xalqın maarifə yiyələnməsi məsələsi irəli sürülür. Əsərdə əsas ideya xalqı nadanlıqdan xilas etməkdir. Nadanlığın əsiri olan Qurbanəli, Niyazəli, Hacı Abdulla və başqaları uşaqlarını məktəbə qoymurlar. Kəndin ağsaqqalı hesab olunan Hacı Abdulla, müəllim Məhəmməd ağaya deyir: «Ay Məhəmməd ağa! Boş yerə başını niyə ağrıdırsan! Bizim adam oxumağa uşaq verməz. Hər kəsin özünə görə bir dərdi var. Birinin uşağı qaramal otarır, o birininki qoyuna gedir, biri yer əkir, uşaqlarını da sənə versinlər, bəs işləri necə olsun».[1]

XIX əsrin axırları, XX əsrin əvvəllərində geniş xalq kütlələri arasındakı nadanlıq, dünyəvi məktəblərə qarşı mürtəce ruhlu din xadimlərinin əks təbliğatının təsiri o dərəcəyə çatmışdı ki, Hacı Abdulla kimi avamlar məktəbə xor baxır, öz uşaqlarının təhsili və tərbiyəsi ilə maraqlanmır, məktəb yaşlı uşaqları məktəbə qoymurdular. Müəllim Məhəmməd ağa öz vəziyyətindən şikayətlənərək deyir: «Günlərim qəribə qəmgin keçir. İki aydır ki, gəlmişəm, bu vaxta qədər ancaq iki şagird gəlibdir. Bunlarla mən nə edəcəyəm? Güclə deyil ki, müəllimi bu ölkədə özlərinə düşmən hesab edirlər».[2]

Qurbanəli buna cavab olaraq deyir: «Genə yaxşı ki, o da var. Əvvəlki mollanın (uçitelin) heç iki şagirdi də yox idi. İndi uşaqlar atalarının çöl işlərindədirlər. Yarım aydan sonra çöl işləri qurtarar və soyuq düşər, onda şagirdlərin çoxalar. Sən qarı gözlə. Elə ki qar yağdı, gündən-günə şagirdlər çoxalacaq, çünki o vaxt işləri olmayıb və evdə qalıb şuluqluq eləməsinlər deyə, sənin yanına göndərəcəklər. Elə ki,

[1] *Bax:* N.N ə r i m a n o v. Əsərləri. Bakı, 1956, səh 19.
[2] *Y e n ə  o r a d a*, səh.15.





genə yaz açıldı, hamısı kənd işlərinə gedəcəklər. Xülasə, başını nə ağrıdım, bu şkolda ildə üç ay qışı oxuyurlar».

Vəziyyəti belə görən müəllim Məhəmməd ağa koxanı məktəbə çağırtdırıb, heç olmasa onun vasitəsi ilə camaata təsir etmək və uşaqları məktəbə cəlb etmək fikrinə düşür. Lakin bu da heç bir nəticə vermir. Onlar oxumağın, elmin əhəmiyyətini anlamırlar. Onların halına acıyan müəllim öz-özünə deyir: «İnsan ki, oxumağa və elmə düşmən ola, onun gələcəyi nə olmalı idi?».[1]

Hacı Abdulla kimi geridə qalmış, avam adamlara belə gəlir ki, uşağın oxuması onu «düz yoldan çıxarır». Ona görə də o, böyük oğlu Öməri oxutdurduğu üçün bərk peşmandır. Çünki hacının fikrincə, oxumaq Öməri qeyrətsiz etmişdir. Dövrün çürük adət və ənənələri hacı abdullaların gözünü o qədər kor etmişdir ki, onlar aşkar şeyləri də görmürlər. Onlar görmürlər ki, Ömərin göstərişi ilə, elmi əsaslarla becərilən yerlər daha artıq məhsul verir. Müəllim Məhəmməd ağa Öməri müdafiə etməyə çalışaraq deyir: «İş o deyil ki, əlinə kotan alsın, onun köməkliyi bu olubdur ki, yerinizi necə ki, lazımdır şumlayıb. Təzə çıxan kotan alıbdır. Yeri elmə müvafiq şumlayıb və nə tövr kotanla əksən, taxıl yaxşı çıxar. Bunların hamısı kitablarda yazılıbdır. Hərgah Ömər oxumasaydı, belə şeyləri bilə bilərdimi?». Lakin hacı abdullalar bunu anlamaqdan uzaq olduğu üçün müəllimin səyləri nəticə vermir. Onlar müəllimi də, savadlı, ağıllı və tərbiyəli Öməri də lağa qoyurlar.

Kənddə fikrini heç kəsə anlada bilməyən Məhəmməd ağa ruhdan düşmür və «yoldan azmış bu adamları düz yola gətirməyə» çalışır. Lakin bunlar da heç bir nəticə vermir. Avamlığın, nadanlığın hökm sürdüyü bir kənddə yaşayan və heç bir köməyi olmayan müəllim Məhəmməd ağa oxumağın, məktəbin əhəmiyyətindən nə qədər danışırsa da, təsirsiz qalır və nəticədə avamlıq özünü göstərir. Qaçaqçılıq və quldurluqla məşğul olan Vəli qardaşı Öməri güllə ilə vurub öldürür.

N.Nərimanovun «Nadanlıq» əsərində yaratdığı Məhəmməd ağa obrazı XIX əsrin axırlarında nadanlığın, savadsızlığın hökm sürdüyü Azərbaycan kəndlərində maarif işinin yayılmasına çalışan bir müəllim obrazıdır.

[1] N.N ə r i m a n o v. Əsərləri, Bakı, 1956, səh 15-16.

Gənc nəslin təhsilinə böyük əhəmiyyət verən N.Nərimanov keçmiş sxolastik bilikləri və bunun tərəfdarlarını ciddi tənqid atəşinə tutmuşdur. Xalqlar dostluğunun tərənnümünə həsr olunmuş «Bahadır və Sona» romanında Azərbaycan xalqının ailə və məişəti, gənc nəslin təlim-tərbiyə məsələsi, din, ədəbiyyat, mətbuat və s. ilə bərabər dünyəvi elmlərə yiyələnmənin vacibliyinə aid də bir sıra qiymətli fikirlər irəli sürülür.

Əsərin əsas qəhrəmanı Bahadırın fikrincə müsəlman millətinin elmdən geri qalmasının bir səbəbi nadanlıqdırsa, digər səbəbi ruhanilər — mollalardır. «Ruhanilər bir neçə səbəblərə görə dünya elmlərinə həmişə düşmən olublar, yəni tərəqqi yolunu mümkün olan qədər millətin üzünə bağlı qoyublar». Bu məsələ xristian aləminə nisbətən, islam aləmində daha eybəcər şəkildə olmuşdur. Belə ki, «xristian aləmində ruhanilər elmlərə düşmən olublarsa da, fəqət padşahlar və dövlət ruhanilərlə müdam müharibədə bulunublar. Ruhanilər əski qanunlara yapışarkən camaatı qaranlıqda saxlamaq istəyiblər.

Padşahlar — dövlət isə zəmanənin təqazasına görə təzə qanunlar meydana gətirməklə millətin tərəqqisinə çalışıblar. Xristian aləmi müdam belə bir müharibədə olarkən özünü ruhanilərin zəncirindən yavaş-yavaş xilas ediblər. Müsəlman aləminə diqqət edərsiniz isə bu müharibəni görməzsiniz. Padşah həm xəlifə olub, həm də dövlətin yol göstərəni».[1]

N.Nərimanov bu fikrini sübut etmək üçün göstərir ki, ruhanilər nəinki elm oxumağın əlehinə çıxırdılar, hətta onlar qəzet oxuyanları uşaq və nadan adlandırırdılar.

Ruhanilərin mürtəce mövqeyini tənqid edən Nərimanov hər bir millətin dünyəvi elmlərə yiyələnməsi fikrini zəruri sayır, elmsiz millət tərəqqi etməz deyirdi. Nərimanov deyirdi ki, əsl qüvvət elmdədir, onun qüvvəsi qılınc və tüfəngin gücündən müqayisə edilməz dərəcədə qüvvətlidir. Çünki elmin gücü insanı irəliyə, tərəqqiyə, inkişafa aparır, onun gələcəyini işıqlandırır, zülmətlərin içərisindən nura yol açır. Silah isə maarif və mədəniyyətin inkşafına mane olur, xalqa əzab-əziyyət verir. Tarixə nəzər salsanız, «yəqin edərsiniz ki, heç bir millət qılınc və tüfəng ilə irəli getməyibdir. Hansı millət ki, qabağa gedib, tərəqqi edibdir, ancaq elmin gücünə xoşbəxt olubdur. Amma o millət ki, ümidini qılınca bağlayıb, həmişə zəlalətdə bulu-

[1] N.Nərimanov. Əsərləri. Bakı, 1956, səh.171.





nubdur».[1] Oxumaq, elmə sahib olmaq insan üçün ən gözəl nemətdir, çünki elm hamının yiyələnməsi zəruri olan tükənməz bir xəzinədir.

N.Nərimanovun dünyəvi təhsilin və elmin əhəmiyyətinə aid fikirləri yalnız bədii əsərlərində deyil, dərsliklərində və bir sıra publisistik məqalələrində də öz əksini tapmışdır. Onun bədii əsər və məqalələrində belə fikirlərə tez-tez rast gəlirik: «İnsanın ruhuna elm verən ləzzəti heç şey verməz», «Elmlərin barəsində çox şey yazılıb, ancaq oxuyan istər», «Elmi sevən qaranlıqdan işığa düşər», «Elmin işığı yanan lampanın işığına bənzəməz», «İnsan ancaq oxuya-oxuya xoşbəxt olur», «Elmin gücünə xoşbəxt olan qeyrətini əldən verməyib başlar öz millətinə kömək etməyə», «İnsan harada olmuş-olsa elm gərək oxusun», «Elmsiz millət qabağa getməz» və s. Elmin rolunu yüksək qiymətləndirən, nadanlığa, cəhalətə və cəmiyyətdəki pisliklərə, dövrün çürük adət və ənənələrinə qarşı ardıcıl mübarizə aparan Nərimanov fəaliyyətinin ilk illərində ölkədə məktəblər açmağı, maarif və mədəniyyəti yaymağı başlıca məsələ, yeganə çıxış yolu hesab edirdi. N.Nərimanov bu məsələlərin yalnız təbliği ilə kifayətlənmir, onu əməli şəkildə həyata keçirirdi. Onun dərsliklər yazması, kitabxana açması, uşaqlara təlim-tərbiyə verməyi özünə şərəf sayması bunu aydın göstərir.

Məktəb şəbəkəsini genişləndirməyi günün vacib məsələsi sayan Nərimanov deyirdi ki, bizi ancaq məktəb nadanlıqdan xilas edə bilər.

N.Nərimanova görə, elm oxumaq, tərəqqi etmək üçün məktəb, məktəb açmaq üçün isə vəsait lazımdır. Belə bir mənbə isə teatrdır, çünki teatrın birinci əhəmiyyəti xalqın məişətinə, əxlaqına təsir etməkdirsə, ikinci əhəmiyyəti oradan yığılan pulların uşaqlar üçün məktəb tikilməsinə sərf edilməsidir.

N.Nərimanovun bu fikirləri o zaman pedaqoji ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

XIX əsrin sonları, XX əsrin əvvəllərində yeni məktəb uğrunda mübarizə genişlənmiş, qabaqcıl müəllimlər yeni üsullu məktəblər açaraq, uşaqları elmi biliklərlə silahlandırmaq işində xeyli müvəffəqiyyətlər qazanmışdılar.

Lakin bununla belə məktəbyaşlı uşaqların əksəriyyəti təhsildən kənarda qalırdı. Mövcud məktəblər məktəbli uşaqların hamısını əhatə edə bilmirdi. Ona görə də Nərimanov mövcud şəraiti nəzərə alaraq

[1] N.Nərimanov. Məqalələr və nitqlər. I cild. Azərnəşr, 1971, səh.33

varlılara müraciət edir, onları məktəblər açmaq, uşaqları təhsilə cəlb etmək üçün müəllimlərə kömək göstərməyə çağırırdı.

O, 1906-cı il iyunun 2-də «Həyat» qəzetində dərc olunan «Həftə fəryadı» adlı felyetonunda cavanlaşmaq fikrinə düşən və var dövlətini bu yolda sərf edən, nəticədə isə gülünc vəziyyətdə qalan qoca fransız Markizin timsalında bəzi dövlətliləri satira atəşinə tuturdu. Müəllifin fikrincə, əsl məsələ təzədən dünyaya gəlmək, cavanlaşmaq, «bədən ləzzətindən, məxsusi nəfsdən» ibarət deyil, insanın həm sağlığında, həm də ölümündən sonra özünü əbədiləşdirə bilməsindədir; «...ruhunuza yem axtarmaq istəyirsinizsə, cavanlaşmağa ehtiyacınız yoxdur, əfəndim! Bədəninizin puç olmasına bir gün, bir saat qalmış da ruhunuza ləzzət verə bilərsiniz, adınızı dillərdə baqi qoyarsınız. Yetmiş ilin ərzində etdiyiniz xətaları düzəldərsiniz».

Göründüyü kimi, N.Nərimanova görə, hər bir insan cəmiyyətin xeyrinə, vətənin tərəqqisi, gəncliyin sabahı naminə çox səmərəli iş görə bilər və görməlidir. Bu işlərdən biri də qızlar üçün məktəb açmaq, onlara təlim-tərbiyə verməkdən ibarətdir. Elə buna görə də maarifpərvər müəllim dövrünün varlı qocalarına müraciətlə yazmışdı: «Bir qız məktəbi açınız. Millətə tərbiyəli, məlumatlı qızlar — analar hazırlayınız, çünki uşaqlarımızın tərbiyəsi (sarıdan) atalarımız, analarımız, qanlı yaşlar tökürlər».[1]

N.Nərimanov hər vasitə ilə xalqın maariflənməsinə, gənclərin, o cümlədən qızların təhsil almasına çalışırdı. O, deyirdi ki, gənclərin təhsili məsələsində biz «əcnəbilərə gülünc olmuşuq». Bunun üçün də «lazımdır ki, darülfünunlar açmaq. Çünki ümumi Vətən, millət işlərində elmsizlik bizi ayaq altına verir». Oxumağın, elm və təhsilin vətən və millət üçün böyük əhəmiyyətindən bəhs edən Nərimanov, varlıları oxuyanlara kömək etməyə çağıraraq deyirdi ki, yetimlərə, oxuyan uşaqlara kömək edin. Darülfünunlarda həftələrlə ac qalan tələbələrə rəhm edin. Çünki bunlardır gələcək qələm müharibəsində qabaqda durub düşmənə cavab verənlər, bunlardır dilimizə böhtan deyənlərin qəzəblərini üzlərinə vuranlar, bunlardır millətə, vətənə dair məsələlərinizi layiqincə həll edib, asana çıxaranlar. Əgər bir-iki uşaq oxutmaqla şan-şöhrət qazanmağı qeyri-mümkün hesab edirsizsə, onda həmişəlik yetimlər üçün bir məktəb açın. Aldığınız prosentlərin cüzi bir hissəsini bir xeyir işə sərf ediniz. Bir uşaq yox, minlərcə uşaq xoşbəxt edin, minlərcə ata-analarımızı qazamatların, sudların qapıla-

[1] N. Nərimanov. Seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh. 274.





rından çəkindirin. Soldatların ürəyə dağ çəkən sözlərindən xilas edin. Bu işləri görsəniz, onda həm həyatınızda, həm də həyatınız puç olandan sonra adınız söylənəcəkdir. Ruhunuz təzə qalıb cavanlaşacaqdır. Sizin bina etdiyiniz məktəbdə tərbiyə alıb təhsili başa vuran uşaqların xeyirli işlərə, yaxşı əməllərə sadiq olduğunu atalarımız, analarımız gördükcə sizləri yada salıb, rəhmət oxuyacaqlar.

Lakin Nərimanov yaxşı bilirdi ki, varlılara müraciət cavabsız qalacaqdır. Çünki onlar zəhmətkeşlərin balaları üçün məktəb açmağa, dünyəvi elmlərin tədris olunmasına səy etməzlər. Hakim sinfin nümayəndələri nəinki Nərimanovun faydalı müraciətinə əməl etmir, onu eşitmək belə istəmirdilər. Ədib isə onların öz vicdanları qarşısında günahkar olacağını qabaqcadan xəbər verərək yazırdı ki, biz Sizi rahat qoyduq... Əcəba vicdanınız Sizi rahat qoyacaqmı?

Bəy, ağa və kəndxudaların çürük, iyrənc mənəvi sifətlərini ifşa edən Nərimanov onları xalqın maariflənməsinə, tərbiyələnməsinə kömək etməyə çağırırdı. O, deyirdi ki, boş "qab" ilə plov olmaz, yağ-düyü gərəkdi.

1905-ci ilin inqilabi hadisələrini yada salan Nərimanov digər millətlərin oyandığını, tərəqqi yoluna düşdüklərini göstərirdi. Borçalı bəylərini də onlardan ibrət götürməyə dəvət edirdi. O, bir sıra ölkələrin, ilk növbədə Rusiyanın inkişaf etdiyini qeyd edir, böyük Pyotrun Peterburq şəhərini saldırıb, özünə paytaxt etdiyini, oradan Avropaya "pəncərə" açdığını misal gətirir və qeyd edir ki, Rusiya milləti Avropa millətlərinə "baxdı", onlarda olan elm və fənni "yavaş-yavaş" əxz etməyə başladı. Ruslar gördülər ki, avropalılar özləri ilə bir arşın saqqal gəzdirmirlər, bunlar da saqqallarını ya gödəltdilər, ya dibindən qırxdırdılar; avropalılar uzun xalat, on arşından şalvar geymirlər, bunlar da şalvarını dar, xalatlarını qısa etdilər, avropalılar bir arşın papaq geyib başlarına ağırlıq vermirlər, bunlar da papaqlarını gödək etdilər, hətta rus arvadları da avropalıları təqlid edərək, məclislərə daxil oldular və s. N.Nərimanov Borçalı bəylərini də inkişaf etmiş xalqlardan öyrənməyə, maarif və mədəniyyətin tərəqqisinə çalışmağa dəvət edirdi. O, göstərirdi ki, Bakıda, Tiflisdə və Gəncədə camaat elmin, fənnin, sənətin mənfəətini anlayıb, uşaqlarını oxutmağa çalışır. Bunun üçün Bakıda gimnaziya, realnı və ibtidai məktəblər açılır, evlərdə uşağı oxutmaq üçün müəllim tuturlar, darülmüəllim açmaq, xəstəxana tikmək istəyirlər. Qəzet oxumağa həvəsləri artır. Cavanlar hürriyyət yolunda canlarından keçməyə hazırdır, şəhərdə təzə

hamamlar tikilir, fəhlələr üçün qiraətxanalar açılır, uşaqlar üçün yeni məktəblər bina olunur.

N.Nərimanov yazırdı ki, "İran dövləti bizim üçün təzə mədrəsələr açmayacaqdır, köhnə mədrəsələrə təğyir verməyəcəkdir. Rus dövləti təzə mədrəsələr açmaqdansa, köhnələri də qapayır. Zəngin hacılarımız kisələrinin ağızlarını bərk-bərk bağlayırlar. Bəs tələbələrimiz harada təhsil alsınlar? Qayda-qanunla mədrəsəmiz olsa, biçarə tələbələrimiz illərlə atadan-anadan, külfətdən ayrı düşüb, min-min zəhmət ilə qürbət vilayətdə təhsil almağa getməzlər".[1]

N.Nərimanov Rusiyanın maarif və məktəb sahəsindəki bir sıra nailiyyətlərini göstərməklə Azərbaycan xalqının da onlardan öyrənməsinə, qabaqcıl Rusiya kimi tərəqqi etməsinə çalışırdı. Bununla bərabər o, çar Rusiyasında hökm sürən savadsızlığı da görür və çarizmin xalq maarifinə laqeyd münasibətini kəskin tənqid edirdi.

Məlum olduğu kimi, inqilabdan əvvəlki Rusiya Avropada maarif, elm və bilik cəhətincə ən geridə qalmış ölkə idi. Rusiyada uşaq və yeniyetmələrin beşdə dörd hissəsinə qədəri xalq maarifindən məhrum idi. Xüsusilə də kəndlilər cəhalət içində idi. Bu cəhətə xüsusi fikir verən Nərimanov hələ 1906-cı ildə "Həyat" qəzetində nəşr etdirdiyi "Dövri-cədid" adlı məqaləsində çar hökumətinin xalqı mədəniyyətdən, savaddan kənarda qoymasını göstərir, rus çarizminin xalq maarifi sahəsindəki siyasətini ifşa edirdi. O, Rusiyada xalq maarifinin vəziyyətini Avropa ölkələri ilə müqayisə edərək deyirdi ki, "Avropa kəndlilərilə rus kəndlilərinə təfavüt qoyanda nə görürsən; savad cəhətincə Avropada yüzdən yetmiş kəndli savadlı olursa, Rusiyada mindən biri də olmaz"[2]. Nərimanov yazırdı: «Avropa dövlətlərində rus kəndlisi kimi kasıb, fəqir, dilsiz, vicudsuz rəiyyət tapmaq çətindir. Şimaldan cənuba, Ağ dənizdən Qara dənizədək əkin yerlərini nəzərə aldıqda zənn olunur ki, rus kəndlilərinin güzaranı gərək yaxşı olsun. Lakin belədirmi? 80 milyon kəndlidən ancaq bir milyonunun məxsusi cəmiyyət yeri var desək, böyük səhv olmaz zənn edirik».[3]

Rusiyada vəziyyət belə olanda, sonralar Rusiyanın işğal etdiyi vilayətlərdə vəziyyət daha pis idi. Belə ki, çar Rusiyası sonradan özünə tabe etdiyi millətləri bütün ixtiyarlardan məhrum etmişdi. Çar

[1] «Həyat» qəzeti, 23 iyun, 1906-cı il.
[2] «Həyat» qəzeti, 18 iyun 1906-cı il, № 107
[3] Yenə orada.





hökuməti nəinki məktəblər açmağa, «hətta milli ruznamə nəşr etməyə» belə icazə vermirdi. Mövcud məktəblərdə Azərbaycan dili sıxışdırılıb aradan çıxarılırdı. Bütün bunlar Rusiyanın işğal etdiyi ərazilərdə yaşayan xalqların tərəqqisinə hər cür vasitə ilə mane olmağa yönəldilmiş imperiya siyasətinin nəticəsi idi.

N.Nərimanov məktəbdə təlimin məzmunu və üsullarına aid də bir sıra dəyərli fikirlər söyləmişdir. Onun fikrincə, əsas məsələ hansı elm sahəsində təhsil almaqdadır. «Bu günədək filan axund İranda filan şəhərdə təhsil edibdir» sözləri ilə kifayətlənirdiniz. Lakin hansı elmi təhsil edibdir? Nə tövr? Hansı alimin yanında? Hansı mədrəsədə? Tamam edibmi?» və s. bu kimi məsələlərə diqqət edilmirdi.

N.Nərimanov istər təhsilin rus dilində verildiyi dövlət məktəblərini, istərsə də ənənəvi məscid məktəblərinin tədris planı və proqramlarını ciddi tənqid edir, xüsusilə ruhani məktəblərində təlim üsullarının yaramadığını, bu məktəblərin xalqa xeyir vermədiyini dönə-dönə qeyd edirdi. O, yazırdı ki, «bu vaxtadək millətin balalarını kor edən, hər şeydən avara salan, vaxtlarını əbəs yerə puç edən məktəblərimizdə nuhun əsrindən qalan üsul ilə dərs deməkdir».

Məktəblərimizdə orta əsrlərdən qalan üsulla dərs vermək «zavallı uşaqların, gələcək millət balalarının fəhmlərini, zehinlərini korlamaqdan» başqa bir şey deyildir. N.Nərimanov belə məktəblərin bağlanmasını daha faydalı hesab edirdi. Bu məktəblər nəinki kəndlərdə, hətta şəhərlərdə, məktəb direktorları, inspektorları olan mərkəzlərdə göbələk kimi artmaqda idi. N.Nərimanov yazırdı ki, «Camaat özü bu məktəbləri qapamasa, dövlət işə qarışmayacaqdır». Çünki dövlət bizim «milli» məktəblərə ibtidai diqqət etdi və onları bağlamaq istədi. Lakin bu məktəblərin proqramlarını, təlim üsulunu düşünüb onların artmasına mane olmadı. Aşkar gördü ki, «bu məktəblər milləti diriltməkdənsə, öldürəçəkdir». Ona görə də bu məktəbləri özbaşına buraxdı.

N.Nərimanov Qafqaz müsəlman müəllimlərinin birinci qurultayı (1906) ərəfəsində yazdığı «Mühüm bir məsələ» («Qori seminariyası nərədə olmalı? Camaatımız kimdir? Qulaq asan kimdir?») adlı məqaləsində məktəblərdə təlimin ana dilində aparılması zəruriyyətini xalqa başa salır, bu məsələdə mürtəce mövqe tutanları tənqid edirdi.

N.Nərimanov yeni üsullu məktəblərin (Ordubadda və Naxçıvanda M.T.Sidqinin, Şamaxıda S.Ə.Şirvaninin, Bakıda S.M.Qənizadə ilə H.Mahmudbəyovun məktəbləri nəzərdə tutulur. - *H.Ə.* ) üstün

cəhətlərini, o cümlədən, tədrisin yeni üsulla, üsuli-cədidlə aparılmasını yüksək qiymətləndirirdi. «İnsafən dövlət məktəblərində üsuli-cədid ilə dərs verilir», — deyən Nərimanov Azərbaycan şəraitində dövrün yeni tipli məktəbi olan üsuli-cədid məktəblərinin tərəfdarı olmuş və bu məktəblərin yaranmasını tarixdə böyük hadisə hesab etmiş, onun təşkilatçılarına rəğbət bəsləmişdir.

O, Bakıda ilk rus-müsəlman məktəbinin yaradılmasını «mədəniyyətimizin tərəqqisində bir hərəkət» adlandırırdı. Yeni üsullu məktəblərin yaranması və inkişafından bəhs edən Nərimanov «Müəllimlər ictimainə dair» adlı məqaləsində yazırdı: «İki cavan, kasıb müəllim (S.M.Qənizadə ilə H.Mahmudbəyov nəzərdə tutulur — *H.Ə.*) Bakıya gəlib «borc-xərc» bir məktəb binası qoydular. Camaatın nəinki fikrindən belə bir məktəb keçmirdi, hətta əksəriyyəti buna zidd əqidədə ikən, iki cavan zəmanənin təqazasını pək gözəl anlayıb cürətlə meydana gəlirlər. Onlar Nuh vaxtından qalmış qanun tədrisi ilə hərəkət edən məktəblərin müqabilinə üsuli-cədid məktəbi çıxardırlar».[1]

Müəllif yazırdı ki, bu məktəblərin meydana gəlməsi köhnə məktəblər ilə yeni məktəblərin arasında müharibənin başlanmasına səbəb oldu.

Yeni məktəb ilə köhnə məktəbdəki təlim-tərbiyənin məzmunu və üsullarını bir-biri ilə müqayisə edən Nərimanov göstərir ki, «Bu cavan müəllimlər təhsil etdikləri pedaqogika elminə ümid bağlayıb, qeyrətlərini, səylərini günü-gündən artırıb balalarımıza yeni üsulla təlim-tərbiyə verib və onların əqlini inkişaf etdirdikləri halda, köhnə məktəbdar müəllimlər isə ata-baba qaydası ilə gedərək, uşaqların əqidələrinə seyğəl vermək əvəzinə onların zehinlərini kor etməyə çalışırdılar». N.Nərimanov yazırdı ki, ilk vaxtlar camaat yeni məktəbin üstünlüyünü hələ görə bilmirdi. Lakin çox çəkmədi camaat yeni üsuli-cədid ilə hərəkət edən məktəbin gücünü görüb, bir fikrə getdi. Gördü ki, iki-üç il köhnə qayda ilə oxuyan uşaq axırda öz adını da yaza bilmir. Üsuli-cədid qaydası ilə oxuyan uşaqlar isə iki ayın ərzində ana dilində və yarım ilin ərzində rus dilində yazıb-oxuyurlar. Ona görə də xalq yeni məktəblərə rəğbət bəsləməyə, uşaqlarını yeni məktəbə göndərməyə, «həmin məktəblərin qapısını tanımağa» başladı. Beləliklə də «camaatın rəğbətini görən iki cavan daha ziyada

[1] N. N ə r i m a n o v. Seçilmiş əsərləri, Bakı, «Elm» nəşriyyatı, 1973, səh. 316





səylərini artırdı və rus-müsəlman məktəbləri günü-gündən tərəqqi etməyə başladı».

N.Nərimanov yazır ki, axırda bu məktəblər bəs etmədi və camaat özü belə məktəbləri artırmağa başladı. Ona görə də şəhər duması camaatın xahişinə görə rəsmi rus-müsəlman məktəblərini açmağa məcbur oldu və bu məktəblərin sayı ilbəil artdı. Üsuli-cədid məktəblərinin sayı artdıqca Bakıda müsəlman müəllimləri də çoxalırdı. Həmin müəllimlər nəinki təkcə uşaqlara, həm də yaşlılara savad öyrətməyə çalışırdılar.

N.Nərimanov təlim-tərbiyə işində müvəfəqiyyət qazanmaq üçün pedaqogika elminə, didaktikaya istinad etməyi, didaktikanın prinsiplərinə əsaslanmağı mühüm şərt hesab edirdi. Onun fikrincə, Bakıda xalq maarifinin nisbətən tərəqqi etməsinə əsas səbəblərdən biri qabaqcıl müəllimlərin məhz «pedaqogika (didaktika) elmlərinə pənah aparmalarıdır». Onlar darülmüəllimində öyrəndikləri, «asandan çətinə və yaxından uzağa hərəkət etmək qanunları ilə tərəqqi yoluna ayaq qoyurdular».

N.Nərimanov təlimin müvəffəqiyyətini təmin etmək üçün psixologiya elminə istinad etməyi də lazım bilirdi. O, psixologiyanı «camaata dair elmi-ruh» adlandırırdı.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda məktəb şəbəkəsinin nisbətən inkişaf etməsinə baxmayaraq, hələ də xalq maarifi, məktəb və təhsil işi yarıtmaz idi. Uşaqlar təhsil işində bir sıra çətinliklərə məruz qalırdılar. Mövcud üsuli-idarənin təqsiri üzündən məktəbli uşaqların həyatı çox ağır idi. İnqilabdan əvvəlki uşaqların təhsil yolunda çəkdikləri əzabları ümumiləşdirən Nərimanov 1911-ci ildə yazırdı: «Biz anadan təvəllüd tapıb da bu mərtəbəyə yeriş etməkdə böyük zəhmətlərə, ağır məşəqqətlərə mübtəla olduq. Dərin uçurum dərələri keçib uca dağları aşarkən, həyatımız hər gün, hər saat və hər dəqiqə təhlükədə bulunub, məqsədimizə çatmamış həlak olmağımızı düşünürdük».[1]

Belə bir vəziyyətdə məktəbyaşlı uşaqların çox az hissəsi öz məqsədinə çatırdı və bunlar da müəyyən bir məqsədə çatanadək müxtəlif əzablara düçar olurdular. Bu cür şəraitdə «mindən birimizin üzünə xoşbəxtliyin günü doğub, min-min bəlalardan xilas olub da, hazırdakı dərəcəyə çatdıq, yəni bir nöqtəyə, bir məqamə yetişdik ki, insan ilə heyvanın fərqini anladıq, düşündük ki, biz insanıq, bizə

[1] «Məktəb» jurnalı, 1911, № 1, səh. 2.

yemək-içməkdən başqa, ruhumuzu təmizləmək, əqlimizə seyqəl vermək lazımdır»[1].

N.Nərimanov yazır ki, bundan sonra biz təkcə ruhumuzu təmizləmək, əqlimizə seyqəl verməklə kifayətlənmədik, biz «düşündük ki, ruhumuzun təmiz olmağı və təhsil etdiyimiz elmlər məxsusi tək bizim üçün deyil, bəlkə ümumi insan üçündür. Yəni məktəb vasitəsi ilə öyrəndiyimiz elmləri, fənləri insanlar arasında inkişaf etdirmək fikrində bulunduq».

Biz məqsədimizə çatmaq üçün çətinliklə mübarizə aparmalı olduq. Bunun birincisi atalarımızın elmsiz olması idi. Belə ki, atalarımızın elmsiz olması bizim qaranlıqdan işıqlığa çıxmağımıza, yəni təhsil almağa, dünyəvi elmləri öyrənməyimizə mane olurdu. Təhsil işindəki ikinci çətinlik isə köhnə məktəblərdə, xüsusilə mollaxanalarda hökm sürən təlim üsulu ilə əlaqədar idi. Belə ki, Uşaqlar «10 il, 20 il dizləri üstə gözəl ömürlərini boş-boş kitablar arxasında çürüdüb, axırda bir işə yaramırdılar». Bundan başqa milli qəzet, milli ədəbiyyat da yox dərəcəsində idi, xalq ona həsrət qalmışdı. «Nəinki balalar, hətta böyüklər üçün də ruznamələr yox idi. Ağızlarımız bağlı, fikirlərimiz dağınıq, halımız qayət pərişan idi».

Uşaqların təhsilini çətinləşdirən üçüncü məsələ, Nərimanovun fikrincə analarımızın savadsızlığı idi. «Ah bu nə yaman bəla! Necə ağır, məşəqqətli müharibə!» — deyən Nərimanov, bu cəhəti gənclərin təhsilinə mane olan ən böyük bəla adlandırırdı. O, yazırdı: «Analarımız bizləri, əlbəttə, sevirdilər: fəqət bizlərə şəkər yerinə zəhrimar verirdilər. Bədənimizi, ruhumuzu, əqlimizi büsbütün xarab edib, bədəndən şil, ruhdan zəif, əqildən naqis edərək biz pərişan hallıları dünyanın üzərinə buraxırdılar. Belə bir dəhşətli yollar ilə gedərkən mindən birimiz ruzigarın sədəmələrindən yarımcan xilas olurduq».[2]

N.Nərimanov öz mütərəqqi müasirləri ilə birlikdə hər üç cəhətə qarşı ardıcıl mübarizə aparmış və gənc nəslin normal inkişafına, təlim və tərbiyəsinə çalışmışdı. O, gənclərin təlim və tərbiyəsi sahəsindəki dəhşətləri, gənclərin çəkdikləri əzab və əziyyətləri göstərməklə bərabər, yetişməkdə olan gənc nəslin həyat yolunu, bu yoldakı aydınlığı da görürdü. 1911-ci ildə Bakıda nəşrə başlayan «Məktəb» jurnalının 1-ci nömrəsində dərc etdirdiyi «Əziz balalar» adlı

[1] Yenə orada
[2] «Məktəb» jurnalı, 1911, №1, s.2.





məqaləsində o yazırdı: «Biz gedən yol ...daşlı, torpaqlı, iti tikanlar ilə səpilmiş olarkən, sizin həyatınızın yolu işıq, təmiz, yumşaq görünür».

N.Nərimanov həmin məqaləsində uşaqların əqli təhsil sahəsində müvəffəqiyyət qazanması üçün bir sıra pedaqoji-tibbi məsləhətlər də vermişdir.

N.Nərimanovun Oktyabr inqilabı ərəfəsində yazdığı məqalələrində ümumi icbari təhsildən, təlimin məzmunundan bəhs olunur. Xalq dövrə, zəmanəyə görə ona daha çox xeyir verə biləcək partiyanın ardınca getməyə səslənirdi. Məsələn, 1917-ci ildə Bakı şəhər dumasına seçkilər ilə əlaqədar olaraq Təzə Pir məscidində keçirilən mitinqdə çıxış edən Nərimanov deyirdi ki, hər hansı partiyaya səs verərkən onun gözəl vədələrinə yox, məramnaməsinə görə səs verin. O, müsavat firqəsinin məramnaməsini misal gətirir və deyirdi ki, bu firqənin məramnaməsi ancaq ibtidai məktəblərdə pulsuz təhsili nəzərdə tutur. Deməli, müsavatçılar bu məramnamənin tələbi ilə gələcəkdə dumada hərəkət edəcəklər. Bunun əksinə olaraq, «Biz deyirik ki, bu azdır: qeyri məktəblərdə də, xüsusən, sənət məktəblərində də təlim məccani gərəkdir olsun: çünki bu məktəblərdə də təlim məccani olmaz isə fəhlə və zəhmətkeşlərin, kasıbların uşaqları ibtidai məktəbdən sonra küçələrdə qalacaqlar. Biz bu nöqteyi-nəzər ilə qeyri firqələrlə mübarizə edirik...».[1]

Oktyabr sosialist inqilabı nəticəsində maarif sahəsində xalqın əldə etdiyi hüquqlar Nərimanovu sevindirirdi. 1918-ci ilin yanvarında yazdığı «İki sinfin balaca tarixçəsi. Bu günkü həyəcanlıq» adlı məqaləsində bu məsələdən bəhs edən Nərimanov deyirdi ki, inqilab bizə külli-ixtiyar verib deyir: siz müsəlmanlar öz millətinizi özünüz dolandırın. Hər bir cəhətdən azadsınız. Özünüz üçün qanunlar verin, məktəblər açın, dininizi, dilinizi inkişaf etdirin. Gənc nəslə zamanın tələbinə müvafiq təlim və tərbiyə verin. Bu cür inam və düşüncələrdən ruhlanan N.Nərimanov xalq maarifinin tərəqqisinə aid arzularını sovet hakimiyyəti illərində əməli surətdə həyata keçirmək üçün var qüvvəsi ilə çalışır, əlindən gələni edirdi.

[1] N.Nərimanov. Məqalələr və nitqlər, I cild, Azərnəşr, 1971, səh 129.

**Ana dili və onun tədrisi məsələləri**

N.Nərimanov gənc nəslin təlim-tərbiyəsi ilə, ilk növbədə ana dili məsələləri ilə yaxından məşğul olmuş və özündən sonra böyük irs qoymuşdur. Odur ki, onun pedaqoji fikirləri içərisində diqqəti cəlb edən məsələlərdən biri də ana dili və onun tədrisidir. Həm də bu məsələ Nərimanovun pedaqoji irsində əsas yerlərdən birini tutur.

N.Nərimanov, hər şeydən əvvəl, Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparırdı. Onun fikrincə, «bir dilin qədrini millət o vaxt bilər ki, həmin dildə yazılan inşalar millətin həm bədəninə, həm də ruhuna tərbiyə verə...İnşa yazanlarımıza baxırsan, «əlfazlar» o qədər gözlərini kor edib ki, əsil məqsədi yaddan unudublar... və bir neçəsi də öz hissiyyatını qeyridildə qələmə verir. Bunlardan sual etməli ki, ey ağlını nə yerə sərf etmək bilməyən biçarələr: «Xitay (Kitay–Çin - *H.Ə.*) milləti üçün türk dilində yazmağın nə mənfəəti?».[1] «Millətin dilini bilməmiş, onun dərdinə dava etmək çətindir» - deyən, Nərimanov qeyd edirdi ki, millətin halına bələd olmaq, onun tərəqqi yolunu göstərə bilmək lazımdır. O, müəllimlik sənətini həkimlik sənəti ilə müqayisə edir və göstərir ki, həkim azara görə dərman verdiyi kimi, müəllim də tələbə görə bilik verməlidir. Nərimanov yazmışdı: «Naxoşun ruhunu təmizləməkdənsə, qanını təmizləyin». Onun fikrincə, insanın dili onun qanıdır. Qan təmiz olanda ürək yaxşı fəaliyyət göstərdiyi kimi, dilin də saf və təmiz olması insanın, millətin tərəqqisinə səbəb olur. Ona görə də hər bir millət dilini sadələşdirmək, asanlaşdırmaq üçün ciddi səy göstərməlidir.

Ana dilinə, onun tədrisinə əhəmiyyət verilməməsinin bir səbəbi də mövcud tədris üsullarının yaramazlığı idi. Nərimanovun fikrincə, «... bir dilin o vaxt qiyməti olar ki, o dili təlim verənlərdə qeyrət, insaf ola: məktəblərimizə baxırsan, yüz ildən qalma qayda-qanunla dərs verirlər».[2]

N.Nərimanov ana dilinin məktəb proqramlarından çıxarılmasını istəyənləri və buna əl çalanların canfəşanlıqlarını mənasız hesab edib yazırdı: «Qoy çalsınlar! Lakin haqqı batil edə bilməyəcəklər... Analarımızın laylalarını qulaqlarımızdan çıxara bilməyəcəklər. İllər ilə bilüzum bir şey kimi ayaq altına atdıqları o gövhəri qiymətdən sala bilməyəcəklər. Ana dilimiz hər halda qüvvət tapacaqdır».[3]

---

[1] N.Nərimanov. Əsərləri. Azərnəşr, 1956, səh. 188
[2] Yenə orada.
[1] N.Nərimanov. Məqalələr və nitqlər, I cild, Bakı, Azərnəşr, 1971, səh.100.





N.Nərimanov ana dilini qiymətli gövhər adlandırır və onun qədrini bilənlərin, onu inkişaf etdirənlərin və onun keşiyində duran yeni həsənoğluların, füzulilərin, vidadilərin, vaqiflərin, zakirlərin, seyid əzimlərin, sabirlərin meydana gələcəyini görürdü. O, deyirdi ki, bu adamlar ana dili vasitəsilə bizə Tolstoy, Turgenev, Qoqol, Viktor Hüqo, Zolya, Bayron, Şekspir, Şiller, Höte kimi dünya klassiklərinin kimlər olmasını öyrədəcəklər.

N.Nərimanov ana dilinin hörmətini artırmaq məsələsində müəllimlərə arxalanır və göstərirdi ki, müəllimlər bütün yaralarımıza çarə tapacaq, bütün iztirablardan bizi xilas edəcəklər. O yazırdı ki, müəllimlər gənc nəsli xilas etməyə çarə və dərman tapacaqlar, tapıb da balalarımıza yeni tədris üsulu ilə ana dilimizi oxudacaqlar.

Bestujev-Marlinski və M.Y.Lermontov kimi N.Nərimanov da Azərbaycan dilini fransız dili ilə müqayisə edir və göstərirdi ki, «Firəng dili Avropada nə məqama haiz isə, bizim də ana dilimiz Asiyada o məqama haizdir».[1]

1905-ci il inqilabının təsiri ilə çar hökuməti maarif sahəsində də bəzi güzəştlərə getmişdi. Belə güzəştlərdən biri də Rusiyanın ucqarlarında yaşayan xalqların ana dili və ədəbiyyatının məktəblərdə tədrisinə icazə verilməsi idi. N.Nərimanov bu mühüm məsələ ilə əlaqədar olaraq yazırdı: «Cəmi Rusiya baş qaldırıb, yüz illərlə buxovda olan əllərini-ayaqlarını azad edib, möhürlü ağızlarını açmaqları bizə də xoşbəxtlik gətirdi...yüz illərlə ixtiyarlarını itirmiş... millətlərə yavaş-yavaş ixtiyar verilir. Hər millətin ana dili uşaqlar üçün vacib olub, məktəblərdə oxunur».[2]

N.Nərimanov məktəblərdə ana dili tədrisinin yaxşılaşdırılmasını tələb edirdi. O, göstərirdi ki, kiçik millətlərin hərtərəfli inkişafı üçün mühüm şərtlərdən biri də ana dilinin məktəblərdə əsaslı şəkildə tədris olunmasıdır. Bunsuz xalqın tərəqqisi, maariflənməsi, «zəmanənin təqazasına uyğun», bacarıqlı və məlumatlı şəxslərin hazırlanması mümkün deyildir. «Nə əcəb bu vaxtədək belə fikirlərə düşmürdük? Yoxsa, ana dilimizi əhəmiyyətsiz, fəqir bir dil hesab edib, etina etmirdik?» — suallarına cavab verən Nərimanov göstərirdi ki, əgər azadlıq olmasaydı, «dilimiz də bu halətdən xilas ola bilməyəcək, əsarətdən qurtarmayacaq idi». 1905—1907-ci illərin inqilabi hərəkatına böyük əhəmiyyət verən Nərimanov ana dilinin tədrisi məsələsində

---

[1] Yenə orada, səh.101.
[2] N.Nərimanov. Seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh.280.

əldə edilən müəyyən sərbəstliyə də inqilabi hərəkatın səbəb olduğunu göstərirdi. Təsadüfi deyil ki, Bakıda Azərbaycan müəllimlərinin I və II qurultaylarının çağırılması və orada milli təhsil problemlərinin bir sıra cəhətləri ilə yanaşı, ana dilinin tədrisi məsələsinin müzakirəsi də inqilabın təsiri ilə mümkün olmuşdu. Ona görə də müəllimlərin I qurultayını xalqın mədəni həyatında böyük hadisə hesab edən Nərimanov qurultaya təbrikində göstərirdi ki, «xalq belə məclisi əvvəlinci dəfə görür». Qurultayın açılması münasibəti ilə yazdığı «Bu gün Qafqazda cəmi müsəlman balalarının dərdlərinə dava aranmağa başlanacaqdır. Bu gün insanın lisani-madərzadi,* ana dili nə olmağı məlum olacaqdır».[1]

Ana dilinin tədrisinə böyük əhəmiyyət verən və bu məsələnin həllində fəal iştirak edən Nərimanov, tədrisin ana dilində aparılmasına çalışmış və özünün bütün fəaliyyətində bunu əməli olaraq həyata keçirmişdir.

N.Nərimanov təlimi ana dilində aparmağı tələb etməklə yanaşı, həm də o zamankı orfoqrafiyada hökm sürən hərc-mərcliyə qarşı mübarizə aparırdı. O, yazı işində olan imla xətalarını aradan qaldırmağa çalışırdı. Bu məsələdə, düzgün və asan oxuyub yazmağa kömək edən, uşaqlara ana dilini və onun qayda-qanunlarını yaxşı öyrənməyə imkan yaradan bir qrammatika dərsliyinə böyük ehtiyac hiss olunduğunu görürdü. N.Nərimanov bu çətin, məsul vəzifəni öz öhdəsinə alaraq 1899-cu ildə Bakıda «Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi» adlı kitabını nəşr etdirmişdi. Sonralar, 1917-ci ildə «Hümmət» qəzetində dərc etdirdiyi bir məqaləsində həmin kitabı yazmağın zəruriyyətindən bəhs edən N.Nərimanov yazırdı: «İndi bəlkə istəyirsiniz biləsiniz nə üçün bu «Sərf-nəhvi» yazmışam. Buna ancaq cavabım budur: mən bu «Sərf-nəhvi» o vaxt yazmışam ki, çoxları hələ türk (Azərbaycan —*H.Ə.*) dilinin sərf və nəhvi olduğunu bilmirdilər»[2].

N.Nərimanov bu dərsliyi özünün əməli pedaqoji fəaliyyəti nəticəsində yazmışdır. Məhz nəzəri biliklə təcrübənin vəhdətindən yarandığı üçündür ki, elmi, ədəbi və publisistik əsərləri içərisində «Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi» dərsliyi xüsusi yer tutur.

* Anadangəlmə dili. *(H.Ə.)*
[1] N.N ə r i m a n o v. Məqalələr və nitqlər, I cild, Azərnəşr, Bakı, 1971, səh.98
[2] «Hümmət» qəzeti, 22 avqust 1917-ci il, № 8.





Müəllif əsərin giriş hissəsində kitabın məqsəd və vəzifələrindən danışaraq ana dilində, xüsusən imla qaydalarında sabit qayda-qanun olmamasını tənqid edir və bu hərc-mərcliyin şagirdləri dolaşdırdığını, gənc nəslin savadlanmasını ləngitdiyini qeyd edir. Əsər bu sözlərlə başlanır:

«Bu axır zamanda mərifətli əhli-qələm qardaşlarımız tövrbətövr kitablar yazmağa məşğuldurlar. Ancaq bu vaxtadək türk-Azərbaycan dilində bir qayda olmamağına görə hər kəs nə tövr istəyirsə, yazır. Qaydasız yazılan inşalar nə dilə və nə millətə nəf gətirməz»[1].

N.Nərimanov o dövr Azərbaycan dili orfoqrafiyasındakı dolaşıqlığı göstərərək yazır ki, məktəbdə oxu sözünü bir müəllim ərəb əlifbası ilə «oxu» şəklində, digər bir müəllim isə «oxi» şəklində öyrədir. Hər iki sözün mənası isə birdir. Lakin uşaq eyni mənalı sözün müxtəlif oxunuşunu görəndə çaşır və bilmir hansı düzdür.

Yazı işinin belə dolaşıq olması N.Nərimanovun dediyi kimi, bir tərəfdən, uşaqları çaşdırır, digər tərəfdən də xalqın savadlanmasını ləngidirdi. N.Nərimanov yazırdı: «...mədəniyyətli millətlər çalışırlar ki, dillərini və yazılarını asana çıxarsınlar, çünki bir lisanın yazısı nə qədər asan olsa, o lisan o qədər tez yayılar, o dildə yazılan inşalar tez inkişaf tapar».[2]

N.Nərimanov, Azərbaycan dilini təkcə azərbaycanlılar üçün deyil, Azərbaycanda yaşayan digər millətlər üçün də faydalı hesab edirdi. Bu məqsədlə o, 1899-cu ildə «Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça» adlı dərslik yazmışdı. Ərəb əlifbasının çətinliklərinə baxmayaraq, bu dərslik çox sadə və aydın tərtib edilmişdi. Nərimanov ərəb hərflərinin müxtəlif yerlərdə, müxtəlif formalarda yazılmasını asanlaşdırmış, hərfin ancaq sözün əvvəlində və təklikdə yazılan formasından istifadə etmişdi. Dərsliyə Azərbaycan dilini öyrənmək üçün lazım olan əsas nitq hissələri daxil edilmişdi.

İkinci bir dili öyrənmək üçün tərtib edilən dərsliklərə verilən pedaqoji tələb nöqteyi-nəzərindən müəllifin yazdığı müqəddimə çox xarakterikdir. Orada deyilir: «Biz həmin dərslikdə qısaca olaraq o nitq hissələrindən bəhs edirik ki, tatar (Azərbaycan—*H.Ə.*) dilinin ilk

[1] N.N ə r i m a n ov. Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi, Bakı, 1899, s.I.
[2] Y e n ə o r a d a.

öyrənilməsinə yaxından kömək edir və şagirdi həmin dilin bütöv sərf-nəhvini öyrənməsinə hazırlayır»[1].

İkinci bir dilin öyrənilməsində praktik cəhətə üstünlük verən Nərimanov yazmışdı: «Çox təəssüf ki, digər dərsliklərin tərtibatçıları başlıca diqqəti əsasən dilin nəzəri öyrədilməsinə, yəni sərf-nəhvin öyrədilməsinə verirlər və nədənsə dilin təcrübi öyrədilməsi cəhətinə çox az əhəmiyyət verilir»[2].

N.Nərimanov göstərir ki, «dilin təcrübi öyrədilməsi əlbəttə, o elmi məqsədlər üçün öyrədilmirsə, birinci yerdə durmalıdır».

Bu dərslik vaxtı ilə rusların Azərbaycan dilini təcrübi olaraq öyrənmələrinə böyük kömək etmişdir.

N.Nərimanovun bədii əsər və məqalələrində ana dilinin təlim əhəmiyyəti ilə yanaşı, tərbiyəvi əhəmiyyəti də yüksək qiymətləndirilir. O, məqalələrinin birində ana dilinin böyük tərbiyəvi əhəmiyyətindən bəhs edərək, yazmışdı: «Ana dili! Nə qədər rəfiq, nə qədər ali, hissiyyat-qəlbiyyə oyandıran bir kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəm(ət)li* bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətini, şəfqəti-madəranəsini sənə o dildə bəyan edibdir. Bir dil ki, sən hələ beşikdə ikən lay-lay şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqş bağlayıbdır! Bir dil ki, həyat və kainat haqqında ilk əvvəl dil sayəsində bir fikir hasil edibsən, cism və ruhun möhtac olduğunu məvadi o dildə tələb eləyibsən...

...Bir dil ki, ibtidada o dildə yaxşı-yamanı bilibsən, səni yaradanı tanıyıbsan. Haman dil ki, diyari-qürbətə; biganələr içinə düşəndə, ona həsrət qalırsan. Lakin, ittifaqən, onu eşidəndə ürəyin döyünməyə üzün gülməyə başlayır, cəmi əsamın təhəyyüc* edir.Beynin, fikrin, xəyalın işləməyə başlayır, bir dəqiqənin ərzində vətəni gözünün qabağına gətirirsən. Atan-anan, qohum-əqraban, dost-aşnan, rüfəqan** budur durublar guya səninlə haman dildə söhbət edirlər; bir az keçmiş uşaqlığın, oynadığın, durub-oturduğun, düşüb-qalxdığın yerlər bir-bir yadına gəlir, ürəyin daha ziyada zərəbatə*** başlayır»[1].

---

[1] Y e n ə o r a d a, səh.3.
[2] N.N ə r i m a n o v. Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça, Bakı, 1899, səh.3
* böyük (*H.Ə.*)
* Əsəblərin həyəcana gəlir (H.Ə.)
** Yoldaşların. (*H Ə.*)
*** Döyünməyə (*H.Ə.*)
[1] N.N ə r i m a n o v. Məqalələr və nitqlər, I cild, Azərnəşr, 1971, səh. 98—99





N.Nərimanov ana dilini xalqın tarixi, mənəviyyatı və incəsənəti ilə əlaqələndirir və göstərir ki, ana dilində bir nəğmə oxunduqda, vətən tərənnüm edildikdə insanın bədəni də, ruhu da lərzəyə gəlir. O yazır ki, «...qərib vilayətdə bir musiqi(çi) milli havalardan bir şey çalır. Sən cəmi vücudunla, cəmi ruhunla qulaq asırsan, həm qəmgin, həm də şad olursan, həqiqət nə halda bulunmağını dürüst anlamırsan. Ancaq musiqiçilərə istəyirsən deyəsən: çalınız, əfəndim, Çalınız! çünki bu çaldığınız ahəng mənim qəlbimin, həmçinin ruhumun ən dərin guşələrindən xəbər verir!»[1].

N.Nərimanov yazır ki, insan musiqi elminə aşina olmasa belə, yenə də «belə bir halətdə bulunacaqdır». Çünki həmin ahəng və zümzümədə valideynin dediyi laylaların havasını sezirsən, onun məhəbbətini hiss edirsən. Doğrudur, bu vaxt sən valideynini görmürsən, lakin, bir növ səsini eşidirsən, yainki eşitdiyin səs və melodiyaları ananın sədasına oxşadırsan. Nərimanov həmin saatları «gözəl bir halət, səfalı bir saat» hesab edir və insanları belə bir zövqdən məhrum edənləri ciddi tənqid atəşinə tuturdu.

N.Nərimanov Azərbaycan dili və ədəbiyyatının inkişafı uğrunda ardıcıl mübarizə aparmışdır. Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində yazdığı «Bəzi yoldaşlara cavab» adlı məqaləsində Azərbaycan dilinin təmizlənməsini, Azərbaycan və rus klassiklərini dərindən öyrənməyi müdafiə edən Nərimanov yazırdı:«Türk (azərbayacanlı — *H.Ə.*) uşaqları, nəinki Puşkinin, hətta Şekspirin və Şillerin şerlərini öyrənməlidirlər. Lakin bunu o zaman edə bilərik ki, hər şeydən əvvəl ...doğma Sabirin heyrətli, mübariz şerlərini, xalq şairləri Vaqifin, Zakirin, Vidadinin şerlərini öyrənmiş olsunlar»[2].

N.Nərimanov ana dili ilə bərabər rus dilinin əhəmiyyətinə də xüsusi fikir vermişdir. O, rus dilinin əhəmiyyətini göstərməklə kifayətlənməmiş, eyni zamanda bu dili praktik olaraq öyrətmək üçün böyük təşəbbüs və fəaliyyət göstərmişdir.

1899-cu ildə Bakı gimnaziyasında Azərbaycan dili müəllimi vəzifəsində çalışan N.Nərimanov azərbaycanlılara rus dilini öyrətmək məqsədi ilə "Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötəri asan kitabça" adlı bir əsər yazmış və nəşr etdirmişdir.

Kitabçanın müqəddiməsində deyilir: "Hənuz bu kitabça o şəxslərdən ötrüdür ki, vaxtında rusca oxumayıb, ancaq indi rusca

---

[1] Yenə orada, səh. 99.
[2] «Бакинский рабочий» qəzeti, 15 iyun, 1922-ci il, №130.

oxumaq və yazmağı özləri üçün lazım bilirlər. Ona görə də bu kitabçanı müsəlman qardaşlarımız üçün yazdıq ki, müəllimsiz rusca yazmaq, oxumaq və danışmaq öyrənsinlər. Hərgah oxuyan sarıdan bir balaca diqqət olunsa, yarım ayın ərzində bu kitabçanın köməyi ilə şəxs rusca oxumaq, yazmaq bilər".[1]

Əsərin əvvəlində Azərbaycan dilində olmayan və özünəməxsus spesifik xüsusiyyəti olan bəzi rus hərflərinin (məs;ä,y,k, ü, h, g, ö, ə, və s.) yazılışı və deyilişinə aid müxtəsər izahat verilir. Burada oxumaq və yazmaq üçün verilən mətnlər sadədən mürəkkəbə doğru prinsipi əsasında qurulmuşdur. Əsərin ən dəyərli cəhətlərindən biri budur ki, hər mətnin sonunda yazı qaydası üçün nümunə verilir. Hər mətnin sonuna tərbiyəvi xarakter daşıyan zərb-məsəllər, atalar sözlərindən ibarət tapşırıqlar əlavə edilmişdir. Məs.: "Quş tükü ilə gözəldir, insan oxumaq ilə", "Həmişə yaxşılıq etmək lazımdır", "Qocalara hörmət et", "Bir əql yaxşıdır, amma ikisi dəxi yaxşıdır". "Heç kəsə pislik etmə", "Kitab oxumaq nəfdir"və s.

Əsərdə təhlil üçün verilən kiçik mətnlər elə seçilmişdir ki, təhsilə, elmə, kitaba maraq göstərməyə aid fikirlər onun əsasını təşkil edir. Məsələn, əsərdə "Uşaq və gözlük" adlı kiçik bir süjet vardır. Orada deyilir: "Uşaq atasına dedi:

— Ata, mənə gözlük al. Mən istəyirəm sənin kimi kitab oxuyam.

— Atası uşağa dedi:

— Yaxşı, mən sənə gözlük alaram. Və uşağa əlifba aldı".

N.Nərimanov sonrakı fəaliyyətində də azərbaycanlıların rus dilini öyrənməsi sahəsində xeyli iş görmüşdür.

N.Nərimanovun görkəmli maarifçi və pedaqoq kimi, məşhur yazıçı, inqilabçı kimi yetişməsi işində rus dilini bilməsi böyük rol oynamışdı.

## QADIN TƏHSİLİ

N.Nərimanovun pedaqoji fikirlərində qadın təhsili məsələsi də mühüm yer tutur. Çünki, Azərbaycan qadınının hüquqsuzluğu, təhsildən məhrum olması, kölə halında saxlanıb, istismar edilməsi Nərimanovu daim düşündürürdü. Şərq qadınlarının faciələrlə dolu olan həyatına yaxından bələd olan Nərimanov onların azadlığı, təhsili

[1] N.Nərimanov. Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü asan kitabça, Bakı, 1899, səh. 1.





uğrunda daim mübarizə aparmışdır. O, "Nadanlıq", "Dilin bəlası", "Nadir şah". "Pir" kimi bədii əsərlərində və bir çox məqalələrində qadına münasibət, ailə, ailənin mənəvi əsası, qadının acınacaqlı vəziyyəti, müsəlman qadınlarının ləyaqəti, sevib-sevilmək hissinin boğulması, çoxarvadlılıq, ailədə qadının hüquqsuzluğu və bunların şəriətlə qanunlaşdırılması, ictimai həyatda və məişətdə qadın şəxsiyyətinin alçaldılması məsələlərinə toxunmuş və Azərbaycan qadınlarının azadlığa çıxması, savadlandırılması məsələlərinə dair bir sıra dəyərli fikirlər söyləmişdir.

N.Nərimanovun yaratdığı Yetər, Gülpəri, Nigar, Xədicə, Gülcahan və Gülbadam obrazları inqilabdan əvvəlki Azərbaycan qadınlarının tipik nümayəndələridir. Bu qadınlar ictimai həyatda hüquqsuz, elm və təhsildən məhrumdurlar. Onların işi, peşəsi ancaq ev işləri ilə məşğul olmaq və ərlərinin əmrlərini sözsüz yerinə yetirməkdən ibarət idi. N.Nərimanov qadınların həmin acınacaqlı vəziyyətinin aradan qaldırılmasına çalışmış və bu yolda böyük qüvvə sərf etmişdir.

O dövrdə qadın təhsili məsələsi, qadının azadlığı ilə əlaqədar idi. Ona görə də qadınları təhsilə cəlb etmək üçün ilk növbədə, onların azadlığına nail olmaq lazım idi. Qadın azadlığı məsələsi isə o zaman dövrü mətbuatda geniş müzakirəyə səbəb olan problemlərdən biri idi.

Bu müzakirə və mübahisələrdə yaxından iştirak edən N.Nərimanov qadın azadlığı və təhsili məsələsinə ictimai məna verir, qadının kölə halında saxlanmasına çalışan ruhaniləri ciddi tənqid və ifşa edirdi. Bu cəhətdən onun sürgün illərində yazdığı və Həştərxanda çıxan "Bürhani-tərəqqi" və "Prikaspiyski kray" qəzetində çap olunmuş məqalələri diqqəti xüsusilə cəlb edir. "Müsəlman həyatı" rubrikası altında silsilə məqalələrlə çıxış edən N.Nərimanov əsrlər boyu qadınları əsarətdə saxlayan, qadın azadlığını və təhsilini şəriətlə izah edən qaragüruhçu ruhanilərin, mollaların, "ruhani ataların" iç üzünü açıb göstərir. "Bir daha müsəlmanlar arasında qadın məsələsinə dair"[1] adlı məqaləsində N.Nərimanov qeyd edir ki, ruhanilər xalq ilə həqiqət arasında elə keçilməz sədd çəkmişlər ki, onun daşı və kərpici müctəhidlərdən, şeyxülislamlardan, palçığı isə cürbəcür mollalardan və mərsiyəxanlardan ibarətdir.

Lakin indi zaman da dəyişmişdir. İki il əvvəl nəinki qadın təhsilindən, hətta oğlanların dünyəvi təhsilindən söhbət açmağı dinə zərər hesab edən ruhanilər özləri belə. qadın təhsilini lazım bilməyə

[1] *Bax* «Prikaspiyskiy kray» qəzeti, 30 yanvar 1911-ci il, № 63, səh 5

məcbur olmuşlar. "Əsrlərdən bəri öz vicdanlarını şəriət ismi ilə aldadıb satan mollalarımıza (ruhanilərə) anlatmaq zamanı çatmışdır ki, hal-hazırda qızların elm-fənn öyrənməsi, ictimai məsələlərdə kişilərlə bərabər hüquqda olması zəmanənin mühüm tələbidir".[1]

N.Nərimanov yazırdı ki, hal-hazırda ruhanilər nəinki cəmiyyətin orta təbəqələri, hətta avam camaat arasında belə əvvəlki güclü təsirini və nüfuzunu itirir, həqiqətə cəhd edən mətbuatın və tərəqqinin təsiri və zərbəsi altında gündən-günə zəifləyir; bəşəri ideyalar uğrunda çalışanların mübarizəsinə tab gətirə bilməyən ruhanilər ovulub-tökülür, dayazlaşır və hiss edilmədən xalq arasında əriyirlər. Həmin məqalədə deyilir: "Günəş doğur: onun şüaları ən kiçik orqanizmləri — mikrobları öldürür, daha davamlıları isə uyğunlaşırlar".[2]

N.Nərimanov qələm dostlarını da qadın azadlığı və təhsili uğrunda mübarizəyə səsləyir və göstərirdi ki, bütün mütərəqqi adamlar çox yaxşı başa düşürlər ki, başqa çıxış yolu yoxdur; ən doğru yol müsəlman qadınlarının azadlığına və tərəqqisinə çalışmaqdır.

N.Nərimanov qadın azadlığı və təhsili ilə əlaqədar qaldırılan müzakirə və mübahisələrdə özünün kəskin fikirlərini qəti inamla söyləmişdir. Bu mübahisələrdən biri də yazıçı Yusifbəy Vəzirovun bədii əsərləri ilə əlaqədar idi. Məlum olduğu kimi Yusifbəy Vəzirovun qadın məsələsinə dair 1913-cü ildə yazıb nəşr etdirdiyi "Arvadlarımızın halı" və "Qanlı göz yaşları" adlı əsərləri böyük söz-söhbətə səbəb olmuşdu.

Y.Vəzirov 1927-ci ildə yazmışdı:"Bu kitabçaların zühuru o zaman Bakıda müntəşir "İqbal" qəzeti sütununda böyük münaqişəyə səbəb oldu"[3].Burjua ziyalıları qadın azadlığı problemini qadının üzü açıq gəzməsi, başmaq yerinə çəkmə geyməsi kimi tələblərlə məhdudlaşdırırdılar. Mürtəce qüvvələr qadının üzü açıq gəzməsini əxlaqsızlıq hesab edirdi. Bir aya qədər davam edən bu münaqişə heç bir nəticə verməmişdi. Çünki mübahisədə iştirak edənlər qadın məsələsini Qur'ana əsaslanaraq həll etməyə çalışırdılar. Məsələ böyük bir maraq oyandırdığından, Y.Vəzirov "Ana və analıq", "Çarşab" adlı iki əsər yazmış və bəzi məsələlər haqqında həkim N.Nərimanovun rəyini bildirmək üçün ona müraciət etmişdi.

---

[1] «Bürhani-tərəqqi» qəzeti, 1911-ci il, № 35.

[2] *Bax*:"Прикаспийский край" qəzeti, 30 yanvar, 1911-ci il, "Bürhani-tərəqqi» qəzetı,b 1911-ci il, № 35.

[3] "İnqilab və mədəniyyət" jurnalı, 1927-ci il, №6.





N.Nərimanov Y.Vəzirovun suallarına cavab verməklə bərabər, həm də qadın azadlığı probleminə dair özünün fikirlərini söyləmişdi.[1] O, göstərirdi ki, çarşab bizim qadınların ümumi inkişafına mane olan ən iyrənc şeydir. Çarşaba bürünmüş qadınların küçədə görünməsi, bir növ, maskarada bənzəyir. Müsəlman aləmi bir maskarad aləmidir. Avropada maskaradlar müəyyən bir vaxtda bir üstü örtülü damda — zalda olarkən, müsəlman aləmində maskaradlar küçələrdə olur, fəqət müəyyən bir vaxtda yox: hər gün, hər saat, hər dəqiqə fəsad içində yaşayırıq, özümüz-özümüzü aldadırıq.

Cəmiyyətin inkişaf qanunları haqqında nəzəriyyələri dərindən mənimsəyən N.Nərimanov Azərbaycan qadınlarının bu vəziyyətdə yaşamalarını müvəqqəti bir dövr hesab edir və inanırdı ki, bir zaman gələcəkdir bizim qadınlar çarşabdan azad olacaqdır. 1905-ci ilin burjua-demokratik iqilabının təcrübəsinə əsaslanan Nərimanov yazırdı:"Əmin olunuz; belə bir inqilab çarşab məsələsində də olacaqdır. Təbiidir! Günün istiliyini heç bir şeylə söndürmək olmaz. Odda təbii yandırmaq xasiyyəti var. Bu xasiyyəti oddan alarsınız isə od odluğundan çıxar, odluğunu itirər". İnsana da məxsus bir xasiyyət vardır. Tərəqqi. İnsan bir yerdə dayana bilməz. İnsan daim tərəqqidə olmalıdır. İnsanın bu xasiyyəti insandan alınarsa, insan insanlığını itirər. "Həqiqətən arvad insandırsa, müdam tərəqqidə olmaq onun xasiyyətidir. Bu xasiyyət arvaddan alınarsa, arvad insan cərgəsindən gərəkdir çıxsın. Alınmaz isə, bu tərəqqinin qabağını heç bir qanunla saxlamaq mümkün deyil..."[2]

N.Nərimanov deyir ki, çarşab bizim arvadların zənciridir. Bu zəncir gec-tez qırılmalıdır. Çarşab məsələsini Qur'ana istinad edərək həll etməyə çalışanlara cavab olaraq Nərimanov yazırdı: Onlar düşünmürlər ki, min üç yüz il bu barədə bəhs olunubdur. On min il də bəhs olunsa, yenə də hər iki tərəf müəyyən bir nəticəyə gəlməyəcəkdir.

N.Nərimanov qeyd edirdi ki, Qur'anı şahid gətirməklə iş düzəlməyəcəkdir. Bu məsələ və ya məişətimizə dair qeyri bir məsələ ayrı bir nöqteyi nəzərlə gərəkdir meydana çıxsın. Ona görə də "Qur'an

---

[1] "Möhtərəm Yusifbəy Vəzirovun suallarına cavab" adlanan həmin sənəd hazırda Azərbaycan tarixi muzeyində saxlanılır (bax: sovet dövrü fondu. N.Nərimanovun qovluğu. №1. İnv. №476). (Nərimanovun bu cavabının tarixi mə'nası olduğundan Y Vəzirov tərəfindən 1927-ci ildə "İnqilab və mədəniyyət" jurnalının 6-cı nömrəsində çap edilmişdir — *H Ə*.).

[2] N.N ə r i m a n o v. Məqalələr və nitqlər, 1 cild. Azərnəşr, 1971, səh.111.

bunu belə deyir", "Yox, Qur'an bunu belə demir, elə deyir" kimi sözlərdən bir şey çıxmayacaqdır.

N.Nərimanov qadınların çarşabdan xilas olmasını daha dəhşətli məsələlərdən asılı hesab edirdi ki, bu da istismar, zülm və hüquqsuzluq idi. Nərimanov göstərirdi ki, «daha dəhşətli məsələlər» düzəlməsə, yəni mövcud quruluş dəyişməsə, «çarşab məsələsi təbii yolla getməyəcəkdir».

N.Nərimanovun qadın azadlığına aid fikirləri sonralar təkmilləşmiş və daha da inkişaf etmişdir. Əgər keçən əsrin 90-cı illərində Nərimanov bu məsələdə islahatçılıq mövqeyində dururdusa, sonralar o, inqilabçı kimi çıxış etmişdir. 1915—1916-cı illərdə "Bahadır və Sona" əsərinin səhnələşdirilmiş nüsxəsində bu cəhət özünü daha aydın göstərir. Müəllif, Bahadırın dili ilə Sonaya müraciət edərək deyir: "Sona, zənnimcə qadınlar hal-hazırdakı zəncirdən, yəni çarşabdan xilas olmasalar, millət ciddi surətdə tərəqqi yoluna yeriş edə bilməyəcəkdir...

Qanımıza, beynimizə, sümüklərimizə işləmiş bir neçə qanunlar kimi, bu məsələyə dair qanunları da şəriətdən kənar müzakirəyə qoymaq lazımdır. Yəni demək istəyirəm ki, bu məsələyə elmi nəzərlə gərək baxılsın... Təbii yol isə budur: hürriyyət almaq gərəkdir».

N.Nərimanov qadınların təhsilini qadın azadlığının tərkib hissəsi hesab edirdi. O, qadının — ananın oxumasını, elmli olmasını vacib bilir və göstərirdi ki, gələcək cəmiyyətin taleyi anaların öz uşaqlarına verdiyi tərbiyədən çox asılıdır. Bu isə gələcək ananın elmli, təhsilli olması ilə əlaqədardır. Məhz buna görədir ki, N.Nərimanov qızların məktəbə cəlb olunmasına, onlar üçün xüsusi qız məktəblərinin açılmasına çalışırdı.

Azərbaycanın ilk ziyalı qadınlarından biri olan Şəfiqə xanım Əfəndizadə özünün xatirələrində yazmışdı: «1899-cu ilin axırları idi. Nəriman Nərimanov atamı çağırıb dedi:

— Məhəmməd ata, bu yaxınlarda Bakıda ilk qız məktəbi açacağıq, orada dərs vermək üçün qadın müəllim olmalıdır. O da yoxdur. Məktəb tikilib başa gələnə kimi, Şəfiqəni müəllim hazırlayın.

Atam da mənə ayrıca müəllim tutdu. Özü də iki ilə kimi mənə dərs verdi».[1]

N.Nərimanov qadınların təhsil almasının, onların ictimai işlərdə fəal iştirakının qızğın tərəfdarı idi. Onun bilavasitə yaxından köməyi

[1] *Bax:* Ş.Ə f ə n d i z a d ə. «Mənim xatirələrim». «Azərbaycan pioneri» qəzeti, 19 mart 1957-ci il, № 23.





ilə təşkil edilmiş qız məktəblərində təhsil alan yüzlərlə azərbaycanlı qız sonralar xalqımızın mədəni inkişafında böyük rol oynamışdır.

N.Nərimanov inqilabdan əvvəl olduğu kimi, sovet hakimiyyəti illərində də qadınların təhsilə cəlb edilməsinə böyük qayğı göstərmişdir. O, Azərbaycanda Hərbi İnqilab Komitəsinin sədri və Azərbaycan XKS-ın sədri vəzifələrində işlərkən bir sıra çıxış və məruzələrində qadınların təhsilə cəlb edilməsini günün vacib məsələlərindən biri kimi irəli sürürdü.[1]

Azərbaycan qadınlarının azadlığı işində N.Nərimanovun xidmətlərinə böyük əhmiyyət verən A.Sultanova yazırdı ki, Nərimanov Şərq qadınlarının azadlığı yolunda ilk mübarizə aparanlardandır. O, 1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qələbəsinin ilk günlərindən qadınlar arasında iş məsələsini irəli sürür, bir çox kütləvi mitinqlərdə, konfrans və qurultaylardakı çıxışlarında qadın azadlığını ardıcıl müdafiə edirdi. A.Sultanova yazmışdı: «Biz onun şəxsində qadınlar arasında işin bütün məsələlərinin möhkəm müdafiəçisini görürdük...».[2]

N.Nərimanovun Azərbaycan qadınlarının azadlığı və təhsilə cəlb edilməsi sahəsindəki xidmətləri yüksək qiymətləndirilmişdir. Onun ədəbi-ictimai və siyasi fəaliyyətinin 30 illik yubileyi münasibəti ilə Bakı Nərimanov adına 17 nömrəli qız məktəbinin bir qrup şagirdləri tərəfindən göndərilən təbrik məktubunda deyilirdi:

«Yaşa ey həqq ulduzu, nurunla aləm parladı,
Güldü ədlin çöhrəsi, zülm və əsarət ağladı.
Tam 30 ildir aldın ələ maarif sazını,
Başladın tədqiqə həp Şərqin bütün əfkarını,
Bir həqiqi dahisən, heç vaxt unutmaz sizləri,
Varlığınla fəxr edir azad Şərq qızları».

Məktəbli qızların başqa bir qrupu tərəfindən göndərilən təbrik məktubunda isə oxuyuruq:

«Sən ey Şərqin qızıl, parlaq Günəşi,
Çalışaraq xilas eylədin bizi.
Əl-ələ verərək bütün Şərq qızı,
Təqib eləyirik getdiyin izi.

[1] *Bax:* Qadınlar qurultayında doktor N.Nərimanovun nitqi. «Kommunist» qəzeti, 16 fevral 1921-ci il, № 64
[1] Bax: «Бакинский рабочий» qəzeti, 23 mart, 1925-ci il, № 64

Bu sözləri təkrar edirik hər an
Yaşasın deyirik şanlı Nəriman!

Maarif yolunda siz çalışdınız,
Şərqin qızlarına ziya saçdınız.
O parlaq yol ilə biz də gedirik,
Fəxarətlə Sizi təbrik edirik».[1]

Qadınların maariflənməsinə və ictimai həyatın müxtəlif sahələrində hərtərəfli iştirak etmələrinə çalışdığına görə Nərimanov qadınların böyük hörmətini və məhəbbətini qazanmışdır. Onu yaxından tanıyan qadınlardan biri N.Nərimanovun anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli yığıncaqda demişdir:

«Mən Azərbaycan qadınlarının əsarətdən xilas edilməsinə, onların işə düzəldilməsinə, oxumağa göndərilməsinə Nəriman Nərimanovun necə qayğı göstədiyinin şahidi olmuşam. 1921-ci ildə Azərbaycan qadınlarının birinci qurultayında Nərimanov öz məruzəsində ictimai əməyə və dövlət fəaliyyətinə azərbaycanlı qadınların cəlb olunmasına dair öz fikirlərini şərh etdi. Onun atalıq qayğısı sayəsində bir çox azərbaycanlı qadın sonralar ixtisaslı mütəxəssis, elm və mədəniyyət xadimi oldu.

Mənə Nəriman Nərimanovu fəhlə yığıncaqlarında dəfələrlə görmək və dinləmək səadəti nəsib olmuşdur. Onun hər bir sözü bizdə böyük ruh yüksəkliyi doğurur, o vaxt gənc sovet respublikası qarşısında duran ən çətin vəzifələri yerinə yetirməyə ruhlandırırdı».[1]

Bu bir həqiqətdir ki, Azərbaycan qadını sovet hakimiyyəti illərində çox mürəkkəb və şərəfli yol keçmişdir. «Azərbaycan respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 6 mart 2000-ci il tarixli fərmanında deyildiyi kimi, qadın emansipasiyası, qısa bir müddətdə qadınlar arasında savadsızlığın ləğvi, qadınların müəllim, həkim, mühəndis və şair peşələrinə yiyələnərək cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olması, öz istedad və bacarıqlarını gerçəkləndirə bilməsi həmin dövrün başlıca nailiyyətidir.

---

[1] Azərbaycan Respublikası EA-nın Azərbaycan tarixi muzeyi, sovet dövrü fondu, N.Nərimanovun qovluğu, № 1, inv.461

[1] *Bax*: «Kommunist» qəzeti, 30 iyun 1972-ci il.





Həmin fərmanda oxuyuruq: «1921-ci il Azərbaycan tarixinə qadınların ilk qurultayı ili kimi daxil olmuşdur. Nəriman Nərimanovun məruzə ilə çıxış etdiyi bu qurultayın əsas qayəsini qadın azadlığı ideyaları təşkil edirdi. Qurultaydan keçən qısa bir müddət ərzində Azərbaycan qadınlarının maariflənməsi, ictimai fəallığının artırılması sahəsində böyük işlər həyata keçirildi. 1921-ci ildə qızlar üçün təşkil olunmuş Məktəbəqədər Tərbiyə İnstitutu bir il sonra Ali Qadın Pedaqoji İnstitutuna çevrildi. Ceyran Bayramovanın təşəbbüsü ilə yaradılmış ilk qadın klubu bu dövrdə qadın hərəkatının inkişafında mühüm rol oynadı. 1923-cü ildə «Şərq qadını» jurnalının nəşrə başlaması Azərbaycanda qadın hərəkatı tarixində əlamətdar hadisə oldu».[1]

Bütövlükdə Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır.

N.Nərimanovun Azərbaycan qadınlarının azadlığı və tərəqqisinə dair arzuları indi bir həqiqət olmuşdur.

Müstəqil, suveren, demokratik, hüquqi dövlət quruculuğunda çalışan alnıaçıq, gülər- üzlü Azərbaycan qadınları ölkəmizdə xalq təsərrüfatının bütün sahələrində fəal iştirak edir və tarixi nailiyyətlər qazanırlar.

## Şəxsiyyətin formalaşmasında tərbiyənin rolu

N.Nərimanov tərbiyə məsələlərini dövrün başqa ictimai məsələlərindən təcrid edilmiş şəkildə deyil, həmin məsələlərlə vəhdətdə götürür və digər ictimai məsələlərin həll edilməsi üçün tərbiyəni başlıca şərtlərdən biri hesab edirdi. Təsadüfi deyil ki, yaradıcılığının ilk dövrlərində, N.Nərimanov xalqın mənəvi-əxlaqi kamilliyini cəmiyyətin inkişafı üçün mühüm amil, qurtuluş yolu sayırdı. Ona görə də Nərimanovun tərbiyəyə aid fikirləri içərisində mərkəzi yerlərdən birini tərbiyənin məqsədi məsələsi tutur. Nərimanova görə, tərbiyənin məqsədi öz vətənini, xalqını sevən, mərd, mübariz, xeyirxah, isanlığa xidmət edən, mənəvi cəhətcə saf, fiziki cəhətcə sağlam, elmi biliklərlə silahlanmış yüksək şüurlu adamlar yetişdirməkdən ibarətdir.

---

[1] *Bax*: «Respublika» qəzeti, 7 mart 2000-ci il

İnsan şəxsiyyətinin təşəkkülündə tərbiyənin mühüm rolunu göstərən Nərimanov istər ədəbi əsərlərində, istərsə də dərsliklərində, ayrı-ayrı məqalə və çıxışlarında bir tərəfdən, köhnə cəmiyyətdəki tərbiyə sistemini tənqid etmiş, digər tərəfdən, tərbiyənin qarşısında duran məqsədi, onun rolunu, təhsil ilə tərbiyənin vəhdətini göstərmişdir. Bu cəhətdən onun bədii əsərlərində irəli sürülən tərbiyəvi fikirlər xüsusilə nəzəri cəlb edir. Bədii ədəbiyyata qüvvətli tərbiyə vasitəsi kimi baxan N.Nərimanov Azərbaycan pedaqoji irsini davam etdirmiş və tərbiyənin roluna aid qiymətli fikirlər söyləmişdir. Onun «Nadanlıq», «Dilin bəlası», «Nadir şah», «Bahadır və Sona», «Pir» kimi bədii əsərləri tərbiyəvi fikirlərlə doludur. Bu əsərlərdə elm, maarif, mədəniyyət məsələləri ilə yanaşı xalqın, xüsusilə gənclərin tərbiyəsi məsələsinə aid çoxlu və dərin mənalı fikirlər vardır.

N.Nərimanovun ədəbi əsərlərinin hamısında ən böyük məqsəd xalqın cəhalətdən azad olması, elmə, maarifə yiyələnməsi məsələsidir. N.Nərimanovun əsərlərində Azərbaycan xalqının XIX əsrin sonlarındakı vəziyyəti ilə əlaqədar olaraq müxtəlif ictimai təbəqələrin əhvali-ruhiyyəsi, əxlaqi, həyat anlayışları və fəlsəfəsi əks olunmuşdur.

N.Nərimanov pedaqoji fəaliyyətə başladığı dövrdə Azərbaycan və bütün Zaqafqaziya çox ağır vəziyyətdə idi. Burada gənc nəslin təlim-tərbiyəsinə fikir verilmir, fanatizm, nadanlıq hökm sürürdü. Öz dövrünün tərbiyə sisteminə yaxından bələd olan N.Nərimanov xalqın tərəqqi etməsi üçün dövrün tərbiyə sisteminə, cəhalətə, mövhumata, avamlığa qarşı kəskin mübarizə aparmışdır. Bu mübarizə onun «Nadanlıq» adlı ilk dram əsərindən başlayaraq bütün sonrakı əsərlərində və məqalələrində öz əksini tapmışdır.

«Nadanlıq» əsərində təsvir edilən Hacı Abdulla böyük oğlu Ömərdən bərk narazıdır. Çünki o, nə yol kəsməyi, nə kəbinli arvad qaçırmağı və nə də adam öldürməyi bacarır. Onun kiçik oğlu Vəli isə Ömərin əksinədir. Hacı Abdulla kimilərinin ailə tərbiyəsinə belə münasibət bəsləməsi faciəli nəticə verir. Vəli öz qardaşı Öməri güllə ilə vurur. Çünki Ömər silah götürüb onun dediyi adamın qabağını kəsməmişdir. Ömər ölərkən deyir: «Məni nadanlıq ..., avamlıq ..., biməriftlik güllələdi. Bunlar hamısı ... adamı heyvan edərmiş! Ah, nadanlıq!».[1]

[1] N.Nərimanov. Əsərləri. Azərnəşr, 1956. səh. 57.





Göründüyü kimi, o dövrdə doğma qardaş öz avamlığı, nadanlığı üzündən doğma qardaşına güllə atırdı. Bu ondan irəli gəlirdi ki, Hacı Abdulla kimilər tərbiyə ocağı olan məktəbə xor baxır, öz uşaqlarının təhsili və tərbiyəsi ilə maraqlanmırdı.

N.Nərimanovun pedaqoji fikirlərində təhsil ilə tərbiyənin vəhdəti, təhsilin tərbiyəyə müsbət təsiri həyati faktlarla göstərilmişdir. «Nadanlıq»da təsvir edilən Ömər oxumuş, təhsil almışdır. Ona görə də o, nəinki pis işlərlə məşğul olmur, həm də qardaşı Vəlinin dələduzluğuna qarşı ciddi etiraz edir. Doğrudur, onun etirazları nəticəsiz qalır, avamlıq, nadanlıq öz işini görür, hətta onu «düz yoldan çıxmış» hesab edirlər. Lakin oxumağın, təhsilin uşağın mənəvi aləminə, onun tərbiyəsinə müsbət təsiri Ömərin timsalında həyati faktlarla sübut olunur.

N.Nərimanovun tərbiyəyə aid fikirlərində köhnəlik ilə yeniliyin mübarizəsi geniş yer tutur.

N.Nərimanov mövcud cəmiyyətdə bir-birinə zidd iki tərbiyənin vəhdəti, təhsilin tərbiyəyə müsbət təsiri şəraitdən, mühitdən, təhsil və tərbiyədən asılı olaraq müəyyənləşir. «Nadanlıq» əsərində təsvir edilən əxlaqi sifətlər həmin cəmiyyətin məhsulu idi. Ziyalı Ömər ilə quldur Vəlinin əxlaqi sifətləri onların yaşadığı mühit, aldıqları təhsil və tərbiyənin nəticəsi idi.

N.Nərimanovun əsərlərində, xüsusilə «Şamdan bəy»də saf məhəbbətlə tərbiyə pul ilə qarşılaşdırılır. Pul kapitalizm cəmiyyətində hər şeyə qalib gəlir, hər şey onunla ölçülür, adamların mənəviyyatı da onunla müəyyən edilir. Məhz bunun nəticəsidir ki, pul düşgünü olan Hacı İbrahim, qızı Xədicəni böyük məhəbbətlə sevən ağıllı və tərbiyəli Yusifə deyil, şöhrətpərəst, hiyləgər və riyakar Şamdan bəyə ərə vermək istəyir. Xədicənin dayısı Niyaz bəy Hacı İbrahimdən soruşanda ki, «Hacı əmi, belə şey eləmə, eyib şeydir. Xalqı üstünüzə güldürməyin və görün bir oxuyub, tərbiyəsi vardırmı?». Hacı İbrahim cavab verir ki, «Ay sağ olmuş, mənim nəyimə lazımdır, bilim oxuyub, ya yox. Pulu ki, var, hər şeydən yaxşıdır...».[1]

N.Nərimanov təhsil ilə tərbiyənin əhəmiyyətini Niyaz bəyin dili ilə belə təsvir etmişdir: «Elə deməyin. Nə qədər pulu çox olmuş olsa da, yenə Yusif ondan məsləhətdir. Çünki zəmanəmiz belə zəmanədir ki, indiki mədəniyyətli və mərifətli qulluq adamları bizim müftə

[1] N.Nərimanov. Əsərləri. Azərnəşr, 1956, səh. 79

yeyən bəylərdən əfzəldirlər. Zira ki, bunların əlində qələm var və o qələmə həmişə bir parça çörəkləri var. Amma baxırsan bizim dövlətlilərə, öz nəfslərini pula satıb, cürbəcür yollarla pul qazanırlar və öləndən sonra onların tərbiyəsiz olan uşaqları qalan dövlətin qədrini bilmirlər. Çünki asanlıqla əllərinə düşüb. Bir az müddətdə atadan qalan dövlətin axırına çıxırlar.

N.Nərimanov tərbiyəli kişinin qadına münasibətini, sağlam ailə qurmasını da göstərir. O, Niyaz bəyin dili ilə bu cəhəti qeyd edərək deyir: «... Ondan masəva, bu oxuyub tərbiyə alanların nəzərləri külfətə ayrı, avamlarınkı ayrı, məsələn, mərifətli kişi heç vaxt övrət üstünə övrət almaz. Övrəti öz zindəganlığında özünə yavıq yoldaş bilib, onu qoymaz pis günlər çəksin. Amma mərifətsiz kişidən hər şey gözləmək olar. Gündə övrət döyər, elə ki, bir az pulu artıq oldu, bir özgəsini də alar. Axır görərsən ki, biçarənin ocağı viran oldu. Belə ittifaqlar azdırmı?».[1]

İnsanın heyvan dərəcəsində tutulmasını, pula, vara dövlətə satılmasını, illərlə bəslənən məhəbbətin pulla puç edilməsini kəskin tənqid edən N.Nərimanov köhnə cəmiyyətin bu çirkinliklərini açıb göstərmişdir.

Nərimanovun əsərlərində insan şəxsiyyətinin formalaşmasında tərbiyənin rolu xüsusilə qiymətləndirilir. Onun fikrincə, insanın xoşbəxtliyinə, ağıllı kamallı olmasına əsas səbəblərdən biri də tərbiyədir. «Şamdan bəy» əsərində Yusif, Sultan, Murad və Rəsul arasında Xədicənin xoşbəxtliyi barəsində gedən söhbət zamanı məlum olur ki, onun xoşbəxtliyinə səbəb bir tərəfdən Xədicənin oxuması, təhsil almasıdırsa, digər tərəfdən də tərbiyəli olmasıdır. Əsərdə deyilir:

«*Rəsul.* Bunun (Xədicənin — *H.Ə.*) ağıl-kamalının çox olmasına səbəb nədir?

*Sultan.* Əlbəttə oxumaq...

*Murad.* Tərbiyə.

*Yusif.* Doğru dediniz, tərbiyə dəxi şərtdəndir (Murada baxır).

*Sultan.* Xeyr, şəxs ola bilər ki, çox elm oxumuş olsun və tərbiyəsi az olsun.

*Murad və Rəsul.* Haqdır».[2]

---

[1] Yenə orada. səh. 79—80

[2] N.Nərimanov. Əsərləri, Azərnəşr, 1956-cı il, səh 65.





Məlumdur ki, maarifçilik cərəyanı müəyyən tarixi şəraitin məhsulu idi. Maarifçilik dünyagörüşünə malik olan ziyalılar istismarın, özbaşınalıq, zorakılıq və nadanlığın əsl mahiyyətini elmsizlikdə, mədəni cəhətdən gerilikdə, tərbiyə işlərindəki nöqsanlarda görürdülər. Onlar bu ictimai bəlaların əsil səbəblərini görməkdə aciz idilər və cəmiyyətin ictimai inqilab yolu ilə deyil, islahat yolu ilə, maarifi yaymaq, adamları tərbiyə etmək yolu ilə dəyişəcəyinə inanırdılar. Maarifçilər mövcud ictimai inkişafa inanır, lakin onda olan ziddiyyətləri görmürdülər. Avropada və Rusiyada olduğu kimi Azərbaycan maarifçiləri də xalqın zülm və əsarət zəncirindən xilas olması üçün milli geriliyi aradan qaldırmağa, maarif və mədəniyyəti təbliğ etməyə ciddi səy göstərirdilər.

N.Nərimanovun pedaqoji fəaliyyətinin ilk dövründə tərbiyənin rolunu yüksək qiymətləndirməsi də onun dünyagörüşündəki demokratik maarifçilik mövqeyindən irəli gəlirdi. O, şəxsiyyətin təşəkkülündə elmin, təhsilin rolunu göstərməklə, tərbiyənin roluna daha çox üstünlük verirdi. Heç də təsadüfi deyildir ki, o, 90-cı illərdə «elm insana ancaq bilmədiyi şeyləri təlim verir, adam olmağa isə tərbiyə gərəkdir» — fikrini geniş təbliğ edirdi. Bu fikir onun pedaqoji görüşlərinin əsasında dururdu.

Dövrün böyük maarifpərvəri olan N.Nərimanov, cəmiyyətin islahı üçün məktəb, maarif və mədəniyyətin böyük rolunu qeyd edir, lakin tərbiyəyə ayrıca qiymət verirdi. Bu, həm də ondan irəli gəlirdi ki, o zaman başdan-başa savadsız olan Azərbaycanda maarif, məktəb ilə yanaşı tərbiyə məsələləri daha artıq əhəmiyyət kəsb edirdi və hər bir demokratik maarifçi mümkün qədər kütlənin gözünü açmağa çalışırdı.

N.Nərimanovun tərbiyənin roluna aid fikirləri içərisində nəzəri cəlb edən cəhətlərdən biri də şəxsiyyətin təşəkkülündə tərbiyə, mühit və irsiyyət məsələsidir. Onun bədii əsər və məqalələrində bu məsələyə də toxunulur. Nərimanov irsiyyət nəzəriyyəsinin əleyhinə olaraq, cəmiyyətdə birinin anadangəlmə xan, bəy, digərinin qul olmasını mövcud mühitin və o mühitdə verilən tərbiyənin nəticəsi kimi izah edirdi. O yazmışdı: «Heç kim anadan olanda padşah, xan, bəy, qul yaranmayıbdır. Hamı insan yaranıbdır. İnsana məxsus sağlam beyin və bu beyində insanı heyvandan ayıran xüsusi nöqtələr anadan

olanda hamıda birdir. Bütün beyin və ayrıca-ayrıca nöqtələrin müəyyən bir yolda qüvvət tapması sonrakı tərbiyəyə bağlıdır.»[1]

N.Nərimanov insan şəxsiyyətinin təşəkkülündə tərbiyənin rolu ilə bərabər, mövcud quruluşun, ictimai mühitin də rolunu göstərir. O yazır ki, cəmiyyətdə birinin müvafiq tərbiyə alması, elm oxuması, bu və ya digər sənət qazanması, digərinin isə bunlardan məhrum olması mövcud ictimai mühitin nəticəsidir. «Nə üçün bu insanlardan biri pulun gücü ilə elm, fənn oxusun, sənət öyrənsin, digəri bunlardan məhrum qalsın; nə üçün şəhərlərdə gimnaziyalarda sərmayədarların və mülkədarların uşaqları oxuyub doktor, vəkil, injener olsunlar, fəhlə və kəndçilərin uşaqları nadanlıq dəryasında boğulub qalsınlar? Nə üçün sərmayədar gündə teatrlara gedib ruhani (mənəvi — *H.Ə.*) ləzzət aparsın, fəhlə isə bir günün ağır məşəqqətindən özünü evə yetirib, yarımcan quru yerlərdə yatsın?». Fikrini davam etdirən müəllif yazırdı: «Nə üçün elmsiz, fəhmsiz, ağıldan kəm, tərbiyə cəhətincə əxlaqdan pozğun sərmayədar (öz) uşaqlarına pulun gücü ilə tərbiyə verdirə bilsin? (amma) fəhlə, zəhmətkeş nəinki tərbiyə (verə bilməsin), hətta sevgili balalarına həsrət qalsın?».[2]

Beləliklə, insan şəxsiyyətinin təşəkkülündə tərbiyənin rolunu yüksək qiymətləndirən N.Nərimanov, maarifin demokratikləşdirilməsini, insanların ümumi, bərabər inkişafına mane olan mövcud quruluşun inqilabi yol ilə dəyişdirilməsi ideyasını təbliğ edirdi. O deyirdi ki, müəyyən bir sinfin, ağa və mülkədarların zəhmətkeşlərə etdiyi vicdansızlıq, «oğruluq, quldurluq, qan tökmək, insan və millət balalarını ayaqyalın, başıaçıq, sərgərdan çöllərə salıb, elmdən, fəndən məhrum qoymaq; bütün insanların, millətlərin aralarına ziddiyyət salıb, bunları bir-biri ilə vuruşdurmaq, bunların əxlaqlarını pozub, heyvan dərəcəsinə gətirmək...»[3] və s. bütün bunlar mövcud cəmiyyətin, mühitin və mühitdə verilən tərbiyənin nəticəsidir.

N.Nərimanov göstərirdi: «Hər şey tərbiyə iledir. İnsana necə tərbiyə versən, elə də olar». Onun fikrincə, hələ kiçik yaşlarından verilən tərbiyə uşağın gələcək inkişafının əsasını təşkil edir. N.Nərimanov bu fikrini Nadirin timsalında əsaslandıraraq yazır ki, Nadir hələ uşaqlıqdan atası ilə quldurluğa gedirdi. Atası və onun yoldaşları Nadirə quldurluqdan, adam öldürməkdən o qədər danışmışdılar ki,

[1] N.N ə r i m a n o v. Məqalələr və nitqlər, I cild. Azərnəşr, 1971, səh. 104.
[2] Y e n ə o r a d a, səh. 164.
[3] N.N ə r i m a n o v. Məqalələr və nitqlər, I cild. Azərnəşr, 1971, səh. 145.





onun qulağı dolmuşdu. Ona görə Nadirdə də quldurluğa həvəs oyanmış və o, məşhur quldur olmuşdu.

Quldur dəstəsinin başçısı və qaniçən bir şəxs olan Nadirin hərəkətləri başqaları kimi onun dayısı ağsaçlı Cavad kişinin də xoşuna gəlmir. Buna baxmayaraq, Nadir dayısının qarşısında fəxr edərək deyir: «Dayı, nə üçün ah-zar edirsən? Nə səbəbə qəmgin oldun? Gərəkdir şad olasan ki, mənim kimi bacın oğlu var. Onu bilirsənmi, adımı eşitcək hamı titim-titim titrəyir. Padşahlar mənim müqabilimdə davam etməyib, qoşunları qoyun kimi qaçırlar! Mən deyiləmmi İrana qan ağladan? Belə köməyi olan da dərd edərmi? Fəxr et, könlün şad olsun!».[1]

Nadirin söylədiyi bu sözləri eşidən qoca Cavad kişi ağlayır və Nadiri düz yola dəvət edir, ad qazanmaq üçün yaxşılıq etməyi nəsihət edir, onun gözlərini açmağa çalışır, onu yaman peşədən uzaqlaşdırmağa, quldurluqdan əl çəkməyə, fikrini və gücünü millət və vətən yolunda sərf etməyə çağırır. Nadirin «Dayı, sənə nə olubdur? Nə üçün ağlayırsan? Ürəyində nə var de!» — sözlərinə cavab verən ağsaçlı Cavad kişi Nadirə müraciətlə deyir: Ay balam, nə deyim, nə deyim... Mən öz günümə ağlamayıram. Bu gün sabah öləcəyəm. Məni fikrə salan vətənimizin qarışıq işləridir. Of-of! Heç bilirsənmi nə halda bulunuruq. Vətənimiz əldən gedir, ziyarətgahlarımız, yerlərimiz özgə əlinə keçir. Millətimiz günbəgün zəlil, məşəqqətdə bulunur. Əkin yox, biçin yox. Neçə kəndlərdə aclıq başlanıb. Xalq çəyirtkə kimi qırılır. Mən buna ağlayıram... Nadir! Dünyada ad qazanmaq iki yolla olar. Yamanlıqla və bir də yaxşılıqla. Yamanlıqla ad çıxarmaq hamıya mümkündür və bu ad həmişəlik deyil... Yaxşılıqla ad qazanmaq hər kəsin hünəri deyil. Yaxşılıq edən şəxsin adı nəinki öz sağlığında və hətta öləndən sonra da dillərdə zikr olunar. Bəs heç rəvadırmı ki, sənin kimi rəşid, şücaətli cavanın adı sağlığında min cür söyüşlə və öləndən sonra lənətlə zikr olunsun? Rəvadırmı ki, sənin ömrün, günün və ağlın quldurluqda çürüsün? Rəvadırmı ki, insan bilə-bilə öz gözəl sifətlərini puç edib yaman sifətlər qəbul edə... Heç eşidibsənmi ki, quldur öz əcəli ilə ölə? Qulduru ya həmişə asıblar, ya boğublar, ya güllələyiblər. Xülasə, quldur olan kəs belə yaman naqabil ölümlərdən uzaq deyil...».[2]

[1] N.N ə r i m a n o v. Əsərləri, Azərnəşr, 1956, səh. 124.
[2] N.N ə r i m a n o v. Əsərləri, Azərnəşr, 1956, səh. 124—125.

Cavad kişinin bu hikmətli sözləri eyni zamanda müəllifin tərbiyəyə aid sözlərini tamamlayır. Öz ürək sözlərini dünyagörmüş Cavad kişinin dili ilə deyən Nərimanov adamları vətənə, xalqa xidmət etməyə, həyatda daim yaxşılıq etməyə çağırırdı.

Doğrudan da, qoca Cavad kişinin dediyi tərbiyəvi sözlər Nadirə böyük təsir edir və onun həyatında tam bir yenilik yaradır, onu quldurluqdan, soyğunçuluqdan əl çəkib, daha yüksək məqsədlər uğrunda — vətən uğrunda, millət uğrunda mübarizəyə ruhlandırır.

Tutduğu çirkin işlərdən utanan Nadir fikrə gedir. O deyir: «Dayı! Sənin sözlərin məni ayıltdı, bu vaxtadək xabi-qəflətdə imişəm ... İndi başa düşürəm ki, atam da, mən də əbəs yerə qan tökmüşük ... Bəsdir. Bundan sonra vətənin fikrində olmalıyam ... Dayı! And olsun yerlə-göyü yaradana! And olsun Rzaqulunun canına ki, bu qılınc ancaq vətənin yolunda işlənəcəkdir».[1]

Öz pis əməllərindən peşiman olan Nadir, İranın düşmənlərinə qarşı mübarizəyə başlayır və xalqı da bu mübarizəyə çağırır. O, vətən yolunda qılınc vurmağı müqəddəs hesab edir. Xalq və qoşun içərisində Nadirin hörməti get-gedə artır. Onun şöhrəti bütün İrana yayılır. Nəhayət, Nadir şahlığa keçir və bir sıra islahatlar hazırlayır.

N.Nərimanovun «Nadir şah» dramı ictimai-tərbiyəvi əhəmiyyəti cəhətdən onun digər əsərlərinə nisbətən daha üstündür. Məşhur Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun göstərdiyi kimi, bu əsər müsəlman kütlələrinin tərbiyə edilməsində böyük rol oynamışdır.[2]

İlk dəfə «Nadir şah» əsərində irəli sürülən bu fikir — «yaxşılıqla ad qazanıb ölən şəxsin adı nəinki öz sağlığında, həm də öləndən sonra dillərdə zikr olunar» fikri sonralar, onun bir sıra publisistik məqalələrində daha da inkişaf etdirilmişdir. Onun fikrincə, yaxşı ad qazanıb ölən adamların adı sonralar yaxşılıqla çəkildiyi halda, pis ad qazananların adı da sonralar pisliyə çəkilir ki, bu da adamları pislik etməkdən, adamlara qarşı haqsızlıq etməkdən çəkindirir. Onun «Həftə fəryadı» rubrikası altında dərc etdirdiyi «Yaman ad qazanıb «ölənlər» adsız ölənlərdən nəflidirlər» adlı məqaləsində bu məsələ daha qabarıq verilmişdir. Çox dərin məzmunlu və tərbiyəvi əhəmiyyətə malik olan həmin məqalədə adamlar yaxşılıq etməyə, xeyirxahlığa dəvət edilir, bunun əhəmiyyəti göstərilir. Məqalədə deyilir ki, adsız ölənlər, yəni heç kəslə işi olmayan, gündüz öz işində olub, axşam gəlib yatandan,

[1] Yenə orada, səh. 125
[2] Ü Hacıbəyov. Əsərləri, 2-ci cild, Bakı, 1965, səh. 198.





bu gün dünənki kimi, dünən bu günkü kimi, hər gün bir fikri ilə, bir qayda-qanunla güzəranını keçirənlər, öləndən sonra dövlətlidirlərsə, adı 40 gün çəkilir, kasıbdırsa, özü ölən günü adı da ölür. Ondan bir əsər-əlamət qalmır. Öz qohum-əqrəbasından başqa onun ölməyi heç kəsə təsir etmir. «Gəldi, baxdı, dolandı, getdi». Lakin xozeyinlər, fəhlələri istismar edənlər öləndən sonra xalq deyir: «Ah yaxşı oldu ki, öldü, canımız qurtardı». Belə adamların adları 40 gün yox, illərlə məclislərdə çəkilir, onun mənfi sifətlərindən danışılır. Bunlar xalqın gözünü açır, səhvlərdən xilas edir.

N.Nərimanov yazırdı: « ... istəyirsiniz adınız baqi qalsın, tək özünüz üçün, öz nəfsiniz üçün yaşamayınız, həmcinslərinizi arayınız, arayıb tapınız, sonra toplanınız, cəm olunuz və cəm olub birlikdə ümumi və müştərək bir məqsədə çalışınız».[1]

Onun fikrincə insan təklikdə qalarsa, yəni fərdiyyətçi olarsa, onun bədəni də, əfkarı da, əməli də, mənəviyyatı da fani olar. «Yalnız ümumi işdə çəkilən zəhmətlərin əsəri baqi qalır», yəni nəticəsi daimi olur. N.Nərimanov bu fikri ilə insanları cəmiyyətə xidmət etməyə, zəhmətkeşləri birləşməyə, bir məqsəd uğrunda mübarizə aparmağa çağırmışdır. N.Nərimanov uşaqları da bu ruhda tərbiyə etməyi lazım bilir. O, məqalələrindən birində Şillerin bu məsələyə həsr edilmiş aşağıdakı şer parçasını misal gətirir:

«Ölmək sənə gər verərsə dəhşət,
Müştaqi isən bəqa və ömrün.
Cəmiyyətə sən gəl eylə xidmət,
Qüdsiyyətin anla belə ömrün.
Baqi bu cahanda tək camaat,
Hər fərdə bəqa onunla qismət».

O, göstərir ki, «bu sözlər qızıl suyu ilə, gözəl xətlə yazılıb, bir qitə, bir lövhə halında hər müsəlmanın evində gözə dəyən yerlərdə asılsın, tainki uşaqlarımız həməvəxt oxuyub əzbər edə bilsinlər, bəlkə əzbər edə-edə axırda bu sözlər qəlblərində yer edib, gələcək balalarımız indiki kəsaləti bədbəxt millətin üstündən götürələr».[2]

N.Nərimanovun tərbiyənin məqsədi və roluna aid fikirlərinin bir xüsusiyyəti də bundan ibarətdir ki, o, tərbiyənin yalnız uşaqlar üçün deyil, həm də böyüklər üçün vacib olduğunu göstərmişdir.

[1] N.Nərimanov. Seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh. 308
[2] N.Nərimanov. Seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh. 308

N.Nərimanovun fikrincə, yaşlıların gözəl mənəvi sifətlərə malik olması cəmiyyətin inkişafına, saflığına xidmət etdiyi kimi, uşaqların düzgün tərbiyəsinə də təsir edir. Ona görə də uşaqların tərbiyəsi işində böyüklərin məsuliyyətini artırır və göstərir ki, «Bu gün dünyaya gəlib-gedən, sonradan dünyaya gələn üçün bir yol «gərəkdir» göstərsin».[1]

Gənc nəslin tərbiyəsində ailənin rolunu görən Nərimanov bu məsələyə xüsusi fikir vermişdir. O, Gəncədə «Teatr barəsində bir neçə söz» adlı məruzəsində deyirdi: «Heç atalar-analar istərlərmi uşaqları bədbəxt olsunlar? Heç kəs istəməz ki, oğlu qazamatda illər ilə çürüsün. Amma, çifayda, bunların hamısını görürük və gözlərimizdən qanlı yaşlar tökülür. Bəs lazım gəlmirmi bu dərdin dərmanını tapaq? Nə vaxtadək qoca ata və analarımız sudlara düşəcəklər? Günah kimdədir? Bəyəm günah qazamatda çürüyən uşaqlarımızdadır? Xeyr, günah özümüzdədir. Vaxtında lazım olan tərbiyəni verməyib, öz əlimizlə uşaqlarımızı oda yandırırıq. Bəs bunu bilə-bilə nə üçün uşaqlarımıza elə pərvəriş vermirik ki, nadanlığın əlindən xilas olalar?».[2]

Göründüyü kimi, Nərimanov uşaqların mənəvi aləminin, əxlaqı və davranışlarının əks istiqamətdə inkişaf etməsini, valideynlərin bu işə məsuliyyətsiz yanaşması ilə izah edir, pis tərbiyənin acı nəticələrini çox gözəl və aydın şəkildə göstərirdi. N.Nərimanov ailə tərbiyəsindəki qüsurları qeyd etməklə kifayətlənmir. O, bunu islah etmək yollarını da göstərirdi.

N.Nərimanov tələb edirdi ki, uşaqlara düzgün tərbiyə vermək üçün, ilk növbədə, valideynlər özləri tərbiyəli olmalıdır. «Halbuki, özümüzdə lazım olan tərbiyə yoxdur» —deyən Nərimanov, ailə tərbiyəsinə etinasız qalan valideynləri tənqid edir və göstərirdi ki, «gərəkdir biz özümüz uşaqlarımıza tərbiyə verək, ta onlar da gələcəkdə öz uşaqlarını cürbəcürə bəlalardan saxlasınlar».

Onun fikrincə, «İnsan gərəkdir mümkün olan qədər zindəganlığını doğruluqda keçirə». Çünki «yalan və əyriliyin axırı yoxdur. Həmişə bu işlər aşkar olur və insanı bədnam edir». Məişətdə özünü göstərən yalançılıq, oğurluq, quldurluq, adam öldürmük və s. kimi pis hərəkətləri tənqid edən Nərimanov, bu əməllərin baş verməsini

[1] Yenə orada, səh.309.
[2] N.Nərimanov. Məqalələr və nitqlər, I cild. Azərnəşr 1971, səh. 33.





uşaqların ailə tərbiyəsi ilə, valideynlərin uşaq tərbiyəsinə məsuliyyətsiz yanaşması ilə izah edirdi.

N.Nərimanovun tərbiyə haqqındakı fikirləri içərisində diqqəti cəlb edən cəhətlərdən biri də verilən tərbiyənin tamlığını və ardıcıllığını tələb etməsidir.

O, məqalələrinin birində Şillerdən belə bir misal gətirir: «İnsan həqiqəti tamamilə anlar. Həqiqət natamam olursa, onun müridləri də az olur». Bu fikri şərh edən və tərbiyəyə tədbiq edən Nərimanov belə nəticəyə gəlir ki, tərbiyəçi tərbiyə işində ardıcıl olmalı, uşağa verilən tələblərdə natamamlığa yol verməməlidir. Bu cəhətdən məqalələrinin birində göstərilən aşağıdakı fakt çox xarakterikdir. Məqalənin qısa məzmunu belədir: tutaq ki, uşaq evdən şey oğurlayır, aparıb satır və pulunu xərcləyir. Bunu bilən ata hiddətlənir, özündən çıxır və s. Axırda oğluna nəsihət edərək oğurluğun pis iş olduğunu söyləyir. Beləliklə, ata oğurluğun tam əleyhinə gedir və bunu uşağa da başa salır.

Lakin bir az keçmiş başqa bir hadisə baş verir. Oğlan bir dükanda oturarkən dükan sahibi oğlanı gözətçi qoyub iş dalınca gedir. Oğlan dükanda yerə düşmüş 10 manatlığı götürüb cibinə qoyur. Axşam dükan sahibi pulun əksik olduğunu bilir, lakin oğlanı müqəssir görmür, çünki gedəndə kassanı bağlamışdı. Gələndə də kassa bağlı idi. Dükançı belə güman edir ki, pulu başqa yerdə itirmişdir.

Uşaq tapdığı pulu atasına verir. Ata məmnuniyyətlə pulu uşaqdan alıb xərcləyir. N.Nərimanov yazır ki, «Ata tərəfindən belə bir tərbiyə, əlbəttə, əsərsiz keçmir. Bir az vaxtdan sonra oğlan kassa açıq olursa, oradan da pul götürəcəkdir. Ata isə o pulu da xərc edib, üzdə bir şey deməsə də, ürəkdə ondan razı qalacaqdır».[1]

N.Nərimanov yazır ki, oğlan atanın əvvəlki öyüd-nəsihətini, tərbiyəsini bir qeyri mənada başa düşəcəkdir; oğlan buna, yəni «oğurluq fəna işdir» sözlərinə başqa bir məna verəcəkdir. Oğlan fikir edəcək, bəli, insan öz evindən şey oğurlasa, günahdır, insan tənbeh və cəza olunar; qeyri adamdan, qeyri evdən isə oğurlamaq olar. Doğurdur, ata bu sözləri oğluna deməmişdir. Lakin onun hərəkəti buna dəlalət edir.[2]

N.Nərimanov bu fikri ilə tərbiyəçinin, o cümlədən, valideynin sözü ilə işi, hərəkəti arasında birliyin olmamasını və bunun zərərli

[1] *Bax:* «Həyat» qəzeti, 4 avqust, 1906-cı il, №162.
[2] Yenə orada.

nəticələrini göstərmişdir. Həmin məqalədə N.Nərimanov iki məsələ üzərində, birinci atanın verdiyi tərbiyənin nə ilə nəticələnməsi; ikinci, oğurluğun haradan başlanıb, harada qurtarmasını uşağın bilməməsi üzərində ciddi dayanır və uşaqların tərbiyəsində səhvlərə yol verməməyi tələb edir. Uşaqların tərbiyəsində valideynin hərəkəti ilə sözü arasında birliyin olmasına xüsusi fikir verən Nərimanov bu nəticəyə gəlir ki, əksər hallarda uşağın «xasiyyətinin, tərbiyəsinin xarab olmasına özümüz səbəb oluruq». Əgər «oğurluq pisdirsə, hər işdə, hər vaxt gərəkdir pis olsun, iftira etmək fəna sifət isə, hər kimin barəsində deyilmiş olsa, fəna gərəkdir hesab olunsun».[1]

N.Nərimanovun tərbiyəyə aid fikirlərində özünütərbiyə məsələlərinə aid də qiymətli fikirlər vardır. Onun fikrincə, insanda dərd, qəm ona görə olur ki, o, öz nəfsini boğsa, yəni artıq tamahlıq etməsə, onun dərdi və qəmi də az olar. Nərimanov yazmışdır: «Nəfsin çoxluğu qəmin artmasına səbəb olur... İnsan nəfsinə ağa olub, onu boğduqda qəmi də azalır».[2]

N.Nərimanovun tərbiyəyə aid fikirlərinin mərkəzində humanizm, zəhmətkeş insan, onun taleyi, gələcəyi, səadəti məsələləri durur. Onun bütün pedaqoji fikirləri insana məhəbbət və humanizm ideyaları aşılamağa yönəldilmişdir. N.Nərimanovun humanizmindən bəhs edən professor Mir Cəlal yazırdı ki, «İnsan və onun yaradıcı zəhməti, mənəvi qüdrəti Nərimanovun əsərlərində həmişə yüksək tutulur. Şəxsiyyət azadlığı, vicdan və fikir azadlığı. İnsani heysiyyat və şərəf ucalığı Nərimanovun əsərlərində və şəxsi həyatında da böyük ideal və zəruri tələb olmuşdur».[3]

N.Nərimanovun əsərlərində humanizmə aid bir çox gözəl fikirlər vardır: «Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi» adlı əsərində verilən bir mətndə deyilir ki, öz qızının tərbiyəsi ilə məşğul olan bir qoca kişinin yaşadığı şəhərə bir həkim gəlir. Həkim qocanın qızı ilə evlənir, qızı da, qoca kişini də öz şəhərinə aparır. Onlar yolda gedərkən bir dərədən keçməli idilər. Yolun sağ tərəfi daşlıq, sol tərəfi isə dağlıq idi. Orada mağaralar var idi. Onlar bu mağaranın yanından keçərkən bir adamın fəryad etdiyini eşidirlər. Qızın təkidi ilə qoca və həkim bu mağaraya girir. Onlar qana bulanmış bir adamın «Balalarımı görməyib öləcəyəm» — deyə qışqırdığını və su istədiyini görürlər.

[1] «Həyat» qəzeti, 5 may 1906-cı il, № 97.
[2] Yenə orada.
[3] *Bax:* M i r  C ə l a l. Görkəmli realist ədib. «Ədəbiyyat və incəsənət» qəzeti, 15 aprel 1956-cı il, №16.





Qız dərhal xəstəyə su verir, qoca ilə həkim isə xəstəyə baxırlar. Həkim deyir ki, bu gündən xəstəyə yaxşı baxılsa sağalır. Onlar xəstəni özləri ilə bərabər şəhərə aparırlar. Həkim ona qulluq edir. Beləliklə, xəstə sağalar. Xəstə ağlayaraq qıza deyir ki, siz mənə təzədən can veribsiniz. Mən fəqir adamam. Sizin yaxşılığınızın əvəzində nə bağışlayım? Qız cavabında deyir ki, bu tökülən göz yaşlarının ən qiymətli cövhərini bağışla.

Qiraət üçün verilən bu kiçik mətndə əsas ideya bundan ibarətdir ki, qoca kişinin verdiyi xeyirxah tərbiyənin nəticəsi olaraq qız mağarada qana bulaşmış fəqir bir adamın sağalması üçün əlindən gələni edir və bu xeyirxah işlərin hamısı qocanın verdiyi tərbiyənin, insanlara humanist münasibətin nəticəsi kimi göstərilir. Həm də xəstə, fağır adamın müalicə üçün əvəzində verməyə heç bir şeyi olmadığından, qız onun könlünü sındırmamaq üçün «Tökülən göz yaşlarının ən qiymətli cövhərini» istəyir.

Qrammatika kitabında uşaqlara humanizm ideyalarını aşılayan belə mətnlərin verilməsi böyük tərbiyəvi əhəmiyyətə malik idi. Burada yürüdülən tərbiyəvi fikirlər bu gün də öz əhəmiyyətini saxlayır.

Zəhmətkeş insanın gələcəyinə inam, onun azadlığı və səadəti uğrunda mübarizə, insan ləyaqətini tapdalayan ictimai mühitə qarşı dərin nifrət N.Nərimanov humanizminin əsasında durur.

N.Nərimanovun baxışlarında yalnız tərbiyənin rolu və məqsədinə deyil, onun üsul və vasitələrinə aid də qiymətli fikirlər vardır. Tərbiyəni geniş mənada başa düşən Nərimanov təkcə uşaq və gənclərin deyil, bütün xalqın tərbiyəsi, ictimai tərbiyənin inkişafı uğrunda mübarizə apardığından, xalqın tərbiyəsinə təsir edən amilləri də ümumi şəkildə göstərmişdir. O, xalqın tərbiyəsinə təsir edən vasitələr içərisində ilk növbədə bədii ədəbiyyata üstünlük vermiş və bədii ədəbiyyat vasitəsilə xalqın tərbiyəsinə, ümumi inkişafına çalışmışdır.

N.Nərimanov bədii ədəbiyyat vasitəsilə bir tərəfdən, dövrünün tərbiyə sistemini kəskin tənqid edir, digər tərəfdən də bu tərbiyə sistemindəki yaramazlıqları aradan qaldırmağın yollarını göstərməyə çalışırdı. Təsadüfi deyildir ki, Nərimanov «Nadanlıq» əsərinin ilk nəşrinə yazdığı müqəddimədə demişdir: «Məzkur əsəri yazmağıma səbəb Qafqaz müsəlmanlarının əksəriyyətini biməritət nadanlığı oldu

.... ümüdvaram ki, mənim bu kəmtərin qələmimin meyvəsi müsəlmanların zindəganlığına bir zərrə qədəri nəf gətirə»[1].

N.Nərimanovun pedaqoji fikirlərində tərbiyənin qüdrətli vasitələrindən biri və ən başlıcası kimi məktəbin rolu göstərilir. Nərimanovun fikrincə, məktəb xalqın, o cümlədən gənclərin tərəqqisi, tərbiyəsi üçün ən mühüm vasitədir. Onun «Məktəb, məktəb! Bizi ancaq məktəb nadanlıqdan xilas edər», deməsi, heç də təsadüfi deyildir. Nərimanov məktəbin inkişafında xalqın mənəvi tərəqqisini görürdü.

N. Nərimanov göstərir ki, «Tərbiyə dəxi ancaq elmin gücünə olar. Ona görə də lazımdır məktəblərimiz ola».

N.Nərimanov uşaqlara hər vasitə ilə, o cümlədən teatr tamaşalarından yığılan pulların və xeyriyyə cəmiyyətlərinin hesabına məktəblər açmağı, elm öyrətməklə yanaşı tərbiyə verməyi də zəruri hesab edirdi. O, elə məktəblər istəyirdi ki, orada uşaqlar elm oxumaqla bərabər həm də, «lazım olan tərbiyəni əxz edib gələcəkdə həm özləri və həm ata-anaları xoşbəxt olalar».

Nəhayət, N.Nərimanovun baxışlarında teatr tamaşaları da tərbiyənin qüdrətli vasitəsi hesab edilmiş və teatrın böyük tərbiyəvi rolu göstərilmişdir.

Bu cəhətdən onun 1899-cu ildə Gəncədə teatr barəsində söylədiyi nitq çox xarakterikdir. N.Nərimanov məruzəsini bu sözlərlə başlayır: «Komediya çıxarmaqdan əsil məqsəd tərbiyədir».

Onun fikrincə, teatr tamaşası ən yaxşı tərbiyə vasitəsidir. Belə ki, insan çox vaxt özünün və qeyrisinin həyatındakı, davranışındakı qüsurları görmür. Lakin teatrda «bunların hamısını görüb yaxşını yamandan seçir və mümkün olan qədər çalışır ki, yaman sifətləri özündən rədd etsin».

N.Nərimanov teatr tamaşalarının, xüsusilə komediyanın ancaq gülüş üçün göstərilməsini iddia edənləri tənqid edərək deyirdi ki, komediya məişətimizin aynasıdır. Biz teatrda öz qüsurlarımızı görüb, əlbəttə, çalışırıq ki, özümüzü yaxşı adamlara oxşadaq və pis adamlardan kənar olaq.

N.Nərimanov bu sözlərlə mənfi obrazlara qarşı yaranan nifrəti, müsbət obrazların isə tərbiyəvi təsir qüvvəsini göstərmək istəmişdir. Ona görə də o, teatrı tərbiyə məktəbi adlandırmışdır. N.Nərimanov göstərir ki, uşaqlar məktəbdən gözəl şeylər öyrəndikləri kimi, biz yaşlılar da teatrdan gözəl-gözəl sifətlər əxz edirik.

[1] N.N ə r i m a n o v. Seçilmiş əsərləri, Bakı, «Elm» nəşriyyatı, 1973, səh. 43





N.Nərimanov M.F.Axundovun «Hacı Qara» əsərindəki Hacı Qara obrazının timsalında xəsisliyin, tamahkarlığın acı nəticələrini göstərir, «artıq tamah baş yarar» şəklində ifadə edilmiş məşhur atalar sözünə istinad edərək, tamaşaçıları bu pis sifətlərdən çəkinməyə çağırırdı.

Özünün sələfləri Nizami, Füzuli, Vaqif, M.F.Axundov və başqaları kimi Nərimanov da gənc nəslin tərbiyəsində xalq hikmətlərindən, atalar sözlərindən, zərb-məsəllərdən geniş, həm də bacarıqla istifadə etmişdir.

Atalar sözü xalq kamalının zəngin ifadəsidir. Atalar sözündə xalqın həyatı, əqli və zəkası, adət və ənənələri, mənəviyyatı, tərbiyənin məqsədi, vəzifə və üsulları öz əksini bədii formada tapmışdır. Atalar sözünün böyük tərbiyəvi əhəmiyyəti olduğundan, xalq onu qoruyur və daim zənginləşdirir. Digər xalqlarda olduğu kimi, Azərbaycanda da pedaqogika, tərbiyə nəzəriyyəsi yaranmazdan əvvəl gənc nəslin tərbiyəsində atalar sözü, aforizm və zərb-məsəllərin böyük tərbiyəvi rolu olmuşdur. Bu cəhətə xüsusi əhəmiyyət verən N.Nərimanov öz əsər, məqalə və çıxışlarında ondan geniş istifadə etmiş və bunun vasitəsi ilə xalqa, ilk növbədə isə gənclərə təsir etməyə çalışmışdır.

N.Nərimanovun istifadə etdiyi aforizm, atalar sözü və zərb-məsəlləri xarakterinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

a) müsbət əxlaqi keyfiyyətlər tərbiyə etmək üçün işlədilən aforizm, atalar sözü və zərb-məsəllər: «Tək əldən səs çıxmaz»; «Güc birlikdədir»; «Artıq tamah baş yarar»; «Ağacı qurd içindən yeyər»; «Yağışdan çıxdıq, yağmura düşdük»; «Heç kəs öz ayranına turş deməz»; «Adam adama gərəkdir»; «Nə tökərsən aşına, o çıxar qaşığına»; «Yoldaşlıqda xəyanət olmaz»; «Oxuduğunu söyləmə, anladığını söylə»; «Söz qılıncdan kəskin olar»; «Həkim azara görə gərək dava versin» və s.

b) mövcud cəmiyyətdəki qüsurları tənqid etmək məqsədi ilə işlədilən aforizm, atalar sözü və zərb-məsəllər: «Yaman ad qazanıb ölənlər, adsız ölənlərdən nəflidirlər»; «Quzğunlar cəmdək üstə»; «Aqibətiniz nə olacaqdır»; «Yol verin, millət gəlir»; «İki cüt, bir tək»; «Anlayanın quluyam, anlamayanın ağası»; «Su qabı suda sınar»; «Quldur əcəli ilə ölməz»; «Getdi zor dünyası» və s.

N.Nərimanov məqalə və felyetonların tərbiyəvi təsir qüvvəsini artırmaq üçün onların çoxunu yuxarıda göstərilən atalar sözləri və zərb-məsəllərlə başlamışdır. Nərimanov təkcə mövcud atalar sözlərindən istifadə etməklə kifayətlənməmiş, eyni zamanda yeni-yeni atalar sözü, zərb-məsəllər yaratmağa çalışmış, mövcud atalar sözlərinin yaranması tarixinə aid bir sıra maraqlı fikirlər söyləmişdir. Nərimanovun fikrincə, bütün millətlərdə olan atalar sözləri özünün tərbiyəvi xarakteri ilə bir-birinə daha yaxındır. Bunların hamısında məqsəd gənclərin tərbiyəsinə təsir etməkdir.

Atalar sözlərinin tərbiyəvi təsirinə böyük əhəmiyyət verən Nərimanov əsrlərin sınağından çıxan, böyük həyat məktəbi olan bu şifahi xalq ədəbiyyatı nümunələrini toplayıb çap etməyi lazım bilmişdir. Onun fikrincə, xalqın mənəviyyatını əks etdirən, az söz ilə dərin tərbiyəvi fikirlər ifadə edən bu məsəl və atalar sözləri vasitəsi ilə millətin keçmişdə və ya hal-hazırkı fikri və adəti ilə tanış olmaq mümkündür.

N.Nərimanovun pedaqoji fikirləri içərisindəki tərbiyənin ümumi məsələləri, onun məqsədi və rolu ilə bərabər, həm də əxlaq və əxlaqi tərbiyə də mühüm yer tutur. Nərimanovun əxlaq məsələlərinə dair fikirləri xalqın ictimai tərəqqisi və azadlığı uğrundakı mübarizəsi ilə əlaqədardır. O, xalqın əxlaqi tərbiyəsi məsələsini siyasi mübarizənin tərkib hissəsi hesab edirdi.

N.Nərimanovun bədii əsər və məqalələrində əxlaqın tarixi və sinfi kateqoriya olmasına aid də bir sıra maraqlı fikirlər vardır. 1906-cı ildə «Həyat» qəzetinin 160-cı nömrəsində dərc etdirdiyi «Bütün aləm təhəvvülat ilə tərəqqi edir» adlı məqaləsində deyirdi ki, hər bir sinfin özünəməxsus fikri, əqidəsi, dolanacağı, başqa sözlə desək, əxlaqi normaları vardır. Zəmanənin dəyişməsi ilə əlaqədar olaraq əxlaqi normalar da dəyişir və inkişaf edir. «İki il bundan müqəddəm «təbii» olan şeylər, hərəkətlər, halətlər indi adətdən dişqarı hesab olunur». Hər bir sinfin özünəməxsus «dolanacağı», əxlaq qaydaları olduğunu Rusiyanın timsalında əyani olaraq göstərən Nərimanov həmin məqalədə yazırdı: «Biçarə Rusiya kəndlisi yüz illərlə ağzı bağlı heyvan dərəcəsində bulunurdu. Nəinki açıq söyləməyə, hətta fikir də etməyə özündə ixtiyar görmürdü. Başına toppuz dəydikcə başını daha da aşağı salırdı. Gözünü açıb atasını, babasını da belə bir halətdə görmüşdü... Özü də belə bir «ümumi tərbiyə» ilə böyüyüb axırda qeyrilərinə də «lazım olan» tərbiyəni təlim edirdi.





Həmin tərbiyə dərin, çox dərin kök atıb təbii bir şey kimi nəzərə gəlirdi. Belə də gərək olsun. Hamı dilli olmaz, hamı ixtiyar, hökumət sahibi, hamı zəhmətkeş olmaz; biri «dilli» olanda, biri gərəkdir dilsiz olsun, biri hökm edəndə, o biri gərəkdir hökmü yerinə yetirə, biri ixtiyar və istiqlal olanda, biri gərəkdir ixtiyar və istiqlal qulu ola, biri beli iki qat olub qabarmış əlləri ilə torpaqla əlləşəndə, o biri həmin torpağın sayəsində zəhmətsiz gərəkdir yaşaya, gününü eyşi-işrətdə keçirib, dünyanın hər ləzzətindən dada. Biri acından, susuzundan can verəndə, o biri şampanın çoxluğundan o dünyaya köçə, birinin ölüsünü qəbrə aparmaq üçün beş-altı adam da tapılmayanda, o birini minlərlə adam qızıl-gümüş venoklar ilə, cürbəcür bahalı güllərlə, çiçəklərlə bəzənmiş tabutda ehtifalət (cah-cəlal — *H.Ə.*) ilə təşyi edirlər»[1] (yəni cənazəni yola salırlar — *H.Ə.*).

N.Nərimanov göstərirdi ki, yuxarıdakılar müəyyən bir dövr üçün «təbii» əxlaq normaları hesab olunurdusa, indi cəmiyyətdə əmələ gələn dəyişikliklər ilə əlaqədar olaraq, əxlaqi normalar da dəyişdi və yeniləşdi. «Dünənki» «layiqsiz» hərəkət bu gün layiqli oldu».[2]

N.Nərimanovun fikrincə, əxlaq anadangəlmə olmadığı kimi, əxlaqi normalar da daimi deyildir. Əxlaqi normalar zəmanədən, «dolanacaqdan» asılı olaraq dəyişir və inkişaf edir. Əxlaqi normaların müəyyənləşməsi üçün zəmanə həlledici rol oynayır. Zəmanə əxlaqi sifətlərin yaranmasında əsas olduğu kimi, bu əxlaqi sifətlər də öz növbəsində zəmanənin tərəqqisində böyük rol oynayır. Onu da qeyd etmək lazımdır ki, Nərimanov ilk zamanlar zəmanə dedikdə, heç də cəmiyyətin maddi həyat şəraitini deyil, əsasən cəmiyyətdəki qayda-qanunları, təlim-tərbiyə sistemini nəzərdə tuturdu.

Əxlaqın tarixi və sinfi kateqoriya olmasını elmi dəlillərlə sübut edən Nərimanov, həm də feodal-burjua əxlaqının mahiyyətini, onun çürüklüyünü, kapitala əsaslanmasını da göstərmişdir. O yazırdı ki, fabrik və zavod sahibi olan mülkədarlar üçün «dünyada bir şey varsa, o da ömrünü eyş-işrətdə keçirib, özgələrinin qan-təri ilə milyonlar toplamaqdır». Belə əxlaqa malik olanlar xalqın qeydinə qalmırlar, əksinə, «minlərcə millət balalarını ac-susuz yaşadıb, dürlü-dürlü mərəzlərə mübtəla edir», dünya elmlərindən məhrum edir, əxlaqlarını pozurlar. Onlar üçün din, millət, əxlaq hamısı asanlıqla qazandığı milyonun içində qərq olunmaqdır».

[1] «Həyat» qəzeti, 21 iyul 1906-cı il, № 160
[2] Yenə orada.

N.Nərimanov sonrakı əsərlərində bu məsələni daha da inkişaf etdirmiş və əxlaqın mənbəyi məsələsinin elmi-materialist şərhini vermişdir. O, 1923-cü ildə yazırdı ki, biz fikrimizin, şüurumuzun dəyişməsinə varlığın səbəb olduğunu bilirik. Biz həm də bilirik ki, bir-birinə zidd olan və bir-biri ilə mübarizə aparan iki sinfin idealı eyni ola bilməz. Hər bir sinfin öz etikası vardır.

1920-ci il sentyabrın 8-də oxuduğu mühazirəsində Nərimanov pul üstündə qurulan, mənəvi dayaqları pula söykənən cəmiyyətin çürüklüyünü elmi cəhətdən əsaslandırırdı...

O deyirdi ki, bu cür cəmiyyətdə ... «qızıldan ötrü qardaş-qardaşı məhkəməyə verir, bacı qardaşını qalaya saldırır, oğul ataya nifrət edir, arvad kişisini atır, kişi arvadından intiqam alır».[1]

N.Nərimanov gənc nəslin əxlaqi tərbiyəsində hakim təbəqənin əxlaqa zid mənafeyinin müdafiəsinə xidmət edən dini nəsihətləri rədd etmişdir. O, göstərmişdir ki, dini nəsihətlər vasitəsi ilə insanların əxlaqını yaxşılaşdırmaq, onları pis əməllərdən çəkindirmək mümkün deyil. Nərimanov yazırdı ki, «padşah allahın kölgəsidir», «böyüyün üzünə ağ olma», «dünya malına göz tikmə», «allah səbr edənləri sevər», «bu dünyada əziyyət çəkənlərin yeri cənnətdir» və s. kimi nəsihət və dini qanunlar məhz hakim siniflərin cinayətkarlıqlarına bəraət qazandırmaq və onların xüsusi mülkiyyətlərini müdafiə etmək məqsədi ilə düzəldilmişdir.

N.Nərimanov insanın insan tərəfindən istismarını ən böyük əxlaqi düşkünlük sayır və göstərirdi ki, dini moizələrlə, o cümlədən, «oğurluq etmə», «adam öldürmə» kimi sözlərlə pis işlərin qarşısını almaq olmaz. Əvvəlcə insanları qatilliyə, oğurluğa məcbur edən səbəbləri öyrənməli, sonra isə bu səbəbləri aradan qaldırmalı. Səma allahlarının və onların nümayəndələri olan peyğəmbərlərin minlərcə qanunlarına, müxtəlif kəlamlarına baxmayaraq pisliklər edilir və ediləcəkdir. Məlum cəmiyyətdə və yaxud dövlətdə insanlar arasında mövcud olan ictimai münasibətlərdəki ziddiyyətlər məhv edilməyincə bu pislik daha artıq davam edəcəkdir».[2]

N.Nərimanov göstərirdi ki, «o dünyadakı cəzalar haqqında dinin yaratdığı qorxu, nə əqlə və nə də qəlbə bir şey vermir. Ancaq real həyat, cəmiyyətin əsrlərdən bəri formalaşıb gələn əxlaq normalarına

[1] Azərbaycan EA RƏİ. N.Nərimanovun qovluğu.
[2] Azərbaycan EA RƏİ. N.Nərimanovun qovluğu.





əsaslanan tərbiyə isə insanları «qardaşlıq, bərabərlik və azadlıq ruhunda tərbiyə edir».

## Xalqlar dostluğu və beynəlmiləlçilik tərbiyəsi haqqında

*«Bizə insanların xoşbəxtliyi, millətlərin birliyi, bir-birinə doğru məhəbbəti, qardaşlığı və yoldaşlığı lazımdır».*

*N.Nərimanov.*

Xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi tərbiyəsi əxlaq tərbiyəsinin tərkib hissəsidir. Təsadüfi deyil ki, N.Nərimanovun pedaqoji irsində xalqlar dostluğu və beynəlmiləlçilik mühüm yer tutur. Onun fəaliyyət göstərdiyi dövrdə Azərbaycanda, xüsusilə Bakıda iqtisadi və sosial həyatın inkişafı ilə əlaqədar olaraq, xalqın milli şüuru da yüksəlirdi. Xalqın siyasi və milli şüurunun hansı istiqamətdə inkişaf etdirilməsi məsələsi dövrün ziyalılarını düşündürən mühüm problemlərdən idi. Onların bir qrupu xalqın şüurunu millətçilik ruhunda tərbiyə etməyə, milli hissləri qızışdırmağa, dini birliyə əsaslanaraq, millətin daxilindəki sinfi ziddiyyətləri pərdələməyə, milli münasibətləri dini fərqlərdən irəli gələn münasibətlərlə əvəz etməyə, digər qism ziyalılar isə xalqın milli şüurunu vətənpərvərlik, beynəlmiləlçilik, xalqlar dostluğu ruhlu tərbiyəyə yönəltməyə çalışırdılar. Xalqın siyasi və milli şüurunun xalqlar dostluğu və beynəlmiləlçilik ideyaları ruhunda tərbiyə edilməsində N.Nərimanov fəal rol oynamışdır. Onun 1896-cı ildə yazdığı «Bahadır və Sona» romanından başlamış, 1906—1907-ci illərdə «Həyat» və «İrşad» qəzetlərində, 1917—1918-ci illərdə «Hümmət» qəzetində nəşr etdirdiyi bir çox məqalələri, həmçinin sonrakı yazıları xalqlar dostluğu və beynəlmiləlçilik ideyaları ilə zəngindir.

Realist və yüksək ideyalı nəsrin ən gözəl nümunələrindən olan «Bahadır və Sona» romanında azərbaycanlı Bahadır ilə erməni Sonanın bir-birlərinə olan sevgilərinin timsalında irəli sürülən xalqlar dostluğu ideyası nəinki Nərimanovun yaradıcılığında, ümumiyyətlə, Azərbaycan ictimai-siyasi və pedaqoji fikir tarixində mühüm bir hadisə idi. «Noviy Vostok» jurnalının 1925-ci ildə yazdığı kimi, Azərbaycan ziyalılarının köhnə nəslindən olan N.Nərimanov

millətçilik bütünü ilk dəfə olaraq cəsarətlə tapdaladı və xalqların beynəlxalq qardaşlıq ideyasını ədəbiyyatda cəsarətlə irəli sürdü.[1] O, Azərbaycan ictimai və pedaqoji fikrində əsrlərdən bəri inkişaf edib gələn xalqlar dostluğu ideyasını öz dövrünün qarşıya qoyduğu tələblərə uyğun olaraq, yeni məzmunla daha da zənginləşdirdi və inkişaf etdirdi.

Əsərin qəhrəmanları, rus məktəblərində tərbiyə almış Bahadır ilə Sona, müxtəlif millətlərə mənsub olmalarına baxmayaraq, bir-birinə rast gələrkən öz baxışlarında və səylərində bir çox ümumi cəhət tapırlar. Hər iki gənc öz həmmillətinin rifahı yolunda çalışmaq üçün yollar axtarır. Təmiz hisslərlə yaşayan bu gənclərin hər ikisi öz xalqını böyük məhəbbətlə sevir. Bu hiss onları bir-birinə daha da yaxınlaşdırır və gənclər bir-birlərini sevirlər. Lakin onlar arzularına çata bilmirlər. Buna onların arasındakı «uçurum dərələr» mane olur. Bu «uçurum dərələr» gənclərin arasındakı millət və din ayrılığıdır. Bahadır və Sona öz aləmlərində bu «uçurum dərələri» məhv etməyə çalışırlar. Lakin həqiqətdə isə özləri məğlub olurlar. Həmin «uçurum dərələr» onları məhv edir. Lakin ideal məhv olmur. Bahadır ölərkən deyir: « ... Ah, insanları bir-birindən ayıran «uçurum dərələr!» Mən sizi məhv etmək istərkən, siz məni məhv etdiniz. Fəqət əmin olunuz, siz axırda məhv olacaqsınız».[2]

«Bahadır və Sona» əsərində millətlər arasında sün'i olaraq yaradılmış «uçurum dərələr», yəni millət, din ayrılığı, «insanların arasına təfriqə düşməsi» və bunun acı nəticələri canlı və obrazlı şəkildə təsvir edilmişdir. Əsərdə deyilir: «Nə üçün mən müsəlman, siz xristian, qeyrisi yəhudi və bütpərəst adlansınlar? Nə üçün bu insanlar sonradan düzəlmiş dürlü-dürlü qanunlara sitayiş etsinlər».

N.Nərimanov belə nəticəyə gəlir ki, «bu uçurum dərələri», «dürlü-dürlü qanunları» insanlar özləri yaratdıqlarından, onlar özləri də bunu məhv etməlidirlər. Bu zaman məhəbbət də azad olar.

Əsrlərdən bəri yerli feodalların, ruhanilərin və digər irticaçı qüvvələrin xalqlar arasında təfriqə salıb «uçurum dərələr» yaratdıqları bir zamanda Nərimanovun xalqlar dostluğu ideyasını təbliğ və inkişaf etdirməsi onun mühüm xidmətlərindəndir. Akademik F.Q.Köçərlinin yazdığı kimi, Nərimanov, «Bahadır və Sona» əsərində məhz sadə zəhmət adamlarının dostluğunu tərənnüm etməklə belə bir fikir irəli

[1] «Новый восток» jurnalı, 1925, № 1 (7), səh. 4.
[2] N.Nərimanov. Əsərləri, Azərnəşr, 1956, səh. 206.





sürürdü ki, xalqlar dostluğunun əsas qüvvəsi zəhmətkeşlərdir. Xalqlar dostluğu zəhmetkeşlərin arasındakı dostluqdur.[1]

Nəriman Nərimanovun «Bahadır və Sona» əsərində təbliğ etdiyi xalqlar dostluğu və beynəlmiləlçilik ideyası Zaqafqaziya xalqlarını irticaçı qüvvələrə qarşı daha sıx birləşməyə çağırırdı. O, xalqlar dostluğu ideyasını dini ayrı-seçkiliyə, xalqları bir-birindən ayıran köhnə adət və ənənələrə qarşı qoymuş və belə bir fikir irəli sürmüşdür ki, dini və milli fərqlər insanlar arasında dostluq və qardaşlıq münasibətlərinə mane ola bilməz. İnsanların məhəbbət və dostluq hissi dini təsəvvürlərdən daha küclüdür. Bu hiss istismar dünyasının yaratdığı «uçurum dərələri» məhv edə bilər və etməlidir.

N.Nərimanov xalqlar dostluğu və beynəlmiləlçilik ideyasını çarizmin, habelə yerli burjuaziya və mülkədarların millətləri bir-birindən ayırmaq və onların arasında ədavət salmaq siyasətinə qarşı qoyurdu. Məhz buna görədir ki, «Bahadır və Sona» əsərinin hələ birinci hissəsi çap edildikdən[2] sonra bu əsər böyük mübahisələrə səbəb olmuşdu. Hətta irticaçı qüvvələr müəllifə qarşı sui-qəsd təşkil etmək istəmişdilər. Əsərin ideyasını düzgün dərk etməyib, xalqlar dostluğunu bir millət balasının digər millətin nümayəndəsi ilə evlənməsi kimi başa düşənlərə gülən N.Nərimanov sonralar — 1925-ci ildə deyirdi: «Bir vaxt mənə hətta deyirdilər: olmaya sən istəyirsən ki, müsəlman erməni qızını alsın, yaxud erməni azərbaycanlı qızını?»

Xüsusilə də əsərdə dini qanunların insanlar tərəfindən yaradılıb, insanlar tərəfindən də məhv ediləcəyi fikri, təkcə ruhanilərə deyil, onların ardınca gedənlərə də böyük təsir etmişdi.

N.Nərimanov yazırdı: «Bu cəhət nəinki ruhanilərin, həmçinin ruhanilərin ardınca gedən kütlənin də içərisində çaxnaşma salmışdı». Ona görə «Bahadır və Sona» əsəri xalqlar dostluğunun qatı düşməni olan çar hökumətini və onun yerli nökərlərini ciddi narahat edirdi.

Bütün bunlara baxmayaraq, əsər qabaqcıl adamların diqqətini cəlb etmiş, böyük şöhrət qazanmış və elə çapdan çıxdığı ildə (1896) erməni dilində nəşr olunmuşdu. Əsəri erməni dilinə tərcümə edən V.Papazyan onun erməni dilində dərci ilə əlaqədar yazırdı: «Bahadır və Sona» əsərinin qəhrəmanlarından birinin — Sonanın erməni olduğuna görə erməni oxucuları da bu əsərlə çox maraqlanırlar.

[1] *Bax:* F.Q. Köçərli. N.Nərimanovun yaradıcılığında xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi ideyaları. Azərbaycan SSR EA xəbərləri, ictimai-elmlər seriyası, 1964, № 3, səh. 65.
[2] Əsərin 19 səhifədən ibarət olan birinci hissəsi 1896-cı ildə Bakı quberniya mətbəəsində, 8 səhifəlik 2-ci hissəsi isə 1899—1900-cü illərdə Bakıda və Yelendorfda (indiki Xanlar şəhərində) çap edilmişdir.

Onların marağını nəzərə alaraq əsərin birinci hissəsini tərcümə edib jurnalda nəşr etdirdik».[1]

Bahadır və Sonanın məhv olmasına səbəb olan həmin «uçurum dərələr» artıq ləğv edilmiş, onların arzuları həyata keçirilmişdir.

Birinci rus inqilabının coşqun illərində RSDFP-nin milli məsələyə dair proqramına istinad edərək çıxış edən Nərimanov millətçiləri, şovinizm xəstəliyinə tutulanları ardıcıl olaraq ifşa edirdi. Nərimanov bu illərdə yazdığı «Müsəlman-erməni kasıb fəqirlərinə bir neçə söz», «Cavabınız nə olacaqdır?», «Quzğunlar cəmdək üstə», «Yol verin, millət gəlir!», «Nə etməliyik», «Dövri-cədid», «Henrix İbsen», «Duma və dövlət», «Bu yaşayış yaşayışmı?», «Güc birlikdədir», «Hüriyyətə dair bir neçə söz» və s... bu kimi məqalələrində çarizmin müstəmləkə siyasətinin mahiyyətini xalqa izah edirdi. O yazırdı ki, çarizm «çürümüş taxta bünövrəli köhnə evinin viran olmağa» başladığını görüb, özünün «parçala və hökmranlıq et» siyasətini daha da gücləndirir, Zaqafqaziya xalqlarının inqilabi mübarizəsini boğmaq məqsədi ilə onların arasında milli qırğınlar təşkil edir. Nərimanov xalqı başa salırdı ki, bütün bu fitnə-fəsadları törədən çar hökuməti və yerli hakim siniflərdir. O, 1906-cı ildə «Həyat» qəzetində dərc etdirdiyi «Müsəlman-erməni kasıb-fəqirlərinə bir neçə söz» adlı məşhur məqaləsində çar hökumətinin törətdiyi milli qırğınlara qarşı özünün kəskin etiraz səsini ucaldaraq yazırdı.

*«... insafsız, mürvətsiz, dinsiz, imansız provokatorlar köhnə xasiyyətlərindən əl çəkmirlər... Bağda, bazarda, küçədə, meydanda, restoranlarda, klublarda, hər yerdə, hər məqamda fürsət tapırlar, söyləyirlər: «Qarabağda erməni-müsəlman davası» başlandı, yəqin ki, Bakıda da başlanacaqdır»...* Bunlar vicdansız bir sinif olub, hər tövr cildə girirlər. Müsəlman görəndə deyirlər: heç xəbərin varmı, ermənilər müsəlmanların başlarına Qarabağda nə gətirirlər? Evlərini yandırıb, arvad-uşaqlarını əsir ediblər, mallarını talan edib özlərini Qarabağdan qovluyurlar...

Bunlar erməni görəndə deyirlər: vay, yazıq ermənilər! Heç bilirsinizmi, neçə yüz erməni tələf olubdur? Kənar erməni kəndləri bilmərrə yanıb qurtarıbdır Xülasə, bu sinif* adamlar iki milləti bir-

[1] *Bax:* V.Papazyan. Qafqaz türklərinin ədəbiyyatı haqqında bir-iki söz, «Murc» jurnalı, Tiflis, 1896-cı il, № 6 (ermənicə).

* Bu cür (*H.Ə*)





birinə vuruşdurmaq üçün əllərindən gələni ediblər və edəcəklər».[1] Nərimanov fikrini davam etdirərək yazırdı ki, hər iki millət düşmənlərini gərək tanısın, belə bir vicdansız adamların sözlərinə uyub iki bədbəxt millətin düşdüyü fəlakət quyusunu bir daha dərinləşdirməsin.

N.Nərimanov Azərbaycan və erməni xalqlarını çarizmin, yerli burjuaziya və mülkədarların fitnəkarlıqlarına aldanmamağa çağırırdı. Üzünü xalqa tutub deyirdi: «eşidiniz, biliniz ki, siz bir-birinizin qanını tökəndə, bir-birinizin uşaqlarını başı açıq küçələrə buraxanda sizin «dostlarınız» evlərində oturub eyş-işrətlə məşğul olurlar». O, hər iki dost xalqın qüvvələrini azadlıq uğrunda mübarizədə birləşdirməyə çağıraraq yazırdı: «Ey erməni-müsəlman kasıb fəqirləri! Əqlinizi uduzub bir para «adamların» hiyləsinə aldanmayınız. «Ümid verən çox olar, çörək verən az» sözlərini unutmayınız: Hümmət, həmiyyət, qeyrəti nə yerdə, nə məqamda göstərməyi düşününüz... Sizin «böyüklər»inizdən sizə əlac yoxdur! Özünüz öz dərdinizə dərman arayınız, qoyun olub, ixtiyarınızı qurdlara tapşırmayınız! Onlar pul ilə, siz can ilə meydana gəlirsiniz»[2]

N.Nərimanov həmin məqalənin sonunda zəhmətkeşlərə dərin məhəbbət, onun düşmənlərinə isə nifrət hissi ilə yazırdı: *«Bəsdir millətin haqqında bu qədər zülm! Tamamdır nahaq yerə tökülən qanlar! Vaxtdır burjuyların torundan xilas olub ittifaq etmək, ümumi düşmənin müqabilinə çıxıb hərə öz hüququnu tələb etmək...*

*Öz cilovunuzu «düşmənin», ya «böyüklərinizin» əllərinə verib özünüz öz əliniz ilə özünüzə quyu qazırsınız... Sizin böyüyünüz öz aranızdan gərəkdir seçilə, sizin dərdinizi bilən sizin kimi kasıb, fəqirlərdən gərəkdir ola...»*

*O vaxt yüz illər ilə bir-biri ilə mehriban dolanan iki millət öz səhvlərini başa düşüb, genə bir yerdə əkib bir yerdə də biçəcəkdir»*[3].

N.Nərimanov çarizmi iki xalqın arasında törədilən qırğının əsil müqəssiri hesab edirdi. O, «İrşad» qəzetində yazdığı felyetonlarından birində göstərirdi ki, 1905-ci ildəki erməni-azərbaycanlı qırğınının zərərini yoxsullardan, zəhmətkeşlərdən almaq istəyirdilər. Halbuki, bu qırğının əsl müqəssirləri Xatisov, Montaşov,... kimi sahibkarlar idilər. Tökülən insan qanları bir yana dursun, talan, yanğın və s.

[1] N.Nərimanov. Məqalələr və nitqlər, I cild, Azərnəşr, 1971, səh. 89—90

[2] N.Nərimanov. Məqalələr və nitqlər, I cild, Azərnəşr, 1971, səh. 92.

[3] Yenə orada, səh.42.

zərərini də onlardan almaq ədalətli tədbir olar».

N.Nərimanov fəhlə və kəndlilərin ağır vəziyyətini göstərməklə, bütün millətlərdən olan fəhlələrlə kəndlilərin birgə mübarizə aparmasını zəruri hesab edirdi. «Yalqız əldən səs çıxmaz» adlı məqaləsində o, bütün xalqlardan olan zəşmətkeşləri bir ittifaqda birləşməyə, əlbir mübarizə aparmağa ruhlandırırdı. Həmin məqalədə deyilir: «Əzizlərim!... Sizin aranızda ittifaq olsa, heç kəs sizə güc gətirib sizi puç edə bilməz. Vaxta ki, aranızda nifaq oldu, vaxta ki, bir-birinizdən ayrıldınız, sizin puç olmağınıza ehtimal var»[1]. Məşhur rus şairi İ.A.Krılovun «Balıq, ördək və xərçəng» təmsilini misal gətirən N.Nərimanov yazırdı ki, balıq, ördək və xərçəng arabaya qoşulub çəkmək istəsələr də onların hərəkətləri və mənafeləri, cinsləri bir-birinə uyğun gəlmədiyindən, bu əməkdən bir nəticə çıxmır. O yazırdı ki, əgər balıq, ördək və xərçəng, bir cinsdən olsa idilər, qoşulduqları arabanı bir yerə aparıb çıxara bilərdilər.

N.Nərimanov bu fikirlə oxucularına demək istəyirdi ki, bütün millətlərin zəhmətkeşləri çarizmə qarşı mübarizədə vahid bir cəhbədə birləşməlidirlər. Çünki onlar çarizmin əleyhinə olduqlarına görə mənafelərində də ziddiyyət yoxdur.

1906-cı ildə «Həyat» qazetində «Həftə fəryadı» rubrikası altında dərc etdiyi məqalələrindən birində bu məsələdən bəhs edən N.Nərimanov xalqa müraciətlə deyirdi: «hal- hazırda hürriyyətə çalışınız, hürriyyətpərəst-ləri dost tutunuz, onlara kömək ediniz. Çünki onlardır əsl insaniyyətə yol açanlar, onlardır millətləri məzhəbləri bir-birinə yavıqlaşdıranlar. Onlardır fəqirlərin, kasıbların pərəstarı, onlardır möhürlü ağızları açanlar, paslanmış ağıllara seyğəl verənlər, ixtiyarsızlara ixtiyar verənlər, qulları azad edənlər, ədaləti meydana gətirib zülmü puç edənlər. Onlardır yüz illər ilə gizli-gizli bizə quyu qazanları indi aşkar edənlər, kor gözlərimizi açanlar, kar qulaqlarımızı dələnlər. Dərdlərimizi göstərənlər. Fəryadlarımızı eşidənlər»[2].

N.Nərimanovun fikrincə, insanın xoşbəxtliyini təmin edən hürriyyət, azadlıq zəhmətkeşlərin birliyi nəticəsində yaranır. Odur ki, xoşbəxt həyat qurmağın yeganə çarəsi yalnız zəhmətkeşlərin birliyində, onların həqiqi ittifaqındadır. O, göstərirdi ki, xalqlar arasında ayrı-seçkilik salınmasının bir səbəbi də xalqlar arasındakı dini əqidələrin olmasıdır. Din fikrin, azadlığın, tərəqqinin düşmənidir.

[1] Yenə orada.
[2] N.Nərimanov. Seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh. 274—275.





N.Nərimanovun fikrincə, müxtəlif millətlərin hərəsinin özünəməxsus dili olmasına baxmayaraq, onların adət və ənənələri arasında yaxınlıq vardır. Məsələn, eyni həyat şəraiti, yaşayış tərzi, müxtəlif xalqlarda eyni məzmunda atalar sözləri və zərb-məsəllərin yaranmasına səbəb olmuşdur. N.Nərimanov eyni həyat şəraitinə malik olan bütün millətlərin və xalqların adət və ənənələrindəki bu yaxınlığı xalqlar dostluğunun əlamətlərindən biri hesab edirdi. Buna görə də xalqların əbədi dostluğunu təmin etmək üçün yeganə çarəni bərabərlikdə, gələcəkdə insanların iqtisadi və hüquqi bərabərliyinin təmin edilməsində görürdü. O deyirdi ki, elə bir aləm haradadır ki, hamı bir fikirdə, bir qanacaqda olsun. O, belə bir cəmiyyəti inqilabla əldə etməyin, zəhmətkeşlərin ancaq bu yolla azadlığa çıxmağının mümkün olması ideyasını müdafiə edirdi. N.Nərimanov deyirdi ki, mövcud qanunlar ziddiyyət, bərabərsizlik, ədalətsizlik yaradır. Nümunə üçün o, Rusiyanı misal göstərərək yazırdı: «...Azuqə məsələsi, yainki qeyri millətlərə dair düzəldilən qanunların təsiri indi də hiss olunur. Bu neçə illər ərzində kəndliləri acından çibin kimi qırılan Qafqazda və daxili quberniyalarda millətin millət qanını su yerinə axıtmaları bu qanunların təsiri deyilmi?»[1].

Göründüyü kimi, N.Nərimanov xalqlar dostluğunu əsil mənada tam təmin etmək üçün hələ 1905—1907-ci illərdə bütün mövcud siyasi quruluşu yıxmağı zəruri hesab edirdi. O, bolşeviklər partiyasının proqramında milli məsələ ilə əlaqədar irəli sürülən «milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat»ın tərəqqisinə lazım olan hər hansı şəraitin yaradılmasının vacibliyinə dair tezisi öz məqalə və çıxışlarında dönə-dönə qeyd etmiş və göstərmişdir ki, buna ancaq inqilabın qələbəsi ilə nail olmaq mümkündür.

N.Nərimanov 1905—1907-ci illərin birinci rus inqilabı dövründə və sonra yazdığı məqalələrində nəinki təkcə Zaqafqaziya, həm də bütün Şərq xalqlarını, beynəlmiləlçilik və xalqlar dostluğu bayrağı ətrafında birləşdirməyə səy etmişdir.

N.Nərimanov Şərq xalqlarının azadlıq ideyalarını müdafiə edirdi. O, imperializmin müstəmləkə zülmünə qarşı çıxaraq göstərirdi ki, Şərq xalqlarının azadlıq və istiqlaliyyətini onların ardıcıl, məqsədyönlü inkişafı təmin edə bilər. Odur ki, inqilabın qələbəsindən sonra hökumətin həyata keçirdiyi dövlət siyasətində N.Nərimanov milliyyətindən asılı olmayaraq bütün xalqların

[1] «Həyat» qəzeti, 27 iyun 1906-cı il, № 139.

beynəlmiləlçilik bayrağı altında sıx birləşməsi, onların dostluğunun daha da möhkəmləndirilməsi məsələsinə xüsusi diqqət yetirirdi. Onun rəhbərlik ediyi «Hümmət» təşkilatı və «Hümmət» qəzeti Azərbaycan xalqı ilə digər xalqlar arasındakı dostluq və qarşılıqlı əməkdaşlıq məsələlərinin inkişaf etdirilməsi istiqamətində də böyük işlər görmüşdür. «Hümmət» qəzetinin birinci nömrəsində N.Nərimanov tərəfindən yazılmış baş məqalədə deyilirdi: *«Bizim məsləkimiz bütün insanları birləşdirməkdir. Biz deyirik: hamı millətlər üçün məqsəd ideal birdir; bu ideal hamı millətləri qardaşlığa dəvət edir».*[1]

O, millətlər arasında həqiqi dostluq, qardaşlıq və bərabərliyin yalnız sosializm cəmiyyətində yarancağına inanırdı.

Odur ki, 1917—1918-ci illərdə və sonralar öz çıxışlarında bütün millətlərdən olan zəhmətkeşləri birləşməyə, yenicə yaranmış sovet hökumətini müdafiə etməyə və onun düşmənlərinə qarşı yekdil mübarizə aparmağa çağırırdı. 1918-ci ildə «Nə etməliyik?» adlı məqaləsində yazırdı ki, hər yerdə hökumətin fəhlə və zəhmətkeş kəndli şuralarının ixtiyarına keçməsinə çalışmalıyıq. Onun qənaətinə görə xalqın, vətənin azadlıq və istiqlaliyyəti ancaq bu şuraların əlindədir. N.Nərimanov var qüvvəsi ilə müxtəlif millətlərdən olan zəhmətkeşlər arasında dostluq yaratmağa, milli nifaqları aradan qaldırmağa çalışırdı.

N.Nərimanovun həmin inamının ifadəsini 1920-ci ilin sentyabr ayında Azərbaycan İnqilab Komitəsinin nəşr etdirdiyi «Füqəra füyuzatı» adlı iki həftəlik məcmuəsində çap etdirdiyi «Kommunizm nə verəcəkdir» adlı məqaləsində bütün qabarıqlığı ilə görmək olur. Həmin məqalədə o yazırdı: *«İnsanları insaniyyət yoluna dəvət edən, milləti hər cəhətdən qüvvətləndirən, ona can verən, onu qeyrətli edən, onun ruhunu ucaldan, ruhunu təmizləyən, ona təbii tərəqqi yolunu açan və onu sağlam mədəniyyətə dəvət edən, millətləri bir-birilə yavuqlaşdıran, onların arasında həqiqi məhəbbət bərpa edən, dövlətlər arasında təbii rabitə meydana gətirən, onların sərhədlərini pozan, zorba qələlərini topsuz uçurub yox edən kommunizmdir...»*[2]

Bütün bunlar N.Nərimanovun bolşevizmə, onun kommunizm ideyalarının hər hansı riyadan uzaq olduğuna bəslədiyi inamdan irəli gəlirdi. Elə həmin inamla da xalqların, o cümlədən SSRİ xalqlarının

[1] N.N ə r i m a n o v. Məqalələr və nitqlər. I cild, Azərnəşr, 1971, səh.120.
[2] «Füqəra füyuzatı» jurnalı, 1920, №1.





birliyi, dostluğu və qardaşlığı ideyasının həyata keçirilməsində böyük xidmətlər göstərmişdir.

## Vətən və vətənpərvərlik haqqında

N.Nərimanovun pedaqoji fikirləri içərisində vətən və vətənpərvərlik ideyası mühüm yer tutur. Vətən anlayışını, vətənpərvərliyi düzgün başa düşməyənlər, onun uğrunda həqiqi mənada çalışmayanlar N.Nərimanovun əsərlərində ciddi tənqid edilir. Vətən anlayışını izah edən N.Nərimanov «İranda qanun əsası və məşrutiyyət» adlı məqaləsində yazmışdır: «Məgər vətən o yerə deyirlər ki, ancaq ata-babaların qəbirləri orada ola?! Yainki orada təvəllüd tapmış olasan? Məgər vətən o yerdirmi ki, sənin günlük çörəyini verməyib səni öz torpağından qovlaya, səni öz balalarına həsrət qoya? Bir məmləkət ki, sənin vücudunu heç hesab edə, sənin qanını sorub, əvəzində bədəninə qüvvət, əqlinə, siqəl, ruhuna qida verməyə, həman məmləkətə vətən demək olarmı?».[1]

N.Nərimanovun fikrincə, belə yerə vətən demək olmaz. Çünki *«Vətən insanın evidir. Necə ki, evində hər bir şeyə ixtiyarın var; necə ki, evin bədbəxtliyi səni qəm dəryasına mübtəla edir, xoşbəxtliyi şad edir, elə də özün üçün vətən bildiyin məmləkətdə ixtiyarın gərəkdir ola... Bu hissiyyat, bu məhəbbət, bu ixtiyar olmasa, elə məmləkətə vətən demək olamaz...»*

N.Nərimanov öz sevimli vətəninin gələcək xoşbəxtliyi və istiqlaliyyətini heç bir vaxt başqa xalqların səadətindən ayırmır, onların birini digərinə qarşı qoymur, əksinə bütün xalqların səmimi və mehriban yaşamaları uğrunda ardıcıl mübarizə aparırdı. Onun fikirlərində fərdin mənafeyi, vətən və xalqın mənafeyi ilə birləşdirilir. O, yazırdı: *«Siz özünüzü bir millətdən hesab edirsinizsə, özünüz üçün bir müəyyən vətən var isə, həmin millətin, həmin vətənin dərdi, qəmi sizin dərdiniz, qəminizdir və ya bir millət və ya bir vətən sizi öz üzvlərindən hesab edirsə, sizin dərdiniz-qəminiz millət və vətən üçün ümumi dərd və qəm olacaqdır».*[2]

[1] N.N ə r i m a n o v. Məqalələr və nitqlər. I cild, Azərnəşr, 1971, səh.94.
[2] «Həyat» qəzeti, 5 may 1906-cı il, № 97

N.Nərimanovun fikrincə, hər iki tərəf bir-birinin mənafeyini müdafiə etməlidir. Yəni «Vətən millət, xalq üçün, ayrı-ayrı üzvlər üçün, ayrı-ayrı şəxslər isə vətən, millət üçün», onun tərəqqisi üçün çalışmalıdır. O, yalnız söz ilə deyil, özünün gündəlik əməli fəaliyyəti ilə vətənin tərəqqisinə çalışanları yüksək qiymətləndirirdi.

N.Nərimanov yazırdı ki, biz istəyirik ki, vətənin xöşbəxtliyi hamını sevindirsin, bədbəxtliyi hamını qəmgin etsin. N.Nərimanov vətən və xalq uğrunda, onun iqtisadi və mədəni tərəqqisi, o cümlədən, maarif və məktəbin inkişafı uğrunda çalışmağı, vətənin hər bir övladı üçün ən ümdə və şərəfli vəzifə hesab edirdi. Onun fikrincə, fikri varlanmaq olub, pul qazanmaq, bir milyonu iki milyon etmək, ya mağazanı böyütmək, ya da bir mərtəbə evi iki və üç mərtəbəyə qaldırmaq üçün gecə-gündüz əlləşənlər millət, vətən dərdi çəkməyənlərdir.

Xalqımızın mədəni həyatında mühüm hadisə olan Qafqaz müsəlman müəllimlərinin birinci qurultayına laqeyd münasibət bəsləyənlərin vətənpərvərlik hissindən məhrum olduqlarından bəhs edən Nəriman Nərimanov qurultay ərəfəsində yazırdı: «*Budur, üç aydır ki, qəzetlərdə elan olunur, məqalələr yazılır: ay camaat, avqustun 15-də Bakıya müəllimlər cəmi Qafqazdan yığılıb mühüm məsələlər həll edəcəklər: balalarımıza nə yol ilə tərbiyə versək, xoşbəxt olarlar? Hansı qayda-qanun ilə hərəkət etsək, elmlərin yolunu onlar üçün asan etmək olar? Nə tövr lisani-millini, tarixi və ədəbiyyati-millini, əfkar və hissiyyati-aliyyəni uşaqlara təlim etmək...? Belə məsələlərin araya gəlməyini cəmi Qafqaz bilirdi. Bu məsələləri mühüm bilənlər yüz, beş yüz verstlikdən gəliblər, pul xərc ediblər. Gəlməyə mümkünləri olmayanlar gündə təbrik teleqramları göndərirlər. Lakin... lakin bizim camaat bir şahı konkaya verib Şamaxı yoluna (qurultay Şamaxı yolundakı məktəbin binasında keçirilirdi — H.Ə.) bir nəzər qılmır, istəmir bilsin nə var, nə olubdur?*

*Niyə yığılıblar?*»[1]

N.Nərimanov belə adamları «zamanəyə tapşırır» və göstərirdi ki, qara buluddan yağış yerinə hərdən bir ildırım da çaxır və bu dəfə ildırımlar çaxmağa başlarsa, puldan da, imarətdən də, zavodlardan da bir əsər qalmaz. Hamısı əldən çıxar. Məqalənin sonunda deyilir: «Dünyadan, əhvali —aləmdən, bəşərin hər növ dərd və ehtiyacından xəbərdar olmaq lazımdır, vəscalam!».

[1] N.N ə r i m a n o v. seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh. 339.





N.Nərimanov həyatın mənasını yalnız yeməkdə, içməkdə görənlərə qarşı çıxır, xalqa, vətənə xidmət etməyi insan üçün mühüm əxlaqi keyfiyyət hesab edirdi. Onun fikrincə, hər bir şəxsin ləyaqəti onun vətənə xidməti ilə ölçülməlidir. Təsadüfi deyil ki, vətənin hər cəhətdən tərəqqisinə çalışanlar yüksək qiymətləndirildiyi kimi, buna laqeyd baxanlar, vətənin tərəqqisinə çalışmayanlar, onu siyasi, iqtisadi və mənəvi cəhətdən başqalarından asılı vəziyyətə salanlar vətən xaini hesab edilir. İran, Türkiyə və digər Şərq diplomatlarının timsalında vətəni digər dövlətlərdən asılı vəziyyətə salanları tənqid edən Nərimanov, 1922-ci ildə qələmə aldığı «Şərq üçün bir nicat yolu varsa, o da üsuli-idarəni dəyişdirməkdir» adlı məqaləsində yazırdı: «Antantaya ümid bağlayıb onun injenerləri ilə, onun bilikli adamlarının gücü ilə ya İranı, ya Türkiyəni və ya qeyri Şərq məmləkətlərini tərəqqi yoluna salmaq fikrində olan və bu fikirlə vətəni gündə birinə satan Şərq diplomatı gərək bu gün xaini-millət, xaini-vətən, xaini-insaniyyət elan olunsun. Şərq diplomatları öz vətənlərinə, millətlərinə tədriclə quyu qazmaqdadırlar. Şərqin diplomatları köhnə, paslanmış, minlərlə qızıla öyrənmiş vicdanları ilə Şərqi xilas edə bilməyəcəklər. Şərq diplomatları beynəlmiləl məsələsində bir çox mətləbləri vətəndaşlarından gizlədir və bununla da vətənə xəyanət edirlər».[1]

N.Nərimanov göstərirdi ki, vicdan və vətənpərvərlik hisslərini qızıla satanlar, vətənin qədrini bilməzlər. «Birdəfəlik düşünmək lazımdır: vətənin qədrini o kəs bilər ki, onun vətənlə ruhani rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün». Nərimanov vətənpərvərliyi əməklə, həm də ümuminin mənafeyinə olan əməklə əlaqələndirir və vətənin bütün övladlarını onun tərəqqisi yolunda çalışmağa dəvət edirdi. O, aşağıdakı şüarı əldə rəhbər tutmağa çağırırdı: «Hər kim xüsusi özü üçün yox, ancaq vətən, məmləkət üçün işləyirsə, onun haqqı var seçsin və seçilsin. Bu, şura üsul-idarəsinin əsasıdır. Hər fərd əqlini, qüvvəsini məmləkətin hər cəhətdən tərəqqi tapmağına sərf etməlidir, yəni bir adam hamı üçün, hamı bir adam üçün işləməlidir. Bu şüarın bayrağı altında bütün zəhmətkeşlər cəm olub öz zəhmətlərini ancaq məmləkət üçün sərf etməlidirlər».[2]

N.Nərimanov əsl vətənpərvərliyi hər bir kəsin vətən mənafeyinə olan əmək fəaliyyətində görürdü. Onun fikrincə, «məmləkətin hər bir

[1] «Kommunist» qəzeti, 15 yanvar 1922-ci il.
[2] Y e n ə o r a d a.

oğlu hamı üçün, hamısı bir oğul üçün işləməli və yaşamalıdır». Lakin başqasının zəhməti ilə yaşayanlar üçün vətən, məmləkət, millət, insaniyyət sözləri boş bir kəlmədir. Nərimanov yazır ki, baqqalın səhərdən axşamadək xüsusi dükanda oturub alış-veriş etməsinin, yəni özgənin zəhməti ilə meydana gəlmiş şeyləri satıb onunla güzəran keçirməsinin vətənpərvərlik ilə heç bir əlaqəsi yoxdur. Müharibə vaxtı, vətən ağır bir halda olanda «bu qisim adamlar ağlamazlar, gülərlər. Çünki bazar tərəqqi tapar» və bunlar öz mənafeləri üçün varlanarlar. Belə adamlar bağbanın becərdiyi almaları asanca satdıqları kimi, məmləkəti satarlar. Bütün bunlara görədir ki, Nərimanov vətənin taleyini zəhmətkeşlərə, vətənin qədrini bilənlərə tapşırmağı tələb edirdi.

N.Nərimanov vətənə, xalqa xidmət etməyi insan üçün ən yüksək mənəvi borc bilirdi. Onun əsərlərində vətənin siyasi, iqtisadi tərəqqisi ilə yanaşı, mədəni inkşafı uğrunda çalışanlar da yüksək qiymətləndirilir. Xalqın mədəniyyətini, ədəbiyyatını, incəsənətini, xalq maarifini, birinci növbədə isə ana dilini mühafizə və inkişaf etdirmək vətənə xidmət etməyin gözəl nümunələrindəndir. Ana dilinə laqeyd yanaşanlar, «inşalarını həmişə fəsahət və bəlağətlə» yazanlar, Azərbaycan dilində yazanları nadan hesab edənlər, millətinin dilini asanlaşdırmaq əvəzinə «get-gedə dillərini... çətin eyləyənlər», yəni ana dili əvəzinə osmanlı, ərəb, fars, yaxud başqa dillərdə yazanlar xalqa, vətənə mənfəət vermirlər. Bu, «bir naxoşluqdur». Bunların hamısını camaat anlamır və xalqa xeyri yoxdur. «Bahadır və Sona» əsərində bu məsələdən bəhs edən Nərimanov yazmışdır: «Yazanlarımızın əksəri ərəb və fars sözlərini bilməklə hünərlərini göstərmək istəyirlər. Bundan savayı, bu cür əhli-qələm vardır ki,... müsəlman millətinə dair mədəniyyət və məişət xüsusunda bir sıra lazım olan məsələləri rus qəzetlərində yazırdılar ki, tainki, qeyri millətdən də afərin eşitsinlər... Müsəlmanlar arasında bu təhər əhli-qələm nəhayətdə çoxdur. Xülasə, saf ürəklə millət yolunda zəhmət çəkənlər çox azdır». Həmin əsərdə Bahadır ilə onun tələbə yoldaşı Alekseyin arasında gedən aşağıdakı söhbət bu cəhətdən səciyyəvidir. Orada deyilir: Keçən il Tiflisdə «Badkubə» adlanan qəsdində oturub nahar edirdim.

Mən əyləşdiyim otağa 9 nəfər cavan müsəlman gəlib nahar etməyə məşğul oldular və mədəniyyətdən söbət edirdilər. Onlardan biri əvvəl birisinə dedi: «De görüm, aya, nə məqsəd ilə müsəlman





çobanına rusca yazırsan ki, çobanlığı buraxıb elm dalınca getsin»? Yoldaşı cavab verib dedi ki, «Nə eybi var, qoy qeyri millət də bilsin ki, bizdən də rusca yazan var...» Bu təhər cavab onun ağlının naqisliyini göstərirdi...».[1]

N.Nərimanovun bir sıra məqalələrində ana dilinə xor baxanlar, lüzumsuz olaraq ana dilini «zinətləndirmək» adı altında yazılarında və danışıqlarında ərəb, fars, rus, osmanlı və digər əcnəbi sözləri işlədənlər ciddi tənqid edilirdi. Xüsusilə o vaxt Azərbaycan şəraitində, elm və maarifin hələ də zəif inkişaf etdiyi bir ölkədə ana dilinə xor baxmaq, vətənə, millətə xor baxmaq demək idi. Bu cəhətə xüsusi fikir verən Nərimanov yazmışdı: «Açıq söyləmək: millət elmdə tərəqqi tapıbsa, fəsahət-bəlağətlə yazınız, tərəqqi etməyibsə... boş şeylərdən «zinətdən» söyləyiniz... Şükür allaha, «fəsih lisanda» (açıq-aydın dildə — *H.Ə.*) yazanlarımız az deyil. Bunlara irad yoxdur, məzkurlar alimdirlər, «elm» yolunda canlarını çürüdüblər: sadə dildə yazmaq bunlar üçün çətin məsələdir».[2]

Nərimanov yazırdı ki, öz vətənini, xalqını və dilini sevməyənlər, ərəb və fars dilinə məhəbbət bağlayıb, əbədi dilimizi «loru», kasıb bir dil hesab edərək «ona yamaq lazımdır» — deyənlər, vətənpərvərlik hisslərindən, əqlə və ruha lazım olan yemdən məhrumdurlar. Nərimanovun fikrincə, «Qospodin predsedatelin mneniyası komissiya naznaçit eləməkdir» «Biz» isbalşim udovolstviyom, soqlasiya zayavit eliyoruz» kimi «şaltay — baltay» söyləyənlərin ya «elmi» artıq düşüb, yaxud da onların rusca «bilməklərini» göstərir və yaxud da ana dilinə «zinət» vermək istəyirlər. Nərimanov çox haqlı olaraq göstərirdi ki, rus sözlərini qolsuz-qanadsız qoymağa ruslar özləri belə razı olmadıqları kimi, azərbaycanlı balası da heç vaxt razı olmaz ki, ana dilinə xəyanət etsinlər. Odur ki, N.Nərimanov ana dili əvəzinə rus dilində «şaltay-baltay» eləyənlərin bu əməllərini müsəlman balalarına xəyanət hesab edirdi. Belə adamları, bu əqidədən daşındırmamaq isə millətə xəyanət etmək deməkdir.

Nərimanov bu fikri ilə heç də rus dilində danışmağın əleyhinə getməmiş, əksinə rus dilində səlis danışmağın tərəfdarı olmuşdur. O, «Cümə söhbəti» adlı bir məqaləsində yazırdı ki, biz demirik, rusca danışmayın. Xeyr! Hərgah mətləbinizi təmiz ana dilində söyləyə bilmirsinizsə, söhbət etdiyiniz adam rusca anlayırsa, nə eybi var, təmiz

---

[1] N.N ə r i m a n o v. Seçilmiş əsərləri, «Elm» nəşriyyatı, 1973, səh.348
[2] N.N ə r i m a n o v. Əsərləri, Bakı 1956 səh. 174

rusca söyləyin, nəinki «şaltay-baltay» edib, asan Azərbaycan kəlmələrinin yerində rus kəlmələrini işlədəsiniz.

N.Nərimanov göstərirdi ki, «məclislərdə döşlərinə vurub «pojalusta» deməklə milləti qabağa aparmaq olmaz». Millətin dilini bilməmiş, onun dərdinə dərman etmək çətindir.

N.Nərimanov milli mədəniyyətin tərəqqisi uğrunda çalışanlara kömək etməyi də vətənpərvərlik adlandırırdı. Xüsusilə də milli dildə qəzet və jurnallar nəşr etdirən mühərrirlərə kömək etməyi bütün xalqın vətənpərvərlik borcu hesab edirdi.

N.Nərimanovun şəxsi həyatı vətənpərvərliyin gözəl nümunəsidir. O, vətənpərvərlik duyğuları ilə yaşayıb yaradan, xalqını və vətənini ürəkdən sevən və bütün ömrünü onun tərəqqisinə həsr edən bir vətəndaş, maarifçi-pedaqoq, inqilabçı-kommunist idi. O, yeganə oğlunu da həqiqi vətənpərvər görmək istəyirdi. Ölümündən azacıq əvvəl oğluna məktubunda yazırdı: «Əziz oğlum Nəcəf! Əgər mən yaşasam, səni elə böyütməyə çalışacağam ki, sən bəşəriyyət üçün faydalı adam olasan, əgər mənə əcəl aman verməsə, səndən təvəqqe edirəm, mənim insanlara göstərdiyim kiçik xidmət qədər bir xidmət göstər...

Ümid edirəm ki, sən öz işinlə mənim əməllərimi daha da dolğun edəcəksən».





## Əmək və əmək tərbiyəsi məsələləri

*«İnsanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəhmətdir».*

*N.Nərimanov.*

N.Nərimanovun pedaqoji fikirləri içərisində mərkəzi yerlərdən birini əmək və əmək tərbiyəsinə aid fikirləri tutur. Onun bədii əsər və məqalələrində əməyin əhəmiyyətinə, cəmiyyətin inkişafında əməyin roluna və gənc nəslin əmək tərbiyəsinə aid bir çox qiymətli fikirlər vardır.

N.Nərimanovun pedaqoji fikirlərində əməyin hər iki növü: fiziki və əqli əmək qiymətləndirilir. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Nərimanov əməyə qiymət verərkən ona ictimai nöqteyi-nəzərdən yanaşırdı. O, cəmiyyətin, xalqın mənafeyinə olan əməyi daha üstün tutur, varlanmaq məqsədi ilə başqasının zəhmətini istismar edənlərin, o cümlədən, tacirlərin, icarədarların əməyini həqiqi əmək hesab etmirdi. Məqalələrindən birində «Əmək nəyə deyirik?» sualına cavab verən Nərimanov yazırdı: «bir iş ki, insanın öz əli və əqli ilə başa gəlir, ona biz əmək deyirik. Məsələn, əl ilə bir masa qayırıbsı, o əməkdir. Ancaq həmin masanı pul ilə satın alıb və mənfəət edərək başqasına satmağa əmək deyilməz. Habelə fikir işlədərək, bir kitab yazıb ortaya çıxarmaq əməkdir. Həmin kitabı pul ilə alıb mənfəətinə satmağa əmək deyilməz. Yer əkmək, becərmək və oradan məhsul almaq — bu əməkdir.

Həmin yeri başqasının əlilə işlətmək və ya icarəyə vermək, bu, əmək deyil».[1]

N.Nərimanovun baxışlarında əmək ilə kapital qarşılaşdırılır və göstərilir ki, kapital qızılı ilə hər bir şeyi: dini, insaniyyəti də, vicdanı da satın alır, daima millətlər arasında qanlı vuruşmalara səbəb olur. Bunun əksinə olaraq, əmək isə «millətləri qardaş edir, insanın ruhunu yüksəldir, insanı təbiətə qarşı mübarizəyə hazırlayır və təbiətin gizli xəzinələrini insan üçün açığa çıxarır».[2]

N.Nərimanov yalnız zəhmətkeşləri yaşamağa, cəmiyyətdəki nemətlərdən istifadə etməyə və cəmiyyəti idarə etməyə haqlı hesab edirdi. Onun əsərlərində əməyin böyük rolu yüksək qiymətləndirildiyi

---

[1] N.Nərimanov. Məqalə və məktublar. Bakı, 1925, səh.46-47

[2] N.N ə r i m a n o v. Məqalə və məktublar. Bakı, 1925., səh.46

kimi, zəhmət çəkməyənlər, başqalarının hesabına yaşayanlar, ilk növbədə isə bəylər, xanlar, kapitalist və mülkədarlar ifşa edilirdi.

Əməyin təntənəsinə böyük inam bəsləyən Nərimanov deyirdi: *«...insanın həyatında başlıca rolu əmək — insanın yaradıcı gücü oynayacaqdır».*[1]

N.Nərimanov bəşəriyyətin səadətini əməkdə görür, digər əxlaqi sifətlərin yaradılmasında əməyə üstünlük verirdi. Onun fikrincə, əmək bir tərəfdən, insanların maddi əmək şəraitini yaxşılaşdırır, digər tərəfdən də insanları bir-birinə yaxınlaşdırır, səadətə çağırır. İnsanlara lazım olan tərəqqinin doğru yolu, həqiqi məhəbbətin doğru qapısı əməkdir. Bütün bəşəriyyətin xilası... əməyin təntənəsindədir».

N.Nərimanovun pedaqoji fikirlərində əməyin tərbiyəvi roluna böyük əhəmiyyət verilir. Nərimanova görə, əmək insanda dostluq, doğruçuluq, səmimilik, təvazökarlıq, sadəlik, insanpərvərlik kimi əxlaqi keyfiyyətlərin formalaşmasında ən mühüm amildir. İnsan əmək prosesində yüksəlir.

Onun tərtib etdiyi dərsliklərdə əməyin rolunu göstərən bir çox maraqlı mətnlər vardır; «Bir parça dəmirdən iki kotan qayrılmışdı. Onların birisini dəmirçi kəndçiyə satdı. Amma o birisi dükanda qaldı. Bir müddət keçəndən sonra... bu kotanlar görüşdülər. Kəndçidə olan kotan gümüş tək parıldayırdı, amma dükanda qalan paslanmışdı. Paslanmış kotan o birisinə dedi: *«Ay qardaş, biz hər ikimiz bir parça dəmirdən qayrılmışıq. Səbəb nədir ki, sən gümüş tək parıldayırsan?» Yoldaşı cavab verdi: «Səbəb odur ki, mən bir il zəhmət çəkib, əkin üçün yer sürmüşəm, amma sən dükanda bekar yatıbsan».*[2]

Nərimanov pedaqoji fəaliyyətinin ilk günlərindən başlayaraq, şagirdlərin əməyə məhəbbət ruhunda tərbiyə edilməsi məsələlərinə xüsusi fikir vermiş və bu işi təlim-tərbiyənin ayrılmaz tərkib hissəsi hesab etmişdir.

Nərimanov məktəblərin qarşısında— gəncləri həyata, əməyə hazırlamaq vəzifəsini qoyurdu. Hələ 1918-ci ildə Həştərxanda mollaların və tatar məktəbləri müəllimlərinin yığıncağındakı məşhur nitqində o tərbiyənin əsasını zəhmətdə, vicdanda, bərabərlikdə, qardaşlıqda gördüyünü bildirmişdi.

N.Nərimanovun pedaqoji fikirlərində yeni insan tərbiyəsi mühüm yer tutur. O, insanın əsas keyfiyyətini onun əməyə münasibəti ilə

[1] N.N ə r i m a n o v . Din və kommunizm. Azərbaycan EA RƏF, arx.23,q-10( 243).
[2] N.N ə r i m a n o v. Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça. Bakı 1900, səh. 42–43.





müəyyənləşdirməyin tərəfdarı olaraq, bolşeviklər partiyasının xalqa vəd etdiyi, kommunizm cəmiyyətində də əməyə, əməkçi insana xüsusi üstünlük verəcəyi inamı ilə yazırdı: «Kommunizm xalqı yeni həyata hazırlamağı öhdəsinə götürmüşdür — zəhmət dünyası quracaq, elə bir dünya ki, orada insan ancaq əmək qarşısında səcdə edəcək, əməklə sevinəcək, əməklə yüksələcək, əməklə fəxr edəcək və adamlara əməyinə görə qiymət veriləcəkdir».

«Qabarlı əldə olan hünər, qeyrət ağ əlcəkli əldə ola bilməz». — deyən Nərimanov əməyin rolunu xüsusi ilə qiymətləndirmişdir.

N.Nərimanovun bədii əsər və məqalələrində cəmiyyətdə «İşləməyən dişləməz» xalq məsəlindəki hikmət geniş təbliğ edilir. O, «Türküstandakı siyasətimiz» adlı məqaləsində yazırdı: «Türküstan üçün və ətrafdakı dövlətlər üçün bizim əlimizdə ən qüvvətli şüarımız vardır. «İşləməyən dişləməz». Biz Şərqə həmin şüar ilə gedirik».

N.Nərimanov, cəmiyyətdə hər kəsin əməyə münasibətini eyni zamanda onun vətənə xidmətinin ifadəsi kimi qiymətləndirirdi.

Onun pedaqoji fikirlərində əməksevərlik, həm də yüksək vətənpərvərlik kimi qiymətləndirilir. Hər kəs əməkdə iştirak edirsə, ona tapşırılmış sahədə müvəffəqiyyətlə işləyirsə, o, bu zaman xalqın faydasına, vətənin rifahına çalışmış olur.

N.Nərimanov pedaqoji fikirlərində əməyi yalnız əxlaqi keyfiyyət kimi deyil, eyni zamanda ictimai bir kateqoriya kimi qiymətləndirirdi. O, insanın xoşbəxtliyi kimi, cəmiyyətin tərəqqisi üçün də əməyi mühüm şərt hesab etmişdir. Yeganə oğlu Nəcəfə həsr etdiyi «Oğlum Nəcəf» şerində bu barədə yazırdı:

«Zəhmətdir insanı insan edən, oğul!
Zəhmətdir onu heyvandan seçən, oğul!
Budur bütün tərəqqinin əsası,
Zəhmətdir əqlə yol verən, oğul!»[1]

Nərimanova görə əmək insanın qabiliyyətini, istedad və bacarığını inkişaf etdirir, onu yaşamaq uğrunda mübarizəyə ruhlandırır. Onun şəxsi həyatı əməksevərliyin gözəl nümunəsidir. N.Nərimanovun bütün həyatı başdan-başa əməyə bağlı idi və o, həyatın mənasını daim əməkdə görürdü.

N.Nərimanov gənc nəslin tərbiyəsi işində əmək məktəblərinin roluna yüksək qiymət verirdi. Azərbaycan maarif xadimlərinin

[1] Azərbaycan EA RƏl. Nərimanovun arxivi

II qurultayındakı nitqində bu haqda demişdi: «Zəhmət məktəbi bir məktəbdir ki, bütün məmləkətdə yaşayanların fikrini təcrübədən keçirir. Bir məktəbdir ki, bütün ölkəyə və bizə doğrudan da əsaslı və qüvvətli elm verir. Həmin bu məktəb bizə öz xalqımızı, nə olduğumuzu bildirir. Daha artıq söyləyərəm: zəhmət nə olduğunu bizə bildirən zəhmət məktəbidir. Bu da ki, bizim həyatımız və bütün fikrimizdir. Çünki biz bütün yer üzərində ancaq zəhmət padşahlığının bərqərar və bərdəvam olmasına çalışırıq».[1]

Gənc nəslin tərbiyəsinə xüsusi əhəmiyyət verən Nərimanov bu işi müəllimlərin ən birinci vəzifəsi hesab etmişdir. O, 1924-cü ildə yazdığı "Elmlərini yenicə tamam etmiş müəllimlərə açıq məktub"unda gənc müəllimlərə müraciətlə deyirdi: "Sizin tərbiyənizdə olan azərbaycanlı balaları gərək zəhmətsevən olsunlar. Yəni başqasının yox, öz zəhmətlərinin qüvvəti ilə ehtiyaclarını rəfedici olsunlar". Çünki "insanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəhmətdir".[2]

### Dini baxış və gənc nəslin tərbiyəsi problemləri

XIX əsrin sonu və XX əsrin əvvəlində Azərbaycanda islam dini hökmran idi. "Göydə allah, yerdə padşah!" fikri geniş yayılmışdı. Bu isə xalqı istismar dünyasına qarşı mübarizədən çəkindirir, onun itaətdə saxlanılmasına xidmət edirdi. Belə bir şəraitdə əhalinin geniş kütləsini istiqlal mübarizəsinə hazırlamaq, onları səfərbər etmək çox çətin idi. Bunun üçün birinci növbədə dini xurafata qarşı mübarizə aparmaq, onları səfərbər etmək və dindar əhalini uzun illərlə yaşadığı itaətkarlıq psixologiyasından xilas etmək lazım gəlirdi. Çünki uzun illərdən, əsrlərdən bəri davam edib gələn dini psixologiya ilə hesablaşmadan, dinin geniş əhali kütləsi içərisində dərin kök salmasını nəzərə almadan bu sahədə müvəffəqiyyət qazanmaq son dərəcə müşkül idi. Şəraiti təhlil edən Nərimanov 1906-cı ildəki məqalələrinin birində yazırdı ki, dövrün özü həqiqəti gizli tutmağı, mətləbi natamam şəkildə yazmağı tələb edirdi. Nərimanov həmin məqaləsində, üstüörtülü şəkildə olsa da, 10 il əvvəl yazdığı "Bahadır və Sona" əsərinə işarə edərək göstərirdi ki, "ədibimiz (N.Nərimanov

[1] «Kommunist»qəzeti, 18 sentyabr 1921-ci il, №180

[2] Ali Pedaqoji İnstitutun salnaməsi, Bakı, 1924-cü il, səh.39.





özü nəzərdə tutulur—*H.Ə*) və onun həməfkarları on il bundan müqəddəm inşalarını nöqtələr ilə doldurur idilər". Çünki "qeyri qonşu millətlər tək bir senzorun əlində fəryad edərkən, biz iki senzorun əlindən fəryad edirik. Dövlət senzoru bir tərəfdən, ruhanilərimiz o biri tərəfdən, biçarə ədiblərimizə göz verib işıq vermirdilər".

N.Nərimanov xalqın mədəniyyətcə geridə qalmasına, xalq arasında "təfriqə düşməsinə", sünni, şiə məzhəblərinin təbliğ olunması işinə ruhanilərin səbəb olduğunu göstərirdi. Nərimanovun fəaliyyətində, dünyagörüşündə belə bir hal səciyyəvidir ki, o, dinin mahiyyətini deyil, onu öz mənafelərinə təbliğ edənləri—ruhaniləri və mollaları tənqid edirdi. O, 1906-cı ildə yazdığı məqalələrinin birində deyirdi: "Bu zəmanədə müsəlmanlar iki islama qulluq edirlər. Yəni aramızda iki islam vardır. Bir islam ki, peyğəmbərimiz qoyubdur və birini dəxi mollalar düzəldiblər... Hərgah peyğəmbərimiz hal-hazırda öz millətinə nəzər etsə, yəqin ki, qoyduğu dini tanımaz".[1]

Çox mürəkkəb bir şəriətdə fəaliyyət göstərən Nərimanov ayrı-ayrı məsələlərdə yeri gəldikcə, bəzən üstüörtülü şəkildə, bəzən də din və şəriətin özündən, məscid "mənbərlərindən" istifadə edərək, xurafatın çürüklüyünü, ilk növbədə isə şəxsi mənafelərini hər şeydən üstün tutan din xadimlərinin xalqa vurduğu zərərləri açıb göstərməyə çalışmışdır. N.Nərimanov yazırdı:

"... *Mənim qəhrəmanım Bahadır mütləqiyyət cəlladının əlində həlak olur. Bahadırın həlak olmasına səbəb odur ki, dinlər, daha doğrusu, bu dinləri təbliğ edənlər elə maniələr qoyurlar ki, böyük qurbanlar vermədən həmin maniələri keçmək mümkün olmur. Bu maniələri xristian din xadimləri palçıqdan qayırırdılarsa, islam dininin mübəlliğləri onları dəmirdən qayırırdılar...*"[2]

Ona görə də çox təbii olaraq, Nərimanov fəaliyyətinin ilk dövrlərində din sədləri və onu intişar etdirənlər ciddi tənqid olunurdu. Onun "Nadir şah", "Bahadır və Sona", xüsusilə "Pir" adlı bədii əsərlərində xalqı islam dininin təsirindən azad etmək, avam camaatın şüurunu dini əsarətdən qurtarmaq, onu tərbiyə etmək, xalqın şüurunda mənəvi inqilab yaratmaq ideyası təbliğ edilir. "Nadir şah" əsərində mollaların dövlət işlərinə qarışmalarına yol verməmək, "bir dövlət ki,

[1] "İrşad" qəzeti; 9 mart 1906-cı il, № 64.

[2] N.N ə r i m a n o v. Məqalələr və nitqlər, I cild, Azərnəşr, 1971, səh 210

mollalar ixtiyarında yaşadı, o dövlətdə tərəqqi olmaz",[1] — fikri irəli sürülür.

Əsərin qəhrəmanı olan Nadir şah həmin ideyanı həyata keçirərək bir ildə məscidlərdən yeddi milyon manat mənfəət götürən din xadimlərinin — mollaların və axundların ixtiyarını azaltmaq, məscidlərdən toplanan pulu dövlətin xəzinəsinə yığmaq, vətənin xeyrinə sərf etmək, ruhanilərə isə məvacib kəsmək istəyir.

Yazıçı qəhrəmanın dili ilə deyir: "Əsil mətləb budur ki, mollanı öz ixtiyarına qoymamaq... Çünki, bir neçə səbəblərə görə molla qismi həmişə çalışır ki, xalqı qaranlıqda yaşatsın... Daha doğrusu, dövlətə dair qanunları bilmərrə ruhanilərdən almaq gərəkdir..."[2]. Bu məsələyə xüsusi əhəmiyyət verən Nərimanov sonralar demişdir: "Nadir şah" dramasında mən də cəhd etmişəm ki, ruhaniləri tərk-silah edim, hökumət işlərinə, hökumətin siyasi həyatına onların müdaxilə etmək yolu ilə kütləyə təsirini zəiflədim"[3]

N.Nərimanov əgər "Nadir şah" əsərində din xadimlərinin rolunu məhdudlaşdırılması məsələsini qoyurdusa, sonrakı əsəri olan "Bahadır və Sona"da kilsənin dövlətdən ayrılması fikrini irəli sürür. Sonralar bu məsələdən bəhs edən Nərimanov demişdir: "Əvvəl baxışda qəribə görünə bilər ki, o zaman ən çətin və ağır məsələni həll etmək istəmədim. *Fəqət zəmin hazırlamaq üçün bu vacib idi ki, inqilab müsəlman camaatı üçün naqəfil bir şey olmasın*"[4] (kursiv bizimdir— *H.Ə.*).

N.Nərimanovun sonrakı əsərlərində din xadimlərinin "müqəddəs" saydığı, xəstəliklərə və dərdlərə əlac edən «din ocaqları» ifşa edilir, din başçılarının fırıldaqları, onların xalqı aldadıb var-yoxdan çıxarmaları ciddi tənqid atəşinə tutulurdu.

"Pir" əsərində molla Cəfərqulu, molla Tutu, Məşədi Allahverdi kimi şəxslərin din pərdəsi altında xalqı soymaları göstərilir. Bu əsər öz dövründə xalqın fırıldaqçı din xadimlərinin məkrli caynaqlarından xilas edilməsində, onların gələcək mübarizələrə hazırlanmasında böyük rol oynamışdır. Şair Sergey Qorodetski həmin əsəri yüksək qiymətləndirərək, onu dini xurafat əleyhinə çevrilmiş epos adlandırmışdır. S.Qorodetski yazmışdı: «Öz bədii inandırıcı gücünə görə — «Pir» povesti Şərq kütlələrini nadanlıqdan və dini fanatizm-

[1] N.N ə r i m a n o v. Əsərləri, Azərnəşr, 1956, səh 147.
[2] Y e n ə   o r a d a.
[3] N.N ə r i m a n o v. Məqalələr və nitqlər I cild, Azərnəşr, 1971, səh 209.
[4] Y e n ə   o r a d a





dən oyatmaq üçün hələ uzun zaman qüdrətli vasitə olacaqdır. Müsəlman aləmi hələlik buna bənzər bir şey yaratmamışdır»[1].

N.Nərimanovun inqilaba qədərki dövrdə ateizm, din və mövhumat əleyhinə cəsarətlə deyilmiş qiymətli fikirlərini göstərməklə bərabər, bir cəhəti də qeyd edək ki, Nərimanov məqalə və çıxışlarında, bədii əsərlərində dinin əsaslarına deyil, onun ayrı-ayrı müddəalarına qarşı çıxır, zərbə endirirdi. O, dinin aradan qaldırılması fikrini isə əməli bir vəzifə kimi qarşıya qoymur, dini hisslərin möhkəmliyini nəzərə alaraq islam dinində islahat keçirmək fikrini irəli sürür, din vasitəsi ilə varlılara təsir etmək, adamları pis əməllərdən çəkindirmək kimi fikirləri təbliğ edirdi ki, bu da onun yerli şəraiti yaxşı bilməsindən, xalqın ictimai şüur səviyyəsinə yaxından bələd olmasından, şəraitə uyğun mübarizə taktikasını düzgün müəyyənləşdirə bilmək qabiliyyətindən irəli gəlirdi. Bununla birlikdə N.Nərimanov keçən əsrin sonları və əsrimizin əvvəllərində zəmanəyə, xalqın mənafeyinə zidd dini təsəvvürlərin çürüklüyünü ciddi tənqid etmiş, xurafatın acı nəticələrini bədii boyalarla göstərmiş və beləliklə xalqın şüurunda dönüş yaratmağa, mədəni inqilab üçün zəmin hazırlamağa çalışmışdır.

Oktyabr inqilabından sonrakı dövr Nərimanovun dünyagörüşünün inkişafında yeni mərhələ təşkil edir. Bu dövrdə Nərimanov, bir tərəfdən dinin mahiyyəti haqda nəzəri fikirlər söyləyir, digər tərəfdən, geniş əhali kütləsi içərisində dini xurafata, fanatizmə qarşı təbliğat aparır və bu sahədə təbliğatçılara düzgün istiqamət verirdi. Sovet hakimiyyəti illərində yazdığı bədii əsər və məqalələrində Nərimanov dinin tarixi rolunu aydınlaşdırmağa xüsusi əhəmiyyət verirdi. Onun xidmətlərindən biri kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasına aid məşhur dekretin həyata keçirilməsi ilə əlaqədar olan fəaliyyətidir.

Məlum olduğu kimi, sovet hakimiyyətinin ilk günlərində, 1918-ci il yanvarın 23-də, kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında dekret verildi. Bu dekretə əsasən məktəblərdə dinin tədrisi və məktəb binalarında dini mərasimlərin icrası qadağan edildi. Həmin dekretin milli ucqarlarda həyata keçirilməsində Nərimanovun xüsusi rolu olmuşdur.

[1] «Искусство трудящихся» jurnalı. 1925, №18, səh 1

1918-ci ildə Həştərxanda tatar məktəblərinin molla və müəllimləri qarşısında çıxış edən N.Nərimanov kilsələrdə və məscidlərdə əyləşən din xadimlərinin fırıldaqlarını, çar Rusiyası dövründə ruhanilərin çarizmlə ittifaqını ifşa edirdi. O, həmin məruzəsində demişdir: «Nikolay keşişlərinin, missioner İlminski kimilərin nə kimi işlər gördüyü hamımızın yaxşı yadındadır. Bunlar pula, rütbəyə və vəzifəyə satılaraq din pərdəsilə xalqın gözünü bağlayırlar».[1] N.Nərimanov göstərirdi ki, əksinqilabçılar din başçılarını pul ilə satın alaraq müxtəlif millətlər arasında qardaş qırğını törədirlər. Bəzi din başçıları din pərdəsi altında casusluq edir, hökumət əleyhinə iş aparırlar. Məsələn, Rusiya müsəlmanlarının baş ruhanisi olan bizim müfti Sultanov da rus dövlətinin sabiq çarı Nikolayın puluna casus sifəti ilə Məkkəyə getmişdi.

Görürsünüzmü, dövlətin təzyiqi altında ruhanilərin pozğunluğu nə yerə gəlib çıxır. Biz öz uşaqlarımızın tərbiyəsini bu cür ruhanilərə tapşıra bilərikmi?

N.Nərimanov həmin dekretdən irəli gələn din, iman və vicdan azadlığı məsələlərinə toxunur və göstərir ki, din də, vicdan da azad olmalıdır. İnsanın imanı onun vicdanı ilə əlaqədardır. Çünki, iman hər bir kəsin müqəddəs və toxunulmaz hissidir. İmanı satmaq və almaq olmadığı kimi, bir başqasına güc ilə qəbul etdirmək də olmaz.

N.Nərimanov göstərir ki, sovet hökuməti kilsəni dövlətdən və məktəbi kilsədən ayırmaqla hər bir kəsin və xalqın müqəddəs hisslərinə, imanına və dininə müdaxilə olunmasının qarşısını aldı və beləliklə pis işlərin kökünü kəsdi.

N.Nərimanov dünyəvi məktəb və gənc nəslin tərbiyəsi üçün bu dekretin böyük əhəmiyyətini göstərirdi. Keçmiş məktəblərdə təlim və tərbiyənin dini mahiyyətini izah edən Nərimanov deyirdi ki, kilsəni dövlətdən ayırmaq, gənc nəslin təlim və tərbiyəsinə dünyəvi xarakter vermək deməkdir. O, müəllimlərə və mollalara müraciətlə deyirdi ki, siz bütün insanların milliyyət və dinindən asılı olmayaraq əməklə qardaşlıq, bərabərlik və azadlıq şəraitində yaşayacağı aləmi təsəvvür edə bilmirsiniz. Siz insanların mənfur metaldan ötrü bir-birlərini didişdirməyəcəkləri bir vəziyyətə çatacaqlarına inanmırsınız. Əgər siz həqiqətən millətinizi, dininizi sevirsinizsə, heç bir tərəddüd etmədən dövlətinizə kömək etməlisiniz. O, sözünə davam edərək deyirdi ki, mən bunu öz hisslərində səmimi olmayanlara, burjuaziyaya təklif

[1] N.Nərimanov. Məqalələr və nitqlər, I cild, Bakı, 1971, səh.199.





etmirəm, çünki onlardan ötrü mənfur metaldan başqa bir şüar, müqəddəs heç bir şey yoxdur.

N.Nərimanov 1918-ci il dekabrın 18-də Həştərxanda müsəlman kommunistlərinin və məsul işçilərinin yığıncağında çıxış edərək, bu məsələnin mahiyyətini bir daha izah etmiş və onlara istiqamət vermişdir. Nərimanov həmin çıxışında demişdi: «Yoldaşlar! Bir tərəfdən kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında dekretin həyata keçirilməsi ilə, digər tərəfdən isə bəzi məsul vəzifəli yoldaşların ehtiyatsız çıxışları, müsəlman kütləsinin məişət xüsusiyyətlərini və dini görüşlərini bilməməsi, mən deyərdim ki, onunla hesablaşmaması məni məcbur edir sizin qarşınızda çıxış edim və sizin işləməli olacağınız mühiti... şəraiti izah edim».

N.Nərimanovun bu məruzəsi o zaman üçün mühüm tarixi əhəmiyyətə malik idi.

N.Nərimanov həmin məruzəsində Şərq xalqlarına münasibət, o cümlədən, dini məsələlərlə əlaqədar olan bir sıra müstəsna əhəmiyyəti olan fikirlər söyləmişdir. Şərq xalqlarının adət və ənənələrini, məişətini və dini təsəvvürlərini çox yaxşı bilən Nərimanov, bu məsələlərin həllində obyektiv mövqe tuturdu. Bu mühüm məsələlərdə o, daim xalqın yaşadığı tarixi şəraiti, mühiti, adət və ənənələrini, dini təsəvvürləri ciddi nəzərə alırdı.

Hələ 1906-cı ildə İrandakı inqilabi hərəkata rəhbərlik edərkən N.Nərimanov İran həyatının spesifik xüsusiyyətlərinə, xüsusilə də xalqın dini hiss və təsəvvürlərinə münasibət məsələsinə çox ehtiyatla yanaşmağın nümunəsini göstərmişdi. Müsəlmanların həyatında bu məsələnin çox mühüm olmasını və ona ehtiyatla yanaşılmasını nəzərə alan Nərimanov o vaxt kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasına aid maddəni proqramdan çıxarmalı olmuşdu.

Bu məsələni xatırladan Nərimanov 1918-ci ildə deyirdi ki, həmin maddəni pozmaqla biz dünyanın ən sarsaq cəlladlarından biri olan Məmmədəli şahın tacını yerlə yeksan etdik.

Nərimanov göstərirdi ki, müsəlmanlar hələ ruhanilərin təsiri altında olduqlarından, onlar "müstəqil düşünməyi bacarmırlar", hər şeyi Qur'an və şəriət ehkamları ilə müqayisə edir, şəriət qanunlarının məhdud dairəsindən qırağa çıxa bilmirlər. Bütün bəla burasındadır ki, müsəlman kütləsinin şüurunda mənəvi bir inqilab olmamışdır.

Qərb ölkələrində dövlət ilə kilsənin münasibətini Şərq ölkələri ilə müqayisə edən Nərimanov göstərir ki, Qərbdə kilsə ilə dövlət

arasında gedən uzunmüddətli mübarizələr nəticəsində kılsə dövlətə tabe olmuş, mülki qanunların əsasında xristian təlimi deyil, dövrün tələbləri durduğu halda Şərqdə belə bir mübarizə olmamışdır.

N.Nərimanovun tarixi əhəmiyyətə malik olan hər iki çıxışı xalq arasında kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasının düzgün başa düşülməsinə və yerli tatar, müsəlman, qırğız və kalmık uşaqlarının məktəbə cəlb edilməsinə böyük kömək etmişdir.

Həştərxan ölkəsi xalq maarif şöbəsinin keçmiş inspektoru, qocaman müəllim X.Mövludov Həştərxan şəhərində və onun qəzalarında olan tatar məktəblərinin vəziyyəti haqqında 1919-cu il mart ayının 26-da Qubemiya maarif şöbəsinə təqdim etdiyi hesabatda yazmışdı: "Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması. Dinin məktəbdən ayrılması maarif şöbəsi üçün ən çətin məsələ idi. Çünki əhali məktəbin simasında uşağı allah və din ilə tanış edən bir müəssisəni görürdü. Odur ki, dinin məktəbdən ayrılması haqqındakı əmr əhali tərəfindən yaxşı qarşılanmadı. Bu dekretin elan olunması ilə məktəb həyatı nəzərə çarpacaq dərəcədə zəifləyirdi; elə hallar olurdu ki, məktəbdə cəmisi bir neçə uşaq qalırdı.

Xoşbəxtlikdən şöbə vaxtında tədbirlər gördü. Maarif şöbəsinin gördüyü tədbirlər içərisində bu məsələyə dair yerlərdə edilən mühazirələrin və aparılan təşviqatın xüsusi əhəmiyyəti oldu. Yol. Nərimanov özünün mühazirələri ilə ən qiymətli bir iş görmüş oldu. Beləliklə, bu arzuolunmaz hadisə aradan qaldırıldı və məktəb həyatı öz adi yoluna düşdü".[1] Başqa bir sənəddə də N.Nərimanovun bu sahədəki xidmətləri yüksək qiymətləndirilir. 1919-cu illərdə Həştərxanda xalq maarifi sahəsində işləyənlərdən biri — Ə.Terequlov sonralar Nərimanov haqqındakı xatirələrində yazırdı: "Yadımdadır ki, kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasından sonra, 1919-cu ildə Həştərxanda vəziyyət ağır idi. Mürtəce ruhanilərin təsiri altında olan avam, mövhumatçı əhali həyəcan keçirirdi. Nərimanovun məsələyə bacarıqla yanaşması, ruhanilərlə söhbət aparması nəticəsində hər şey öz qaydasına düşdü".[2]

N.Nərimanov təkcə Həştərxanda deyil, Zaqafqaziyadakı milli respublikalarda da kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında dekreti həyata keçirərkən yerli şəraiti nəzərə almağı tələb edirdi. Bu məsələyə xüsusi əhəmiyyət verən Nərimanov Azərbaycan

[1] Həştərxan vilayət dövlət arxivi, f. 1362, s.1, iş № 627, v.2.
[2] "Бакинский рабочий" qəzeti, 25 mart 1925-ci il, № 66





Kommunist Partiyasının II qurultayındakı çıxışında demişdir ki, «məsələ təkcə kommunist proqramını bilməkdə deyil, həm də dövlət əqlinə malik olmaqdadır. Bunsuz kommunizm ideyalarını həyata keçirmək olmaz. Bunlar birlikdə tətbiq edildikdə heç bir maneəyə rast gəlməz və kommunizmi Şərqin ən avam ucqarlarına da aparmaq olar. Əksinə, əgər siz şabloncasına hərəkət etsəniz, heç şeyə nail ola bilməzsiniz».[1] Beləliklə, Nərimanov məktəbin kilsədən və kilsənin məktəbdən ayrılması haqqında dekreti həyata keçirərkən, yerli şəraitin nəzrə alınmasına xüsusi əhəmiyyət verirdi. O, həmin məsələləri şərh edib, təbliğatçılara istiqamət verərkən, özünün həyati təcrübəsinə əsaslanır və həmin məsələnin həyata keçirilməsində obyektiv mövqedən çıxış edirdi. 1920-ci ildə Türküstan işçiləri ilə "Türküstan və bizim Şərqdə siyasətimiz" mövzusundakı söhbətində də Nərimanov bu məsələyə xüsusi əhəmiyyət verirdi. O, göstərirdi ki, kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasına aid dekreti həyata keçirərkən, son dərəcə ehtiyatlı olmaq lazımdır. Nərimanov bu mühüm məsələdə Marksın fikirlərinə əsaslanaraq deyirdi: "Bu məsələdə bizim böyük müəllimimiz Marksın sözlərini nəzərdə tutmaq vacibdir. Dini görüşlər cəmiyyətin maddi-iqtisadi həyatı ilə əlaqədar dəyişir".[2]

N.Nərimanov "Din və kommunizm" mövzusunda oxuduğu mühazirələrində dinin mənşəyini, insanların aya, ulduza, günəşə sitayiş etmələrini, onların inkişaf dərəcəsi ilə izah edirdi. O göstərirdi ki, insanın inamı onun inkişafından, onun hazırlığından asılıdır. O şəxslər ki, allahın yoxluğu fikrini kütləyə zorla qəbul etdirmək istəyirlər, onlar nəinki öz məqsədlərinə çatmırlar, həm də bizim işimizi çətinləşdirirlər. ...Bu məsələyə ehtiyatla yanaşmaq lazımdır. Hər hansı bir ehtiyatsızlıq, məsələn, məktəblərdə "Qur'an lazım deyil" kimi sözlər barıt anbarlarında qığılcımın göstərdiyi təsiri göstərə bilər".

N.Nərimanov bu fikri ilə demək istəyirdi ki, cəmiyyətin maddi həyat şəraitini nəzərə almadan, dini təsəvvürləri aradan qaldırmaq olmaz və bu dekret hətta ən bacarıqlı əllərdə olduqda belə, Şərqdə onu həyata keçirmək mümkün deyildir.

[1] Siyasi partiyalar və ictimai hərəkatlar dövlət arxivi, f.1,s.74, iş №2 Azərbaycan KP II qurultayında Nərimanov yoldaşın nitqi, səh.15
[2] "Жизнь национальностей" qəzeti, 1920, № 9 (66)

Beləliklə, Nərimanov kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasına aid dekretin həyata keçirilməsi məsələlərində xalqın dini görüşlərinə, əhalinin adət və məişətinə xüsusi fikir verməyi, ehtiyatlı hərəkət etməyi tələb edirdi. 1919-cu ildə Həştərxanda olarkən Qafqazda hakimiyyəti ələ almaq üçün yerli şəraiti, xalqın vəziyyətini, əhalinin müxtəlif partiyalara münasibətində buraxılmış nöqsanları və s. ətraflı təhlil edən Nərimanov "Biz Qafqaza getməliyikmi, əgər getməliyiksə, orada öz proqramımızı necə yaymalıyıq?" — sualına cavab olaraq Qafqaza gedərkən əhalinin əxlaqı və məişəti ilə bərabər, dini görüşləri ilə də hesablaşmağı vacib hesab edirdi.

1921-ci ilin mart ayında Xalq Xarici İşlər Komissarı G.V.Çiçerin müsəlmanlar yaşayan vilayət və respublikalarda təbliğat apararkən təmkinli və ehtiyatlı olmaq, əhalinin dini hisslərinin təhqir olunmasına yol verməmək haqqında RK (b) P MK-sına göndərdiyi məktubunda N.Nərimanovun öz işlərində yerli şəraiti nəzərə almaq təcrübəsindən bəhs edərək yazırdı: "Vaxtı ilə Nərimanov yoldaş Şərqdəki təbliğatçılara məhz bu məsələ barəsində çox qiymətli göstərişlər verirdi. Kilsənin və dövlətin bir-birindən ayrılması barədə mollalara müraciətlə söylədiyi nitqi (N.Nərimanovun 1918-ci ildə Həştərxanda oxuduğu mühazirələr nəzərdə tutulur — *H.Ə.*) müsəlman camaatına təmkinlə yanaşmağın gözəl nümunəsidir".

Bütün bunlar Nərimanovun Şərq respublikalarında, o cümlədən Azərbaycanda, kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında olan dekretin düzgün həyata keçirilməsinə və məktəblərin düzgün inkişafına böyük kömək etdiyini göstərir.

Beləliklə, N.Nərimanovun irsinin təhlili göstərir ki, onun dini görüşləri getdikcə təkmilləşmiş və inkişaf etmişdir. O, həyat və fəaliyyətinin ilk dövrlərində dini xurafata qarşı mübarizəni mövhumat və ruhanilərin tənqidi pərdəsi altında aparmış, ruhanilərin dövlət işlərindən uzaqlaşdırılması ideyasını cəsarətlə irəli sürmüşdür. Nərimanov dini xurafata qarşı mübarizəni zəhmətkeşlərin azadlıq uğrunda mübarizəsinin tərkib hissəsi hesab etmişdir. Nərimanovun fikrincə, xalqın mövhumatın təsirindən qurtarması onun siyasi azadlığı ilə nəticələnəcəkdir.

N.Nərimanovun din və cəmiyyət, din və dövlət məsələlərinə dair fikirlərinin bir çoxu öz əhəmiyyətini hazırda da itirməmişdir.





* * *

N.Nərimanov ictimai sahədə olduğu kimi, pedaqoji fəaliyyət sahəsində də inqilabçı idi. Onun bədii əsərlərində və məqalələrində, həmçinin, bir çox çıxışlarında irəli sürülən pedaqoji ideyalar köhnəliyə qarşı, keçmişin sxolastik məktəblərinə, təlim və tərbiyə üsullarına qarşı mübarizədə Azərbaycanın qabaqcıl ziyalılarına, ilk növbədə isə müəllim və pedaqoqlarına ilham verirdi.

N.Nərimanovun uşaq şəxsiyyətinin inkişafında tərbiyənin roluna verdiyi yüksək qiymət, dövrünün qabaqcıl pedaqoqlarının fikirləri ilə səsləşir və bir sıra məsələlərdə daha irəli gedirdi.

Böyük rus pedaqoqu K.D.Uşinskinin fikirlərini Azərbaycanda davam etdirən Nərimanov müasirləri H.Zərdabi, C.Məmmədquluzadə, F.Köçərli və başqaları kimi ana dili məsələsindən, onun siyasi və tərbiyəvi əhəmiyyətindən dönə-dönə bəhs etmiş, ana dilini "əsarətdən xilas etməyə" çalışmış, çarizmin ruslaşdırılma siyasətinə qarşı mübarizə aparmışdır.

N.Nərimanov ana dili ilə yanaşı rus dilinə də böyük əhəmiyyət vermiş və bu dili gənclərə öyrətməyin əhəmiyyətini dönə-dönə göstərmişdir.

Azərbaycan xalqının maarifi, mədəniyyəti və mənəviyyatına çox yaxşı bələd olan və onu dərindən bilən Nərimanov bu xalqın şüurunda və mənəvi həyatında bir inqilab yaratmağı qarşısında məqsəd qoymuş və bu böyük məqsəd yolunda yorulmadan fəaliyyət göstərmişdir. Təsadüfi deyil ki, inqilabdan əvvəl və sonra Azərbaycanda milli məktəblərin yaranmasında və inkişafında N.Nərimanovun xüsusi xidmətləri olmuşdur.

Azərbaycanın o zamankı maarif naziri Mustafa Quliyev 1925-ci ildə yazırdı ki, N.Nərimanov Azərbaycan SSR XKS-nin sədri və SSR İ MİK-nin sədri kimi ən məsul vəzifələrdə olduqda belə, Azərbaycanda xalq maarifinin vəziyyəti ilə daim maraqlanırdı. Maarif işinin bir çox prinsipial məsələləri onun yaxından iştirakı ilə həll olunurdu. Nəhayət, Azərbaycanın tədris-tərbiyə müəssisələrinin əsası onun təşəbbüsü və yaxından rəhbərliyi ilə qoyulmuşdur.[1]

N.Nərimanov pedaqogikanın təcrübi məsələləri ilə yanaşı, nəzəri məsələləri ilə də maraqlanmış, pedaqogika klassiklərinin görkəmli nümayəndələrinin əsərlərini təbliğ etmişdir. Onun pedaqoji görüşləri məktəb və pedaqogika tariximizdə şərəfli yer tutur.

[1] "Бакинский рабочий" qəzeti, 22 mart 1925-ci il, №63.

# ƏLAVƏLƏR





## Teatr barəsində bir neçə söz

Komediya yunan sözüdür. Qədim vaxtlarda komediyanı yunanlar gülüş üçün çıxardırlardı (hər bayram günü camaat şəhərin kənarına cəm olub vaxtlarını xoş keçirməkdən ötrü cürbəcür məzəli şeylər çıxardırlardı) Bu axır vaxtda komediya çıxartmaqdan əsil məqsud tərbiyədir. İnsan çox vaxt öz zindəganlığında özünün və ya qeyri şəxsin qüsuratını görmür və yainki hiss etmir. Amma komediya çıxaranda bunların hamısını görüb yaxşını yamandan seçir və mümkün olan qədər çalışır ki, yaman sifətləri özündən rədd etsin. Bizim müsəlman qardaşlarımız teatra çox da həvəs etməyib fikir edirlər ki, o komediya ki, oynayır, ancaq gülüş üçündür. Bu fikirdə olanlar çox səhv edirlər, çünki komediya zindəganlığın ayinəsidir. Biz teatrda öz qüsuratımızı görüb, əlbəttə, çalışırıq ki, özümüzü yaxşı adamlara oxşadaq və pis adamlardan kənar olaq. Teatr böyüklər üçün bir növ məktəbdir. Necə ki, uşaqlar məktəbdə gözəl şeylər əxz edirlər, elə də bizlər teatrdan gözəl sifətlər əxz edirik.

Bugünki teatrın iki nəfi var: əvvəla budur ki, necə ki, qabaqda zikr olundu, zindəganlığımızda olan qüsuratı göstərək; məsələn: «Hacı Qara», hansı ki, bu gün oynayacaqlar, bir xəsis və tamahkar şəxsdir ki, puldan ötrü adını bədnam edir. Əvvəla sövdəgərlik edib, dinc, fəraqət, dükanında əyləşib alış-veriş edərdi; amma sonradan tamah o qədər güc gətirir ki, qoca vaxtında qaçaqçılığa gedir. Məşhur məsəldir deyərlər: «Artıq tamah daş yarar, daş qayıdar baş yarar!» Elə də Hacı Qara, nəinki muradına çatmadı, hətta həbsə düşdü...Əlbəttə, bu bizim üçün gərəkdir ibrət olsun. İnsan gərəkdir mümkün olan qədər zindəganlığını doğruluqla keçirə; zira ki, yalan və əyrilik həmişə aşkar olub, insanı bədnam edər. Teatrımızın ikinci mənfəəti budur ki, bundan yığılan pul xərc olunacaq bu il müsəlman uşaqları üçün bir məktəb binasını qoymağa. Məlum ola ki, hərçənd bir zaman dünyəvi elmlər müsəlman arasında intişar tapmış isə də, amma sonradan bir neçə səbəblərə görə elmləri əlimizdən çıxarıb, yavaş-yavaş insanın ruhunu və bədənini salamat saxlayan şeylərdən iraq düşüb, indi zəlalətdə bulunuruq. Təvarixə nəzər etsəniz, yəni keçən millətlərin barəsində oxusanız, yəqin edərsiniz ki, heç bir millət qılınc və tüfəng ilə qabağa getməyibdir. Hansı millət ki, qabağa gedib, tərəqqi edibdir, ancaq elmin gücünə xoşbəxt olubdur. Amma o millət

ki, ümidini qılınca bağlayıb, həmişə zəlalətdə bulunubdur. Hənuz zəlalətdə qalmış millətlərdən biri də bizim müsəlman millətidir. Bir dürüst nəzər edin bizim zindəganımıza! Oğurluq, quldurluq, adam öldürmək və tövrbətövr yaman hərəkətlər bizdən baş verir.

Doğrudur, bu tövr bədbəxtlik hər millətin arasında olubdur, amma o(n) lar bizdən tez başa düşüb, elmin dalınca gediblər və zülmətdən xilas olub, işıqlığa düşüblər. Amma biz hələ qəflət yuxusuna mübtəla olmuşuq.

Heç ata-ana istərlərmi uşaqları bədbəxt olsunlar? Heç (kəs) istəməz ki, oğlu qazamatda illər ilə çürüsün. Amma çifayda bunların hamısını görürük və gözlərimizdən qanlı yaşlar tökülür. Bəs lazım gəlmirmi bu dərdin dərmanını tapaq? Nə vaxtadək qoca ata və analarımız sudlara düşəcəklər? Günah kimdədir? Bəyəm günah qazamatda çürüyən uşaqlarımızdadır? Xeyr, günah özümüzdədir. Vaxtında lazım olan tərbiyəni verməyib öz əlimizlə uşaqlarımızı oda yandırırıq. Bəs bunu bilə-bilə nə üçün uşaqlarımıza elə pərvəriş vermirik ki, nadanlığın əlindən xilas olalar?

Necə verək tərbiyə, halbu(ki) özümüzdə lazım olan tərbiyə yoxdur?! Bəli, gərəkdir ki, biz özümüz uşaqlarımıza tərbiyə verək, ta onlar da gələcəkdə öz uşaqlarını cürbəcür bəlalardan saxlasınlar. Tərbiyə dəxi ancaq elmin gücünə olar. Ona görə lazımdır məktəblərimiz ola. Bu məqsəd ilə alicənab Gəncə mahalının qubernatoru müsəlmanların tövrbətövr bəla(lə)rə giriftar olmağını, məktəb olmamaqda görüb, xahiş edibdir ki, bir məktəb açılsın ki, orada bizim uşaqlar rus və azərbaycan dilini oxuyub və lazım olan tərbiyəni əxz edib, gələcəkdə həm özləri və həm də ata və anaları xoşbəxt olalar.

Bu tövr camaat işləri bir adamın gücü ilə başa gəlməz. Ol səbəbə bu teatrı Gəncənin mərifətli və mədəniyyətli olan cavan müsəlmanları bina edibdir. Ümid edirik ki, bu təzə açılan məktəb axırıncı olmayıb, siz həzəratın köməkliyi ilə minval xeyir işlər çox olsun. Həzərat genə təkrar edirəm: Məktəb! Məktəb! Bizi ancaq məktəb nadanlıqdan xilas edər!





## Həftə-fəryadı

Nerədədir bir elə aləm ki, hamı bir fikirdə, bir qanacaqda olsun? Bir padşahlıq, bir şəhər, bir kənd, ya bir cəmiyyət, ya bir külfət fikrinizə gətirə bilərmisiniz ki, orada hamı bir fikirdə, bir qanacaqda olsun? Mən ha fikir edirəm, bir şey çıxmır. Hikmət ilə gərək belə bir aləm olsun, çünki dəhr hamı üçün birdir, hamıya bir nəzər ilə baxır, hamı ondan istədiyi qədər nəfbərdar ola bilər, fəqət dörd ətrafınıza baxıb dolanacağınızı nəzərə aldıqda belə bir aləmdən əsər görünmür. «Heyhat! Belə bir Aləm olursa, nə gözəl olurdu!» deyəcək olursunuz ki, biz sizə bərəks olacağız, sizi dəhrin düşməni hesab edəcəyiz. Yox əfəndim, belə bir Aləmi arzu etməmək!.. Həqiqət hal, bir dürüst diqqət ediniz: hamı qoyun sürüsü kimi bir fikirdə, bir qanacaqda olursa, dolanacaqmı qalır? Heç bir vaxt! Belə olursa vəzirlər, sudyalar (ədliyyə hakimləri), dəva vəkilləri, prokurorlar (müddəiyi-ümumiyyələr), təbiblər, müəllimlər və inciınarlar (mühəndislər) ya qeyriləri nerədən dolanacaq etsinlər? Təəyyüşlərini nə ilə təmin etsinlər? Xeyr, heç mümkün olan şey deyil, fikirlər, qanacaqlar gərək bir-birinə zidd ola ki, iş də ola, iş olan surətdə cibə də bir şey girər. Mən bilsəm ki, oğurluq yaman işdir, haman sənətə məşğul olarammı? Olmayan surətdə sudyanın, ya vəkilin mənimlə nə işi? Qeyri işlər də buna görə. Xeyr, qanacaqlar, fikirlər bir-birinə müxtəlif gərəkdir olsunlar. Sözümüzə qüvvət vermək üçün min-min misallar söyləməyə hazırız. Buyurunuz: Gəncədə ruhanilər üçün yeni üsulla mədrəsə açılır, lakin pul yoxdur. Hörmətli hacılarımızdan biri bu barədə belə bir fikirdədir: ruhanilər millətə lazımdırlar. Fəqət indi ruhanilərimiz yaman haldadırlar, divarın o tərəfindən olan şeyləri görmürlər, millətin nə ilə tərəqqi etməyini bilmirlər, ona görə vaxtında zəmanəyə müvafiq, millətə lazım olan qulluğu etməyi bacarmırlar. Bacarmırlar deyiriz də, elə bilirsiniz istedadlarını yoxdur? Qabilmi deyillər? Xeyr, əfəndim! Pək gözəl müstəid, qabil ruhanilərimiz ola bilər, fəqət bünövrə gərəkdir ola, lazım olan tədris və təlim gərəkdir ola. Bunlara andırmaq ki, bir elmi- ilahi ilə dərdimizə əlac tapmaq olmaz. Belə olmuş olsaydı, peyğəmbərimiz (...) Quranı Məciddə hər şeydən xəbər verməzdi. Mən bilmirəm, ruhanilərimiz özləri təsdiq edirlər ki, Quranda o elm yoxdur ki, ona işarə olunmasın. Həqiqət belə isə görünür, peyğəmbərimiz (...) bunu lazım bilibdir ki, əhadisi-şərifləri ilə bəyan edibdir. Lazım olmayan şeyləri nə Allah buyurardı,

nə də cənab Peyğəmbərimiz xəbər verərdi. Bəzi möhtərəm ruhanilərimizin rəyinə görə elm tək elmi- ilahidən ibarət olunsaydı, bütün Quranda ancaq rəbbimizin zati –pakini təlim verərdi. Nəyə lazım idi qulları azad etmək? Ya ümumi millət işində camaatla məşvərət etmək? Bu məsələnin üstə indi 20-ci qərinədə qələmlər sınır, minlərcə, bəlkə yüz minlərcə kitablar yazılır, fikirlər yorulur, beyinlər çatlayır, canlar tələf olur, üsuli-idarə, şəkli-səltənət, səltənətlər dəyişdirilir! Hər şey təbdil olunur. İndi əcnəbilər bu məsələni həll edib də «sosiologiya» elmini araya salıblar. Nəyə lazım idi gündə beş vaxt namaz qılanda əllərini, üzünü, ayaqlarını yumaq? Donuzun və bir para heyvanların ətini yeməmək? Ya onlara əlin dəydisə, əlini yumaq? Ya qüsl? Bunlar hamısı allahdanmı ötrü qoyulubdur? Yainki insanın özündən ötrü? Bunlara allahınmı ehtiyacı var, yainki insanın? Tək insanın ehtiyacı var isə, indi bu məsələləri əcnəbilər toplayıb da gigiyena, yəni hifzü-səhhə adında bir elm ortalığa çıxarıblar!.. Nəyə lazım idi, deyə ata öləndən sonra onun malını, pulunu yetimlərə nə tövr qismət etmək? Ya ər öləndən sonra arvadın ixtiyarını bilmək? Ya bir adam adama zərər yetirdi, onun əvəzində nə etmək? Bunlardamı allah üçündür? İnsan üçün isə indi əcnəbilər «Yuris prudensiya» (elmi hüquq) adı ilə elmi -müaşirətin böyük bir şöbəsinə tərəqqi və rövnəq verib, bunun üçün şəşə əli məktəblər açırlar.

Bu növ məsələlər bir deyil, iki deyil, yüzlərcə, minlərcədir. Hansını söyləyək? Qanun qoyan ömrünü belə məsələlərə sərf edibdir. İndi nə etmək ki, bu məsələlərin üstə bir pərdə salmışıq, bunları qovmuşuq, zahirdə qalan bir elmi- ilahi olub şəkkiyyatda onun zili. Heyfa ki, bu elmdən də bəzimiz mənim kimi bibəhrə qalmış, dürüst anlamamış, bibəhrə qalmayanlar da zikr olunan fikirləri cənab Hacı (Zeynalabdin Tağıyev-H.Ə) nəzərdə tutub yeni ruhanilər üçün açılan mədrəsəyə ianə verin, beş min manat göndərib də, kəndi-kəndinə fikir edir: mən istədiyim ruhanilər haman mədrəsədən qurtarıb yüz illər ilə gizlənmiş həqiqəti meydana çıxaracaqlar. Çıxarıb da hal-hazırda «din hamilərinin» bəzi əfkarını batil edəcəklər, batil edib də milləti ağır zəncirdən xilas edəcəklər.

Bəli, bu hacının qanacağı belədir. İndi qeyrisinin qanacağına baxalım: Qeyrisi fikir edər: bu sözlər boşdur, dünya üçündür. Biz axirəti gərəkdir nəzərdə tutaq. Filan axund buyurur: mən gecə-gündüz ömrümü məscidlərdə keçirirəm. Dünyamıza dair elmlərdən mən bir





şey eşitməmişəm. Axund lazım bilsəydi, vəz edərdi. Mən bunu anlamışam ki, bu dünyanın axırı yoxdur, özümüzü axirətə hazırlamaq. O da ibadət ilə olar. Mən də axund buyurduğuna əməl edib, ibadətlə məşğulam. Mənim nə borcum, mədrəsə açırlar, ya yox. Ondan savayı bu mədrəsədən çıxıb «müqəddəs» olamaz, Xorasanda, Nəcəfdə gərəkdir oxumaq ki, ehkami-ilahini «yaxşı» anlayasan.

Buyurunuz, iki bir-birinə bərəks fikir, qanacaq! İndi bir dürüst diqqət ediniz: hamı əvvəlinci Hacı qanacağında olsa idi, məskur mədrəsəni açmaq lazım deyil idi. Elə də, hamı ikinci Hacı kimi «qanacaqlı» olsa idi, yenə də mədrəsə açılmayacaq idi. İndi aşkar oldu ki, bir-birinə zidd fikir, qanacaq ortalığa iş gətirir. İstəyirsiniz doğrunu biləsiniz, bu günkü felyetonu yazmağa da səbəb bir-birinə bərəks qanacaq olubdur. (...)

Əcəba! Nə səbəbə gülürsünüz, əfəndim? Elə bilirsiniz mən həmişəki kimi bu sözləri də kinayə ilə söyləyirəm? Fikir edirsiniz, mən zarafat edirəm? Yox! Əbəs yerə dişinizi ağartmayınız! Doğrudur, keçmişdə mən kinayə ilə yazır idim, yaxşıya yaman deyib, yamana yaxşı deyir idim, lakin qarelərim məni anlamadılar, bir böyük şeyimi! «Molla Nəsrəddin» babamızı da bu həftə anlamadılar, «mütrib»lərin şəklini görüb bir neçə adamların ağızlarından su axdı... Sağ olsun «Molla Nəsrəddin» deyib də «qara tanımayanlar» da nömrələri alırlar. Onlar elə fikir etdilər ki, guya Molla əminin bundan xoşu gəlib çəkibdir.

Belə şeyləri görüb də biz daha istehza, kinayə işlədərikmi? Xeyr, onlar keçmiş əhvalatdır. Keçmişdə çox da şey olubdur. Çox da xətalar etmişik, nə olsun? Keçmişdə müəllimlər də bir-birinə bərəks fikirdə, qanacaqda idilər. Məsələn, müəllimləri kəndi işlərindən ötrü, ümumi dərdlərinə əlac aramaqdan ötrü bir məclisə dəvət edəndə «bir parası» dəvətnamənin üstə yazırmış: «Görəsən plov da olacaqmı?» Ya xeyr, biri «Yetər xabi-qəflətdə qalmağımız, gərək işləyək, dövlətə ümid bağlamaq olmaz. Bizə lazım şeyləri tələb edək, vermə̈sə güc ilə alaq! İndi aləmi-hürriyyətdir, qorxmamaq!»... belə sözləri deyirmiş. Fəqət bir qeyrisi bundan «ağıllı», «fərasətli», «qeyrətli», yoldaşına baxıb da gülürmüş: «Ay biçarə, aldığın çoxca məvacib, üç-dörd müftə otaq, müftə odun, müftə çıraq, müftə qulluqçu, hər ildə «çox zəhmətlərdən» sonra «azarlayıb» şəhər kassasından aldığımız «posobiye»qanımızı dəlir?! Bizə nə düşübdür özümüzü bəlaya salaq? Millət qeyrətini gərək bizmi çəkək? Arxayın ye, iç, kef çək. Kim

kimədir? Axı, hünərimiz nədir, dövlətdən biz bir şey tələb edək? Bayılı görmürsənmi? Daha qoymazsınızmı bir doyunca şəhərin pullarından xərc edək? Həm də «tərəqqi» edək belə iki bir-birinə bərəks qanacaqdan görürsünüz bir iş törədimi?

Aləmi-hürriyyət olmağa görə belə «ağıllı», «qeyrətli» müəllimlər «naçalniklərin» fəndlərinin altında davam gətirməyib, hünərli yoldaşlarına yavuqlaşırlar. Yavuqlaşıb da ittifaq edirlər. İttifaq etdikləri üçün zəif ağıllılar arada məhv olurlar. Qanacaqları bərəks də olsa, kəndilərini bir tövr sürüyürlər... Bir vaxtadək... Sonra zəmanə özü onları yarı yolda qoyub...

Bəli, belə adamları çarəsizlikdən zəmanəyə tapşırırsınız, lakin camaatımız olsa zəmanədən qabaq başımıza çarə qılarıq. Camaat kəndi başının ağrısını hiss etsə, belə «cənablara» deyər: yetər, müftəxor cənablar! Siz ayın 20-ni gözləyirsiniz. Millətin pulunu aşırıb da ona xəyanət edirsiniz. Çıxınız aradan, millət qeyrəti çəkənlərə yol veriniz!

Belə hünəri, qanacağı camaatdan biz hələ gözləmiriz. Məst halətdə olandan nə gözləmək? Nə verdiyini anlayır, nə aldığını, nə oturmağını bilir, nə durmağını.

Bu barədə Gəncə faytonçuları ilə Bakı faytonçuları da qanacaqda bir-birinə bərəksdirlər. Bizim faytonçular mağazaların qabağında durub, müştəri bəkləyirlər, Gəncə faytonçuları restoranların, dükanların, qəstinlərin qabağında dururlar. Səbəbini bilmirsinizmi?

Müxbirimiz (...) yazdığına görə məlum olur ki, restoranlardan çıxanlar çox «əliaçıq» olurlar, 10 qəpiyin əvəzinə 2 manat verirlər.

Bizim faytonçular isə keflərindən qaçırlar. Görünür, qanacaqları o payəyə çatmayıb ki, bu elmi öyrənsinlər. Elmi insan insandan öyrənər. Bakı ilə Gəncənin arasında neçə yüz verst ola ola bu «elmi» nə tövr əxz etmək aradan mümaniət gərəkdir götürülsün, «qanacaqları» bərəks də olmuş olsa, qonuşsa bir-birindən istifadə edə bilərlər. Əxz edib də bir şey araya gələr. Məsələn, rus generallarının qanacaqlarına görə vaqonu «müqəddəs» adamların şəkilləri ilə təsvirləri ilə doldurmasan, davada düşmənə qalib gəlmək olmaz. Ona binaən cənab Kuropatkin düşmənin müqabilinə şəkillərlə çıxdı; yaponların qanacağında düşmənə elmin gücü ilə qalib gəlmək olar, o da elmini meydana gətirdi. İkisi də bir fikirdə olsaydılar, yəqin ki, indiyədək yapon «ğişaları» şampanskini rus əfsərlərinin dövlətindən





su yerinə axıdardılar. Kuropatkin də indiyədək «bildirçin»əti yeyə-yeyə kef çəkərdi. İndii rus vəzirləri həmin kefdən əl çəkə bilmirlər. Dumanın qanacağına indiki vəzirlər vətənin bədxahıdırlar, gərək aradan çıxsınlar, həqiqi vətənpərəstlərə yol açsınlar. Vəzirlər isə belə bir təklifdən utanmayıb fikir edirlər: bizsiz işlər yola getməz.

Bu iki bir-birinə bərəks qanacaq yəqin ki, bir zorba iş partladacaqdır!.. Belə olursa, «Əlidən də Vəlidən də» olmağımıza şübhə yoxdur... Nə isə, qanacağımız bərəks də olsa, Duma məsələsində bir fikirdəyiz: hamı özünü Dumaya üzv olmağa layiq bilir... Millət, vətən, insaf, mürüvvət aradan götürülür. Bunların barəsində qeyri bir vaxtda fikir etmək olar. İndi ancaq şan-şövkət lazımdır. «Qoy desinlər, Şahbudağın bağı var!».

Xülasə, nerəyə baxırsınız müdam müharibə görünür. Dürüst diqqət edərsiniz isə, hamı işlər iki bir-birinə bərəks qanacaqdan, fikirdən törənməyini düşünərsiniz. Müharibəsiz bir məmləkət, yəni, bir Aləm ki, orada hamının qanacağı, fikri bir ola, belə bir aləm gəzirsiniz isə, nəzərinizi «Çənbərəkəndinə» salınız. Orada həqiqət, hamı bir fikirli, bir qanacaqlı! Nə şikayət, nə elmi-ilahi, nə elmi-siyasi, nə Duma, nə şan, nə şövkət, nə vətən dərdi, nə millət qeyrəti! Heç bir şey yoxdur! Hamı bir fikir ilə, bir qanacaq ilə dolanacaq edib, qurdlara, ilanlara yem olarkən, yan-yana veriblər.

### Həftə fəryadı

Bu gün istəyirəm qarelərimə bir balaca hekayə söyləyim. Nağıl demirəm, əfəndim, hekayə deyirəm. Nağıl ilə hekayənin təfavütü var. Nağıl o hekayədir ki, ittifaq düşməyibdir. Mənim kimi biri oturub ağzına nə gəlibsə yazıbdır. Lakin hekayədə ittifaq düşmüş şeyin, barəsində söylənilir. Bu barədə «nəql»dən muradımız Azərbaycanda «nağıl» və osmanlıda «məsəl» deyilən xəyali hekayələrdir, yoxsa elmdə və tarixdə qəbul olunan bir mənada istemal etməyiriz. «Məsəl» məsələdən qələt olduğu kimi, nağıl da nəqldən qələtdir. Müharibə mənasına gələn «dəva» yerinə «dava» və «övrət» yerinə «arvad» yazmaq daha münasib olduğu kimi, yuxarıda zikr olunan mənada «nəql» yerinə «nağıl» ya «məsəl» yazmaq, əlbəttə, məsləhətdir.

Keçən günlərdə rus jurnallarının birində bir qəribə hekayə oxuyub da özümə söz verdim ki, qarelərim ilə bu barədə söhbət edim.

Həqiqət hal, hər həftə fəryad etmək də yaxşı deyil. Onsuz da qəzetimizin günlük nömrələrində «Ay camaat, ayılınız!» deyib də çığırışırıq. Axırda görürsən məqalələrin başına baxıb deyəcəklər: «Bu məqalə heç, bunu oxumamalı, bu köhnə əhvalatdır: millət dalda qalıbdır, millət zəlil olubdur, millət filan olubdur, filan da filan olubdur. Böylə də qəzetə yazmaq olarmı?

Həmişə bir şeyin barəsində! Tamamdır! Eşitdik! Çanağınızda qeyri bir şey varsa, onu meydana çıxarınız» Bir para qarelərimiz bu sözləri deyib də məqalələrimizi oxumazlar. Bu təsəvvürdə olan oxuyanlar az deyil. Bunlar üçün gələcəkdə nə olacaq, millət və ya vətən tərəqqi edəcəkdir, ya yox? Bu təsəvvürdə olanlar üçün birdir, təfavüt yoxdur. Bunlar «Ah keçən günə gün çatmaz calasan günü-günə» deyib də istiqbaldan bir şey gözləməyirlər... Bunlara hal-hazırdan söyləyiniz... Bunlara lazım olan şeylərdən «nəql» ediniz...

Lakin bu barədə fikir edən yoxdur. Bu tövr qarelərin dərdlərinə əlac tapmayırlar, aramayırlar...

. Elə bircə axundların ətəklərindən tutub deyiriz: insaf ediniz, mədəniyyətə bərəks olsanız da müridlərinizə «qara məxluqun» əxlaq-ətvarını düzəldiniz, yüz dəfə təharətdən söyləyəndə bir dəfə də adam öldürmənin nə qədər böyük günah olmasından vəz ediniz

Ya xeyr, zəngin cavanlarımıza nəsihət ediriz: gecədə yüz manat «fəqir arvadlara» xərc edəndə heç olmasa, ayda on manat da





yetim mütəllimlərə veriniz. Yainki milyonçulara deyiriz:

– Azarxana tikdirməyirsiniz, əlsiz-ayaqsızlar üçün darüləcz bina etməyirsiniz, çünki belə şeylər sizin təsəvvürünüzdə xeyir iş, yəni allah sevən iş deyil. Laməhalə Bibiheybət ziyarətgahının yolunu düzəldiniz... Ya xeyr, incinarları, mühəndisləri məzəmmət edib yazırız:

– Qardaşlar, insaf ediniz. Biçarə ac tələbələrimizə siz kömək etməyəndə, onlar üçün siz iş tapmayanda, onlara kim kömək edəcəkdir?

Siz özünüz də bir vaxt bunlar çəkdiklərini çəkirdiniz. Unudubsunuzmu? Bunlar da keçər gedər. Bunlar gözümüzün qabağındadır. Görürüz, könlümüz də xarab olur. Söyləyiriz, yazırız. Deməyə haqqımız var. Ya xeyr, «sözümüz» qurtarıb da böylə şeylərdən bəhs ediriz. Nə etmək, əfəndim! Siz də bu işdə sənətkarsınız. Gərək, yazıb kağızınızı doldurasınız... Fəqət bir hərəkətinizi anlamayırız. Bizə, vətənimizə dair olan şeylər barəsində yazarsınız. Bunu da bağışladıq. Burada oturub İrandan, osmanlıdan dəm vurmağınızın mənası nədir? Hələ tutalım, rus vəzirlərinin hərəkətləri sizə məlumdur. Rus qəzetlərində oxuyursunuz, ona görə də yazırsınız...

Osmanlı, İran vəzirlərini görübsünüzmü? Onların barəsində bir əhvalat oxuyubsunuzmu? Tutalım Osmanlı vəzirlərinin barəsində hərdənbir əcnəbi qəzetlərində əhvalat olur. Yainki Misirdən və qeyri yerlərdən gələn qəzetlərdə bir para əhvalat olur. Lakin İran vəzirlərinin barəsində bir əhvalat bilməyib yazmağınıza təccüb ediriz!

Bu biçarələr «haçan bir iş gördülər ki, əməllərində, fellərində nöqsan görüb də onları bəzəməyə ixtiyarınız ola? Bizim əqidəmizə, bunlardan «məzlum», «fəqir», bunlardan ziyadə millətini, vətənini sevən vəzirlər heç məmləkətdə tapılmaz. Bir yaxşı fikir ediniz: bu vaxtadək cəmi Avropada bir vəzir tapmazsınız ki, «səyahət»in vətənə və millətə gətirdiyi mənfəəti dürüst anlasın. Özləri hər il səyahətə çıxırlar. Bu heç! Bir millətə fikir veriniz, bir yer taparsınızmı oraya iranlı «səyahət» etməsin!.. bu milləti öz ixtiyarına qoysaydılar, vətənindən bir ağac kənara çıxmaz idi. Çıxmayan surətdə nə hürriyyət sözünü eşidərdi və nə də onun ləzzətini anlardı...

«Biçarə» vəzirlər bunu çoxdan anlayıblar. Ona görə milləti vətəndən dağıtmağa həmişə ciddü-cəhd ediblər. Bunların belə gözəl «politikasını» Kitay vəzirləri düşünsə idilər, bu vaxtadək millətini

dörd divarın içində saxlamazdılar...

Xeyr, İran vəzirlərinin fikirləri, onların «politikası» bir qeyri «dəstgahdır». Bu «politika»nı anlamaq üçün «astralogiya»—elmi-nücum oxumalı. Kimdir sizin mədəniyyətli Avropada bu elmi bilən, oxuyan? Xeyr əfəndim, əsil söz budur: yazırsınız, gördüyümüz, eşitdiyimiz şeylərin barəsində yazınız. Burada oturub Bağdaddan dəm vurmağımızın mənasını anlamıram, həmçinin anlamıram: filankəs filan işi görməyir, filan da filana xeyir verməyir. Filan işi görməyir, filan da filana xeyir verməyir. Filan aclara baxmayır. Bu sözlərdən mənə nə mənfəət? Siz gələcək üçün çalışırsınız. Gələcəyin öz sahibi var. Nə məsləhət olsa, özü bilir. Bizim nə işimiz! Və bir də kim bilir, gələcəyə kim qalacaq, kim qalmayacaq?! Siz ağzınızı açanda söyləyirsiniz: biz millət, vətən üçün çalışırız. Biz insaniyyətə qulluq ediriz. Buyurunuz əfəndim, biz millətdən deyilikmi? Biz də insanız, ya? Biz də həmin vətənin oğullarından hesab olunmuruqmu? Belə isə haçan bizim də dərdimizə əlac tapdınız? Tibb elmini oxuyub da cavanları müalicə etməyi bacardığınız kimi, onu bizim küpəgirən qarı nənələr də bacarırlar. Əlinizə bizim kimi solmuş, qocalmış, vaxı keçmiş adamlar düşəndə deyirsiniz: bədən zəifdir, azara tab etməyəcəkdir... Sizin günləriniz sayılıbdır...

Belə sözlər ilə bizə təsəlli verirsiniz? Yox, yazanlarda insaf olsa, min dəfə cavanlardan yazanda bir dəfə də biz qocalardan yazarlar. Əlinə qələm alan yazır: mən filan hacıdan, filan dünya işlərindən ötrü pul istədim, vermədi... Daha deməyir ki, dünyanın filan ləzzətini mən indi görməyirəm, ondan ötrü mən niyə pul verim? Sən bir şey et ki, mən «yenə» də haman ləzzətləri hiss edim, keçən kefləri görüm, onda, əlbəttə, mən də özümü bu dünyadan hesab edib onun işlərinə qarışıram, nerədə kömək etmək lazım isə edərəm. Yoxsa, «hacı, filan uşağa kömək etmək lazımdır: oxuyub gələcəkdə millətə kömək edəcəkdir» sözləri ilə bizi tora salmaq olmaz. Gələcəkdə kömək edəcək! Cəhənnəmə edəcək! Mənə nə mənfəət? Heç kömək etməsin.

Eşidirsiniz, əfəndim. Bu təsəvvürdə olan qarelərimiz də var. Bunlar üçün də bir şey yazmaq lazım gəlir. Qəzet ümumi milli hesab olanda bunlar da millətin hissəsi hesab olunurlar. Gərəkdir bunların da dərdlərinə əlac aramaq. Bunlara da «nicat» yolu tapmaq. İstədikləri nədir? Bunlar keçmişdən dəm vururlar. Keçmişi qaytarmaq istəyirlər... «Keçmişdə gördüyümüz ləzzətləri bizə versəniz, sizin





hal-hazırda mübtəla olduğunuz qəmlərin rəfinə çalışacağız» deyirlər. pul ilə olursa milyonlar sərf etməyə hazırız, ancaq cavanlığı, cavanlığı qaytarınız... Əcaba!!!

Təəccüb etməyiniz, əfəndim! İstəməyə haqları var. Cavanlıqda pul qazanmağa məşğul olublar: layiqincə kef etməyiblər! İndi pul zibil kimi, fəqət həvəs yox. Quvvət gedib. Bədən gün-gündən zəifləşir... «Ay keçən günə gün çatmaz, calasan günü-günə!».

Bu barədə mən çox kitablara baxdım, jurnallara diqqət etdim. Hətta Bakı kimi milyonçu şəhəri buraxıb Parisdə oturub cavanlaşmağa çarə arayan Meçnikova müraciət etdim. Axırda arzuma çatdım.

Jurnalların birində «Cavanlaşmağa çarə» ünvanlı bir ləzzətli hekayə tapdım. İndi mən söyləyirəm:

Firəngistan şəhərlərinin birində Markiz Molankinnam, pək zor dövlətli, zəngin, qoca, sərkeş bədəninin günbəgün zəifləşməsini hiss edərkən fikir edirdi: «Ah, nə olardı dövlətimin yarısını alıb da mənə cavanlığımı qaytaraydılar!» Bu fikirdə olarkən bir gün qəzetdə oxuyur: «Məşhur professor Kroun Bekar cavan olmağın əlacını tapıbdır». Bu xəbər Markizə böyük şadlıq gətirdi. Axırda məqsədumə çatdım deyib də haman professorun yanına getməyə hazırlaşdı. Markiz hazırlaşarkən keçən günləri yadına saldı: nə gözəl günlər, nə xoşbəxt saatlar. Yenə ey günlər, ey saatlar, siz mənim ilə yoldaş, dəmgüzar olacaqsınız.

Markiz bu fikirləri başında dolandırarkən professorun qapısına çatdı, zəngi vurub otağa daxil oldu. Bir azdan sonra professor gəlib sordu:

– Nə buyurursunuz, əfəndim?

– Mən eşitdim ki, siz cənab professor, cavanlaşmağa əlac tapıbsınız. Doğrumu, əfəndim?

– Qaç sinindəsiniz?

– Mənim sinim altmışdan bir az çox olar, əfəndim. Lakin cavanlığımı çox yaman keçirtmişəm. Gecələri gündüz etmişəm...

– Zərər yoxdur, əfəndim! Bu sinində insanın bədəni hələ dərman qəbul edər. Bu vaxtda bədənin əsil təzələnmək vaxtıdır. Mən sizə kömək edəcəyəm, buyurunuz mənim ilə.

Markiz şadlığından az qaldı ağlasın. Bunlar professorun iş otağına getdilər. Markiz professorda bir müqəddəslik görüb də onun ətəyindən öpmək istəyirdi... Professor bir balaca şişə götürüb dedi:

– Görürsünüzmü, əfəndim! Bu şişədən bir hissə dərya dovşanının qanından götürüb it küçüyünün qanının bir hissəsi ilə qarışdıracağam.

– Əfəndim, hərgah sizin üçün təfavüt yox isə, təvəqqe edirəm dərya dovşanının qanından çox götürəsiniz. Mən xahiş edirəm.

– Zərər yoxdur, əfəndim. İstədiyiniz kimi edərəm. Bu sözlərdən sonra professor qanları qarışdırıb dedi:

– Görürsünüzmü əfəndim, nə gözəl rəngdə maye bir dərman oldu!

– Bəli, çox gözəl! Adam içmək istəyir!

– İçsəniz bu dərmanın əsərini görməzsiniz. Bunu indi mən əlimdəki iynə ilə qanınıza gərəkdir vuram. Bir santimetr mükəəb olsa kifayət edər.

– Nə söyləyirsiniz, əfəndim! Bir santimetr! Siz yoxsa istehsa ilə buyurursunuz? Xeyr, əfəndim, nə qədər artıq olsa, yaxşıdır.

Mən kəndi bədənimi bilirəm, qüvvətim çox azdır. Artırınız, əfəndim, artırınız!

– Böylə olan surətdə bir hissə də artıracağam.

– Xeyr, əfəndim, bir hissə azdır, mən bədənimi yaxşı bilirəm. Təvəqqe edirəm yeddi santimetrədək bu dərmandan mənim bədənimə daxil edəsiniz.

– Vay, mən onsuz da dərmanın qədərini artırmışdım. İndi siz yeddi santimetr istəyirsiniz, qorxmayırsınızmı?

– Xeyr əfəndim, nə qədər çox olsa o qədər yaxşı deyilmi? Bəlkə tez cavanlaşam:

– Professor bir söz söyləməyib altı santimetr qədərində haman dərmandan Markizin bədəninə iynə ilə daxil edib dedi:

– Sabah bədəninizdə hərarət hiss olunacaqdır və getdikcə yavaş-yavaş cavanlaşacaqsınız...

Markiz çox razılıq edib getdi. Sabahı yuxudan oyanıb pəncərəni açdı, çünki bir az isti idi. Sonra qüvvətini sınamaq üçün bir stolu (masanı) əli ilə götürdü. Gördü həqiqət, gücü artırıbdır. Ondan sonra əlinə qələm aldı. Bir ay bundan müqəddəm fikrindəki şeyi qələmə gətirə bilməyirdi. İndi haman fikrini bir neçə saatın ərzində yazıb tamam etdi... Nahar vaxtı araya gəldi. Markiz qeyri xörəklərə baxmayıb qarnını yemişlər ilə doldurdu... Bir neçə gün paltarını düzəldir idi. Cavana layiq paltarlar alır idi. Çox vaxt aynanın qabağında durub da özünə, paltarına sığal verir idi. Evdən çıxanda





yerişini cavanların yerişinə oxşadır idi... Dükanlardan yemiş alıb yolda gedə-gedə yeyir idi. Markiz qocalıqda bir cavan Liliya adlı qıza məhəbbət bağlamış idi. Ancaq qocalığına görə cürət edib izhari-məhəbbət edə bilməyir idi.

İndi haman yar yadına düşüb. Gedir ki, vüsali-canana nail olsun. Qızın qapısına gəlir. Bunun müqabilinə qızın qulluqçusu çıxır. Qulluqçu: — Nə istəyirsiniz? — deyə sorur. Markiz özünü nəinki cavan, hətta balaca bir tifil dərəcəsində cavanlaşmış hesab etdiyindən qulluqçuya deyir ki:

– Mən Liliya xalamı istəyirəm... mənə oynamaq üçün oyuncaqlar verəcəkdir. Mənim xalamı çağırınız. Tez-tez! Oynamağımın vaxtı keçir...

Bu sözləri deyib Markiz uşaq kimi burnunu qurdalayır... Qulluqçu bunu görüb də qəh-qəh edir...

– Gedınız əfəndim! Mənim xanımımın uşaqlar ilə işi yoxdur. Gediniz, inşallah böyük adam olanda gələrsiniz...

Markiz bu sözləri eşidib dedi:

– Yaxşı, mən göstərərəm. Gedib anama şikayət edəcəyəm...

Markiz bu sözləri deyib küçəyə çıxdı, ətrafına baxıb ucadan ağladı. Balaca bir uşaq kimi yolunu guya itirib bilməyirdi nerəyə getsin. Qorodovoy bunu görüb sordu:

– Nerədə olursan, balaca uşaq?

Markiz cavab verir:

– Baba! Mama! Qağa! Lulu!

– Ah, biçarə, sahibsiz uşaqlar! Nə səbəbə «bunları» küçəyə qoyurlar...

Bu sözləri qorodovoy fikrindən keçirirkən balaca Markizin əlindən tutub polisiyə apardı...

Cavanlaşmağa həvəsləri olan qoca qarılərimiz bu hekayənin nəticəsini bilmək istəyirdilərsə, rica edirəm ki, bir az səbir və təhəmmül göstərib gələcək həftəyə qədər gözləsinlər!...

********

«Ah, **biçarə,** sahibsiz uşaqlar! Nə səbəbə **«bunları»** küçəyə qoyurlar?..» **Bu** sözləri qorodovoy fikrindən **keçirərkən**, «balaca»

Markizin əlindən tutub polisiyə apardı,.. Keçən felyetonu bu sözlərlə qurtardım. Cavanlaşmaq həvəsi olan qoca tarelərimizdən təvəqqe etdim ki, hekayənin nəticəsini bilmək istəyənlər bir az səbir etsinlər.

İştə siz də səbr ediniz. İndi cavanlaşmış Markizin başına nə gəlməyini bilmək istəyirsiniz... Ah, qoca əfəndim! Nə söyləyim, özünüz bir yaxşı fikir ediniz... Altmış-yetmiş sinində qoca kişi bu gün gözünüzün qabağında küçəyə çıxa, «Mən Liliya xalamın yanına oyuncaq almağa gedirəm. Məni sən incitmə, yoxsa gedib anama şikayət edərəm. Mən yolumu itirmişəm», deyib küçənin ortasında ağlaya-ağlaya: «Mama, Papa, Qağa, Lulu!» deyə, belə bir qoca kişiyə siz nə tövr baxacaqsınız?

Divanə deyib də ondan qaçacaqsınız, bələmi, əfəndim? Lakin qorodovoy haman «tifil» qoca qeyrilərinə əziyyət yetirməsin deyə əlindən tutub polisiyə aparacaqdır.

Polisə isə Erməni kəndində olan azarxanaya (dəlixanaya-H.Ə) göndərəcəkdir...

– Ah, qoca əfəndim, dərdinizə əlac tapılmayır. Cavan olmaq çox istəyirsiniz, lakin mümkün deyil, əfəndim!

«Gər qara daşı qızıl qan ilə əlvan edəsən. Rəngi təğyir tapıb, ləli-bədəxşan olmaz».

Solmuş gülü diriltməkmi olar? Köksüz ağacı becərməkmi olar? Yox, əfəndim, bu məsələlərdə dəhrə ilə müharibəyə çıxmaq olmaz... Sizin üçün keçən günlər vaqiə olacaqdır. Bir də o günləri görməyəcəksiniz... Gördükləriniz kefləri edə bilməyəcəksiniz...

Cavanlaşmağa həvəsiniz çox da artıq olsa, Markizin gününə düşəcəksiniz.

Yox, zəngin qoca əfəndim! Bu «xəyal-plovdan» əlinizi üzünüz. Bir qeyri fikirdə bulunmağınızı rica ediriz. Gedən günlərdən heyfislənməmək. Cavan olmaqdan muradınız nədir? Tutalım ki, indi cavan oldunuz. Cavan olub da həmişə bu cavanlıqda istəyəsiniz! Beləmi? Yəni həmişə baqi qalmaq istəyəcəksiniz... bədəniniz ləzzət çəkmək istəyəcəkdir. Fəqət, görürsünüz, bədən rüzgarın sədəmələrinə davam etməyir. Puç olur; haman ləzzət çəkən bədən axırda həşərata nəsib olur. Bir yaxşı fikir ediniz! Nə aləmdir! Dünən cəmi dünyanı kəndi ixtiyarına almaq istəyən bədən indi üç arşın bizə kifayət edir, dünən əlvan parçalar, qızıl-gümüş, qaş-daş ilə bəzənən bədən indi üç arşın bezə bürünmüş, dünən ən heybətli heyvanları əlində qul edən bədən, indi özü balaca qurdlara yem olmuş! Dünən





nazü-niyaz ilə bəslənən, uğrunda malü-mülk, din və iman, millət, insaniyyət fəda edilən bədən, bu gün bir hala gəlmiş ki, əl sürtməkdən çəkinirsən, iyrənirsən!.. Əlin dəysə, gərək bir neçə dəfə sabun ilə yuyub təmizləyəsən!..

Bundan daha fəna, mənasız şey olarmı? Birdəmi başınızdakı yüz min qara yazıları, yüz min fikirləri diriltmək istəyirsiniz? Yenədəmi kəndinizi yüz min dərə-təpələrə, yüz min quyulara, girdablara, açılmaz düyümlərə, rüzgarın yüz min oxlarına mübtəla etmək istəyirsiniz? Yenədəmi gündə min dəfə nəfəsinizi satmağa, pərvanə kimi odlara yandırmağa, saatda dəfəat ilə ölüb-dirilməyə, tək bir nəfs üçün min nəfsi puç etməyə, vicdanımıza minlərcə ləkə salmağa çalışırsınız?!... Bundan, bundan ötrümü cavanlaşmaq istəyirsiniz? Yoxsa bir «ali» fikirdən ötrü. Yoxsa sizə peşmanlıq üz verir?

Həyatınızın axırda puç olmadığını, özünüzdən sonra bir nişangah qalmamağını, adınızın biləmərrə pozulmağını indi düşünüb də səhvinizi düzəltmək istəyirsiniz? Fəqət nə ilə? Nəyin vasitəsilə? Paraxodlara malik olmaqlamı, zavodlar, saraylar, kaşanələr bina etməkləmi? Ya əllərindən miras yeməkdən başqa bir şey gəlməz övladları tərk etməkləmi adınızı baqi qoymaq istəyirsiniz? Bir oğul ki, onun səbəbinə qumarxanalarda, qastinlərdə, meyxanalarda qatillər, mütriblər, «məşhur» arvadlar məclislərində adınız çəkiləcəkdir! Bundan ötrümü «novruzu» geri qaytarmaq istəyirsiniz? Bundan ötrümü həyatınızı təzələməyə ciddü-cəhd edirsiniz? Ah, biçarə zəngin qocalar!

Markizlər! Bu murad ilə «təzədən dünyaya gəlmək» istəyirsiniz isə, istəməyiniz! Bir bədən ləzzətindən, məxsusi nəfsinizdən ötrü isə vay sizin halınıza! Bədənin yoldaşı ruhu biləmərrə unudursunuzmu? Unutmayırsınız isə, ruhunuza yem aramaq istəyirsinizsə cavanlaşmağa ehtiyacınız yoxdur, əfəndim! Bədəninizin puç olmağına bir gün, bir saat qalmış da ruhunuza ləzzət verə bilərsiniz. Adınızı dillərdə baqi qoyarsınız, yetmiş ilin ərzində etdiyiniz xətaları düzəldərsiniz,.. Vasitəmi soruşursunuz?

Vasitə çoxdur əfəndim! Lakin sizə, əqidənizə, sinninizə münasib vasitə söyləməyəcəyiz. Sizə deməyəcəyiz: bir qız məktəbi açınız, millətə tərbiyəli, məlumatlı qızlar, analar hazırlayınız, çünki uşaqlarımızın tərbiyəsizliyindən atalarımız, analarımız qanlı yaşlar tökürlər. Onların tərbiyəsizliyindən əcnəbilərə gülünc olmuşuq...

Sizə deməyəcəyiz: darülfünunlar açınız. Çünki ümumi vətən, millət işlərində elmsizlik bizi ayaq altına verir. Sevdiyiniz dinməzhəb hamisiz qalır... Sizə deməyəcəyiz: hal-hazırda hürriyyətə çalışınız, hürriyyətpərəstləri dost tutunuz, onlara kömək ediniz, çünki onlardır əsil insaniyyətə yol açanlar, onlardır millətləri, məzhəbləri, bir-birlərinə yavıqlaşdıranlar. Onlardır fəqirlərin, kasıbların pərəstarı, onlardır möhürlü ağızları açanlar, paslanmış ağıllara seyqəl verənlər, ixtiyarsızlara ixtiyar verənlər, qulları azad edənlər, ədaləti meydana gətirib zülmü puç edənlər. Bunlardır yüz illər gizli-gizli bizə quyu qazanları indi aşkar edənlər. Kor gözlərimizi açanlar, kar qulaqlarımızı dələnlər. Dərdlərimizi göstərənlər. Fəryadımızı eşidənlər...

Yox, əfəndim! Bu barədə də söyləməyəcəyiz. Vaxtınız keçibdir... Həmçinin söyləməyəcəyiz: yetim, oxuyan uşaqlara kömək ediniz. Darülfünunlarda həftələr ilə ac qalan tələbələrə rəhm ediniz, çünki gələcəkdə bunlardır qələm müharibəsində qabaqda durub düşmənə cavab verənlər, bunlardır dininizə, dilinizə böhtan deyənlərin kizblərini üzlərinə vuranlar, bunlardır millətə, vətənə dair məsələlərinizi layiqincə həll edib asana çıxaranlar... Yox, bunu da sizdən tələb etməyəcəyiz: bu məsələ də cüzidir. İstədiyiniz «şan və şövkəti» bununla qazana bilməyəcəksiniz... Bir ya iki yetim, fəqir uşağı oxutmaq ilə istədiyiniz «adı» qazana bilməyəcəksiniz, fikir edirsiniz: biz filan uşağı oxutduq, qurtartı. Onun alnında yazılmayıbdır ki, bunu filan hacı, filan tacir oxudubdur. Bir dəfə qəzetdə yazmaq ilə bizə kifayət etməyir...

Ha beləmi əfəndim?! Belədirsə, həmişəlik yetimlər üçün bir məktəb açınız, aldığınız prosentlərin cüzi bir hissəsini bu xeyir işə vəqf ediniz, bir uşaq yox, minlərcə uşaqları xoşbəxt ediniz. Minlərcə ata-analarımızı qazamatların, sudların qapılarından çəkindiriniz, saldatların ürəyə dağ çəkən sözlərindən xilas ediniz... Həm həyatınızda, həm həyatınız puç olandan sonra adınız söylənəcəkdir. Ruhunuz təzə qalıb cavanlaşacaqdır... siz bina etdiyiniz məktəbdən tərbiyə alıb qurtaran uşaqlardan xeyirli işlərin, yaxşı əməllərin sadir olduğunu atalarımız, analarımız gördükcə sizləri yada salıb rəhmət oxuyacaqlar...

Bəlkə bu xeyir iş də sizin ürəyinizdə yer tapmayır. Ağlınız, əqidəniz ilə sağdış etməyir. Fikir edirsiniz: elm dünya üçündür, doğru, məktəbin həmişəliyi məni, adımı baqi qoyacaqdır, lakin orada oxuyan uşaqlar elm təhsil edib kəndi dünya mənfəətləri üçün çalışacaqdır.





Dünya elmlərini oxuyub, kim bilir nə əqidədə olacaqdır?.. Mənim axirətimə nə mənfəət?

Böylə isə, buyurunuz, əfəndim! Bir nicat yolu da göstərmək istəyiriz: siz dininizi, məzhəbinizi sevənlərdənsiniz... İnsan qocalanda dinpərəst olar... Cavanlıqda buraxdığı namazları qəza qılar, yediyi orucları tutar. Dininizə rövnəq vermək istəyirsiniz... Dinə rövnəq verənləri dost tutursunuz... Belə isə ruhanilər üçün bir məktəb açmağınızı gözləyiriz. Oxuyursunuz, görürsünüz: hal-hazırda ruhanilərimiz zəmanənin təqazasına hazır deyillər. Xətaları, səhvləri çox, məlumatları az. Qeyrətləri var isə də «əllərində olan yaraq» koşdur, kəsmir... İndi bunlar üçün bir məktəb, duxovnı seminariya açıb zəmanənin təqazası ilə tərbiyə verməyə, elm kəsb etdirməyə sözünüz nədir? Bunlar dininizə rövnəq verən deyillərmi? Axirətinizə dair məsələləri həll edən bunlar deyillərmi? Xeyrinizdə, şərinizdə, məclislərin başında oturanlar, diri ikən sizə tul ömür istəyənlər, öləndən sonra namazınızı qalıb rəhmət oxuyanlar bunlar deyilmi? Əcaba! Belə şəxslərə kömək etməyəndə, belə şəxsləri elmin gücü ilə ucaltmayanda bunların qəlblərinə, ağılları ilə qüvvət verib dinin rövnəqi üçün bu vaxtadək qəsdən pünhanda saxlanan nöqtələri, düyümləri açmaq üçün pul xərc etməyəndə nerədə xərc edəcəksiniz, yoxsa fikir edirsiniz burada oxuyan ruhanilərimiz sizin «ağlınıza» görə «müqəddəs» ola bilməzlər?...

Ah, zəngin, qoca oxucuların! Başınızı aşağı salıb da nə fikir edirsiniz? Yoxsa yenə də bir qeyri nicat yolu istəyirsiniz? Nə etmək, mən sizin qulluğunuzda durmuşam. Bildiyim, anladığım məsələləri araya gətirəcəyəm. Sizin əqidənizə müvafiq bir nicat yolu da gətirəcəyəm. Sizin əqidənizə müvafiq bir nicat yolu da göstərəcəyəm. Lakin söyləmək ilə, yazmaq ilə ürəyimdə olan şeyi desəm də sizin ürəyinizi yumşalda bilməyəcəyəm. Gərəkdir sizin əlinizdən tutub bir yerdə seyr edək, qaranlıq, nəmli zirzəmiləri, padvalları gəzib orada yarımcanları, can verənləri göstərəm: biçarə, sahibsiz, beş balaca yetim sahibi arvad quru yerdə uzanıb, başının altında balış yerinə əski-üsküdən toplanmış düyünçə! Qızdırmanın, baş ağrısının hərarətindən balıq kimi çabalayır; əllərini yerdən-yerə vurub qabıq qoymuş dilini çıxarır. Çatlamış dodaqlarını sorur... Amandır, balalarım, bir qaşıq su, su deyib gözlərini yetimlərə sizdürür. Dilli balalar isə «ana, suyumuz yoxdur» deyib, boyunları buruq cavab verirlər... Dilsizlər hərə bir küncdən palçığa bulanmış, aclarından nalə edirlər... Yarımcan arvad

balalarından utanıb daha su istəməyir. Üzünü əli ilə tutub gözlərindən qanlı yaşlar tökür... Sonra əllərini dayaq verib sümükləri dəridən görünən cəmdəyini yarımqiblə edir... Bunu görüb də deyəcəksiniz: allahı sevərsiniz, məni xilas ediniz. «Tamaşa» üçün qeyri padvala, zirzəmiyə daha getməyirəm... Nə istəyirsiniz məndən alınız, buraxınız məni... Mənim böylə əhvalatları görməyə ürəyim yoxdur. Bu danışıqda qeyri zirzəmidən yenə də «Çörək! Su!» sədası gəlir...

Ah, qoca, zəngin qardaş, imarətinizə, xalılar ilə döşənmiş otağınıza, tövrbətovr xörəklər ilə zinət tapmış süfrənizə, xörəkdən sonra iskəncəbi ilə buzlu su içməyə və sonra qəlyan xoruldadıb qu tükü balışlarda rahat olmağa nə tez qaçırsınız? Hələ belə zirzəmilərdə can verənlərin mindən birini görüb ürəyiniz xarab oldu. Hamısını görsəydiniz Markiz kimi qorodovoya nəsib olardınız...

İndi yenədəmi bir söz tapacaqsınız? Yenədəmi qan ilə dolmuş ürəyinizi daş etmək istəyəcəksiniz? Yenədəmi bir səbəb tapıb qeyri nicat yolu arayacaqsınız? Araya-araya nicat yolu tapmayıb o dünyaya köçməyinizdən qorxuram.

Yox, əfəndim, vaxtı fövt etməyəcəyiz. Susuzluqdan dodaqları çatlayanlara, yüngül mərəzə mübtəla olmuş, yersizlikdən, quru çörəksizlikdən, vaxtsız ölüb yetimləri başıçıq, ayaqyalın küçələrə salanlara bir xəstəxana, bir darülxeyrat təamxanası bina etməkdən baş qaçırdıb da, yenədəmi «millət», «insaniyyət» sözlərini ağzınıza alıb çeynəyəcəksiniz?

İştə bu sözlər də sizin əqidəniz ilə düz gəlməsə, eşitdiyiniz əhvalat daş olan ürəyinizi yumşaltmasa, mən də sizin barənizdə daha bir də felyeton yazmayacağam. Buna siz şad olursunuz. Fikir edirsiniz: «bizim də istədiyimiz budur ki, bizi rahat qoyasınız, bizim barəmizdə heç bir şey yazmayasınız».

Biz sizi rahat qoyduq... Əcəba! Vicdanınız sizi rahat qoyacaqmı?





**Mühüm bir məsələ**
**Qori seminariyası nerədə olmalı?**

«Camaatımız kimdir? Qulaq asan kimdir?»

Bu suallara diqqət edib də dərin-dərin fikirlərə düşürüz. Nə yaman halət, nə yaman ruzgar! Əcnəbilər qəzetələrimizi oxuyub işlərimizə baxsalar fikir edərlər: bu millət ya zamanın təqazasına hazır deyil, yainki oxuduğunu anlamır, yoxsa səbəb nə olmalı? Bundan çox bağırmaq, bundan çox yazmaq olarmı? Bundan da bədtər xabi-qəflətdə qalmaq, bundan da bədtər kor və kar olub himmətsizlik olarmı?

İndi ən mühüm məsələlərdən birini həll etmək istəyiriz. İndi bu məsələyə də camaat qulaq asmasa təklifimiz nədir? Karlara daha ziyadə bağırmaqmı? Korlara işlərimizin fənalığını göstərmək üçün daha ziyadə işıq verməkmi? Yoxsa qələmi atıb «ah, cəhənnəmə, millətin aqibəti nə olacaqsa-olsun!» deyib də sakit olmaqmı?

Yox, əfəndim! Hər halda sakit olmayacağız, mümkün olan qədər onun işığı ilə zülmətdən xilas olaq, nadanlığın kəməndindən özümüzü qurtaraq... Bəlkə biz də insaniyyət nə olmağını və əsası nədən ibarət bulunduğunu düşünüb özümüz, bilzat, özümüz, yavaş-yavaş hərəkət edək...

«Özümüz» sözünə diqqət etməlidir... dərdlərimizin nisfinə səbəb «qeyrilərinə» ümid bağlamağımız olubdur demiş olursaq, böyük səhv etməriz, zənn edirəm. Həqiqət, bir yaxşı fikir ediniz: yüz ildən ziyadə çar Rusiyasına tabe olmuş hankı dərdimizə bir yerə yığılıb əlac axtarmışıq? Hankı mühüm məsələlərimizi həll edib də onun dalınca getmişik? Hansı məsələnin meydana gəlməsini dövlətdən tələb etmişik? Hankı ümum millətə dair işin üstə qazamatlara düşmüşük, canımızdan, malımızdan keçmişik? Bunlar heç biri olmayıbdır... Lakin cilovumuzu dövlətə, daha doğrusu, mən dövlət qulluqçusuyam deyənlərə verib bəxtimizi onlara tapşırmışıq, nerəyə sürüblər getmişik, nasıl rəftar ediblər şükürlər etmişik... Hətta aşkara zərərimiz olan əmrlərin, fellərin intişar tapmağına özümüz kömək etmişik. [...] İyirmi il bundan müqəddəm dövlət qoşunlarımızın, milli camaatın ianəsinə açılan məktəbləri qapadı, çünki həmin məktəblərdə ana dili təlim edirdilər... Bəli, dövlət erməni milli məktəblərini qapadı. Erməni camaatı boyunlarını əyib dövlət açan məktəblərə

uşaqlarını verdilərmi? Yoxsa bir qeyri yol ilə hərəkət etməyə başladılar? Bunlar dövlətin politikasını anlayıb başlarına çarə aradılar. Camaatın qeyrəti daha ziyadə artıb uşaqlarına evdə dərs verirdilər. Məktəblərdə qulluq edən müəllimlər indi evlərdə dərs verib əvvəlkindən `də artıq məvacib alırdılar. Getdikcə məktəblərin qapanmağına görə müəllimlərin ədədi azalmaqdansa, dəxi də artır idi...

Dövlət səhvini düşündü, gördü zor ilə milləti dilindən ayırmaq mümkün deyil. Qapanmış məktəblərin açılmasına izin verdi. Məktəblərin, müəllimlərin ədədi daha ziyadələndi. Yəqin ki, camaat uşaqlarını evdə oxutmasaydı, nə dövlət təzədən məktəblərin açılmağına izin verərdi, nə də kasıb erməni dili bu az vaxtda tərəqqi tapıb bugünkü ədəbiyyatına nail olardı; bu yolda bizim camaat nə iş gördü? [...] Dövlət bizim «milli» məktəblərə ibtida diqqət etdi. Onları da bağlamaq istədi, lakin bu məktəblərin proqramlarını, üsulunu düşünüb onların artmağına da mane olmadı. Aşkar gördü ki, bu məktəblər milləti diriltməkdənsə, öldürəcəkdir.

Bugünədək millətin balalarını kor edən, hər şeydən avara salan, vaxtlarını əbəs yerə puç edən məktəblərimiz nəinki kəndlərdə, hətta şəhərlərdə, məktəb direktorları, inspektorları olan mərkəzlərdə də göbələk kimi artmaqdadır. Camaat özü bu məktəbləri qapamasa, dövlət işə qarışmayacaqdır...

Dövlət bu məktəbləri başına qoyub rus dilində çörək görənlərin imdadına yetişdi. Kəndlərdə, şəhərlərdə camaatın xərcinə məktəblər açıb həftədə [...] bir-iki dərs də, xala xatirin qalmasın, türk dili və şəriət dərsləri verilir idi və indiyədək verilir.

«Qanacaqlı» çamaatımız bu məktəblərin açılmağına şad olub «dövlət nə gözəl pərəstdarlıq edir» deyirdi. Daha bunu anlamırdı ki, dövlətə verdiyi xərclərin içində bu məktəblərin xərcini öz cibindən verirdi. Ancaq pul xəzinədən gəlməyə görə dövlətə pərəstar deyib şükürlər edirdi... Lakin «hanki dildən və nə tövr dərs verilir» məsələsi ilə camaatın işi yox idi və yoxdur... Nə borcumuz! Dövlət özü məktəb açıb özü də bildiyi qayda ilə aparacaqdır. İnsafən, dövlət məktəblərində üsuli-cədid ilə dərs verilir. Yuxarıda zikr olundu: həftədə [...] bir dəfə ana dilindən dərs verilirdi.

Nə etmək, camaatın xahişidir, dövlət də ona «pərəstdarlıq» edir. Camaat öz dilinə həqarətlə baxanda və dövlət sonradan tabe olan





millətləri «ruslaşdırmaq» istəyəndə bu tövr məktəblərin çoxalmağını, bu tövr proqramların baqi qalmağını dövlət istəməyəcəkmi?

*******

Qori seminariyasında türk dili və şəriət dərsində dövlətin politikasını gördünüz. Lakin nə səbəbə dövlət müsəlman şöbəsini İrəvan seminariyasında açmayıb, Qori seminariyasında açmağına diqqət etdinizmi? Qori əhalisi gürcüdən, ermənidən ibarət balaca bir şəhərdir. Bu şəhər Tiflisdən üç saat dəmir yolu ilə şimala tərəf olarkən, o vaxtadək Qafqaz müsəlmanlarından bir fərd orada həmişəlik məskən etməyibdir, yəni demək istəyiriz beş, on «quyu» qazan iranlıdan başqa müsəlman tapılmaz.

Belə bir şəhərdə dövlət tərəfindən müsəlman şöbəsini açmaq, türk və şəriət dərslərini mürur ilə mənasız bir şey hesab etmək nəyə dəlalət edir?

27 ilin ərzində biz camaat bunu anlamadıq, gənə də anlamazdıq. 28 il də bu´sayaq gedərdi. Lakin qeyrilərin qeyrət, hümmət, həmiyyətləri, qoşunların hüriyyət yolunda qan tökmələri, cəmi Rusiya baş qaldırıb yüz illərlə buxovda olan əllərini, ayaqlarını azad edib möhürlü ağızlarını açmaqları bizə də xoşbəxtlik gətirdi. Biz kərpici kərpic üstə qoymadıq, lakin qeyrilərin səbəbinə bizim üçün bir divar hörüldü. Dövlət naçar qalıb ermənilərin, gürcülərin və qeyri hürriyyət yolunda işləyənlərin tələblərinə görə əməl edir. Yüz illərlə ixtiyarını itirmiş, indi zor ilə hərəkət edən millətlərə yavaş-yavaş ixtiyar verir. Hər millətin ana dili uşaqlar üçün vacib olub məktəblərdə oxunur. Bizim camaat bunları görüb yenə də lal və kar qalmış, axırda dövlət özü qafqazlılar üçün ümumi qanun düzəldib dedi: qeyri millətlərə verilən ixtiyar siz müsəlmanlara da verilir. Bacarırsınız isə siz də öz başınıza çarə qılınız. Bu fikir ilə türk dilini müsəlman müəllimlərinə vacib bildi, qəza şəriəti də vacib bildi. Qori seminariyasında müsəlman şöbəsində məşhur qeyrətli, həmiyyətli mühərrirlərimizdən Soltan Məcid Qənizadəni inspektor təyin etdi (bu, dövlət tərəfindən heç görünməyən, gözlənilməyən hərəkət!), axırda seminariyanın, Qori seminariyasının bir qeyri müsəlman şəhərinə köçmək məsələsini araya gətirdi. İki ilin ərzində müsəlmanlar barəsində belə-belə etdiyi səhvin indi düzəlməyinə çalışdı...

Lakin kəndi xahişiləmi?

Xeyr, zəmanə tələb etdi. Ana dilini bu vaxtadək lazım bilməyib onun yox olmasına çalışan dövləti bir qanlı hürriyyət indi vadar edir ki, ana dilini qeyri dillər kimi uşaqlara vacib bilsin...

Bu günlərdə Duma «təlimi-ümumi-külli» qanununu elan edəcəkdir, hamı kəndlərdə, şəhərlərdə milli məktəblər açılacaqdır. Uşaqlara üsuli-cədid üzrə ana dili təlim olunacaqdır... Fəqət bu dili təlim edən müəllimləri nerədən gözləməliyiz? Əlbəttə, Qori seminariyasında indi tutalım ki, Qori darülmüəllimin əvvəlki proqrammasını dəyişib zəmanənin təqazına binaən proqramına düzəldir. Türk dili və şəriət ürəyimiz istəyən kimi təlim olunur, buna kifayət edib seminariyanı yenə də Qori şəhərində qoymaq olarmı?

Bizim təsəvvürümüzcə, proqrammaya təğyir verilsə, yəni türk dili və şəriət biz istədiyimiz kimi təlim olunsa, seminariya Qoridə qalmağına razı olmaq olar, çünki haman seminariyada müsəlmanlardan savayı gürcülər, ermənilər, ruslar və qeyri tayfalar oxuyurlar...

Böylə olan surətdə dövlətə lazım gəlir müsəlman şəhərlərinin birində daha bir seminariya açsın. Açıq söyləməli: biz seminariyadan nə gözləyiriz? Biz istəyiriz əvvəla seminariya qurtaran müəllimlərimiz kəndi dilini, ədəbiyyatını layiqincə bilib, ibtidai məktəblərimizdə oxuyan uşaqlara zəmanənin təqazcasına təlim versinlər, millət və vətən üçün tərbiyəli, məlumatlı balalar hazırlasınlar... İkinci, seminariyadan dərdimizə tez əlac olmağını gözləyiriz, yəni bu vaxtadək seminariya ildə on kurs qurtarmış müəllim verir idisə, indi ildə əqəllən qırx müəllim verməlidir. Vətənimizdə «təlim-ümumi» qanununu verilir isə ildə yüz müəllim də az olacaqdır.

Tutalım ki, Qori seminariyası proqramına təğyir verib əvvəlinci qüsurumuzu düzəltdi. Yəni ibtidai məktəblərimiz üçün layiqli müəllimlər verdi, lakin ikinci qüsurumuza,, yəni müəllimlərimizin ədədini artırmağa əlac edəcəkmi, əlbəttə yox! Qori seminariyasında oxuyan müsəlman uşaqları pansiona qəbul olunurlar, həmin pansiona qırx-əlli nəfərdən artıq uşaq olamaz. Hər bir pansionda qırx-əlli nəfər uşaq təlim taparsa, bunlardan ildə onu da qurtarsa şükür etməli, halbuki təxminən ildə 6 və 7 müəllim kurs qurtarır, ildə 6 və 7 müəllim bu vaxtadək bəs etmirdi. Hal-hazırda kənd məktəblərimiz müəllimsizlikən qapanır, bundan sonra daha yaman halda bulunmağımız aşkardır...





Xülasə, müəllimlərin ədədini artırmaq üçün iki-üç seminariya gərəkdir açılsın. Dövlət isə hal-hazırda üç yox ki, birini də açmayacaqdır. Qori seminariyasının ildə 6 və 7 müəllimdən artıq buraxmağa mümkünü olmayacaqdır.

Böylə olan surətdə Qori seminariyasını bir qeyri (başqa-H.Ə) müsəlman mərkəzi olan şəhərə köçürtmək lazım gəlir. Yuxarıda zikr olundu ki, Qori seminariyasına 60 şagirddən artıq qəbul olunmur və yenə söylədik ki, Qoridə həmişəlik sakin olan müsəlman yoxdur. Müsəlman olmayan surətdə kənardan gəlib oxuyan da olmayacaqdır. Açıq deməli, Qori müəllimin Bakıda ya Gəncədə və ya bir qeyri müsəlman şəhərində olsa, padşahlıq xərcini oxuyan altmış nəfərdən savayı altmış nəfər müsəlman uşağı da daha ziyada öz evlərində olarkən seminariyadan elm təhsil etməyə mümkünləri olacaqdır. Yəni gündüzlər padşahlıq xərcinə oxuyan uşaqlar ilə bərpabər dərs oxuyub axşamlar öz evlərinə gedərlər...

Seminariyanın müsəlman mərkəzində olmağı qeyri məsələlərdə də müsəlmanlara da böyük mənfəət gətirər...Lakin burada müəlllimlərin ədədi artmaq məsələsini ümdə bilib hələ bu barədə bəhs etməyi vacib bildik.

İndi üzümüzü müsəlman şəhərlərinə tutub deyiriz: dövlət Qori seminariyasının müsəlman mərkəzinə keçməyinə razı olubdur. Fəqət müsəlman camaatında qeyrət, hümmət, həmiyyət gözləyiriz... Şəhər Dumalarının üzvləri bu məsələyə artıq gərəkdir diqqət etsinlər, kəndi təsəvvürlərini Dumalarda söyləyib bu məsələnin tez həll olunmağını tələb etməli, dövlətin müqabilinə çıxıb göstərməli ki, biz də müəllimlərin artmasını istəyiriz, biz də dərdimizin əlacını arayırız. Biz də, gec də olmuş olsa, xabi-qəflətdən ayılıb qonşular iyirmi-otuz il bundan müqəddəm gördükləri işi indii görmək istəyiriz...

Hal-hazırda bu məsələyə daha artıq diqqət etməlidir.

İndi Rusiyada hamı millətlər dərya misal bir hürriyyət əmvacinə düçar olublar. Üzmək bilənlər həmin mövcələrdən xilas olub kənara çıxacaqlar, üzmək bacarmayanlar ləpələrin arasında qalacaq əlləri hər yerdən üzülüb «dərya heyvanlarına»yem olacaqlar...

Mövcü girdabdan xilas olmaq, nəhənglər, timsahlar tərəfindən udulmamaq üçün mətn səhtinə bir gəmi lazımdır ki, o gəmi də camaatın özündən ibarətdir. Bu cür xətəmak, təhlükəli işlərdə bizi sahili-nicata çıxaracaq çarələr camaatın özündədir, vəssəlam.

Dövlət bir nöqtədə dayanıb, yəni «ruslaşdırmaq» politikasına müvafiq hərəkət edir.

Bu məqsədlə seminariyalar, yəni müəllimlər hazırlmaqdan ötrü darülmüəllimin açır. İrəvanda, Xunidə, Qoridə açılmış seminariyalar bu məqsədlə açılıbdır. Bu seminariyaların gözə çarpanı, xüsusən müsəlmanlar üçün Qori seminariyasıdır. Çünki burada müsəlmanlar üçün ayrı bir şöbə açılıbdır, altmış nəfərə binaət burada pansion var. Altmış nəfər müsəlman balaları burada «padşahlıq» xərcinə oxuyurlar. Vaxt var idi bu cavanları şəhərbəşəhər gəzib pula yığırdılar, yəni yol pulunadək xəzinədən verilir idi. Əlbəttə, bu bir zamanadək idi. Vaxta ki, müsəlmanlar öyrəşdilər, daha yol xərci verilmədi. İndi o qədər istəyən var ki, illik pulunu verib oraya çətinlik ilə qəbul olunurlar.

Qori seminariyası 1876-cı ildə açılıbdır. Müsəlman şöbəsi üç il keçmiş bina olunubdur. Deməli, 27 ilin ərzində bu seminariya bizim kənd və şəhər ibtidai məktəblərinə müəllimlər hazırlayıbdır. İndi Bakıda gördüyünüz rus-müsəlman məktəblərinin müəllimləri, Qafqazın qeyri şəhərlərində, kəndlərində ibtidai məktəblərdə dərs verən müəllimlərin əksəri orada tərbiyə alıblar.

Seminariyanın proqramması ibtidai məktəb müəlliminə cüzi məlumat verir. Lakin rus dilinə artıq diqqət olunur. Hamı dərslər, elmlər, rus dilində təlim olunur. Cüzi şəriətdən, türk dilindən dərs verilir idi, deyib də biz seminariyanın 16 il bundan müqəddəm halını nəzərə gətiririz. O vaxt indi üsuli-cədid ilə yazılmış «Vətən dili» kitabçasının müsənnifi – mütəvəffisi Çernyayevski müsəlman şöbəsinin naziri idi. Demək olar ki, onun vaxtında türk dilinə bir az diqqət olunur idi. Özü türk dilini öyrənməyə ciddi-cəhd edib haman dildə verilən dərslərə artıq diqqət edirdi. Türk dili və şəriət müəllimi indiki Şeyxülislam cənab Axund Molla Əbdülsəlam olub, orada tərbiyə alan müsəlman uşaqlarına böyük nəflər gətirirdi. Demək olur ki, indiki hala nisbətən Qori seminariyası, xüsusən müsvəlman şöbəsi böyük tərəqqidə bulunurdu. Cənab Axund Molla Əbdülsəlam türk dilinə və şəriət dərslərinə artıq diqqət edirdi. Dərslər az isə də, o, vaxtını itirməyib bacardığı qədər ciddi-cəhd edirdi. O vaxt təlim kitabları yox idi. Bununla bərabər, gecələr işləyib gündüz dərsləri üçün hekayələr düzəldirdi. Türk dilində sərf və nəhv öyrədirdi. [...] İnsaf məqamında demək olar ki, Qori seminariyasında elmini tamam





edib, indi millətpərəst və yainki əli qələm tutan beş-üç nəfər varsı, cənab Axund Molla Əbdülsəlamın tərbiyəsinə bağlıdır...

Bunun səyi bir tərəfdən, digər tərəfdən də Çernyayevskinin müsəlmanlar ilə xoş rəftarı uşaqlara şəriətdən və ana dilindən mümkün olan qədər qəza verməyə səbəb olur idi. Mütəvvili Çernyayevski cavanlıqdan müsəlmanların arasında tərbiyə tapıb, adətlərinə, şəriətlərinə aşına bir zat idi. Müsəlman balaları ilə mülayimliklə dolanırdı...

Halbuki seminariyanın direktoru Streletski buna zidd olub müsəlman şagirdlərinin ixtiyarını yavaş-yavaş məhv etməyə çalışırdı. Müsəlman balalarına qərib vilayətdə öz lisanlarına söhbət etməyi qadağan edirdi. Demək ki, cənab Streletski popeçitelin sağ əli olub, onun fikirlərini və dövlətin müsəlmanlar barəsində olan politikasını, yəni müsəlmanları «ruslaşdırmaq» fikrini işə verirdi...

Bu «politika» getdikcə artıb, 1892-ci ildən sonra ziyadə şiddət etdi. Bu ildən müsəlman şöbəsinə məşhur İlminskinin müdiri bulunan [...] missionerlərdən Smirnov inspektor təyin olundu.

Bu ildən bizim əqidəmiz ilə şöbənin tədənnü və tənəzzülü, dövlətin əqidəsi ilə onun «tərəqqisi» başlanıbdır.

Rusiya müsəlmanlarını xristian dininə dəvət etməkdə canını çürüdən İlminskini müridindən nə gözləməli idi?

Həftədə iki dəfə türk və şəriət dərsləri vacib olarkən, Smirnovun vaxtında getdikcə lazımsız dərslərdən hesab olunur idi. Cənab Axund Molla Əbdülsəlamdan sonra (iki il keçmiş) oraya təyin olan müəllimlər üzlərini yumşaq göstərib cənab Smirnovun əqidəsi ilə iş görməyə başlayırlar... Türk dili bilmərrə unudulur, axırda türk dilinə bir dərəcədə həqarətlə baxılır ki, orada təhsil edib kurs qurtaran müəllimlərimiz türk əlifbasını da bilmirlər.

Ən axırda türk lisanı seminariyada «ümumi» bir lisan olur: müsəlman uşaqlarının əvəzinə rus, gürcü, erməni, türk lisanı dərsində otururlar. Müsəlman müəllimlər isə rus, gürcü, erməni uşaqlarına türk lisanını təlim etməklə kifayət edirlər. Hərdənbir iki müsəlman uşağı dərsə gəlir isə, onlara da «vaxtlarını» sərf edirlər. Qalan uşaqlar türk dərsini, vaxtında nə iş görürlər, nəylə məşğuldurlar, nerədə oynayırlar, lazımsız bir məsəl olub diqqətə alınmırmış.

Tutalım azından on il Qori seminariyası bu halətdə bulunubdur. Bu on ilin ərzində Qori seminariyasında təxminən 100 müəllim ikmali-təhsil edib kurs qurtarıbdır desək, böyük səhv etməriz,

zənn edəriz. Bunlar kənd, şəhər ibtidai məktəblərdə müəllim olub, hankı lisanda dərs verməkləri aşkardır.

Ana dilinin ibtidai məktəblərdən qovulmağı, həmçinin bir on il də belə getsə idi, Aləmi-hürriyyət aralığa gəlməsəydi, türk balalarının halları nə tövr olardı? İlminskilər, Smirnovlar dövlətin politikasını pək gözəl yerinə yetirib, öz əlimizlə özümüzə quyu qazırmışlar. Camaatımız isə bunlara «pərəstar» deyib başına mürur ilə dəyən toppuzu, dəyənəyi hər tərəfdən qurulan toru anlamayırmış, görmürmüş. Görəsən görüb anlayandan sonra hərəkət etməməyinə səbəb nə olacaqdır?





## MÜƏLLİMLƏR İCTİMAINA DAİR

Həqiqət halda, bu diplomluların məqsudları nə idi?

Bunların məqsudları camaata özlərini hər bir elmdən xəbərdar qələmə verib, müəllimlərin üstə böyüklük edib amir olmaq idi; daha dürüstü, onları ortadan dəf edib özlərini camaata millətpərəst, millətin dərdinə dərmanşinas göstərmək idi.

Axırda məqsudlarına çatdılar. Camaati-zəmanəni əllərinə alıb nerəyə istədilərsə çəkdilər. Müəllimləri nəinki camaatdan kənar etdilər, hətta aralarına bir böyük nifaq salıb arada arxayınlıqla dəmgüzar olmağa başladılar.

Bu kompaniyanın müəllimlərə xidmətləri bir dərəcədə idi ki, sözləri qurtarıb hər yerdə hər növ ilə diplomdan dəm vururdular! İddia edirdilər ki, «ancaq biz cəmiyyətləri, məclisləri kənar məclislərinə görə bilirik, yaxşı paltar, kraxmal köynək geyməyə ancaq bizim ixtiyarımız var, müəllim nə, qolalı köynək nə! Xülasə, hər yol ilə müəllimləri camaatın nəzərində həqir göstərməyə çalışır idilər. Axırda min fənd ilə onların ittifaqını dağıtmağa müvəffəq oldular, lakin bunun əvəzində camaata quru boş sözlərdən başqa bir şey vermədilər...

Biçarə müəllimlər isə bir tərəfdən insafsız «böyüklərin» sədəmələrinə, digər tərəfdən dövlət qulluqçularının tərizlərinə düçar olub öz başlarını qorumağa başladılar. Bir neçəsi «böyüklərə» tabe oldusa da, bir neçəsi də olmadı. Nifaq getdikcə qüvvət tapıb axırda bir-birinin işlərindən xəbər tutmadılar. Hərə bir yol ilə hərəkət edib ancaq ciddü-cəhd edirdilər ki, boyunlarında olan təklifi yerinə yetirsinlər.

Axır vaxtadək bu minval üzrə hərəkət edirdilər. Fəqət zəmanə dəyişdi, təğyir tapdı. Möhürlü ağızlar açıldı, neçə illərlə bir-birinin üstə toplanmış dərdlər aşkar olmağa başladı. Camaatın və millətin dostu-düşməni kim olmağı məlum oldu, qara ağ yerinə, ağ qara yerinə daha işlənmədi. Camaatı düz yoldan azdıran «böyüklər» «quyruqlarını» gizlətdilər, sözləri məclislərdə camaat üçün daha qanun olmadı, niyyətləri, «planları» işə keçmədi. Keçmədiyi üçün tərəqqi yolu da təmizləndi, saf ürəkli, sadə təbiətli «bir para» adamların nəzərində «həqir» görünən, lakin millətin həqiqi dostları, camaatın səmimi xadimləri olan və hamı mədəniyyətli millətlərdə etibar və mərtəbələri artıq bulunan müəllimlərə yol açıldı. Bunlar ilə

camaatın arasında olan hail rəf olundu, bunlar indi camaatla üz-üzə rast gəlib demək istəyirlər: Ey camaat! Ey millət! Biz sizdən ötrü elm təhsil etmişik. Axırda bizləri dürlü-dürlü azarlara, mərizlərə mübtəla edən bu sənəti sizin başlarınızın xatirəsi üçün özümüzə qəbul etmişik. Bizə təlim-tərbiyə verən ustadlarımız «siz camaatdan, millətdən ötrü hazırlanırsınız» deyib nəsihətlər verirdilər. Bizim aldığımız tərbiyə və təhsilə görə biz gərək sizin ailəniz əfradından hesab olunaq. Biz sizin dərdinizə qalanda siz də bizim dərdimizə gərəkdir qalasınız. Əl-ələ verib bir külfətin üzvləri kimi ümumi bir məqsəd üçün çalışmalıyız.

Siz bilmirsiniz ki, firəng və Almaniya davasında firənglərə qalib gələn müəllimlər olublar? Siz bilmirsinizmi ki, balaca dünyada camaat milli müəllimlərə bir mərtəbədə hörmət, mehribançılıq göstərir ki, müəllim olmaq orada böyük səadət hesab olunur? Məgər gözünüzün qabağında qonşu erməni millətinin ittifaq, ittihadını görməyirsinizmi? Kimdir bunlara səbəb? Bunların tərəqqisi müəllimlərin sayəsində deyilmi?

Bəli, bu sözlər avqust ayının 15-də camaata deyiləcəkdir, müəllimlər ictimaı bu sözləri nəinki dil ilə, hətta fel ilə dəxi camaata, millətə bildirəcəkdir ki, haman ictima camaatdan, millətdən ötrü yığılıbdır. İllərlə başsızlıqdan, ittifaqsızlıqdan bir-birimizin ehtiyacına, dərdinə xəbərsizliyimizdən yanaşı etdiyimiz səhvlər haman məclisdə təshih ediləcəkdir. Ümum bir qayda, bir qanun arayıb dərdlərimizə çarə arayacaqlar. İttifaq və ittihad edib bu təlim-tərbiyəyə dair qüsuratımızı rəf etmək üçün yeni üsullar və zəmanənin təqazasına görə yeni proqramınlar düzəldəcəklər.

Açıq söyləyim: indi bir məqamdır ki, haqq üzə çıxıb tənəzzülün əsil səbəbi nələr və kimlər olmağı aşkar olacaqdır.

Müəllimlər milli məktəblərimizə dair məsələləri həll edib özləri bacardıqlarını kəndi öhdələrinə götürəcəklər, bacarmadıqlarını camaata mühəvvəl edəcəklər.

Hər kəs öz işini gərəkdir aparsın, öz vəzifəsini, təklifini anlasın. Tainki məqami-tənəzzüldə nə camaat müəllimləri, nə müəllimlər camaatı günahkar etməsin. Daha doğrusu, heç tənəzzülə, tədənniyə meydan qalmasın. Bu vaxtadək məktəblərin proqramlarını İlminskinin «yoldaşları» düzəldir idi, yainki pedaqojiyadan, elm və tərbiyeyi-ətfaldan əsla xəbərləri olmayanlar. Bu vaxtadək hamı üləmalar rus dilində oxunur idi. İndidən sonra isə türkü öz ana dilimizdə oxunacaqdır. Bu vaxtadək təlim kitabları rus dilində idi. İndi





haman kitablar gərəkdir türk dilində olsun. [...] Bu məsələlərin hamısını müəllimlər ictimaı nəzərdən keçirib yeni proqramın düzəldəcəklər, yeni təlim kitabları seçib çap edəcəklər.

Ümid ediriz haman bu məclis ilə müəllimlərimiz müəllimliyə məxsusi qeyrət, hümmət, hamiyyətini göstərələr. «Bir neçə» adamın vasitəsilə camaatın nəzərində həqir sayılan iş görməyən «tənbəl» müəllimlərin üstündən ləkəni götürüb bildirələr ki, bizim milli müəllimlər də qeyri tayfaların müəllimləri kimi camaata yol göstərə bilərlər, millətin dərdinə əlac aramaqda «heç kəsdən» əskik deyillər. Belə olursa, «yalançı pəhləvanlar» aradan götürülür: millət, camaat özü ikinci ictimai (syezdin) çağırılmağını tələb edir...

*******

Vaxt var idi Bakı işıqlıq mərkəzi kimi nəzərə gəlirdi, nəinki Qafqaz, həttə daxili qubemiyaların müsəlmanları gözlərini buraya tutub böyük ümidlər edirdilər. Çünki tərəqqi, mədəniyyət cəhətincə bir hərəkət görünür idi.

Hərəkət səbəbi rus-müsəlman adlanan məktəblər olmuşdu desək, səhv etmərik, zənn ediriz.

İki cavan kasıb müəllim Bakıya gəlib «borc-xərc» bir məktəb binası qoyurlar, camaatın nəinki fikrindən belə bir məktəb keçmir idi, həttə əksəri buna zidd əqidədə ikən iki cavan zəmanənin təqazasını pək gözəl anlayıb cürətlə meydana gəlirlər. Nuh vaxtından qalmış qanuni-tədris ilə hərəkət edən məktəblərin müqabilinə üsuli-cədid məktəbi çıxardırlar, çıxardıb da köhnə məktəblə yeni məktəbin müharibəsinin başlanmağına səbəb olurlar.

Bu iki cavan müəllim təhsil etdikləri pedaqogika elminə ümid bağlayıb qeyrətlərini, səylərini gün-gündən artırarkən, köhnə məktəbdar müəllimləri ata-baba qaydası ilə uşaqların əqillərinə seyqəl verəcək yerdə onların zehinlərini kor etməyə çalışır idilər...

Camaat isə təzə bir şey, bir qayda görməyib buna qənaət edərdi.

Lakin çox çəkmədi, camaat yeni üsuli-cədid ilə hərəkət edən məktəbin gücünü görüb bir fikrə getdi. Gördü iki-üç il köhnə qayda ilə oxuyan uşaq axırda öz adını da dürüst yaza bilmir. Üsuli-cədid qaydası ilə oxuyan uşaqlar iki ayın ərzində ana dilində və yarım ilin ərzində rus dilində yazıb-oxuyurlar...

Camaat bunu görüb üsuli-cədid məktəbinə rəğbətlənir. Uşaqlarına xeyirxah olan aqibəti dürüst nəzərə gətirən atalar yeni məktəbin qapısını tanıyırlar... Camaatın rəğbətini görüb iki cavan daha ziyadə səylərini artırırlar. Rus-müsəlman məktəbi günü-gündən tərəqqi edir. Axırda bəs etməyib camaat özü belə bir məktəbin artmağına səbəb olur.

Şəhər duması camaatın xahişinə görə rəsmi rus və tatar şkolaları açır. İlbəil bu müəllimlərdə Bakıda çoxalır.

O vaxt bir vaxt idi ki, müəllimlərdən başqa qeyri ziyalı yox idi. Bir ya, iki rus, ya Avropa darülfünunu qurtaran var isə də, onlar da milyonçulara qarışıb günlərini eyş-işrətlə keçirir idilər.

Bunlardan müqəddəm Bakıda yenə bir-iki oxumuş müsəlmanlardan var idi. Lakin iş görə bilməyib nəinki tərəqqi, hətta otuz il müsəlmanları geri saldılar. Çünki işi tədbirsiz başlamışdılar.

Nə isə, Bakının təzədən tərəqqi zamanı başlayır. İndi iş görənlər universitet «nişanı ilə» meydana gəlmirlər. Pedaqogika, didaktika elmlərinə pənah aparıb iş başlayırlar. Bunlar darülmüəllimində əzbər etdikləri «asandan-çətinə və ya, yavuqdan-uzağa hərəkət etmək» qanunları ilə tərəqqi yoluna ayaq qoyurlar. Bunlar hər tərəqqinin başı məktəb olmağını anlayıb, «ağzı köpüklü» danışmağa zidd olub səssiz-sədasız hərəkət edirlər. İbtida məktəb işlərinə artıq diqqət edib, üsuli-cədid məktəblərinə camaatı daha ziyadə rəğbətləndirirlər.

Məktəbləri rus-tatar şkolalarına müvafiq qayda ilə aparıb böyüklər üçün də tərəqqi yolu arayırlar.

Nəinki Qafqazda, hətta cəmi Rusiyada görünməyən əvvəlinci müsəlman qiraətxanası açırlar, həmin qiraətxanaya hamı müsəlman mərkəzlərindən qəzetlər, jurnallar gətirdilər. Müsəlman camaatı türk, fars, ərəb qəzetlərini mütaliə edib qeyri məmləkətlərdə sakin olan din qardaşlarının əhvalından xəbər tuturlar və nə yolda hərəkət etməklərini, nə fikirdə olmaqlarını bilirlər.

Müəllimlər buna da bəs etmədilər. Bunlar teatr, böyüklər üçün məktəb olmağını anlayıb teatr işinə artıq diqqət etdilər. Bu yolda yeni faciələr yazırlar, ya qeyri dillərdən tərcümə edirlər.

Teatr çıxardanların oyunlarına artıq diqqət edib hər «oyunçu»nu araya qoymurlar. Camaat isə yavaş-yavaş teatr işinə rəğbət göstərir. Teatrdan yığılan pullara yetim uşaqları oxudurdular... Müəllimlər çəkdikləri zəhmətin meyvəsini gördükcə hümmət,





həmiyyət, qeyrətləri artırdı, ittifaq, ittihadları daha ziyadə qüvvət tapırdı. Bəli, müəllimlər böyük bir ittifaq edib, boş vaxtlarını millətin yolunda sərf edirdilər. Bunların ittifaqı, gücünü tərəqqi yolunda sərf edirdi. Bunların ittifaqı, tərəqqi yolunda hərəkətləri, nəinki Qafqaz müsəlmanlarını, hətta Rusiyada bitərəf, ümumi tərəqqiyə şad olan rus camaatını belə sevindirir idi. Bakı müəllimlərinin hərəkəti barəsində mədəniyyətə dost rus qəzetləri kərrat ilə məqalələr yazıb müsəlman camaatını təbrik edirdilər. Edib də işığın yolunu ziyadə asan etmək üçün cavan müsəlman müəllimlərinə yol göstərirdilər...

Xülasə, demək olmazdı Bakı müəllimləri yatırlar, iş görmürlər, ya görmək bacarmırlar. Demək olmazdı ki, cavan müəllimlər ancaq öz şəxsi mənfəətləri üçün çalışıb milləti bilmərrə unutmuşdular və öz vəzifələrini, borclarını anlamırdılar. Qeyri tayfaların milli müəllimlərinə nisbətən ola bilsin ki, az iş görürdülər, fəqət «haman az işi» görürdülər, mümkün olan qədər çalışırdılar...

Bu «az işi» gizlətmək olmayacaqdır. Bakının tarixini yazan biqərəz şəxs «bir neçə ildə» milli müəllimlər tərəfindən görülən hümməti, hamiyyəti, qeyrəti unutmayacaqdır.

Biz «bir neçə ildə» deyib milli müsəlman müəllimlərinin sonrakı hərəkətlərini, işlərini nəzərdə tuturuz.

Bəli, ancaq «bir neçə il» tərəqqi yolunda bulunarkən müsəlman müəllimləri iki o qədər tənəzzül yolunda dövran sürüblər, yəni məktəbdənkənar millət işlərinə qarışmayıb qeyri-rus çinovnikləri kimi ayın iyirmisini gözləyiblər və boş vaxtlarını kəndi keflərinə sərf edib camaat tərəfindən töhmətə layiq olublar. «Bakı müəllimləri məvacibin çoxluğundan əmələ gətirmirlər. Millət üçün bir tərəqqi yolu açmırlar, təlim kitabları yazmırlar...». Belə bir acı sözləri camaatdan indi eşidiriz, camaat belə bir qan xarab edən töhməti deyib haman müəllimlərin keçmişdə göstərdikləri qulluqlarını bilmərrə unudur və buna, yəni müəllimlərin həqiqət, «çinovnik» olmaqlarına əsil səbəb nə olmağını ya bilmir, yainki qəsdən bilmək istəmir...

*******

Həqiqət, pərişanlığa səbəb nə oldu? Müəllimlərin ittifaq, ittihadını kim pozdu? Yoxsa sonradan gələn müəllimlər şüursuz, millət dərdini çəkməyən olublar?

Xeyr! Sonradan gələn müəllimlərdə günah yoxdur. Bunlar nə bilikdə, nə də qeyrət xüsusunda əvvəlkilərdən əskik deyildilər. Bunlar ehtimal, əvvəlkilərdən də artıq hümmət, həmiyyət göstərirdilər: lakin... lakin bunlar Bakıya gəlib əvvəlki müəllimlərin ittifaqını, ittihadını pozulmuş gördülər... «Nə bülbüldən bir əsər, nə sünbüldən bir nişanə»! Əvvəlki yoldaşlar müəllimləri məyus, pərakəndə görüb özləri də pərakəndə, bir-birindən xəbərsiz işləməyə başladılar...

Axırda camaat tərəfindən töhmətə, məzəmmətə layiq oldular... Camaat niyə də töhmət etməsin? Köhnə müəllimlərdən zühura gələn müvəffəqiyyətlər yenilərdən zahir olmadı. Bunlar nəinki məktəbdənkənar millət işlərinə qarışmadılar, hətta özləri tərtib edən vəzifələrə, təkliflərə qarşı rus çinovnikləri kimi hərəkət edirdilər. Ancaq aldıqları məvacibə görə işləyib boş vaxtlarını şəxsi mənfəətlərinə sərf eləyirdilər. Camaat isə köhnə müəllimlər ilə təzələrin işlərinə təfavüt qoyub, əlbəttə, təzələri hümmətsiz, həmiyyətsiz hesab edərdi. Fəqət eyni camaat özündə hümmət və qeyrət, milliyyət hissiyyatı nə dərəcədə olmağını düşünürdü: «Öz gözündə tiri görməyib özgə gözündə qılı görən» camaatımız yenə də səhvini düşünməyib, biçarə müəllimlərə olmayan sözləri deyirdi!.. Camaatımız düşünsəydi ki, hər millət üçün tərəqqi qapısı məktəbdir və hər məktəbin tərəqqi tapmağı milli müəllimlərə bağlıdır, əlbəttə, bir kərə dürüst fikir edərdi: nə səbəbə ibtida ittifaq ilə millət yolunda çalışan, qeyrət göstərən müəllimlər indi pərakəndə olub hərə bir yol ilə yeriş edir? Bu sualın üstə bir az fikir etsə idi, yəqin ki, özünün müqəssir olmağını anlardı, vaxtında dərdinə əlac tapardı.

Bir vaxt var idi ki, müəllimlərsiz millətə dair işlərə baxılmazdı. Məscidlərdə səs, rəy verən müəllimlər olurdu. Təsəvvürlərinə diqqət olunurdu. Lakin bir vaxtdan bəri camaat haman müəllimləri məclislərdə görmədi, onların fikirlərindən xəbərdar ola bilmədi. Sözü açıq deyəlim: onlar indi lüzumsuz bir üzv olub artıq araya qoyulmadılar. Camaatımız isə bu əhvalatı görüb heç soruşmadı: nə əcəb, indi müəllimlər işə qarışmırlar? Məclislərdə görünmürlər?

Müəllimlər iki qiraətxana açdılar; qiraətxanalar «bir vaxtadək» davam edib sonra bir ayın ərzində ikisi də bağlandı. Camaat heç xəbər almadı: niyə, nə səbəbə bunlar bağlandı?

Müəllimlər «bir vaxtadək» ildə neçə dəfə teatr qoyub yetim uşaqları gimnaziyada, realnıda o teatrdan yığılan pullara oxudurdular. «Bir vaxtdan sonra» müəllimlər bu işdə soyuq tərpəndilər: yetim





uşaqları gimnaziyalardan qovurdular. Direktorlar müsəlman uşaqlarını qovmaq istəməyib üzlərini camaata tuturdular, kömək istəyirdilər. Camaat isə heç bir fikir etmirdi ki, bu vaxtadək bu yetim uşaqlar kimin xərcinə oxuyurdular? Onlara müəllimlər kömək edirdilər isə niyə indi kömək etmirlər?

Müəllimlər ana dilində kitablar yazırdılar: haman kitabların sədası Tiflis qəzetlərindən gəlirdi, bu kitablar Bakıda çap olunur idi. Lakin Tiflis əhli haman kitabların barəsində Bakı əhlindən tez məlumat alırdılar...

Camaatımız yenə də «zəhmət çəkib» səbəbini bilmək istəmirdi. Sual etmirdi: nə səbəbə bu barədə «bizim» qəzetlər yazmırlar? Xülasə, müəllimlərin hər addımında, hər hərəkətində bərəkslik görüb camaatımız nəinki bağırmır idi, hətta söhbət məqamında quru təəssüf də göstərmir idi... Deyəsən gərək belə də olaydı. Bir-iki yalançı pəhləvan, millət, millət deyib meydana çıxan vardı isə də, bunlar da «ah, nə pis iş oldu» deyib, «allah kərimdir» sözləri ilə özlərinə təsəlli verirdilər. Daha anlamayırdılar ki, doğru, allah kərimdir, lakin vaxt kərim deyil! Bunu düşünmürdülər ki, öz əlləri ilə özlərinə quyu qazıb yüz min məşəqqətlə meydana gələn milli işlərini mürur ilə puç etmək istəyirlər.

Açıq söyləməli: camaatımızın ağlı gözündə olub, həqiqət, millət dostu kim olmağını düşünmədi... Diploma, nişana aldanıb quzu cildində qurdlara yol açdılar, sidq-ürəklə, təmənnasız, qərəzsiz milli hissiyatı ilə meydana gələn müəllimlərin yollarını bağladılar. Bunları gözdən salıb «diplomluların» ətəklərindən yapışdılar... Yapışıb da ümumi tərəqqini on il dala saldılar. Buraya ümid bağlayanların ümidlərini bilmərrə kəsdilər. Bakı «bir vaxtadək» tərəqqiyi-ittifaq mərkəzi hesab olunur idisə də, indi tənəzzül və nifaq mərkəzi olmağına şübhə yoxdur.

Hal-hazırda nə ilə özünüzə təsəlli verirsiniz? Şəhər Dumasında bəzi oxumuşlarımızın bulunmağı iləmi, ya əlimizdə olan qəzetələrləmi? Bunları böyükmü səadət hesab edirsiniz? Ediniz, lakin insafı əldən buraxmayınız, bir yaxşı fikir ediniz! Kim idi məclislərdə, qəzetələrdə bağırıb-çığıran, yazan ki, bizə milli qəzetə lazımdır? Kim idi zasedaniyalarda, iniqadlarda yazan, dilbilməz qlasnıları qəzetlərdə həcv edib onların əvəzinə oxumuşlardan seçiniz deyən? Kim idi? Müəllimlər deyildilərmi? Haman diplomluları sizə nişan verənlər bunlar deyildilərmi? Onlara «rahat yuva» hazırlayan müəllimlər

olmadılarmı? Yox, əfəndim! İnsaf! İnsafla meydana gəliniz! Müəllimlərdə qüsur görürsünüzsə, öz qüsurunuzu, xətanızı örtüb-basdırmayınız.

Müəllimlər, yenə deyiriz, «bir vaxtadək» öz təkliflərini dürüst anlayıb bacardıqları qədər iş gördülər. «Bir vaxtadək» ah, nə yaxşı, nə gözəl bir vaxt idi! Bir tərbiyəli, bir təsəvvürlü müəllimlər əl-ələ verib hamı bir adam kimi hərəkət edirdi. Saf ürəyilə ümumi bir məqsədə yeriş edərkən qeyri oxumuşları, qeyri mənsəb sahiblərini arayıb tapırdılar. Bunlar ilə də ittifaq etmək istəyib nadanlığın müqabilinə zor qoşunla çıxmağa ciddü-cəhd edirdilər. Lakin heyf! Çox heyf ki, müəllimlər sadə, saf ürəklə meydana gələrkən «qeyri oxumuşlar» diplomatlıq qaydası ilə hərəkət edirdilər... Bunlar bir kibr və qürurla müəllimlərə baxıb camaatın nəzərində onları həqir göstərirdilər. Camaat isə onların xədəmələrinə adlanıb müəllimlər göstərdikləri qulluqları bilmərrə unudub, «əsil millətpərəst bunlardır» deyib diplomluların ardınca getdi. Axırda müəllimlərə həqir baxanları onlara böyük etdi... Şan-şövkət gəzənlərə bu bəs edərdi! Əllərinə ixtiyar alıb sağ-solunu gözləməzdilər. Bu işin aqibəti nə ola, sualını fikirlərindən keçirtməyib hər məclisdə, hər yığıncaqda «müəllimlər heç bir şey etmirlər və etmək də bacarmırlar» deyib, camaatın qulağını doldurur idilər. Axırda bunların «təlim işlərinə əl uzadırdılar, «pedaqogika», «didaktika», «psixologiya» elmləri nə olmağını əsla anlamayıb, bunların hərəkətlərinə irad tuturdular. Hətta cürət edib zikr olunan elmlərdə bunların səhvlərini göstərirdilər...

Məqsədləri nə idi?

******

Millətin fəqr və zəlalətinə əsasən səbəb onun əql və mənəviyyatının fəqir və nöqsanıdır.

Bu sözləri sadə demək hünər deyildir. Bir də deyib də əməl etməlidir. Henrix Pestalotsi bu sözləri həm dedi, həm də dediyinə əməl etdi. Ağlını, ruhunu, malını, ömrünü axır nəfəsinədək millət yolunda, daha dürüstü, yetim uşaqların yolunda sərf edib dünyaya əlvida etdi.

Bir müəllim müəllimliyə hazırlanarkən ola bilərmi ki, Henrix Pestalotsinin adını eşitməsin? Ola bilərmi ki, bunun uşaqlara olan məhəbbətini bilməsin? Təlim və tədrisə dair nəsihətlərini oxumasın?





Doğrudur, Henrix Pestalotsi 79 il bundan müqəddəm(1827-ci ildə-H.Ə) dünyadan köçübdür. Lakin 79 il bundan müqəddəm dediyi sözlər, təlim və tərbiyə yolunda göstərdiyi hərəkətlər indiyədək və bundan sonra da baqi qalacaqdır.

79 ilin ərzində pedaqogika, didaktika elmləri və bu elmin göstərdiyi yeni üsullar böyük tərəqqi tapıbdır və getdikcə tapacaqdır. Fəqət Henrix Pestalotsi təlim və tərbiyə işlərində şəfqət və məhəbbəti hər şeyə mürəccəh bilirdi.

Henrix Pestalotsi həmişə deyirdi: «Mən heç vaxt heç kəsdən üsuli-tədris və təlim öyrənməmişəm. Tərbiyəyə dair elmlər oxumamışam, lakin uşaqlara mənim bir mənfəətim olurdusa, ancaq məhəbbət və şəfqət sayəsində olurdu». Qoca Pestalotsi axır nəfəsinədək bu təsəvvürdə olub, özündən sonra qoyduğu asar və təlifatının hər səhifəsində, hər sətrində bu yoldakı fikirlərini söyləyirdi.

Bu günlərdə Bakı müəllimlər ictimai olmağa görə indi istəyiriz bir-iki ay, sənə dövriyyəsi münasibətilə şənliklər edilən məşhur pedaqoq Henrix Pestalotsinin barəsində bir az söhbət edək. taınki bilənlər bir də təkrar etsinlər və bilməyənlər bilsinlər ki, təlim və tərbiyə işlərində şəfqət və məhəbbətin gücünə edilən tərəqqi heç bir pedaqogika elmlərinin gücü ilə edilməz. Müəllimin uşaqlara şəfqəti olursa, elmi-ruhsuz və elmi-tədrissiz məqsədə çatmaq mümkündür. Hər uşağın özünə görə bir qeyri xasiyyəti, təbiəti olmağa binaən hamıya bir qayda və bir qanunla dərs vermək, hamıya bir dillə bəyan etmək olmaz, hamını bir «ölçü ilə ölçmək» olmaz: uşaqların parası zehinli, zəkavətli, bir parası zehnsiz, fəhmsiz, bir parasının qüvveyi-hafizəsi qüvvətli, bir parasınınki naqis, bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olur. Uşaqlara məhəbbəti olan müəllim bunların hamısını mülahizə edər, hər kəsin öz bildiyinə, qanacağına görə hərəkət edərsə, hər kəsin eybinə görə çarə ararsa, əlbəttə, təlim və tərbiyə düz yolu ilə gedib tərəqqiyi-ali dərəcəyə çatar.

Henrix Pestalotsi belə bir təsəvvürdə olarkən onun təlim və tərbiyə yolunda fikir və hərəkəti hal-hazırda və gələcəkdə ümumi müəllimlər üçün gərəkdir dəsturül-əməl olsun.

Bunun öz tərbiyəsi daha ziyadə ibrətbəxşdir. Baxaq nə tövr tərbiyə almış və haman tərbiyənin səmərəsi nə olmuş? Henrix Pestalotsi Zurix şəhərində 1746-cı ildə yanvarın 12-də təvəllüd

tapıbdır. Henrix Pestalotsi altı yaşında olarkən atası öldü. Anası və qulluqçularından Babili uşağın tərbiyəsilə məşğul oldular. Babili haman arvad idi ki, Pestalotsinin atası Jan Batisi öləndə ona and vermişdi ki, öləndən sonra onun külfətini buraxmasın. Babili sözünün üstə bərk durub balaca Pestalotsiyə və anasına böyük xidmətlər göstərdi.

Külfət əvvəlindən də kasıb idi. Jan Batistidən sonra daha bir ümid yeri yox idi. Henrixin anası çox şeyi özünə haram edərdi. Babili ilə bir qəpik artıq xərcləməyə qoymazdı. İki arvad bu minval Jandan qalmış cüzi pulu çox ehtiyyat ilə xərc edirdilər ki, axırda Henrix Pestalotsiyə lazım olan tərbiyəni verələr. Külfətin dolanacağı böyük məşəqqətlər və ehtiyaclar içində keçir idi. Bununla belə, Babili hər bir zəhmətə davam edib balaca Henrixə getdikcə məhəbbət bağlardı və onun tərbiyəsinə ziyadə diqqət edərdi.

Həməvaxt ehtiyac və zəlalətlə keçinərkən, külfətin bu tövr güzəranı balaca Henrixə əsər edərdi, yad arvad Babilinin hər ehtiyaca davam etməyi, bununla belə Pestalotsinin evində qalıb uşağa böyük məhəbbət bağlamağı axırda Henrix Pestalotsinin tərbiyəsinə böyük əsər etdi. Onu da özgənin dərdinə qalan, qeyrisinin əhvalına yanan, qeyrilərin dərdlərinə əlac arayan, gözəl təbiətli, mülayim xasiyyətli bir adam etdi. İki arvadın səmimi-qəlblə olan tərbiyəsi Henrix Pestalotsinin qəlbində ümumi bir məhəbbət yaratdı. Pestalotsi hamıya bir gözlə baxıb elə bilirdi ki, hamı adamlar buna tərbiyə verənlər kimi mehriban, təmiz ürəkli adamdırlar. Belə bir təsəvvürdə olarkən hamıya məhəbbət bağladı. Ürəyi çox nazik olub, hamının dərdinə yanardı: hələ uşaq ikən məktəbdə yoldaşlarına hər növ ilə kömək edərdi. Yoldaşlar isə bunun məhəbbətini, mehribanlığını anlamayıb əvəzində buna istehza edirdilər. Balaca Henrix hamının dərdinə yanarkən və əlindən gələn yaxşılığı edərkən heç kəs ilə yoldaşlıq etməzdi. Çünki dərsdə bunların heç biri ilə düz gəlməzdi. Bunun yoldaşları tədric ilə lazımlı, lazımsız dərsləri keçirdilər, vaxtlarını çox vaxt elə şeylərə sərf edirdilər ki, ürəkdən haman şeyləri, haman dərsləri sevməzdilər. Açıq demək, buyuruq altında məcburən dərs hazırlardılar, Henrix isə ürəyinə, ağlına xoşu gələn dərslərə böyük diqqət edib lazımsız şeylərə çox da vaxt sərf etməzdi...

Bu minval Henrix Pestalotsi ibtidai məktəbi qurtarıb orta məktəbə və sonra 1760-cı ildə kollegiya darülfünunu adlanan mədrəsəyə qəbul olundu. Burada hamı elmlərdən çox elmi-ilahiyə





böyük diqqət edərdi. Professorlardan yunan və yəhudi lisanlarının professoru Brininqer Pestalotsiyə xoş gəlirdi. Məşhur professor tələbələri çox sevərdi və həməvaxt deyərdi: «Bir adamın, yaınki bütün vətənin xoşbəxtliyi onun cavanlarının yaxşı tərbiyəsinə bağlıdır. Yaxşı tərbiyə isə bundan ibarətdir: insanın ağlını gözəl, pak şeylər əxz etməyə öyrədəsən və ürəyini ağıl, vicdan və dinin sevmədiyi şeylərdən çəkindirəsən».

Henrix Pestalotsi elmi-ilahidən başqa professor Biresi Tinqirin vasitəsilə Vulfun fəlsəfəsini oxuyurdu. Haman fəlsəfənin qanunlarından biri də bu idi: «Get o şeyin dalınca, sənə tərəqqi yolu verəcəkdir, çəkin o şeydən ki, səni tənəzzülə salacaqdır». Ağlın gücü ilə insan pis əməli yaxşı əməldən seçər. Bu barədə ağlın yaxşı vicdanın olmağına dəlalət edər.

İnsana dair dəhrin üç qanunu var: bir qanun insanın özünə dair, biri allaha dair, biri də qeyri adamlara dair, yəni insan gərəkdir əvvəl özü üçün həqqi-taalanın sifətlərini əxz etməyə çalışa və sonra özgələrdə bu yolda tərəqqi tapmağa ciddü-cəhd gərəkdir edə. İnsanın axırıncı sifəti məhəbbət artırar. İnsan bir-birinə məhəbbət bağladıqca, zülm aradan götürürlər, ehtiyac azalar.

Bu sözlər Henrix Pestalotsinin qəlbində böyük yer edərdi. Belə bir tərbiyə verən, məhəbbət artıran məktəbin olmağını arzu edərdi. Haman bu vaxtlarda Pestalotsi 17 sində olarkən Russonun inşasını oxuyub, bu barədə təsəvvüri-əqidəsi daha ziyadə bərkləşdi.

Russonun və elə tərbiyənin əsil məqsədi uşaqda təbii olan yaxşı sifətlərə seyqəl verməkdir. Russo deyirdi: «Mən ümid edirəm ki, mənim tərbiyəmdən çıxan uşaq nə çinovnik, nə soldat, nə ruhani olacaqdır. Mən bilirəm ki, mənim tərbiyəmdən olan uşaq «adam» olacaqdır». Rüzgar onu qeyri bir yerdə, yəni tərbiyəsinə bərəks yerdə oturdarsa da, yenə haman «adam» kəndi yerində bulunacaqdır».

«Biz uşaqlara o şeyləri təlim veririk ki, özləri onları təlim edərlər. Bununla bərabər, o şeylər ki, biz gərək onlara təlim edək çox vaxt unuduruz». Russonun təsəvvürünə görə, uşağa ibtida bir növ tərbiyə vermək ki, rüzgarın sədəmələrinə davam edə, onda səbir ola və sonra onun qeyrilərə məhəbbəti getdikcə arta, bunların yanında həmişə insanın yaxşı, gözəl sifətlərindən söhbət etmək, fəna sifətlərindən heç vaxt söyləməyək, xülasə hamını yaxşı sifətdə qələmə verib uşaqların hamıya məhəbbətini artırmaq...

Russonun bu sözləri də Pestalotsinin ürəyi ilə olub da, onun tərbiyəsi, təsəvvürü ilə müvafiq gəlirdi, gəlib də diqqətini bu məsələdə artırır idi.

**********

Henrix Pestalotsi Russonun təlim və tərbiyəyə dair sözlərinə artıq diqqət edirdi.

1762-ci ildə Zurix şəhərində «millətpərəstlər» cəmiyyəti araya gəldi. Haman cəmiyyət Russonun məsləkinə salik bulunurdu. Bu cəmiyyətin əqidəsi məişət xüsusunda sadə keçinmək, təbiətə, təbiiliyə yavuqlaşmaq, qanun və ədalətə xidmət etmək, məzlumları zalımların əllərindən xilas etmək idi. Böylə bir əqidə Henrix Pestalotsinin əməli-qəlbiyyəsinə ziyadəsilə müvafiq idi. Ona görə Pestalotsi haman cəmiyyətə daxil olub axırda onun mötəbər üzvlərindən biri hesab olunur idi.

Cəmiyyətin etiqad və mücahidatı Pestalotsini millətə yavuqlaşdırdı. Onun millət yolunda çalışmaq əfkarını daha ziyadə qüvvətləndirdi. O vaxtlar oxumuşların arasında əkinçiliyə böyük bir rəğbət intişar tapmışdı. Yenə də Russonun sözləri: «Əkinçilik insan üçün ən böyük xoşbəxtlikdir», Pestalotsinin qəlbində nəqş bağlamağa görə, Henrix əkinçiliyi özünə sənət edir. Bu fikir ilə ki, əkinçilik vasitəsilə millətə böyük mənfəətlər verəcəkdir.

Pestalotsi əkinçiliyə sahibi-vüquf və mümarisə olmağa görə o qeyrilərinin yanında çalışırdı, lazım olan məlumatı əldə edirdi. Bir il sonra Pestalotsi təəhhul edib ümuri-beytiyyəsini yoluna qoyur, bu sayədə əkin yerini də yavaş-yavaş böyüdür, tövsi edir. Lakin əsasən fikri-ziyarəti, üsuli-ziraəti kəndli qonşularına göstərmək, öyrətmək idi, daha doğrusu, bu xüsusda bir nümunə əmsal olmaq idi.

Yoxsa bu işə qazanckar xatirəsi üçün çalışmırdı, bu isə kəndi nişanlısına yazdığı bir kağızdan aşkar olur. Pestalotsi bu kağızda belə yazır: «Mən çox xoşbəxtəm ki, siz də kənddə olmağımızı şəhərdən əfzəl bilirsiniz. Mənim təsəvvürümə görə şəhər tərbiyəsi üçün yaramaz, mənim xanəm şəhərin hər növ səvvatından gərəkdir kənar ola. Vətənə belə bir yerdə mən bir xeyli xidmətlər edə bilərəm. Şəhərlərin dağdağəsi, qal və məqali bu xidmətlərə müsaid deyildir. Mən kənddə vətəndaşlarımın uşaqlarından birini çörəksiz görsəm və bilsəm ki, buna tərbiyə verilsə gələcəkdə «Adam» olacaqdır, onun





tərbiyəsinə çalışmağı əsla diriğ edəməm. Axırda uşaq bir parça çörək sahibi olub özünü xoşbəxt hesab edər. Hərgah bir uşaq bir böyük sifət göstərib evdən qovularsa, mənim evimdə bir guşə tapıb ömür vəfa etdikcə bir növ ilə keçinər... Bəli, mənim sevgilim! Böyük istedad və qabiliyyət göstərən uşaqlara mən süd verərəm, özüm isə suya qənaət edərək istərəm bilsinlər ki, istedad və qabiliyyətə necə qiymət verirəm. Vətəndaşlarımıza qulluq etmək üçün, onların dərdlərinə əlac aramaq üçün öz xərclərimizi azaltmalıyız».

Henrix Pestalotsinin kənd işlərində təcrübəsi az olmağa görə zərər-zərər üstə gəlirdi. Axırda zərər və ziyanlara tab gətirməyib kənd işlərindən əli çıxdı, ona böyük bir qəmginlik üz verdisə də, öz ali fikrindən yenə əl çəkmədi. Fikri nə idi!...

Henrix Pestalotsinin əsil məqsədi kənd uşaqlarına layiqincə tərbiyə vermək idi. Görürdü ki, kəndlilər yetim uşaqları öz mənfəətlərinə işlədib bu zavallıların tərbiyələrinə əsla etina etmirlər idi. Pestalotsinin öz əlində az yer qalmışdı. Ona görə haman yetim uşaqları öz başına yığır, onlara iş öyrədib tərbiyələrinə böyük diqqət edirdi. Camaat bunu görüb Pestalotsiyə kömək edir, ümumi yığılan pul ilə yetim uşaqlara bir «tərbiyə evi» açır.

Pestalotsi səhərdən axşamadək yetim, fəqir, müxtəlif xəstəliklərə mübtəla uşaqların üstə böyük zəhmətlər çəkir, onların ağıllarına, ruhlarına ğizai-mənəviyyələrini verir, onlara ana, baba kimi qulluq edirdi. Əllərini, ayaqlarını, bədənlərini öz əlləri ilə yuyardı, gecə-gündüz azarlıların yanında oturub kiminin sözlə, təsəlli ilə, kiminin dərman və ğizai münasibətilə imdadına yetişirdi. Bir an uşaqlardan kənar olmayıb hər işdə onlara kömək edərdi. Pestalotsi uşaqlar ilə nə tövr rəftar etmək barəsində öz rəfiqəsinə yazır ki, «səhərdən axşamadək uşaqların arasında tək dolanıram. Onların cism və ruhları hər bir şeyi mənim əlimdən alırlar. Mənim siyanətim həmişə onların üzərindədir. Mənim gözlərim həmişə onlara mətufdur. Gözlərimin yaşlarını onların göz yaşlarına qarışdırıram. Üzüm onların üzləri güləndə gülür. Hər saat, hər dəqiqə onlar mənim ilə, mən onlar iləyəm. Onların yedikləri, içdikləri nə isə mənim yediyim, içdiyim də odur. Mənim heç bir şeyim yox idi. Nə xanəm, nə dostum, hamısı onlar oldu. Onlar səhhət və səlamətdə olanda bir yerdə gəzirəm, azarlı olanda yanlarından ayrılmıram. Yuxum gəlsə də, orada yuxulayıram. Axşam hamıdan gec yatıram, səhər isə hamıdan erkən qalxıram».

Henrix Pestalotsi təsnifatının birində deyir: «Uşaqlar hər gün, hər an gərək mənim nasiyəmdən, çöhrəmdən anlıya idilər ki, onların xoşbəxtliyi mənim xoşbəxtliyimdir, mənim hissiyati-qəlbiyyəm onların hissiyati-qəlbiyyəsidir». Doğrudur, bu sözləri yazan Pestalotsi özüdür. Fəqət heç bir vaxt onun qövlü felinə zidd olmayıbdır. «Pedaqogika»da Pestalotsinin bülənd bir mərtəbə ehraz etməsinə də bais bu halı olubdur. Qövlilə feli həmişə düz gəlib, pərvanə kimi uşaqların başına dolanır idi. Henrix Pestalotsi böyük bir ad qazanıb hamı zəmanə müəlliflər onun övsafina heyran idilər. Lakin onu dəli, «başı havalı» bir məcnun hesab edən də az deyil idi. «Sahibsiz, bikəs, yetim uşaqlara bu qədər cansüpəranə bir məhəbbət, bir şəfqət adətdən dişqarı şeydir» deyib tənbəllər, həsudlar ona istehza edərdilər, «ağlı nöqsan» qələminə verirdilər. Lakin bunlara əhaliyi-sarı etibar etməyib öz işini necə ki, lazımdır elə görərdi. Təlim-tərbiyə barəsində kəndi əfkar və hissiyatı nə isə yazardı. Henrix Pestalotsi təlim və tərbiyəyə dair tövsiyə etdiyi üsul və qəvaid bunlardır:

1) diqqət hər bir təlimin başıdır.
2) diqqətsiz heç bir dili öyrətmək olmaz.
3) təlim vaxtını söhbətə və irada sərf etmək olmaz.
4) hər bir şey başlayanda asandan başlamaq və uşağın zehninə görə hərəkət etmək.
5) dərsdə bir mətləb üstə o qədər dayanmaq ki, ta təlim olunan o mətləb uşağın öz malı, mali-mənəviyyəsi ola. Yəni onu bir daha əsla yadından çıxarmaya.
6) təlim uşağın öz təsəvvüratını açsın.
7) uşağın zəka və zehni, istedadi-təbiisi, fitrəti müəllim üçün müqəddəs gərəkdir hesab oluna.
8) məktəbin ən birinci məqsədi tərbiyə gərəkdir ola, yəni oxumağa, yazmağa çox da diqqət etməyib, uşağın ruh və əxlaqına, mənəviyyatına ziyadə diqqət etmək lazımdır.
9) bilik və bacarmaq bir-birindən gərəkdir ayrılmaya. Yəni bir şeyi əzbər bilməkdən savayı, haman şeyi bacarıb qayırmaq da gərəkdir ola.
10) müəllim ilə mütəllim yek-digərlərinə ata və oğul kimi gərəkdir məhəbbət edələr.
11) təlim gərəkdir tərbiyəyə bağlı ola.





Pestalotsinin bu qanunları indiyədək didaktika elmində mötəbər tutulur. Bugünədək Pestalotsinin ismi müəllimlər arasında böyük bir hörmətlə yad olunur.

Bəli, Henrix Pestalotsinin təlim-tərbiyəyə dair əfkar və təsəvvüratı, əqval və hərəkatı bu vaxtadək müllimlərə dəsturüləməl olduğu kimi, bundan sonra da gərək rəhnümalıq etsin, ibrət olsun. Qoca Pestalotsinin insaniyyətə, vətən və millətə o qədər məhəbbəti var idi, hamı malını, canını, ağlını, ruhunu, yetim uşaqların uğrunda sərf etdi. Axır nəfəsinədək hamını məhəbbətə dəvət edib, insanın tamam xoşbəxtliyini qəlbin bu sifətində görür idi. Uşaqlara şəfqət və məhəbbəti olmayan müəllimin təlim və tərbiyəsi bisəmər, binəticə qalacağını hər an aşkara bəyan edərdi. Haman bu təsəvvür ilə axırıncı nəfəsini tapşırdı. Fevralın 11-də, 1827-ci ildə özündən sonra iki cild kitabdan başqa bir şey qoymayıb o dünyaya köçdü.

Onun məzarına yazılan sözlər Henrix Pestalotsinin nə olduğunu göstərir! Haman daşda yazılıbdır: «Nehofda füqəra hamisi, «Linhart hitrotda» camaat vaizi, stansda yetimlər atası, Burqdofda, Münxenbuzazda məktəbi-milli banisi, İfertdə insanlar mürəbbisi və əlhasil hamının imdadına yetişib, hamı işi qeyriləri üçün görən, özü üçün heç bir iş görməyən saliki-dini İsa, vətənpərvər bir adamın qəbridir».

### Bu gün

Bu gün saat onda müəllimlərin ictimaı açılır. Bu gün bir yövmi-mübarəkdir! Bakı böylə məclisi əvvəlinci dəfə görür.

Bu gün Qavqazda cəmi müsəlman balalarının dərdlərinə dəva aranmağa başlanacaqdır. Bu gün insanın lisani-madərzadi, ana dili nə olmağı məlum olacaqdır.

Ana dili! Nə qədər rəfiq, nə qədər ali, hissiyyati-qəlbiyyə oyandıran bir kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətini, şəfqəti-madəranəsini sənə o dildə bəyan edibdir. Bir dil ki, sən daha beşikdə ikən bir layla şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqş bağlayıbdır! Bir dil ki, həyat və kainat haqqında ilk əvvəl o dil sayəsində bir fikir hasil edibsən, cism və ruhun möhtac olduğunu məvadi o dildə tələb eləyibsən...

Bir dil ki, ibtida o dildə yaxşı-yamanı bilibsən, səni yaradanı tanıyıbsan, haman dil ki, diyari-qürbətə, biganələr içinə düşəndə ona həsrət qalırsan. Lakin ittifaqən onu eşidəndə ürəyin döyünməyə, üzün gülməyə başlayır, cəmi əsabın təhəyyüc edir; beynin, fikrin, xəyalın işləməyə başlayır, bir dəqiqənin ərzində vətəni gözünün qabağına gətirirsən. Atan, anan, qohum-əqrəban, dost-aşnan, rüfəqan budur, durublar, guya səninlə haman dildə söhbət edirlər; bir az keçmiş uşaqlığın, oynadığın, durub-oturduğun, düşüb-qalxdığın yerlər bir-bir yadına gəlir, ürəyin daha ziyadə zərəbatə başlayır. Bu heyndə haman dildə bir «şikəstə» deyələr... Məsələn, oxuyalar ki:

Bu nəğmələri kimsə eşitməz rüfəqadən
Kim, çarə bulub eyləsin alamımı təskin.
Ah, oldu pərakəndə o cəmiyyəti-əhbab,
Heyhat ki, övdət edəməz ól dəmi-şirin.
Bir məclisi-biganəyə mən nəğməzən oldum,
Qəmgin oluram eyləsələr də məni təhsin.
Sevdiklərimi zalım ölüm, eylədi qurban,
Baqilərini dərbədər etdi yədi-hicran.
Bir silsilə şəklində gəlir xatirə təkrar və i.a.

Böylə oxunduqca, tərənnüm edildikcə nə kimi bir hiss duyarsınız? Nə kimi həzin əfkar və təxəyyülata qapılarsınız?!... Xeyr,





əfəndim! Qəriblik görməyibsən, illər ilə ana dilinə həsrət qalıb, o dildə bir nəğmə, bir cümlə eşitməyibsən, bu həzin, fəqət müqəddəs hissdə bulunan madərzad təşnəgisindən xəbəriniz yoxdur.

Böylə təbii, gözəl hissiyyatda bulunmayıbsan!..

Xeyr, haman qərib vilayətdə bir musiqi milli havalardan bir şey çalır. Sən cəmi vücudunda, cəmi ruhunla qulaq asırsan, həm qəmgin, həm də şad olursan. Həqiqət, nə halda bulunmağını dürüst anlamırsan. Ancaq musiqiçilərə istəyirsən deyəsən: çalınız əfəndim, çalınız» çünki bu çaldığınız ahəng mənim qəlbimin, ruhumun ən dərin guşələrindən xəbər verir!..

Elmi-musiqiyə heç aşna da olmasan, yenə belə bir halətlə bulunacaqsan. Niyə? Ondan ötrü ki, həmin ahəng və züm-zümədə validən deyən laylaların havasını sevirsən, onun məhəbbətini hiss edirsən. Onu görmürsən, lakin bir növ səsini eşidirsən. Yainki eşitdiyin əlhan və əsvatı ananın sədasına oxşadırsan!

Həqiqət, nə gözəl bir halət, nə səfalı bir saat!.. İndi desək mürur ilə təbii olan bu gözəl hissiyyatı məhv etmək istəyirdilər, təəccübmü edəcəksiniz?.. Məgər görmürdün? Anlamırdın? Yeni gözəl romanlardan hankısını öz dilinə tərcümə etdin, hankısını oxudun? Uşaqlarımız təhzibi-əxlaq və adaba dair hansı bir hekayələri öz dillərində oxudular? Qafqazda milli şairləri: Zakiri, Vaqifi, Vidadini yaxşımı tanıyırsan? Keçən ilədək hankı bir dərdini ana dilində yazıb-oxuyubsan? Bunlar nəinki olmayıbdır, hətta axır vaxt şəriətini ana dilindən iraq salmaq «istəyirdilər», bəli, «istəyirdilər» və özümüzdən «bir neçə adam», «istəyənlər» əl çalırdılar və hala da çalanlar əskik olmayıbdır.

Qoy çalsınlar! Lakin haqqı batil edə bilməyəcəklər. Bəşərin fitrət və təbiətində məknun olan hissiyyati-aliyeyn nabud edəməyəcəklər!.. Analarımızın laylalarını qulaqlarımızdan çıxarmayacaqlar, illər ilə bilüzum bir şey kimi ayaq altına atdıqları o kövhəri qiymətdən saqid ödəməyəcəklər. Ana dilimiz hər halda qüvvət tapacaqdır, yeni Füzulilər, Vaqiflər, Zakirlər, Vidadilər, Seyid Əzimlər meydana gələcəklər. Tolstoy, Turgenev, Qoqol, Viktor Hüqo, Zolya, Bayron, Şekspir, Şiller, Gete kimilər olmağını bilməyə öz lisanımız vasitə olacaqdır. Bəli, bugünkü müəllimlər ictimaı bundan ötrüdür. Müəllimlər bütün yaralarımıza çarəsaz olacaqlar, «bizi» ələm və iztirablardan xilas edəcəklər.

Xilas etməyə çarə və dərman tapacaqlar, tapıb da balalarımıza yeni üsuli-tədris ilə ana dilimizi, ana dilimizlə ehkami-şəriəti oxudacaqlar, hissiyyati-mütəhhəreyi-milliyyəmizi artıracaqlar, əqidəmizi təsfiyə edib, ona cila və qüvvət verəcəklər.

İndi bir sual: nə əcəb bu vaxtadək böylə fikirlərə düşmürdük? Yoxsa ana dilimizi əhəmiyyətsiz, fəqir bir dil hesab edib etina etmirdik? Yox əfəndim; firəng dili Avropada nə məqami-haiz isə bizim də ana dilimiz Asiyada o məqami-haizdir.

Lakin biz özümüz qədrini bilməyib, guşeyi-nisyanə atıb ehmal etmişdik, bəli «ehmal etmişdik» söyləyirəm, hürriyyət olmasa idi, dilimiz bu halətdən xilas olmayacaq idi, əsarətdən qurtulmayacaq idi. Yaşasın hürriyyət! Açılsın kor gözlər, ta görsünlər ki, bugünkü ictima hürriyyətin səbəbinə yığılıbdır.





**Doktor Nəriman bəy**

Qafqaziyanın ərbabi maarifpərvərindən olub, xidməte milliyəsi ilə məşhur olan, Doktor Nəriman bəy Nərimanov cənabları iki il müddətinə şəhərimizə göndərilmişdir.

Nəriman bəyin tərcümeyi-halının xülasəsi:

Nəriman bəy cənabları əslən tiflisli olub. 1871-ci ildə dünyaya göz açıb. 1882-ci ildə on yaşında Qori seminariyasına girib. 1892-ci ildə Qori seminariyasını bitirərək, Bakı şəhərinə gəlib. Tam 10 il Gimnaziyanın müxtəlif klaslarında və pansionunda Ana dili müəllimliyi ilə bərabər, mürəbbiliklə məşğul olmuşdur. Gimnaziyada müəllim olan vaxtlarının son illərində xüsusi çalışıb gimnaziyanın 8 klasından imtahan verərək, 1902-ci ildə Odessaya gedib Tıbbiyə məktəbinə qəbul olunmuşdur. Beş il yarım müddətinə Tibbiyə məktəbində təhsilini başa çatdıraraq, 1908-ci ilin oktyabrında Bakıya gəlmişdi. Bu arada bir çox müəllimlər cəmiyyəti olub. Bu cəmiyyətlərdə gözəl nitqlər iradı ilə əhalinin nəzər-diqqətini cəlb etmişdi.

Hanı müsəlmançılıq? Doğrudan da müsəlmançılıq adı altında dinsizlik! Əsəri olaraq, Nəriman bəy cənablarını hökumətə donos etmişlər.

Donosun xülasəsi:

Güya Nəriman bəy cənablarının son İran inqilabına çox yardımı dəyib. Hətta İran ixtilalının mənşə və mühərriki Nəriman bəy imiş. Nəriman bəy əldə edilərsə İran ixtilalı basılacaq deyə, dinsizlərin donosu biçarə Nəriman bəyi səkkiz baş ailəsindən ayırmışdır. Nəriman bəy cənabları havasını dəyişmək üçün Tiflisə gedib bir ay qalar-qalmaz idi ki, jandarmalar tərəfindən əhatə olunub tutulmuşdur. Halbuki, onun nə hökumətə qarşı, nə də İran ixtilalında əli olması barədə heç bir sənət-kağız yox idi. O, həbsdə olan müddətdə, öz əsərlərindən biri olan, «Rusiya konstitusiyasının müsəlmanlara faydası» adlı risaləsini yazmışdır. Təbiidir ki, bu risalə çap olunan zaman senzuradan keçəcəkdir.

Nə isə, Nəriman bəy cənablarının tutub tam yeddi ay həbs etmişdilər. Hazırda onun iki il müddətində Qafqaziyada olmaması üçün, iki il müddətlə şəhərimiz olan Həştərxana göndərilmişdir. Beləliklə biz o, ali cənabı Həştərxan müsəlmanlarına təqdim etməkdən fəxr edirik. Nəriman bəy cənabları oktyabrın altısında ölkədən şəhərimizə

gəlmişdir. Oktyabrın yeddisində Nəriman bəy Darul-ədəb məktəbinə gələrək, «Darul-ədəb»in müdiri və qəzetimizin baş mühərriri Mustafa Lütfi ilə bərabər, müəllim heyəti ilə görüşmüşdür. O, öz milli hissiyatının izharı ilə şəhərimizdə olacağı müddətdə «Darul-ədəb» məktəbinin fəxri doktorluq vəzifəsinə çatmışdır və bununla o, öz müqəddəs nailiyyətini və bəxtiyarlığını izhar edirdi və qəzetlərimizin Redaksiya heyətində iştirak edəcəyi barədə də söz vermişdir.

Nəriman bəy cənabları! Heç bir vaxt xatırınıza gətirməyin ki, mən məhbusam, həm də qəribəm. Xeyir, bəlkə siz bu xiyalatları heç vaxt xatırlamayacaqsınız, çünki ərbabi-maarif üçün yer kürəsinin hər bir yeri vətəndir, vətən! Siz millətin cohərisiniz, cohər hara düşsə, yenə də cohərdir. Cohərin qədr-qiyməti həmişə artar, hər kəs də o cohər ilə fəxr edər. İndi sizin kimi zat-aliləri ilə, Həştərxan müsəlmanları fəxr etsələr, yenə də azdır.

Yaşasın sizin kimi millətə xidmət edənlər!

Yerə batsın millət xadimlərini donos edən dinsizlər!





**200 Rubl iştiraf**

«Burhani Tərəqqi»nin 98-ci nömrəsində Qafqazdan iki il müddətinə Həştərxana göndərilmiş doktor cənab Nəriman bəyin Tərcümeyi-halını yazdığımız üçün, Həştərxan Qubernatoru Sokolovski cənabları bizi ikiyüz rubl iştiraf etmişdir. İştiraf verməyə qüdrətimiz yetməz isə iki ay həbsimizə qərar verib, bu gün də pristav idarəmizə gəlib, Qubernátorun qərarını oxuyub, iki yüz rublu alıb getdi.

Qubernator cənabları qərarnaməsində yazmışdır:

Восхваляющая преступную деятельность Нариманбека

Məyub olan Nəriman bəyi tərif etdikdən, 200 rubl «Burhani Tərəqqi» mühərriri Mustafa Lütfini iştiraf etdik.

İndi hökuməti – məhəlliyyənin haqqımızda çıxartdığı qərarın haqlı- haqsızlığını mühakimə etmirik və yazmaqda da məqsədimiz qubernator Sokolovski cənablarını tənqid etmək deyil. Bəlkə sansuri tənbehdir. Çünki hökumət ilə islam mətbuatı arasında senzor olduğundan, əksər sensurlarda qəzetlərin məslək və lisanına pək də vaqif olmadığından, əksəriyyətlə mühərrirlər məzlum qalır. Xüsusi ilə bizim senzor pamoşnikimiz İshaq İsgəndərov doğrudan-doğru bizim yazdığımız məqalələri ruscaya tərcümə etməyə qüdrəti olmadığından və İ.İsgəndərovun bizimlə şəxsi düşmənliyi olduğundan və eyni zamanda bunu Sokolovski cənablarının bilməsindən iki il bundan öncə «Darul-ədəb» haqqında Sokolovski cənabları Şuraye-İslam üzvlərini dəvət etmişdi. Direktor Amasov da o, məclisdə var idi. Yirmibeşə qədər olan məclis üzvlərinin qarşısında Sokolovski cənablarına dedim: Amasovun və İ.İsgəndərovun mənimlə şəxsi düşnanlıqları var. Bunu Sokolovski cənabları bilirdi və hal-hazırda o, doğrudan-doğru İ.İsgəndərovun tərcüməsinə etibar etməməli idi. Göndərməli idi Qazana, Peterburqda orada professorlara tərcümə etdirməli idi. Sonra əgər o cəzaya layiq olsaydı, o vaxt onu cəzalandırardı. İndi Sokolovski cənablarının iştirafa dair qərarnaməsindən başa düşürük ki, İ.İsgəndərov cənabları doğru tərcümə etməmişdir. Çünki biz «Burhani Tərəqqi»nin 98-ci nömrəsində Nəriman bəy cənablarını tərif etməmişik. Biz onun tərcümeyi-halını yazmışdıq. Biz ona insaniyyət naminə təsəlli vermişik, yəni demişik: cohərsən. Cohərin isə yerində qədri-qiyməti olmaz. Məsələn: Dənizdə balıq qarnında İncinin qədri-qiyməti yoxdur, nə vaxt ki inci balığını ovlayanlar, onu ovlayıb qarnından inciləri çıxartdılar, demək bu inci balıq qarnından

çıxması ilə qərib oldu. Amma qərib olsada qiyməti artdı və hamını bu cohər faydalandırdı. İndi Nəriman bəy cənabları neçə illər zəhmət çəkib Gimnaziyada müəllim olmuşdu, sonra Tibbiyə məktəbinə gedib təhsilini davam etdirib, doktor olmuşdur.

Doktorluq bir cohərdir. Haraya gedirsən get, istər Sibirə istər Afrikaya, istər Amerikaya getsə də. Cohər heç bir yerdə boş qalmayacaq, doktorluğu ilə insaniyyətə xidmət edib, məişət edəcək. Bunun üçün də Nəriman bəy yalqız deyil, yer kürəsinin hər bir yeri onun üçün Vətəndir.

O yalqız deyil. Nəriman bəy cənablarının bura gəlməsi Həştərxan müsəlmanları üçün bəxtiyarlıqdır. Çünki o, bir müsəlman doktor idi. Yerli müsəlmanlar, öz milli dillərini bilən doktordan daha gözəl istifadə edə bilərlər. Buna görə də yaşasın sizin kimi millət xadimi. Çünki Nəriman bəy kimi doktorlar, bütün insaniyyətə xidmət göstərənlərdilər. Nəriman bəy doktor olduğundan biz onun göstərdiyi və göstərəcəyi xidmətini tərif və tərğib etdik. Bu gün ruslarda Nəriman bəydən faydalanmasalar onlarda Nəriman bəyi tərif etməyə məcburdular. Biz onun hükumət nəzərində məhkum olduğundan tulayi tərif etmədik, demək bizim muradımızı sansorumuz İsgəndərov anlamamışdır. Anlamadığından öz kefinə tərcümə edib, bizi bu cəzaya məhkum etmişdir. İsgəndərovun müsəlmancadan ruscaya mükəmməl surətdə tərcümə etməyə qadir olmadığına dair biz də dəlil olaraq iki il bundan öncə 85 nömrəli Borhan-tərəqqi kanfiskavat olundu. 129-cu bənd ilə məni məhkum etdilər. Mən qəzeti Qazana göndərib prosessordan tərcümə etdirdim.

Tərcüməni Akrojoni sud qəbul edib sansor İsgəndərovun yanlış tərcümə etdiyi meydana çıxdı.

İştə hazırda Nəriman bəy cənablarının tərcümeyi halın yenə İsgəndərovun yanlış tərcüməsi və yalnış fikiridir.

İştə bir adamın yanlış tərcüməsi və fikiri ilə bir ailəyə zülm etmək ədalətdən uzaq bir işdır. Mənim 200 rublə verməyə imkanım yoxdur. Belə bir imkansız olduğum halda dostlarımdan borc aldım. Əgər dostlarımdan borc ala bilməsəydim, hökumət məni ailəmdən ayırıb iki ay həbs edəcək idi.





**Tibb və İslam**

Həyatın gedişinə diqqət etsək, görərik: Hər bir vücuda Allah Təala bir cür xüsusiyyət bəxş edibdir ki, öz həyatını uzlaşdırsın. Uzlaşdırmaqdan ötrü cürbəcür əlaclar yaradıbdır. Bu əlacları aramaq vücuda lazımdır. Vücud, bu hərəkətində, yəni öz həyatı üçün əlacları aramaq yolunda cürbə-cür manеələrə rast gəlir. Bu manеələrin hamısı birlikdə insan vücudunun puç olmağına səbəb olur...

Məsələn: Siçan özü üçün otaqda azuqə axtarır, bu otağın bir küncündə isə tələ qurulubdur, siçan tələdə çörəyi görüb ora girir. Tələ açılıb siçanı həbs edir və sonra evin sahibi siçanı öldürür. Və yaxud – həmin otaqda pişik də özü üçün azuqə axtarır, siçanı görüb onu tutub, özü üçün yem edir ki, həyatını üzlaşdırsın.

Digər bir misal: Allah milçək və hörümçəyi yaradıbdır və hərəsinə bir cür xüsusiyyətlər veridbir. Və bu xüsusiyyətləri uzlaşdırmaq üçün cür-bə-cür əlaclar yaradıbdır. Bunların ikisidə eyni qüvvədə olan həşərat sayılırlar. Bunların fərqli cəhəti barədə isə demək olar ki, xüsusiyyət cəhətincə milçək hörümçəkdən xoşbəxtdır. Çünki o uçmağa qadirdir, amma hörümçək yox. Beləliklə, çox vaxt görürük ki, milçək ayaqlarından hörümçəyin nazik toruna düşüb çabalayır və istəyir ki, xilas olsun.

Yaxud gedib görürsünüz ki, yuxarıda hörümçək öz torunda oturub milçəyi yavaş-yavaş yuxarı çəkir.

Bu nə olmalı?

Hal-hazırda həşəratın hərəkətlərindən nəyi başa düşməliyik?

Hörümçək yemək axtararkən, milçəyə rast gəlib, onu öz toruna salaraq, həyatı üçün yem etmək istəyir. Milçək isə torda olduğunu hiss edib, çalışır ki, özünü xilas etsin. Milçəyin bu azadlıq yolundakı hərəkəti, onun həyatının puç olmasına səbəb olur. Demək olar ki, onların ikisi də öz hərəkətlərini düşünmürlər. Demək olar ki, nə siçan pişikdən ötəri, nə də milçək hörümçəkdən ötəri yaranıblar. Pişik öz həyatını belə saxlaya bilər. Hörümçək isə birə ilə də dolana bilər, ancaq birə hörümçəyin toruna düşmürsə, onun səbəbi birənin balaca və cəld olmasıdır.

Bu misallardan aşkar olunur ki, Allah Təala, puçedici qüvvə hesab olunmur. Yəni demək istəyirik ki, Allahın yaratmaqda məqsədi bu deyil ki, yaranan şeylər bir-birini tələf etsinlər. Bəlkə demək olar ki, yaranmış vücud öz həyatını mühafizə edən vaxtda, ya özü puç olur,

ya da başqalarını puç edir. Hər iki surətdə «Hifzc-bədən» məsələsi aydın olur.

Ümumən həyata düzgün diqqətlə baxsanız, yəqin edərsiniz ki, bu böyük müharibə davamlı olaraq, bütün canlı mövcudatın arasında olur. Güclü gücsüzə qalib gəlib öz mənfəəti üçün onu məhv edir.

«Hifze-bədən» məsələsi ancaq canlı mövcudata aiddir. İstər həşərat, istər heyvanat, istər insan olmuş olsun. Ancaq fərqi burdadır ki, insan «Hifze-bədən»i öz ağlının köməyi ilə elm dərəcəsinə çatdırmışdır.

İnsanın bədəni, özlüyündə özünü mühafizə edərkən, ağlı artıq cürbəcür müalicələr tapmaqla daim ona kömək etməkdədir. Ağlın bu xidmətləri tibb elminin qüvvət tapmağına səbəb olubdur. Demək olar ki, tibbin başlanğıcı insan yaranandandır. Yəni, insan dünyaya gələn vaxtdan, başlayıb ətrafındakı bitkilərdən öz dərdinə dərman axtarmağa. Məsələn: necə ki, it azarlayan vaxt çölə qaçır. Çünki bir cür ot var ki, azarlamış (qudurmuş) itə xeyir edir. Əvvəllər insan da belə iti azar tapanda çarəsizlikdən çöl otlarından özünə dərman axtarırdı. O adamların tapdığı otların bir neçəsi bu günədək tibdə qalibdir. Məsələn; xina (kinə) otu, tiryak. Ancaq demək olmaz ki, keçmişdəki tibb, elm halətində idi. Xeyr, tibb elm dərəcəsinə sonradan çatıbdır. Yəni, o vaxtdan ki, insanlar tapdıqları dərmanların əsərlərini kimyanın gücü ilə tapmağa başlayıblar və bir azarın əlamətlərini başqa bir azarın əlamətlərindən seçə biliblər.

Tibb ancaq bu hala düşdükdən sonra elm dərəcəsinə çatmışdır.

Təəccüb burdadır ki, insan naxoş olan vaxtında, hətta bədəni sağlam olanda da elə şeylər yeyir ki, başqa vaxt onu yeməyə adət etməmişdi. Məsələn:eşitmiş olarsınız ki, uşaq və ya hamilə qadın kömür, təbaşir və ya başqa bir şeyi yeyirlər. Bunun səbəbi nə olmalı? Məlum olur ki, kömür və ya təbaşir yeyənin bədənində bir neçə lazım olan əcza əksik düşübdür. Məsələn: Tutaq ki, birinin bədənində ahənk (kərəc) az düşübdür. Əhəng bədənin əczalarındandır, sümükləri bərkitməkdən ötəri lazımdır. Lakın əhəngi və lazımsız əczaları təmiz halda insan yemir. Gündə yediyin xörəklərdə bədənə lazım olan əczalar vardır.

O vaxt bədən sahibi o şeyləri yeyir ki, onlarda əhəng olsun. Məsələn: Təbaşir, hansında ki, əhəng var. Bir adam duzlu yeyir, biri duzsuz. Bunların hamısı insanın xahişi ilə deyil, bəlkə bədən bunu





tələb edir. Bu əhvalat bədəndə «Hifze bədən»lik xasiyyətinin olmağını bir daha təsdiq edir.

Həmin bu əhvalat bizi məcbur edir ki, fikrimizi yekunlaşdırıb soruşaq: Azarın ilkin müalicəsini harada axtarmalıyıq? Dərmanlarda yaxud bədənin özündə?

## Tibb və İslam

Baxaq görək tibb cəhətcə dərmanların əsəri bədənə necə olur. Demək olar ki, dərmanların əksəriyyəti bitkilərdən alınır. Dərmanla müalicə etmək qədim Hipokrat vaxtındandır.

Hippokrat Yunan filosoflarından olub. O, tibbin atası hesab olunur. Çünki ondan sonra tibb, elm dərəcəsinə çatmışdır. Son vaxtlarda artıq tibb elminin tərəqqidə olmağı məlumdur. Bununla belə dərmanların faydası, azarlı bədənə bu günədək əksərən şübhəlidir. Bu barədə alimlərin məqsədləri ayrı olsa da, ancaq onların əksəriyyətinin məqsədi budur ki, dərman bədənə ancaq kimya cəhətincə əsər edir, təbii ya təbiəti əsər etmir. Yəni dərman azarlı bədənə daxil olanda onun əczası bədəndə olan əczalarla rast gəlib azarı saxlayır, qoymur artsın. Nəinki azarı birdəfəlik aradan aparır. Ola bilsin ki, dərman bədənə daxil olsaydı azar artardı. Dərmanın təbii əsəri bədənə yoxdur, söylədik.

Bu nə olmalı?

Belə fərz edin ki, bədənin içində yara əmələ gəlibdir. Məsələn: bağırsaq bir yerdən oyulmağa başlayıbdır. Dərmanda bu əsər yoxdur ki, bədənə daxil olanda və həmin oyulan yerə yetişəndə, onu bitişdirsin. Və yenə də söylədik ki, dərmanların çoxu kimya cəhətincə azarın ancaq artmağına mane olur, nəinki azarı aradan aparır. Beləliklə azarı tam aradan qaldıran nədir? Bu sualımızın cavabı yuxarıda qeyd olunan sualın cavabı olur. Yəni, azarın əvvəlinci müalicəsi harda axtarılmalıdı?

Əvvəlinci dərman, şübhəsiz bədənin özündədir. Əvvəlinci təbib isə bədəndir. Bədənin hər bir üzvü qadirdir əvvəl özünü sonra isə başqalarının bədənini bəladan saxlasın. Məsələn: Ürək, ağciyər, qaraciyər, böyrək və.s... və digər hiss damarları (bəziləri) həmçinin qulluğunda olub onu hər saat hər dəqiqə cürbə-cür bəlalardan hifz edirlər.

Bunlardan savayı qanın ağ hissəsi bədənin əvvəlinci təbibi hesab olunur

Bu nə olmalıdı?

Məlum olduğu üzrə insan və heyvanın qanı iki növdür: biri təmiz və ya al qandır ki, cərəyanlarda, biri də işlənmiş və siyah qandır ki, damarlarda cərəyan edir. Digər tərəfdən mikroskop ilə baxdıqda qanın özünün də iki hissədən ibarət olması görünür. Biri suya müşabə





olub (misli-dəm) təbir olunur. Əvvəl bir hissəsi də yumru-yumru şeylərdən ibarətdir. Bu yumru-yumru şeylərin bəzisi qırmızı bəzisi də ağ olduğundan birincilərə (krivate-həmra) ikincilərə (krivate-bəyza) deyilir. Yuxarıda söylədiyimiz qanın ağ hissəsini iştə bu «krivate-bəyza» təşkil edir.

Bitkilərə necə ki, su lazımdır, al qan da bədənə belə lazımdır. Lakin bədəni təsirat müzirrədən mühafizə etmək vəzifəsi, əsl qanın ağ hissəsinin işidir. Məzkur ağ cisimlər bədən üçün heyrətli bir hamidir.

O vaxt ki, xaricdən bədənə gözə görünməyən qurdlar, mikroblar daxil oldu, həmin vaxt yəni yuxarıda qeyd olunmuş krivlər (mikroblar -H.Ə) bədənin düşməni olan yerə bütünlüklə cəm olmağa başlar. Bu mikrobları puç etməyə, yaxud əritməyə nail olunur ki, o mikrobların bədənə zərərləri olmasın. Bu krivelərin bədəndə az olmağı azarın şiddətli olmağına səbəb olar.

Qəzetdə bu barədə geniş bəhs etmək mümkün deyil. Fəqət bunları söyləməkdə əsas məqsədimiz budur: Bədən həmişə bila-ixtiyar (insan və ya heyvan) qadirdir özünü zərərli şeylərdən mühafizət etsin ta o vaxta kimi ki, bədənin hamısı zərərli şeylərdən qüvvətlidir. O vaxt ki, bədən qüvvətdən düşdü zərərli şeylər bədənə güc gəlib onu püç edirlər.

Belə olan vaxtda demək olar ki, «nə qədər xaricdə və ya daxildə olan zərərli şeyləri bədəndən uzaq etsək, ehtimal var o qədər bədən çox yaşıya» bilər.

Yəni demək istəyirik ki, azarlı bədəni müalicə etməkdənsə onu əvvəlcədən azardan qorumaq daha məqsədə uyğundur

Tibbin bu şöbəsini, yəni elmi məsələlərini Peyğəmbərimiz Məhəmmədi (s) əlbəttə diqqətsiz qoymayıb. Biz deyirik, «əlbəttə» bizim təsəvvürümüzcə təbiətə müvafiq olan din ancaq islam dini hesab olunur. Peyğəmbərimiz insanın bədəninə düzgün diqqət edirdi və insanın əxlaq məsələlərini düzəldərkən, ruhunu təmizləyərkən, yəqin edibdir ki, ancaq insanın sihhət və ruhu təmiz olmalıdır. Bunun islamda lap qədimdən mövcud və yaxud vacib olduğu gərək bizi təəccübləndirməsin

Peyğəmbər buyurmuşdur: elm iki qismdir:

Bədənlər elmi və dinlər elmi.

Doktor Nəriman bəy.

## Tibb və İslam

Ola bilsin ki həqiqətdə ərəblərin tibb elmində tərəqqiləri əsasən bu səbəbə olubdur.

Feman alimlərindən (Libun) ərəblərin təbabətdə tərəqqilərini bu cür tərif edir: «Kimyanı ərəblər icad ediblər, tibbdə belə ki, təzə qayda üzrə müalicə etməyə başladılar azarı xəstəxanalarda təlim edirdilər. Üsul-i medavatda (əczaçılıqda) böyük xidmətlər göstərdilər. İlmu vazafil əda-yəni əzələlərin vəzifəsi elmi (Fiziologiya) ya, ədaye mərideye bədəni-(yəni, bədənin xəstə üzvlərini-H.Ə) Əmrad Umumyə Batlucya ya və ilmu hifzil sihayə-(yəni sağlamlığın qorunması elmini-H.Ə) təlim edib bunlara əsasən müalicə edirdilər. Razi Bağdadi və Əbu Əli Sina müsəlman təbiblərindən olub Avropada böyük şöhrət qazanmışlar. Xüsusən «Əbu Əli Sina» təsnifatı altı əsr ərzində Avropa dərulfununlarında hökm edilirdi. (yəni, tədris edilirdi-H.Ə).

Feman alimi belə yazır: yalnız ərəblərin tibb elmində tərəqqiləri peyğəmbərdən sonra olubdur. Hal-hazırda bizim məqsədimiz bu deyil, biz İslam şəriətinə görə «hifzu bədən» yəni, bədənin qorunmasının necə olduğunu biləkk. Belə şərafətinə İslamda çox artıqdır! O dərəcədə artıqdır ki, hətta bir neçə vacib elmlər öz güclərini itirirlər. Məsələn: Şəriətə görə şərab içmək olmaz, amma tibb yəqin etsə ki, azarlı bədən üçün lazımdır, naxoşa şərab və ya qeyri şeylər dərman kimi halal olar və ya yox:

Şəxs özü azarlı vəziyyətində, ya da qocalığına, yaşının çoxluğuna, bədənin gücsüzlüyünə görə və.s, hamilə qadın və süd əmizdirən qadın özünə və ya uşağa zərər olsa belə məqamlarda oruc vacib deyil (amma xəstəlikdən sonra tutmaq vacibdir).

İslam səfər üstündə orucu vacib görmür. Çünki səfərdə olan adam üçün çətindir, vaxtında lazımi yeməyi yesin, belə ki, bədənə zərər yetişməyə. Bu çətinlik nəinki qədim yolların xarab halətində və bəlkə də hazırda da vardır. Yuxarıda deyildi ki, gücdən düşmüş şəxsə oruc vacib deyil, o vaxt ki, aclıq ona zərər yetirə. Bunun səbəbi aydındır. Gücsüz bədən vaxtında yemək almayıb gücdən düşsə onun tez puçolmaq ehtimalı var. Həddi buluğa çatmamışa oruc vacib deyil. Bunun səbəbini tibbdə aramalı. Məlumdur ki, uşaq səhərdən axşamadək oynamaqla məşğuldur, yəni uşağın bədəni çox vaxt hərəkətdə olur. Xüsusən əzələləri: İnsan bədəni lamiyədə-yəni





normal vəziyyətdə neft yanan kimi həmən vaxt yanır və bədənin çox hərəkətdə olmağı yanğının çoxluğuna səbəb olur. Yanğı çox olduqca məslahədə artıq işlənir. Bunu aşkar nəzərə götürmək üçün iki lampanı misal götürək. Lampaların neft qabları bərabər ölçüdə olmalıdır. Lakin birinin pilitəsi ikincidən iki dəfə enli olmalıdır. Bu iki dolu lampaları bir vaxtda yandırsaq əlbəttə piltəsi enli olan lampada neft tez qurtarar. İkinci lampada neft qurtaranadək qabı doldurmaq lazımdır. Həmin bu qayda bütün heyvan bədəninə, həmçinin insanın həmin vaxt yanmaqda olarkən yanğının çoxluğu bədənin hərəkətinə bağlıdır. Yanğı çox olduqca bədənin gücü də azalır, güc azaldıqca yeməyi tez-tez tələb edir. Böyüklər bir və ya iki dəfə yemək yeyərkən, uşağın vaxtı məlum deyil: «nə zərər» Uşaq axşamadək ac qalıb bədənə lazım olan xörəyi axşam da yeyə bilər? Bizdən sual edə bilərlər? Mümkündürmü? Tibbə diqqət edirik: bu yaşda uşağın üzvləri artmaqdadır, yəni balacanın bədəni saatda, hər dəqiqədə güclə boy atır və balacaların günlük yeməyində onun boy artımına səbəb olan dərmanlar var. Ona görə uşağa vaxtında yemək verilsə üzvlərin və ya bütün bədənin qayda üzrə boy atmağına, inkişafına səbəb olur. «Bədən» sözünü işlədib nəzərdə sümük tuturuq. Uşağın sümükləri ananın bətnində olarkən qırtlaq halında olur. Dünyaya gəldikdən sonra da sümüklərin çoxusu həmən halda olur. Sonradan yavaş-yavaş «sümüklənirlər» Məs: insanın qol sümüyü ancaq 12 yaşında tamam olur. Elə sümük vardır ki, daxildə gec «sümüklənir». Tutalım ki, hər saatda yeyən uşaq oruc tutur, 8-10 saat ac qalır. Bəlkə aclıq ona çox əziyyət verəcəkdir. Çünki oynadıqca bədən qüvvətdən düşür. Qüvvətə gəlmək üçün yemək lazımdır. Oda yox...

İkinci üzvlər və bədənin boy artımına səbəb olan dərmanlar uşağın gündəlik yeməyindədir. Oda yox...

Şübhəsiz bu hər iki halda bədənə zərərdir. Axırda bədən cürbəcür xəstəliklər tapar...

İndi əmin olduq ki, naxoş qocanı və uşağı daimi yeməkdən uzaq tutmaq olmaz. Artıq aydın oldu ki, İslamın bu barədə olan qanunları tibbi qanunlarına uyğundur. «Hifzu bədən» yəni «bədənin qorunması» məsələsini İslamın və tibbin təsvirincə müxtəsər nəzərdən keçirib, elmi-səhhətə, yəni sağlamlıq elminə qayıdırıq. Baxaq görək İslamda sağlamlıq elmi nə cəhətdən və nə cür zahir olur. Bu məsələlər çox qarışıq olduğundan 4 fəsildə bəyan edirik ki, onlar bunlardır:

1. Paklıq 2. Vaciblər 3. Yemək və içmək 4. Murdar heyvanlar

## Tibb və İslam

123-cü nömrənin ardı

I.Təmizlik, «Elme-sihhət»in birinci şərtlərindəndir. Təmizlik barəsində cürbəcür təsəvvürlər olsa da, İslam qanunları bu barədə «Elme-sihhət» ilə uyğun gəlir.

İndi baxaq görək, həm elme sihhətdə, həm də islam qanunlarında təmizlikdən məqsəd, bədəni azardan qorumaqdırmı?

Təmizlik barəsində müsəlman alimləri minlərcə kitab yazıb bu məsələni bir cür izah ediblər. Məsələn: paltar, yer, məskən, yeyiləcək və içiləcək şeylərin barəsində, axar suyun, göl və ya quyu suyunun barəsində, quyuya heyvan ölüsü düşməsi və ya düşüb orada ölməsi və qabın içində olan yeməli şeylərin barəsində. O vaxt ki, qabın içinə siçan və yaxud onun bovlu düşsə. Belə məsələlər həm şəriəti həm də elme sihhəti geniş surətdə əhatə edir və onlardan burada ətraflı danışmaq qeyri mümkündür. Ancaq ümumi qayda belədir:

Əvvəllər təmiz, sonradan isə pak olan şeyləri, su ilə, od ilə, günəş şüası ilə və ya qaynatmaqla, pak etmək olar və yaxud hər hansı quru və ya yaş bir şey, parak olduqda, onu məhv etmək olar.

Suyun pak etmək xüsusiyyəti barədə hələlik bəhs etmirik, çünki bu oxucular üçün aydındır, biz odun və günəş şüasının sirrini araşdırmalıyıq.

Günəş şüası və od mikrobların məhv olmasına səbəb olur. (söylədiyimiz kimi, mikroblar gözə görünməyən qurdlardırlar son vaxtlar alimlərin təsəvvürünə görə bütün azarların səbəbi mikroblardılar. Hər azarın bir mikrobu var, onlardan bəzisi bu günədək tapılıb, bəziləri isə tapılmayıbdır.)

İslam yaş ilə quruya fərq qoyur. Bu məsələ diqqətə layiqdir. Qurudan quruya zərər yoxdur, amma əgər bir şey, yaş parak şeyin vasitəsi ilə parak olsa, buna səbəb nədir?

Mikroblar ancaq nəmlik və yaşlıqda dirilib, artmağa başlayırlar. Quruluq isə mikrobların hərəkət etməməsinə və ya məhv olmasına səbəb olur.

II-Suyun, təmiz etmək xidmətləri fərizələrdən bizim üçün aydındır. Məsələn: Təharətdən başlayaq. Gündə beş vaxt namaz qılmaq vacibdir. Namaz qılan şəxs gərək namazdan qabaq əllərini, ayaqlarını və üzünü yuyub, ağzını çarxalasın. Ancaq namazın





vaxtlarına da diqqət etmək lazımdır. Səhər, (gün çıxmamışdan qabaq) Günorta (günorta yeməyindən qabaq) İlkindı (axşam çağından qabaq) Şam (qaranlıq düşdükdən sonra) Xiftən (axşam yeməyindən sonra). Bu beş vaxtda yeməkdən qabaq, dəstəmaz üzvlərini yumağın, bədənə çoxlu faydası var. Bu üzvlər həmişə açıqlıqda, tozlu və başqa əşyalarla əlaqədə olub havada, tozda, əşyaların üstündə həmişə minlərcə mikrob ola bilər.

Həmçinin insanın ağzında da cürbəcür mikroblar ola bilər. Saqqalda və bığda isə daha çox ola bilər. (Buna görə də müsəlmanlara bığlarının qabağını aldırmaq, səbəbsiz deyil)

Bəli, bu üzvləri yumaqla, şübhəsiz insan bədəninə zərər olan şeyləri özündən uzaqlaşdırır.

Bundan savayı, namaz vaxtındakı insanın hərəkətləri, oturmaq, durmaq, əyilmək, əlləri qaldırmaq-bunların hamısı bədənə son dərəcə xeyirlidir. Təbii müalicələrdə də bu cür hərəkətlərdən etmək lazımdır. Sübh tez durmaq bədənə çox xeyirlidir. Təharət, bununla qurtarmır. Müsəlman gərək bədəninin bütün üzvlərini həmişə pak və təmiz saxlasın, elme sihhət baxımından da həqiqətən bu lazımdır. Çünki o şeyi ki, bədən, özündən ayırır (daldan ya qabaqdan) nəinki bədənə lazımsızdır, bəlkə zərərlidir.

Bunlardan savayı İslamda, bir də Qüsl var. Ümumiyyətlə bütün qüsllar elmi sihhət baxımından fövqüladə əhəmiyyətli və faydalı bir işdir. Qüslun, insanı cürbəcür yaman və qorxulu xəstəliklərdən qoruyacağına heç bir şübhə yoxdur. Cinsi əlaqələrdən, xüsusi ilə visləti parakdan sonra hasil ola bilən cürbəcür azarlardan, yaralardan,. Çibanlardan insanı və insanın eyiblərini bir dəfəlik aradan aparan çarələrdən biri də qüsl və təharətdir.

Buna görədir ki, insan çox vaxt «şanqır»lardan, yəni, «qorheye linə»dən və axırı siflis kimi bədənin ümumi və müzmin bir xəstəlik ilə nəticələnən «qorheye müttəsiliyyə»dən xilas ola bilər.

Bizim dildə «kift» və kotobe tibbiyeye cədidə «daəfrəne» dilinin siflisin nə qədər pis və sarı bir azar olduğu məlumdur.

Bu cür azarların səbəbi mikroblar olsalar da, ancaq natəmizlik bu mikrobların artıb çoxalmasına səbəb olur.

Məlum olduğu kimi, insanın dərisi deşik-deşikdir. Ancaq «məsamat» deyilən bu deşiklər çox balaca olduqlarına görə, gözə görünmürlər və çox vaxt dəri çatlayır, xüsusi ilə o vaxt ki, qaşınsın.

Yuxarıda zikr olunan azarların ağıları dəridə olan çatlarda düşməsə də, dərinin üstə qalxıb, sonradan bədəni yaman azarlara salırlar. Lakin yuyunmaq çox vaxt insanı bəladan xilas edir. Yeri gəldikdə, burda, xitnənin mənasını da deyirik: Demək olar ki, xitnə olunmamış şəxs bu azarları xitnə olunmuş şəxsdən tez tapar, yəni demək istəyirik ki, xitnə olunmamış şəxs bu azarları asanlıqla tuta bilər. Çünki gəlfə dinan dərinin arasında ehtimal var ki, yuyandan sonra çirk qalsın və həmən çirkdən sonra azar əmələ gəlsin. Ondan savayı artıq dəridə cırmaq və ya çatlaq olar. Şübhəsiz demək .olar ki, bu azarları tutanların arasında,xitnə olunmamışların sayı, xitnə olunmuşların sayından daha da çoxdur. Hal-hazırda Avropada da xitnə olunmaq yavaş-yavaş yayılıb.

Doktor Nərimanbəy





**Tibb və İslam**

125-ci nömrənin ardı

İslam haram olmuş içkilərin fəsad və zərərindən, məgər az adamı çəkindirmişdir? Bu içkilərdən bədbaxt olanları özünüz hər gün, hər saat görürsünüz.

Xiristyan dövlətlərində, xüsusən rus dövlətində «Obşestvo tresvosti», yəni «ayıqlıq cəmiyyətləri»nin ixtira və düzəltdiklərinə siz özünüz şahidsiniz. Milyonlarla pul xərc olunur ki, xalq bu yaman bəladan xilas olunsun.

Amma heç bir faydası yoxdur, araq yenə də öz təsirini göstərir. Milyonlarla adamın həyatı məhv olur. Əxlaqlar pozulur. Cürbə-cür bəlalar gətirilir. Milyonlarla uşaq ayaqyalın, başı açıq qalıb, acından həlak olur.

Baxaq görək, bu son zamanlarda tibb elmi içkilərə hansı nəzəriyyə ilə baxır? Bütün o içkilər ki, insanı təbii halətdən çıxardıb, kefləndirir, onlarda alkol, yəni, spirt var. İçkilərin bəzilərində spirt az, bəzilərində isə çox olur. Professor cənab «Şəmid Bəyrəğ» spirt barəsində belə yazır: «Spirt bədənin suyunu çəkir və bədənə lazım albomini, yəni, yumurta ağı misilli əczanı çürüdür. Ona görə spirti, xüsusən arağı çox işlədəndə mədənin və həmçinin bağırsaqların iç pərdəsi qabar olur.Bu səbəblərə görə qarın həmişə azarlı olur, ora daxil olan xörək yaxşı həzm olunmur».

Cənab Professorun bu qısa sözlərində çoxlu mənalar var. Mədə və bağırsaqların xarab olmasından sonra, bütün bədənin nə hala düşəcəyini təsəvvür edin!...

Spirtin və ümumiyyətcə bütün içkilərin hiss damarlarına çoxlu zərərləri var. Son vaxtlarda, ümumiyyətlə, həkimlər qutsuz naxoşlara çaxırı az-az içməyi məsləhət görsələr də, indiki alimlərin fikirlərinə görə bu da zərərli sayılır.

Spirt, qara ciyərdə, böyrəkdə və başqa üzvlərdə bir çox naxoşluqlar yaratdığı kimi, bir çoxunun da, məsələn: (kift-in, süzənək-ində) şiddətlənməsinə və artmasına səbəb olur.

Bunlardan başqa spirtli içkilər ayrıca bir xəstəliyə səbəb olur ki, adına «alkaqolizm» deyilir.

İslam insaniyyətə böyük bir xidmət göstərərək, bu spirtli içkilərin hamısını qadağan edib.

İndi isə, dördüncü fəsildən bir neçə söz: Məlumdur ki, İslam dininə əsasən bir neçə heyvan murdar hesab olunur, yəni o heyvana əl dəyəndə yumaq lazımdır, o heyvan bir qabı yalasa onu təmiz yumaq lazımdır. Məsələn: İt zahirdə çox təmiz, ağıllı və mehriban ev heyvanlarından biridir. Ancaq şəriətə görə, itə əl vurduqdan sonra onu yumaq lazımdır və yaxud it bir qabı yalasa, onu qumlayıb təmiz yumaq lazımdır. Bunların səbəbi nədir?

Bu son zamanlarda aşkar olunubdur ki, itin ağzının suyunda cürbə-cür mikrob olur. Bu mikrob insan bədəninə daxil olanda çox tez artmağa başlayır və bədənə əziyyət verir. Bu mikrob hətta irs ilə də keçə bilər. İtin ağzında başqa bir mikrob da var ki, ondan «eknokok» naxoşluğu əmələ gəlir. Yaman pis bir xəstəlikdir, operatsiyasız ondan xilas qeyri mümkündür

Bu sözlərlə «Tibb və İslam» məsələsini sona çatdırırıq. Ancaq bu məsələni meydana gətirməkdən məqsədimizin nə olduğunu, gələcəkdə açıqlayacağıq.





**Muhirrirat (yazılar)**

**Cavabı? ya «hədərən pədərən»**

«Burhani-tərəqqi» qəzetinin 132 və 133-cü nömrələrində cənab Hacı Əli Əsğar Əliyevin uzun-uzun guya bizə olan cavabını oxuduq. Biz deyirik «guya» çünki iki uzun məqalədən ancaq bunu başa düşdük ki, cənab Hacı Əli Əsğarinin fikrində bizə cavab yazmaqvarmış, ancaq əlinə qələm götürəndə əsil mətləbi unudub xozeyn Ağa Əli Əkbər Hacı Hüseynova «Vəkil» olmağı bütün işdən vacib bilibdir.

(Biz heç bir məqaləmizdə ad çəkməmişdik, çünki bizim üçün Xozeyn ya qeyri Xozeyn birdir. Biz ümumi işi nəzərdə tutub iş görən Kim iş görməyən Kim məsələsi barəsində yazırıq. Hazırda Xozeyn Ağa Əli Əkbər Hacı Hüseynovaun adını yazmağımıza cənab Əliyev səbəb oldu.» Xülasə bizim «Peri Qaspiski Qray» qəzetində (nömrə 39) İran xeyriyyə cəmiyyət barəsində yazdığımız məqaləni: «Burhani-tərəqqi» qəzeti tərcümə etmişdir. (nömrə 129) bu məqaləmizi diqqətlə oxuyanlar nə barədə yazmağımızı yəqin bildilər və düşündülər. Biz məqaləmizdə aşkar sual veririk: Bir il ərzində xeyriyyə cəmiyyəti nə iş görübdür?» və bir də cəmiyyətin sədri Xozeyn Ağa Əli Əkbər Hacı Hüseynovun işi bacarmamağı barəsində yazmışdıq.

İndi bizi tənqid edənhərif Cənab Hacı Əli Əsğar Əliyev gərək yaza, əfəndim siz səhfsiniz xeyriyyə cəmiyyəti bir il ərzində bu işləri görübdür, filan məktəbi açıbdır, filan kasıblara kömək edibdir, filan adamları qoymayıbdır quru yerlərdə can verməyə və.s və belə ki, gərək yazaydı cənab sədr «Xozeyn» Ağa Əldi Əkbər bu işləri görübdür və cəmiyyətə bu xidmətləri göstəribdir.

Cənab Hacı Əldi Əkbər Əsğar ya görünür məqaləmizi anlamayıbdır ya ömrü boyu ruznamə oxumayıbdır ki, bilsin tənqid nədir və ya da tənqid yazmağı «dəlalək» bilib öz mənfəəti üçün bir «işi» tərif etmək sanır. Hansının doğru olduğunu bilmirik yalnız bunu duşunürük ki, cənab Hacı Əli Əsğar Əliyev Hacı Tərxani «çoxdanışmağı sevir» Məsələn yazır: Sən əgər millətpərəstsən niyə müsəlman qəzetini qoyub rus qəzetində yazırsan? Və niyə 70 ildə «Atababası» bu vilayətdən olan möhtərəm və hörmətli rus qəzetlərinə salırsan» Sonuncu sualına «Burhani-tərəqqi» idarəsi cavab veribdir. Anlayan üçün bu da kifayət edər, yalnız nə isə istəyirik düz-düzünə cavab verək. Cənab Əliyev rus qəzetində yazmağımızın səbəbi siz

kimlərini və xozeyn kimlərini ayıltmaq, iş gördürməkdir. Çünki, «sizi kimlər» ruslardan tez utanırsınız nəinki, öz adamlarımızdan qoruyursunuzmu cənab Hacı Əli Əsğar Hacı Tərxani Yurkənzədən necə xəbər veririk?!

Əfəndim! «siz kimilər» öz qəzetlərinizdən, öz maarifpərəstlərinizdən çəkinmirsiniz, utanmırsınız. «Sizlərə» İvan İvanoviçin qəzetində söz yazmaq lazımdır o zamana qədər ki, «Sizlər» İvan İvanoviçin görəndə qızarasınız.

Görəsən! Müsəlman qəzetlərində bu altı ayın ərzində xeyriyyə cəmiyyətinin cavab vermməsi barəsində azmı yazıldı? Adulər arasında «nəitmək, nə çarə qılmaq, bir iş görmək olmur. Çünki, xozeyn bizi «birinci günü» çağıra bilmir, başqa vaxtda bizim işimiz olur» kimi sözlər azmı söylənildi? Niyə iş görmədiniz? Əfəndim! 20 il millət və insaniyyət yolunda zəhmət çəkmiş bir maarifpərəst müsəlman sizi dəvət edibdir:

Cəmat Allah xatiri üçün, vətən və millət xatiri üçün bu dağılmış məktəbi açsanız xeyriyyə cəmiyyəti bu müqəddəs işə qarışsın. O vaxt ki, məktəb onun bunun əlində olub, sabah deməsinlər ki, biz vermirik və məktəbdə bağlansın.

Görəsən hörmətli şəxslər! Bu maarifpərəst müsəlmandan necə ûtanmadınız? Siz həmən məclisdə söz verdiniz ki, məktəbi xeyriyyə cəmiyyəti qəbul etsin? Niyə bəs ilin ortasında uşaqları pərakəndə qoyub müqəddəs işi quyuladınız?

Cənab Hacı Əli Əsğar həzrətləri deyirlər guya cənab konsul məktəb ədalarına məktəb haqqında dəvətnamə və əanələri üçün kiftansiya göndərib. Siz ədalar gəlməmisiniz və əanələr göndərməmisiniz. Hətta adınızın altına (qəbul etmirik) deyə yazmısınız. Bu xəbər yalansa mən sözlərimi geri götürürəm, doğrusa vay sizin halınıza. Əfəndim həzrətləri! Görürsünüzmü, hiss edirsinizmi? Sizlər öz qəzetlərinizdən, öz adamlarınızdan utanmırsınız və utanmağa tərbiyə olmursunuz. Sizi kimilərə «pereqaspiski qraylar Astarxanski listuqlar təsir edir.»

**134-cü nömrənin ardı**

Sizlər diqqət edirsiniz. Belə ki İvan İvanoviçlər, Pyotr Sergeyeviçlər sizə demişlər: Qospadin Hacı Əli Əsgər və ya Qospadin Hacı Hüseynov sizin barənizdə nə yazıblar? Bu İvanların qəzetləri sizin kimilərini «qeyrətə gətirir. Yəni demək istəyirik ki, sizin nəinki milli şəxsi namusunuza toxunurda kar qulaqlarınızı şiş edirsiniz, kar





qulaqlarınızı açırsınız utanan utanır, utanmayan əlinə qələm alıb cəfəngiyat yazır... İndi gəlin baxaq bizim «pri-qaspiyski krayda» yazmağımız bir nəticə verdimi? Əlbəttə, cavab veririk: indi eşidirik «cəmiyyəti xeyriyyə» məktəbinin tikilməsinə iki min manat sərf edəcəkdir, yəni məktəbi cəmiyyəti xeyriyyəni öz ixtiyarına alacaqdır, yəni biçarə maarifpərəst bir müsəlmanın on ay bundan əvvəl söylədiyi sözlərini indi qəbul edirsiniz, ancaq bu səbəbə ki, rus qəzetində sizi meydana çəkdilər. Nə isə, biz «bir günah» etdik, rus qəzetində yazdıq və yazmağımızın nəticəsi məktəbin dirliyi oldu. Bizə bu xəbər böyük şadlıq gətirir. Biz küçələrdə indi «müzəffəriyyə məktəbinin» yetimələrini görəndə üzlərinə baxıb gülümsəyirik, öz-özümüzə deyirik, şükürlər olsun ki, məqsədimizə çatdıq. Bu yetimlərin üzlərinə gün yenə doğacaqdır. Amma vay olsun o kimsələrin halına ki, vaxtında iş qurmayıb bu biçarə yetimlərin küçələrə düşmələrinə səbəb oldular. Vay bunların halına ki, «qəbul etmirəm» sözlərini yazıblar! Görəsən bunlar zavallı yetimləri görəndə üzlərinə baxırlarmı? Ya baxıb da fikirlərindən nələr keçir? Cənab Hacı Əli Əsgər əfəndimiz! Siz də bu yetimlərə rast gəlirsinizmi? Rast gəlirsinizsə gözlərinin içinə baxarsınız, ürəklərindəki fikirlərini gözlərində oxuyarsınız, oxuyub da düşünərsiniz bu yetimlər işıqdan məhrum olmuşlar, guya istəyirlər bağırarlar: dağılın «qara buludlar» tainki (o vaxta qədər-H.Ə) gün çıxsın! Bizim həyatımız onun şəfəqinin gücünə ancaq davam edə biləcək!! Yol veriniz bizə ey vətəndən bixəbərlər. Bəlkə biz Vətəndə analarımızın, bacılarımızın namusuna uzanan əlləri gələcəkdə gödəldək!!! Göz gərək bu sözləri oxusun qulaq gərək bu dəhşətli bağırtını eşitsin.

İndi qəbiristan işində vəkil seçmək məsələsi barəsində də yazaqmı? Yenə də Cənab Əli Əsgər «kişinin» bir gözünü düzəltməkdənsə, o birisini də kor edir, yəni qohumu «xozeyni» sıfə cavqartı, dəxi biçarəni bədnam ediyor... Tutalım seçki düz olmadı. Əcaba nə səbəbə həmin zaman protesto etmədiniz? Biz də deyirik seçki düz deyilmiş! Yenə cənab Xozeyn ağa Əli Əkbər 35 ildə qlasnı ola-ola seçkinin düz olmağını bilmədi və əgər bildisə, nə səbəbə həmən məclisdə protesto etmədi? İvanlardan xəbər olandan sonra hay-haray salırsınız: Seçki qanuna müvafiq deyildir. Əsil mətləb bu deyil, əsil mətləb (odur ki,)-nə səbəbə xozeyn bu işdə hökmən vəkil olmaq istəyir? Eşitdiyimizə görə yenə də seçki olub, cənab xozeyn vəkil seçilibdir. İndi bu seçki düzmü? Xozeyn və Səfərova yeşik

qoyubsunuz. İkinci dəfə Səfərovu seçkiyə daxil etmək üçün ondan izinsiz ixtiyarınız vardımı? Bir adam ki, cəmiyyətə rəyis olubda, bununla asan işləri düşünməyə, onun sədir olmağa ləyaqəti yoxdur... Bir adam ki, üzərinə gələn ləkəni təmizləyə bilməyə maarifpərəst arasında hörmətə layiq ola bilməz.

«Günəş» qəzetində qəbiristan yerinə dair bir balaca işarə var idi. Oxudunuzmu, əfəndim həzrətləri! Yoxsa yenə də «müsəlman qəzetidir» deyib də rahat oldunuz? Ah biçarə qazetlər! Görürsünüzmü, eşidirsinizmi sizin barənizdə cənab Hacı Əli Əsğər Əliyev Hacı Tərxana nələr yazır! «Bəzi qəzetlər» şəxsi qəzetlərini və ya dostlarının xahişlərini millətpərəstlik bəhanəsiylə nəşr etməkdən çəkinmirlər». Afərin bu sözlərin sahibinin ağlına, kəmalına, tərbiyəsinə və vicdanına! Kaş bu sözləri yazan vaxt qələminiz sınaydı, mürəkkəbiniz quruyaydı. O zaman qəzetlər haqqında belə bir yalan, böhtan, iftira yazmazdınız! Biz bu günə kimi bir mollayla fikir mübadiləsi edərkən Müfti əfəndi həzrətləri bu sözlərini söylədi: «Bu zamana qədər ümumiyyətlə mollalar müqəddəs şəriəti hiss və idraksız xalqın fikrinə tabe qılıb, onların keyflərinə münasib və müvafiq edib, mənən şəriətin həqiqi mənasını anlatmırdılar. Daha doğrusu «Qurani Kərimi» anlatmırdılar». Biz Müfti həzrətlərinin ümumiyyətlə fikirlərini qəbul edirik. Lakin bu sözlərinə qoşulmuruq və iştirak etmirik (mollalar «Quranı» xalqın keyfinə tabe edirlər) Çox gözəl olardı ki, Müfti həzrətləri bu sözün yerinə bunları söyləyəydi: «mollalar öz keyf və kisələrinin faydasına tabe olub «Quranı Kərimi» də öz şəxsi mənfəətlərinə tabe edəydilər. Buna Müfti həzrətləri bu cür sözlər tapsaydı daha uyğun olardı. Biz də təslim olub razı olardıq. Çünki bu söz həqiqətə yaxındır. Çünki ümumiyyətlə mollaların hiss və idraksız xalqın fikirlərinə tabe olmalarında heç bir məna yoxdur. Zira madam ki, xalq hissizdir və idraksızdır, onlar yalnız mollaların ağızlarına tabedir və mollalar yalandan-doğrudan nə desələr xalq etibar edib inanacaq. Belə bağlılıq vicdanən mollalara lazım idi ki, həqiqətən doğrunu söyləsinlər.

Bu sadə xalq bir yığın yazanın içindədir. Nə əkərsən, ək, onu biçərsən. Necə tərbiyə versək həmin tərbiyəni alacaqlar. Çünki sadə, heç bir şeydən məlumatı olmayan xalqa düzgün olmayan bir məsələ söyləsən onlar heç vaxt etiraz etməzlər ki, bu belədir. Nikolay neyçün bunu eləmədi.Xalqımızın içindən yaxşı bir kişi tapılıb çıxsa xalq hər





zaman bu adamın arxasında durar, hətta öz var yoxlarını, bəlkə canlarını da qurban edərdilər.

İslamın vəziyyəti belə idi. Bu münasibətlə biz burada bir məsələyədə diqqət etməliyik, Beləki: Müsəlmanlarla xiristianlar arasında maddi və mənəvi cəhətdən tarixi olaraq fərqləri var idi. Beləki, Xiristianların hökumətləri ilə ruhaniləri ayrı idilər. Bunlar bir arada hər vaxt müharibə etmir. Hökumətlə ruhanilər bir-birlərinən anlaşa bilmirdilər. Bu səbəbdən xiristian xalqı ruhanilərin asan-asan nüfuzlarından xilas ola bilirdi. Amma müsəlmanların ruhaniləri ilə hökumətləri hər zaman birgə tapıb yediklərindən ayrılmırdılar və onların arasına müharibə var idi. Hər vaxt ruhanilərlə hökumət məmurları birgə bulub? Daha doğrusu müsəlmanların maddi və mənəvi inkişafı həmişə ruhanilərin nüfuzu altında olardı. Bunun üçün ruhanilərimiz hiss və idraksız xalq üstündə öz nüfuzlarını ali və müqəddəs bir dərəcədə tutub, öz mənfəətlərini təkcə xalqının sadəliyində tapardılar və ruhanilərimiz xalqını öz tabeliyi altında saxlıyardılar. Qurani Kərim bütün insanların səadəti üçün nazil olduğu halda ruhani atalarımız xalqın cəhalətindən istifadə nöqtəsini tutub avam xalqı əsarətdə saxlayardılar. Xalq təkcə Qurani Kərimin mənasını deyil həm də beş vaxt qıldıqları namazın nədən ibarət olduqlarını bilmirdilər. Quran ilə xalq arasında keçilməsi qeyri-mümkün olan divar tapıb bu divarın daşı və kərpici müctəhid, şeyxülislam və müftilər olub palçığı bu cür mollalar və mərsiyəxanlar idi. Xalq əyilib əllərini yuxarı qaldırıb cənabı Allaha nəzir-niyaz etdikdə nə söyləyəcəklərini bilmirdilər. Yalnız xalq özünün Allaha yalvarmağını bilirdi. Amma digər sözləri başa düşməyib nə üçün soruşduğunu bilmirdi. Mollalar xalqına yalnız təcvidi qaydada Quran oxudar, mənasını başa salmazdı. Ruhani atalarımızın yalnız öz mənfətləri üçün belə şeylər lazım idi. Çünki mollalarımız hər gün bir ayənin mənasını xalqa anlatsaydı xalq bütün Ayələrinin tərcüməsini istəyərdilər. Mollalar belə olacağını bildiklərindən başladılar xalqa söyləməyə ki, Quranın tərcüməsini bilmək lazım deyil. Çünki ərəbcənin sözü çox çətindir, buna görə Quranın tərcümə edilməsi səhv olar. Əcəba görəsən Quranın mənasını ruhanilərimiz nə üçün gizləyirdilər.

**Aman anlamaz əlindən!**

Cənab «Məşhur» 20-ci əsrdə məktəb barəsində «Qəbul nədarəm» (qəbul yoxdur) yazan Hacı Əli Əsğər Hacı Tərxani «Burhani-tərəqqi» qəzetini yorubdur. İndi «Ədl» qəzetində çabalayır. Onun çabalamağı bizi bir tərəfdən güldürürsə, o biri tərəfdən qəm dəryasına mübtəla edir. Necə etməsin? Biz deyirik: Cənab Hacı Əli Əsğər Hacı Tərxani XX əsrdə məktəb açmaq xüsusən də «Qəbul nədarəm» yazmaq nadanlıq əlamətidir. Bunun müqabilində cənab Hacı bizə deyir: «Sənə nə?» «Bu sənə nə» sözləri və bu sual cənab «möhtərəm» Hacını başından ayağlarınadək bildirir. Belə bir adam ilə nöqtə və ya kəlmə söyləşmək qeyri-mümkündür. Bu səbəbə görə biz hazırda gözəl vaxtımızı küçələrdə gəzən «qələm lotularının» boş sözlərinə (hətərən-pətərənlərinə) sərf etməyəcəyik. «Burhani-tərəqqi» qəzetinin 134 və 135-ci nömrələrində yazdığımız sözlərə davam edirik. Fəqət Cəmiyyəti-Xeyriyyə və onun sədri cənab «Xozeyn» Ağa Əli Əkbər barəsində yazmağımızın səbəbi nə oldusa əhli maarif yaxşı bilir. Bu məsələni bizdən əvvəl Qafqaz qəznələri meydana gətirmişdilər. «Karlara korlara» bu məsələni anlatmaq olar. Hər halda bu məsələ barəsində yazmağı «Burhani-tərəqqi»nin baş redaktoru Mustafa Lütfi əfəndiyə həvalə edirik. Çünki, bu cənab cəmiyyəti-xeyriyyənin üzvü olubdur. Bütün işlərdən mükəmməl xəbəri var. Öz vicdanına uyğun (müvafiq) şəkildə yazsın ki, hər bir «qələm lotuları»nın ağzı yumulsun. Yoxsa: Biz məktəb davası edəcəyik. Cənab Hacı Əli Əsğər çənəsini boş qoyub «hətərən-pətərən» sözləyəcək və axırda da deyəcək «sənə nə var?» Bunun axırı olacaqdır. Doğrudur kağız hər bir şeyi qəbul edir. Fəqət oxuyanlara da gərək yazığımız gəlsin. Buna görə biz sözümüzü tamam edirik, amma axırıncı dəfə Cənab Hacı Əli Əsğər Tərxaniyə deyirik: Əfəndim! Sizin kimilərdən biz hər bir şeyi qəbul edirik. Sizin qulluğunuzda olmağa hazırıq. Məktəb, məktəb, məktəb açın! Allah xatirinə viran qoyduğunuz məktəbi tezliklə açın. Əgər yenə bizdən sual olunacaqsa «sənə nə?», biz məcburuq deyək: Əzizim! Biz istəmirik gələcəkdə balalarımız Hacı Əli Əsğər vücudunda, Hacı Əli Əsgər kamalında, Hacı Əli Əsğər tərbiyəsində, Hacı Əli Əsğər «qələm lotuluğunda» olsunlar. Düşündünüzsə haydı məktəbi açın. İndidən «Qəbul nədarəm» (Qəbul yoxdur) sözünü qaralayırıq. Anlamasanız «Aman anlamaz əlindən» deyib sizinlə sözləşməkdə özümüzü məğlub hesab edirik.





**Məktəbyaşlı uşaqların döş qəfəsinə diqqət yetirmək nə üçün zəruridir**

Ümumiyyətlə, canlıların və xüsusilə insanın orqanizmi başlanmış həyatı davam etdirməyə qabildir. Bunu ayrı-ayrı orqanların fiziologiyasından, onların bəzilərinin axırıncı məhsulundan və bu orqanlar arasındakı ağıllı ahəngdarlıqdan da görmək olar.

Məsələn, ürəyin fəaliyyətinə diqqət yetirək; o, işləmək üçün bir dəfə təkan almış və işləyir; o, təkcə işləmir, həm də şəraitə, həm özündə, həm də digər orqanlarda baş verən patoloji dəyişikliklərə uyğunlaşmağı bacarır.

Belə fərz edək ki, orqanizmin müəyyən bir sahəsi nəyə görəsə adi vaxtlarda olandan daha artıq miqdarda qan tələb edir, ürək isə, məsələn, normal şəraitdə dəqiqədə 75 dəfə vurur. Belə bir iş şəraitində yuxarıda göstərdiyimiz sahə qan çatışmamazlığından zərər çəkə bilər. Bu olmasın deyə ürək müəyyən vaxtda müəyyən sahəyə lazımi miqdarda qan çatdırmaq məqsədi ilə daha tez-tez sıxılmağa başlayır.

Bütün bunlar insanın iradəsindən asılı olmayaraq edilir.

Daha bir misal göstərək: böyrəklər sidik hazırlayır; orqanizmdən ayrılan sidik orqanizm üçün zərərli olan məhsulları çıxarır. Əgər böyrəklərdən birinin funksiyası azalmış və ya böyrəklərdən biri çıxarılmışdırsa, o zaman sağlam böyrək, orqanizm müntəzəm olaraq zəhərlənməsin deyə, bütün işi öz üzərinə götürür. Belə güclü iş şəraitində o iki dəfə böyüyür.

Əgər faqotsitoz haqqında Meçnikovun nəzəriyyəsini də, orqanizmin özünümüdafiəsinə misal kimi, buraya əlavə etsək, bizim yuxarıda söylədiyimizi təsdiq etmək üçün kifayət edər. Həmin fikir isə beladir: Orqanizm həqiqətən bir dəfə başlanmış həyatı təkcə davam etdirməyə deyil, həm də özünü orqanizm üçün zərərli olan ünsürlərdən mühafizə etməyə qabildir.

Əgər bu beladirsə, onda biz yalnız orqanizmə köməyə gəlməli, təbii inkişafına manc olmadan onu kənar zərərli ünsürlərdən qorumalıyıq. Orqanizm üçün kənar zərərli ünsürlərdən danışarkən, biz burada elə mikroorqanizmləri göstərməklə kifayətlənirik ki, onlar insan orqanizminə düşən kimi, sürətlə çoxalmaq üçün orada əlverişli şərait tapırlar. Onlar çoxaldıqca zəhər buraxır və bu zəhərlə orqanizmi bu və ya digər formada zəhərləyirlər.

Bütün yoluxucu xəstəliklər: yatalaq, vəba, taun, vərəm və i.a. buna misal ola bilər.

Lakin biz burada onlardan danışmaq istəmirik. Bizim məqsədimiz sizi xarici şəraitlə tanış etməkdir ki, həmin şərait bu və ya digər yolla orqanizmin təbii inkişafına maneçilik törədir, beləliklə də xəstəliyin əmələ gəlməsi üçün əlverişli şərait yaradır.

Xəstəliklərə həssas olmaq nə deməkdir?

Yuxarıda biz demişdik ki, hər bir orqan ayrılıqda və bir-biri ilə əlaqədə, fasiləsiz olaraq işləyərək, təkcə orqanizmi saxlamağa çalışmır, həm də onu zərərli ünsürlərdən mühafizə edir.

İki subyekti götürək: onlardan biri tez-tez, həm də bəs deyincə spirtli içki — araq içir, digəri heç içmir. Alkoqol proplazmatik zəhərdir; o, suyu sıradan çıxarır, zülalı laxtalandıraraq, ümumiyyətlə selikli qişaya və xüsusilə də mədənin selikli qişasına məhvedici təsir göstərir. Əgər bu belədirsə, siz heç də təəccüb etməyin ki, tez-tez alkoqol qəbul edən adam mədə katarından daim əziyyət çəkəcək, daha doğrusu, daim spirtin təsiri altında olan selikli qişa yeməyi həzm etmək üçün lazım olan mədə şirəsini vaxtında ayırmaq qabiliyyətini itirəcəkdir. Bir sıra batsillalara, xüsusilə vəba batsillasına öldürücü təsir göstərən duz turşusu da mədə şirəsinin tərkibində olur.

Doğrudan da vəba batsillaları yemək və ya su ilə sağlam mədəyə düşdükdə duz turşusunun təsiri ilə buradaca məhv olub gedir.

Lakin mədənin selikli qişası müəyyən vaxtda müəyyən qədər duz turşusu ayıra bilməsə, vəba batsillaları bütöv şəkildə və heç bir zərər çəkmədən mədədən bağırsağa düşəcəkdir. Bağırsağın şirəsində onlar sürətlə çoxalmaq və beləliklə də orqanizmi zəhərləmək üçün əlverişli şərait tapacaqlar. Buna görə də təəccüblü deyildir ki, vəba epidemiyası zamanı birinci subyekt heç vaxt spirtli içki qəbul etməyən ikinci subyektdən daha tez xəstəliyə tutulur.

Biz bunu, daha doğrusu, birinci subyektin vəbaya tutulmasını xəstəliyə meyllilik adlandırırıq. Başqa sözlə desək, məlum orqan bu və ya digər formada orqanizm üçün təhlükəli olan momenti duymaq qabiliyyətindən məhrum edilmişdir.

Deməli, bu orqanı qorumaq və ya düşmənlə mübarizəyə hazırlamaq lazımdır. Mədə ilə əlaqədar gətirdiyimiz yuxarıdakı misaldan göründüyü kimi, orqanların iş qabiliyyətini saxlamaq məqsədi ilə onları bu və digər dərəcədə mühafizə edə bilərik.





Elə orqanlar vardır ki, onların inkişafı və ya normadan kənara çıxması bizim özümüzdən asılıdır.

Məktəb yaşında döş qəfəsinin inkişaf etdirilməsi ilə əlaqədar olaraq bizim ciyərlərimiz məhz belə orqanlardandır. Biz ona görə məktəbyaşlı deyirik ki, məhz bu yaşda uşaqların döş qəfəsi bu və ya digər dəyişikliyə uğrayır.

Döş qəfəsi nədir?

Döş qəfəsi öz formasına görə konusa yaxınlaşır. Divarı döşdən və qabırğa qığırdaqlarından, arxa divar onurğa sütunu və qabırğa hissələrindən, böyürdən isə sonuncudan ibarətdir.

Döş qəfəsinin formasının dəyişilməsinə dair sonrakı söhbətimizi daha aydın başa düşmək üçün döş qutusundakı sümüklərin anatomiyasına və onların bir-biri ilə əlaqəsinə burada qısaca da olsa toxunmaq lazımdır.

Fəqərədən başlayaq. Fəqərə sütunu dörd əyridən ibarətdir. 1) ön çıxıntı ilə birlikdə 7-ci boyun fəqərəsinin yaratdığı boyun; 2) 12 döş fəqərəsinin əmələ gətirdiyi döş; 3) 5 bel fəqərəsi ilə əmələ gəlmiş bel; nəhayət, 4) irəliyə doğru əyilmiş birləşmiş dörd sümükdən ibarət uc əyriləri.

Burada ona diqqət yetirmək lazımdır ki, boyun və bel əyriləri anadangəlmə deyildir. Birinci uşaq boynunu tutmağı öyrəndikdə, ikinci isə o yeriməyi öyrənəndə əmələ gəlir. Döş və sağrı əyriləri anadangəlmədir.

Biz burada bu fəqərələrin xüsusiyyətləri və onların birləşmələrinin təsiri üzərində ətraflı dayanmayacayıq, yalnız onu deyəcəyik ki, bu onurğalar bir-birinin üzərində yerləşir. Onların hər ikisinin üzərinə toxunan qığırdaq vardır. Qabırğaların başı söykənən iki fəqərənin yanlarında da belə oynaq səth vardır. 12 cüt qabırğadan 7 cütü yuxarıda yerləşir və əsil qabırğa adlanır. Bu əsil qabırğaların ucları bilavasitə döş sümüyünə söykənir, 5 cüt yalançı qabırğa isə öz aralarında qığırdaqla və sonra isə döşlə birləşir, 11 və 12-ci qabırğalar əzələlər arasında sərbəst dayanır. Qabaq tərəfdə üç hissədən ibarət döş sümüyü yerləşir. Onlar bir-biri ilə lif şəklində qığırdaqlı toxumalarla birləşir. Fəqərə və qabırğaların hərəkəti haqqında bir neçə söz. Məsələn, boyun fəqərələri bel fəqərələrinə nisbətən hərəkətlidir və s. Ümumiyyətlə, fəqərə sütunu 28 dərəcəyədək dönə bilir.

Fəqərələrin digər hərəkətləri yığalanma və əyilmə zamanı baş verir. Qabırğaların hərəkəti bir-birinə qarşılıqlı surətdə per-

pendikulyar olan üç oxun yanında baş verir: 1) uzununa üfiqi — bu zaman qabırğanın yan hissəsi qalxır, bunun nəticəsində bütün qabırğaların qalxması ilə döş qəfəsinin həcmi eninə genişlənir; 2) eninə olan oxun yanında qabırğanın qabaq qurtaracağı qalxır, bunun sayəsində qəfəsin qabaq-arxa həjmi genişlənir; 3) eninə şaquli oxun yanında — qabırğanın qabaq qurtaracağı irəli çıxır ki, bunun sayəsində də döş qəfəsinin həcmi eninə genişlənir.

Ümumiyyətlə, belə hərəkətlər zamanı döş qabırğaları yuxarı qalxır və irəli çıxır, çünki üst qabırğalar aşağı qabırğalara (əsil qabırğalara) nisbətən gödəkdir. Böyük radius isə böyük qövs jızır.

Döşün aşağı hissəsi yuxarı hissəyə nisbətən daha çox irəli çıxır.

Beləliklə, bütün bu hərəkətlər nəticəsində döş qəfəsinin tutumu ya böyüyəcək, ya da azalacaqdır.

Yuxarıda biz qabırğaların fəqərə sütunu ilə əlaqəsindən bəhs edərkən göstərdik ki, qabırğaların başı fəqərələrə birləşmişdir. Yuxarıda deyilənlərdən o da məlumdur ki, fəqərələr bu və ya digər tərəfə hərəkət edirlər. Əgər bu belədirsə, başları həmin fəqərələrə möhkəm birləşmiş qabırğalar da əyilmə, yırğalanma, fırlanma zamanı bu və digər vəziyyəti qəbul edəcəkdir. Başqa sözlə desək, fəqərələrin bu və ya digər forma alması bütövlükdə qabırğaların forma almasına təsir göstərəcəkdir. Buradan da aydın olur ki, fəqərə sütununun əyilməsi, qabırğaların da əyilməsinə səbəb olur.

Fəqərənin əyilməsindən danışarkən, biz burada «məktəb skolyozu» haqqında bir neçə misal gətirməklə kifayətlənəjəyik.

Təsəvvür edək ki, oğlan yazı zamanı aşağıdakı vəziyyəti almışdır: o, budunun orta hissəsi ilə skamyanın qırağında əyləşmişdir, sol çiyin aşağı, sağ çiyni isə yuxarı dayanmışdır: sağ dirsək stolun üzərində çox uzağa uzadılmışdır, baş çəpinə sağ tərəfə əyilmişdir. Beləliklə də, sağ çiyin oynağı elə bir tərpənməz nöqtəni xatırladır ki, bədənin demək olar ki, bütün yuxarı hissəsi ondan asılıdır, əzələlərin hərəkəti ilə fəqərənin döş hissəsi sağa, çiyninə doğru dartılır. Buna görə də sümük əmələ gəlməsi ləngidikdə və ya zəif getdikdə zərif bədən quruluşuna malik olan qızlarda və yaxud da zəif orqanizmli, ya da raxitli uşaqlarda yazı zamanı bədən pis vəziyyətdə dayandıqda sol tərəfə təsir edən təzyiq sümük əmələ gəlməsini atrofilləşdirir və ya ləngidir.





Buna müvafiq olaraq bədənin vəziyyətinin qeyri-düzgün olması sayəsində sümüklərin kifayət qədər inkişaf etməməsi nəticəsində skolyoz inkişaf edir.

Skolyoz — fəqərənin bir tərəfə əyilməsi — çox zaman 6—14 məktəb yaşlarından baş verir. Eulenbergə görə 1000 skolyoz halından 877-si məhz məktəb yaşlarında baş vermişdir.

Fəqərənin bu cür əyilməsi ağ ciyərlərin inkişafına təsir göstərirmi? Ağ ciyər yerləşmiş yuxarıda təsvir etdiyimiz döş qəfəsini təsəvvürə gətirək. Əgər ağ ciyərin daxili pərdəsi hər tərəfdən ağ ciyərin səthini örtürsə, onun xarici pərdəsi bilavasitə qabırğaya söykənir. Əgər bu belədirsə, fəqərənin əyilməsi, qabırğanın əyilməsinə səbəb olmaqla eyni zamanda ümumiyyətlə döş qəfəsinin əyilməsinə səbəb olur, bu isə istər-istəməz ağ ciyərlərin inkişafına mənfi təsir göstərir.

Doğrudan da, nəfəsalma zamanı döş qəfəsi özünün elastikliyi (qabırğa qığırdaqlarının və bağlamalarının elastikliyi) sayəsində ciyərlərin genişlənməsindən asılı olaraq genişlənməyə çalışacaqdır. Əgər döş qəfəsi əyilmiş və onun müəyyən bir hissəsi elastikliyini itirmişdirsə, onda ağ ciyərlərin bu əyriyə uyğun gələn hissəsi nəfəsalma zamanı tam şəkildə genişlənməyəcəkdir. Bu vəziyyətdə ağ ciyərlərin həmin hissəsi kifayət miqdarda oksigen qəbul etmək imkanından məhrum olacaqdır. Bundan başqa, ağ ciyərlərin bir hissəsi qaz mübadiləsində zəif iştirak etdiyinə görə həm də pis qidalanacaqdır.

Elə bunun özü, ümumiyyətlə ağ ciyər xəstəlikləri və xüsusilə vərəm xəstəliyi üçün əlverişli şərait yaradacaqdır.

Bir tərəfdən hazırkı ağır ictimai və iqtisadi şəraitdə və digər tərəfdən vərəmin dəhşətli surətdə yayılması onu deməyə əsas verir ki, hamımız bu xəstəliyə məruz qalmışıq.

Doğrudan da, Kox batsillalarından özünü qorumaq çox çətindir! İndiyədək bizə ancaq biri məlumdur: ağ ciyər vərəmi (irsi olmayan) nəfəsalma zamanı tozla vərəm çöpjüklərini qəbul etmək nəticəsində əmələ gəlir. Əgər bu belədirsə, kim zəmanət verə bilər ki, o bu gözəgörünməz çöpcükləri qəbul etmir. Əlbəttə, heç kim! Lakin bəs nə üçün hamı vərəmə tutulmur?

Bu suala cavab vermək üçün biz, hər şeydən əvvəl, ona patoloji-anatomik cəhətdən nəzər yetirək: məsələn, insan qarın yatalağından ölür. Patoloji-anatomik açıb-baxma (meyiti yarmaq yolu ilə)

zamanı, daha doğrusu ağ ciyərləri tədqiq edərkən vərəm qabarcıqlarını da tapırıq.

Sağlığında isə bu adamda vərəmin heç bir nişanəsi olmamışdır. Yuxarıda dediyimiz qabarcıqlar heç şübhəsiz ki, vərəm çöpcüklərinin məhsuludur. Lakin bu adam vərəmdən deyil, başqa xəstəlikdən ölmüşdür.

Beləliklə də, biz əgər aşağıdakıları desək heç də səhv etmərik: vərəm çöpcüklərindən heç kəs zəmanətli deyildir, yəni heç kim deyə bilməz ki, onun ağ ciyərlərində bu çöpcükdən yoxdur. Əgər bu çöpcüklər bəzilərinə öldürücü zərbə endirir, başqalarına isə təsir göstərmirsə, bu onun nəticəsidir ki, bəzi adamlarda bu çöpcüklər inkişaf etmək, artmaq üçün əlverişli şərait tapır, başqalarında isə nəinki artmır, hətta xüsusi şərait nəticəsində məhv olur, özlərindən sonra zəif bir iz qoyurlar.

Bu xüsusi şərait nədir? Bu, məhz canlı hüceyrənin, bu halda isə ağ ciyərlərin və bütün orqanizmin canlı hüceyrələrinin mühafizə qabiliyyətidir.

İndi yəqin aydındır ki, döş qəfəsinin qeyri-düzgün inkişafı, onun əyilməsi, bu səbəblərdən asılı olaraq ağ ciyərlərin zəifləməsi, bütün bunlar ümumiyyətlə ağ ciyər xəstəlikləri və xüsusilə vərəmin inkişafı üçün əlverişli şərait yaradır. Bu bəlanı necə dəf etmək olar? Əgər biz biliriksə ki, böyüməkdə olan uşağın döş qəfəsi bu və ya digər şərait nəticəsində öz formasını dəyişir və beləliklə də ağ ciyərlərin normal inkişafına mane olur, bu sonuncu isə ağ ciyərlərin müdafiə qabiliyyətini zəiflədir, onda təkcə məktəb partalarına deyil, həm də yazı zamanı düzgün oturmağa, uzun müddət hərəkətsiz halda bir yerdə əyləşməyə, ümumiyyətlə, uşaq və yeniyetməlik dövründə dərindən və düzgün tənəffüsə mane olan hər şeyə fikir vermək lazımdır.

Sonra açıq havada keçirilən fiziki təmrinlər vasitəsi ilə döş qəfəsinin inkişafına kömək göstərməklə həm də ağ ciyərlərin iş qabiliyyətinin artmasına, onların zərərli ünsürlərlə mübarizəsinə kömək etmək olar.

**Doktor Nəriman-bəy Nərimanov.**





## Baxçasaray imtahan meydanı

İsmayıl bəy öldü deməyə dilim gəlmiyor. «Öldü» Sözündə bir yokluk var. İsmayıl bəy yokdur xəbəri bəni dərin-dərin fikirlərə salıyor, gözlərimi torlandırıyor, aklımı çaşdırıyor. ***Şiddətli bir müharibədə baş komandanın ölümü əsgərləri şaşırtdığı gibi, İsmayıl bəyin vəfatı da bizi böylə hala saldı.***

İsmayıl bəy öldü derkən bir sual öz-özündən meydana gəliyor. İndi millətin dəyanətli, qeyrətli koruyucusu kimdir? Bu sualı öz-özümə verirəm, fikrə gedirəm, kalemim əlimdən ixtiyarsız düşüb gidiyor.

Millətin hayatına dair mühüm bir məsələ müzakirəsində doğru yol göstərən kim olacak? Hanı gizli xəzinənin açarı? Hanı fikirləri birləşdirən akıl? Ürəkləri açayan nutk ifa edən kim?

Millət bu suallara dürüst dikkat edərsə bədbəxtliyinin nə dərəcədə böyük olduğunu düşünər (anlayar-H.Ə).

Açıq söz, bu 32 yıl zarfında İsmayıl bəyin millətə etdiyi xidməti hiç kim etməyibdir.

Fəqət millət üçün umutsuz yaşamaq mümkünmü?

***Şəksiz İsmayıl bəyin ruhu millət balalarından özü Kimisini meydana çıkaracakdır. Fəqət nə etmək, nə tavr hərəkət etmək gərək ki, İsmayıl bəy gibi kahramanlar çokalsın"? Əlbətdə, tərbiyə diyəcəksiniz. Əlbət, əfəndim, tərbiyə! «Millət uğrunda bütün ömrümü sərf edən şəxsi millət unutmamalıdır!»- sözlərini balalarımıza nasıldüşündürmək (anlatmak-A.A.) və hətta onlara göstərmək lazımdır.***

Böylə bir tərbiyə vermək üçün çok yollar vardır. Fəqət mən burada iki yol göstərmək istərəm.

***Birinci yol: İsmayıl bəyin millətə etdiyi xidməti mükəmməl surətdə açık lisan ilə yazıb intişar etmək.***

***İkinci yol: baxçasarayda İsmayıl bəyin qəbri üstünə millət tərəfindən bir taş vəz edib, o taşa: «Millətin sənin gibi kahramanı unutması kəndi həyatını kayb etməsi deməkdir» səzlərini yazmaq gərəkdir.*** Əvvəlinci məsələ, yəni İsmayıl bəyin xidmətləri haqqında kitablar yazmak muariflərimizə, ədiblərimizə aid isə, ikinci məsələ ümum millətə dair bir məsələlədir.

Açıq söyləyəlim, bu məsələ milləti imtahan meydanına dəvət edib diyor: «... səndə milli his oyanıbsa kəndi hüququnu düşünməyə, bismillah, imtahan meydanı açıkdır. Sənin yolunda bütün ömrünü sərf edən, sənin hüququnu müdafiə edib, axır nəfəsinə qədər səni kurtuluş yoluna dəvət edən şəxsin qəbri səndən ancaq böylə bir taş gözlüyor...»

Fəqət bu taş ümum millət taşı olmalıdır

Bir adamın məsrəfi ilə qoyulan taşın 'mənası yokdur. Gələcək balalarımıza böylə bir taşın təsiri olmaz.

Bu taş ümum millət parasına qoyularsa, gələcəkdə balalarımız bu taşı görüb millətin millət xadiminə olan məhəbbətini düşünər, (anlayar), hiss edər.

Sabirimiz, Tukayımız · ümum millətdən böyle bir taş alamadılar. Sabirimizi Rusiya müsəlmanları, Tukayımızı Kafkaz müsəlmanları bilməlidilər...

İndi İsmayıl bəyə sözümüz nədir? ***İndi bu məsələdə də boş boğazlıqdan qeyri bir şey meydana gəlməz isə əmin olunuz · millətin baş taşı üzərində bu sözlər yazılacaqdır: «Millət İsmayıl bəy gibi kahramanını unutdu və kəndi də qeyb oldu».***

İşdə imtahan meydanı açıqdır.

**Həştərxanda mollaların və tatar məktəbləri müəllimlərinin yığıncağındakı nitqindən.**

**1918-ci il 20 dekabr**

Kilsənin dövlətdən və məktəblərin kilsədən ayrılması xüsusundakı dekret çoxlarının başını qızışdırıb və fitnə-fəsadçılar da fürsətdən istifadə edərək müsəlman camaatı arasında belə yalan xəbərlər yayırlar ki, guya tez bir zamanda Şura hökuməti məscidləri bağlatdıracaq və sair...

Bəs kilsəni dövlətdən ayırmaq nə deməkdir? Bu, ancaq o deməkdir ki, kilsəni, dini dövlətin təsirindən azad etmək lazımdır. Bu o deməkdir ki, ruhanilər, mollalar, keşişlər kənardan heç bir təsir olmadan istədikləri dini, şəriəti təbliğ etsinlər. Kilsəni dövlətə tabe





etmək mollalara, keşişlərə pul, qızıl, vəzifə, rütbə verib satılmaz və alınmaz əsil dinin tələblərini deyil dövlətə lazım olan şeyləri təbliğ etməyə məcbur etmək deməkdir. Din, iman azad olmalıdır. İman şəxsi bir işdir; bu, hər bir şəxs üçün müqəddəs olan hissdir; onu satmaq və almaq olmaz, zorla bir adamı bir dinə gətirmək olmaz. Nikolay keşişlərinin, missioner İlminski kimilərinin nə kimi işlər gördüyü hamınızın yaxşı yadındadır. Bunlar pula, rütbəyə və vəzifəyə satılaraq sizin içərinizdə xristianlığı yayırdılar. Rusiya müsəlmanlarının baş ruhanisi olan bizim müfti Sultanov da rus dövlətinin sabiq çarı Nikolayın puluna casus sifətilə Məkkəyə getmişdi. Budur, belə biabırçı şeylər olmamaq üçün, dinin, imanın, hər bir şəxsin və müəyyən bir xalqın müqəddəs hissinin təhqir və rəzil edilməməsi üçün bəlanın kökünü çıxarıb atmaq lazımdır. Bəlanın kökü isə haman oradadır ki, imperialist dövlətlər, zadəganların, bəylərin, xanların, mülkədarların dövlətləri hakimiyyəti öz əllərində saxlamaq istəyərək və sadə camaatın avamlığından, sadəlövhlüyündən istifadə edərək dini, daha doğrusu müəyyən bir dini nəzəriyyənin vaizləri də öz düşmənləri olan fəhlələrlə və kəndçilərlə mübarizə aparmaq üçün əllərində bir alət edirlər.

Məsələn, hamı Avropa dövlətləri, İsanın buyurduğuna əməl etmək əvəzinə (kimsəni öldürmə) qanlı müharibə aparırlar. Xristian və müsəlman ruhaniləri isə nəinki susub səslərini çıxarmırdılar, hətta məscidlərdə qardaş qırğını müharibəsi ideyasını vəz və təbliğ edirdilər.

Görürsünüzmü, dövlətin təzyiqi altında ruhanilərin pozğunluğu nə yerə gəlib çıxır...

Uşaqların ruhani tərbiyəsini bu kimi ruhanilərə tapşıra bilərikmi? Şura hökuməti isə tərbiyənin əsasını zəhmətdə, siyasi vicdanla, bərabərlikdə, qardaşlıqda görür. Şəriət dərsinin nə cür keçildiyi bizə də, sizə də yaxşı məlumdur. «Yaxın Adamı, özünü sevən kimi sev» ideyasını təbliğ etmək əvəzinə, talançılıq ideyasını təbliğ edirdilər. Bu müntəzəm surətdə baş verən talanlara səbəb nə idi? Bu müstəbid çar məktəbi tərbiyəsinin nəticəsi deyildimi?

Bizimkilər nə edirdilər? İsanı böyük Nəbi, böyük Peyğəmbər olaraq tanıyırdılar, onun ümmətini isə kafir adlandırırdılar. Yəhudi xaxamları da bizimkilərdən dala qalmırdılar. Yox, Şura məktəbində buna dözmək olmaz. Şura məktəbinin vəzifəsi uşaqlara sosializm-qardaşlıq ruhunda, bərabərlik və azadəlik ruhunda tərbiyə verməkdir.

Nəhayət biz deyirik: vicdan azad olmalıdır, din, iman isə vicdan işidir. Biz uşaqları bu və ya başqa dinə iman gətirməyə məcbur edə bilmərik. Yaşlı adamların da iman və etiqadı ilə bizim işimiz yoxdur. Siz tamamilə sərbəstsiniz; iman gətirdiyimiz dini təbliğ edə bilərsiniz; heç kim sizə təzyiq göstərə bilməz. Siz gecə-gündüz məsciddə ibadət edə bilərsiniz, dua edə bilərsiniz. Azad Rusiya cümhuriyyətində kimsə sizə deyə bilməz ki, dua oxuyub ibadət etməyiniz. Fəqət azad Rusiya yalana, iftiraya, insanlar arasında düşmənçiliyə yol verməz. Şura hökuməti həqiqət və ancaq həqiqət tələb edir. Şura hökuməti tələb edir ki, onun qanunlarını düzgün anlasınlar və düzgün başa düşsünlər.

Vətəndaşlar: əgər molla məsciddə mənbərdən deyirsə ki, Şura hökuməti məscidləri bağlayacaq, onda biz məscidləri bağlamarıq; çünki məscidin buraya dəxli yoxdur. Onda biz bu mollanı götürüb çölə atarıq və iftira söylədiyi üçün, fitnə-fəsad törətdiyi üçün onu inqilab məhkəməsinə çəkərik, İnqilab məhkəməsi isə amansızdır...

İndi mən hazırkı vəziyyət məsələsinə keçirəm. Mən sizdən orasını gizlətmək istəmirəm ki, həqiqətən, siz müəllimlərin və mollaların çoxu Şura hökumətinə düşmən olmasanız da, ona qarşı bitərəf mövqe tutun.

Kommunizm ideyası sizin üçün anlaşılmazdır: elə bir aləm olacaq, elə bir vaxt gələcəkdir ki, hamı insanlar, hansı millətdən olursa-olsun, hansı dinə iman gətirmiş olurlarsa-olsunlar, hamı namuslu zəhmətlə, qardaşcasına, hamı bərabər və azad yaşayacaqlar; siz belə bir aləmi, belə bir vaxtı özünüz təsəvvür edə bilmirsiniz.

Siz heç ağlınıza gətirə bilmirsiniz ki, vaxt gələcək və insanlar o qədər yüksələcəkdir ki, onlar mənfur metal üstündə bir-birini didməyəcəklər. Mən yaxşı anlayıram: siz millətçisiniz, siz ancaq öz millətinizi sevirsiniz; çünki başqa millətdən olanlar kafirdir deyə başınızı doldurmuşlar. Siz dindarsınız, siz yalnız öz dininizi sevirsiniz, çünki sizə həmişə demişlər ki, ən yeganə və haqq olan din sizin dininizdir. Mənim özümü də belə öyrətmişdilər. Fəqət mən sizin hisslərinizin səmimiliyinə şübhə edə bilərəm.

Əgər siz səmimiyyətlə və həqiqətən öz millətinizi və dininizi sevirsinizsə, onda hazırkı zamanın tələblərini başa düşməlisiniz və fəal surətdə olmasa da, heç olmazsa passiv surətdə Şura hökumətinə kömək etməlisiniz.





İstanbulu müsəlman şəhəri elan edən kim idi? Türkiyənin və İranın işğal olunması xüsusundakı cürbəcür gizli müqavilələri yırtıb dağıdan kim oldu?

Şura hökuməti olmadımı?

Sizin böyük ümidlər bağladığınız Türkiyə hazırda, İslamın tarixi düşməni olan İngiltərənin dəmir pəncəsində inildəməkdədir. Zatən, bu saat Türkiyə vardımı?

Mən sizə deyirəm: Türkiyə, Avropa Türkiyəsi yoxdur. İstanbulu və Türkiyəni xarici düşmənlərin hücumundan mühafizə edən qapı, boğazlar yoxdur. Bu qapının açarları İngiltərəyə verilmişdir.

Avropa Türkiyəsinin varlığı onun coğrafi vəziyyətindən çox asılı idi. Lakin siz bilirsiniz ki, hazırkı zamanda İstanbul ingilislərin əlindədir. İndi bu saat Qafqaz da, bütün İran və Hindistan da ingilislərin əlindədir. Əgər siz oturub ax-uf edərsinizsə, əgər siz öz dostunuzu və düşməninizi tanımağı bacarmasanız, bütün müsəlman dövlətləri və İslam ölkələri tez bir zamanda ingilislərin əlinə keçəcəkdir.

Nə qədər ki, İngiltərədə Qladstonun nəsilləri olan lordlar hökmranlıq edəcək, islamı sevən siz millətçilər müstəqil ola bilməyəcəksiniz.

Sizi və bütün İslam aləmini ancaq İngiltərədə baş verəcək inqilab azad edə bilər; çünki o zaman hökumət başında Lloyd Corc deyil, fəhlə və kəndçilərin nümayəndələri oturacaqdır.

Kim indi bu saat buna cəhd edir, dəmir kimi, qaniçən Vilhelmi kim yıxmışdır?

Bunu edən rus inqilabı olmadımı? İngilis yırtıcılarını da yıxmağa can atan məhz həmin rus inqilabıdır.

Bəs rus inqilabını möhkəmlədən, genişlədən kimdir? Şura hökuməti deyilmi?

Demək, əgər siz həqiqətən öz millətinizi, dininizi sevirsinizsə, Şura hökumətinin İngiltərə imperializmi ilə apardığı mübarizəsində tərəddüd etmədən həmin Şura hökumətinin köməyinə gəlməlisiniz. İndi bu saat sizin şüarınız bu olmalıdır: Avropa imperializminə, xüsusən İngiltərə imperializminə qələbə çalmağa can atan Şura hökumətinə kömək etmək!

Əgər sizin hissləriniz səmimidirsə, mən sizi həmin yola dəvət edirəm; fəqət qeyri-səmimi hisslərə qapılanlara, yəni burjuaziyaya

mən onu təklif etmirəm. Onlar üçün şüar yoxdur, müqəddəs heç bir şey yoxdur, mənfur metaldan başqa.

Mühazirədən sonra mollalardan biri mühazirəçiyə təşəkkür edib deyir ki, yaxşıdır mühazirəçi onları başa saldı; molla deyir ki, camaatı sakit etmək üçün mən də gedib onu başa salacağam.

**Elmlərini yenicə tamam etmiş müəllimlərə açıq məktub**

1924-cü ildə APİ-nin ilk məzunlarına açıq məktubunda N.Nərimanov yazırdı

Əziz yoldaşlar!

Təzə həyata qədəm qoymağınızı təbrik edirəm. Vəzifəniz hər nə qədər qayət çətin, ağır və məsuliyyətli bir vəzifədirsə də, bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan bir çox şey zəhmətdir. Ona görə də sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmətsevər olsunlar, yəni başqasının yox, öz zəhmətlərinin qüvvətilə ehtiyaclarını rəfedici olsunlar.

Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, qüdrətli və dəyanətli olsunlar. Yəni bir parça çörəkdən ötəri ikiüzlülük etməsinlər, filankəsin xoşuna gəlmək üçün «qatığa qara deməsinlər».

Amandır, yoldaşlar!

Buna yaxşı fikir verin, mənsəbdən ötəri yalan söyləyən, gündə vicdanını satan ikiüzlü adamlar bizim gələcək kommunaya üzv ola bölməzlər.





**Ответ некоторым товарищам**

Последнее время некоторые ответственные товарищи в Азербайджане выступают в прессе по вопросу о сокращении числа уроков тюркского языка в школах или о сокращении числа спектаклей в тюркском театре и т.д.

Если в основу всех этих предложений берется марксистская точка зрения, то она говорит следующее:
чем пролетарий несознательнее, невежественнее, тем труднее его заставить сплоченнее выступать против своих поработителей.

Но могут сказать: теперь рабочие работают не для хозяев-капиталистов, а для себя, а потому нет речи о поработителях. На это мы должны ответить опять с точки зрения Маркса: "Чем сознательнее рабочий класс, тем продуктивнее его работа, тем прочнее власть, которую он захватил в свои руки". Если это так, что нам говорит действительность Азербайджана. В чьих руках находится власть в Азербайджане? В руках рабочих и беднейших крестьян. Две трети рабочих и беднейших крестьян-тюрки-безграмотные, забитые, несознательные, невежественные, одна треть-др. Национальности: русские, армяне, евреи, которые куда выше стоят в отношении грамотности и вообще в отношении культуры.

При таких соотношениях живых сил, составляющих основу государства при нашем строительстве, каждый разумный, убежденный марксист должен рассуждать так: до тех пор, пока есть такая разница в подготовленности к государственной деятельности между тюркскими трудящимся и другими трудящимися разных национальностей, мы не можем отвечать за прочность власти этих трудящихся.

"Пролетарии всех стран, соединяйтесь"-это не есть пустой звук, это не есть призыв к объединению только из-за личных материальных выгод. Эти слова имеют глубокий смысл, они призывают и к духовному объединению. Они заключают в себе и разрешают тот проклятый национальный вопрос, который при другой постановке не разрешим.

И тот, кто не понимает этого так, тот не понимает Маркса. Тот, кто не хочет понимать так, тот не хочет действовать по Марксу.

Он просто говорит: ты несчатный, забитый, темный тюркский крестьянин и рабочий, оставайтесь все в таком же положении, потому что мне от этого хорошо живется. Точно так же рассуждал Николай с чиновниками. Необходимо театр представить три раза в неделю в распоряжение русской драмы и три раза тюркской драме, говорят одни.

Но кто больше всех нуждается в этом театре? За 30 лет существования тюркской драмы последняя только за два года советской власти в Азербайджане имеет трех артистов-мусульманок. За 30 лет только теперь видишь в театре мусульманок, сидящих в партере рядом с мужчинами.

И после этого для красного словца осмеливаетесь писать о свободе порабощенной женщины?

Другой предлагает сократить число уроков тюркского языка в школах. На каком языке вы хотите сблизить детей рабочих и крестьян-тюрок с детьми других национальностей?

Маркс не был бы Марксом, если бы он не был психологом.

Где же ваша психология?

И тут поставьте точку над "и" и скажите: "Мне нравится русский язык, мне легче и понятнее все на русском языке, прекрасные стихи Пушкина написаны на этом языке. Я хочу, чтобы дети тюрок это знали".

Желание хорошее.

Дети тюрок должны знать стихи не только Пушкина, но и Шекспира, Шиллера, но все лишь после того, когда они узнают прежде всего грозные боевые стихи истинно пролетарского народного поэта Сабира, народных поэтов Вагифа, Видади, Закира. И это будет правильно, по Марксу.

Если это говорится вообще для пользы дела, то опять-таки я предложил бы автору сокращения числа уроков тюркского не производить, а самому изучить этот язык, чтобы иметь возможность разбираться в пророческих стихах тюрка Сабира, так как я утверждаю: в русской пролетарской литературе он не найдет ему





подобного поэта, который бы так живо и картинно передавал все переживания рабочего класса и крестьянина, под гнетом хозяина и помещика. И это писалось Сабиром в кошмарные годы реакции.

И после этого удивляться, когда другой ответственный работник заявляет: для чего в такое трудное время воздвигать памятник какому-то Сабиру?

Одно из двух: или эти товарищи не знают азербайджанских условий и делают ошибки, или плохо усвоили Маркса и никак не могут разобраться в тех вопросах, о которых Маркс писал давно. Тогда пусть читают внимательно "Национальный вопрос" тов. Ленина, который довольно подробно останавливается на вопросе о национальном самоопределении народов.

И от незнания условий Азербайджана и от неумения разбираться в этих вопросах страдает общее дело нашей революции. Такой подход к вопросу разлагает партию, развращает рабочих, сеет вражду между рабочими и крестьянами, создает недоверие друг к другу, а следовательно и к власти.

И в самом деле, разве русский рабочий для того перевернул Россию вверх дном, чтобы продолжать политику?

Нет и нет!

Русский рабочий вполне искренне и сознательно освободил окраины, чтобы дать им по возможность свободно дышать и жить всею жизнью, но к великому сожалению нашему, среди нас есть несоответствующие званию представители рабочего класса, так называемые шовинистически настроенные элементы, которые ничем не отличаются в своих действиях от семеновеховцев.

Пусть семеновеховцы утешают себя тем, что идет "собирание русской земли". Но коммунисты должны сказать: мы собираем не русские земли, а рабочих всех национальностей в единую сознательную силу для укрепления своей власти. Но для того, чтобы создать сплоченную сознательную силу, необходимо подготовить поднять естественным путем до известного уровня знания и развития более отсталую часть этой силы. С этой целью необходимо 2/3 расходов употребить на грамотность и вообще на образование тюрок, 2/3 внимания партии

уделить на тюрок и 2/3 всей энергии советских органов отдать работе среди тюрок. Кому дороги завоевания нашей революции, кто любит Азербайджан и духовно связан с ним, кому дорог завет "пролетарии всех стран, соединяйтесь"- тот должен действовать именно по этой программе. А тем "перелетным птицам", которые говорят сладкие слова для удержания за собой места, мы скажем: на сегодня, так завтра тюрки и русские рабочие и крестъяне Азербайджана не оценят ваши труды и скажут свое последнее слово. Наконец можно подойти к вопросу и с правовой точки зрения. Тюркский язык объявлен государственным языком в Азербайджане, и он должен пользоваться всеми правами и преимуществами этого языка. Никто не в силе и не посмеет отменить это. Азербайджан не может отказаться от своего родного языка он не может и не позволит кому бы то ни было умаливать значение этого языка в Азербайджане.

**Пусть знают это твердо те, которые под разными соусами выступают против тюркского языка в Азербайджане.**

*Н.НАРИМАНОВ*

**От редакции:**

Редакция считает своим донгом указать, что на страницах "Бакинского рабочего" ни одной статьи, направленной против тюркского языка или тюркского театра не было и не будет.





## Traxom

Azərbaycanda və xüsusən Bakıda göz ağrısından kor olanlar çoxdur.

Müsəlmanların arasında başqa sirayət edici naxoşluqlar çox olduğu kimi, traxom adlanan göz ağrısı naxoşluğu da artıq dərəcədə şiddət etməkdədir. Kor olmağın cürbəcür səbəbləri var. Ancaq gözün kor olmağına səbəb hamı xəstəlikdən artıq traxom xəstəliyidir.

Görək, bu necə xəstəlikdir?

Traxom xəstəliyindən hamı: uşaq, böyük, qoca xəstələnə bilər. Ancaq hamıya bir cür təsir etməz. Hər kəsə traxomun təsiri başqa cür olur. Bir külfətin hamı, adamları, traxomdan xəstələnmiş olduqları halda da, traxom xəstəliyinin nə olduğunu bilmədiklərindən, hər birinin göz ağrısını, başqa bir şey yozurlar. Dürüst diqqət edilirsə, traxomun bir çox göz ağrılarına səbəb olduğu aşkar olar. Təfavütü ancaq bir bunda ola bilər ki, birinin traxomu yeni başlamış, o birininki artıq şiddət etmiş və ya xəstəliyin son dərəcəsinə çatmışdır.

### Naxoşluğun başlanması.

Çox vaxt traxom yavaş-yavaş başlayıb, əvvəlcə insana bir o qədər əziyyət verməz. Traxomu tutmuş adam əvvəllərdə özünü lap salamat hiss edər, çünki traxom ağrısız başlanır. Bu səbəbə görə naxoşların çoxu traxomu əvvəllərdə saymırlar və müalicəsinə də diqqət etmirlər. Həkimlər isə, traxomu qeyri xəstəliklərdən daha ciddi surətdə müalicə edirlər. Gələcəyini düşünməyənlər, traxomu boş bir ağrı hesab edib, layiqincə diqqət etməzlər, «tozdan, torpaqdan gözümüz qızarmış» deyib də rahat olarlar. Axırda böyük bir bəlaya düçar olduqlarını düşünməzlər.

Traxomun müalicəsinə tez başlanarsa, tez də xilas olmaq mümkündür. Vaxtı keçərsə, bu xəstəlikdən insan çox çətinlik ilə qurtara bilər.

### Traxomun ən birinci nişanəsi

Dedik ki, traxom ağrısız başlanır. Göz qapaqlarına diqqət olunsa, traxomun nişanəsini görmək olar. Salamat gözün alt və üst qapaqlarının iç tərəfləri, yəni iç pərdələri təbii qırmızısında olub,

hamar və şəfəqli olar. Traxom xəstəliyi tutmuş gözün qapaqları isə iç tərəfdən daha qızarmış və balıq kürüsünə bənzər qırmızı, boz rəngdə düyüm-düyüm tumurcuklarla örtülü olur.

Bu nöqtələrə bənzər tumurcuqlar traxomun ən birinci nişanəsidir. Diqqət etdikdə, traxom tumurcuqları, sapda mirvari düzülən, biri-birinin yanında düzülmüş görünür. Traxom şiddətlənən vaxt göz qapağının iç tərəfi bir dənə əncir meyvəsinin iç yarından kəsilmişinin içinə oxşar. Bu ufacıq nöqtələrə bənzəyən traxom tumurcuqları vaxtı ilə deşilib, yara oyur və həmin yaralardan irinli çirk axmağa başlayır.

**Traxomun təzəliyi və şiddətli vaxtı**

Şiddətli traxom tutmuş adam işığı sevməz, işığa baxanda gözlərini büzər və yerə baxar. Traxomlu uşaqlar işığa baxdıqda ağlarlar, çünki işıq gözlərinə əziyyət verir: gözləri qaşınır, gözlərində, daha doğrusu, göz qapaqlarının iç tərəfində, qum var imiş kimi, özlərini hiss edirlər. Böyüklər də göz qapaqlarının iç pərdəsi nahamar olmağını, hiss edərlər. Elə buna görə də qədim yunanlar bu göz xəstəliyinə «traxom» adı qoymuşlar, qədim yunanca «traxus» - nahamvar deməkdir.

Dedik ki, göz qapaqlarının iç pərdələri qızarır, gözlərdən də irin qarışıqlı yaş gəlib, kipriklərdə quruyur. Kipriklərin biri-birinə yapışmağına səbəb budur. Gözlər bulaşır: gecə yatanda, kipriklər bir-birinə yapışır; səhər çağı gözləri açmaq çox çətin olur.

Traxomlu göz bir az müalicəsiz qalarsa, yavaş-yavaş zəifləyə, salamat vaxtı asanlıqla gördüyü şeyləri indi görməyə çətinlik ilə görər. Bir az daha keçərsə kimi gözün üst qapağının altında bəbəyə doğru, yavaş-yavaş bir ağ bulanıq pərdə gələr. Bu ağ bulanıq pərdə bəbəyə çatıb da üstünü çuğlarsa, o vaxt göz daha görməz. Çox vaxt bu ağ bulanıq pərdənin yerinə yara əmələ gələr və yaranın yerindən ağ şiş qalxar.

Bu ağ şişə el arasında «titə» deyirlər. Titə- bəbəyi örtərsə, göz həmişəlik kor olar.

Traxomdan kor olan həmişəlik dünya işığına həsrət qalar. Buna görə həm traxomlu, həm də traxomluya yaxın adamlar artıq dərəcədə ehtiyatlı olmalıdırlar. Traxomlu gözün irini üz silən dəsmal və qeyri şeylər vasitəsilə bir adamın gözünə düşərsə, o da traxom xəstəliyi tutar. Traxom sirayət edici xəstəlikdir.





Çox vaxt traxom gizlin başlanır. Ağrısı olmamağa görə, xəstə əvvəllərində diqqət vermir. Balaca uşaqlar ağrını hiss etmədiklərinə görə bundan şikayət etməzlər. Ancaq bir az sonra göz qapağını çevirib, diqqətlə baxsanız qapağın iç tərəfində, orda-burda ufacıq əncir toxumuna oxşar nöqtələr görərsiniz. Ağrısız, acısız bu naxoşluq bir ay, bir ilə gedər. Göz qapaqlarının iç pərdələri günbəgün qalınlaşıb, belə qızarır. Hər açıb-yumdıqca qapaqların nahamvar pərdələri gözü sürtür. Bir az daha vaxtından keçərsə nöqtəyə bənzəyən tumurcuqlar çoxalar. Axırda tumurcuqların çoxalıb artmasından göz qapağı pərdələrinin iç tərəfləri xoruz darağı (şanası) kimi diş-diş olar.

Pərdələrin bu cur təğyirə düşməyindən göz çox əziyyət çəkər. Göz qızarar, ufacıq yaralar əmələ gələr, gözün görmək qüvvəti getdikçə zəifləşər və axırda bəbək də örtulər. Bu təhər traxom daha artıq dəhşətlidir, çünki əvvəllərində, ağrısı olmadığından, xəstə müalicəsiz qalır və traxom da öz işini görür. Naxoş bir vaxt həkimə gedir ki, iş-işdən keçmiş olur, yəni bu dərəcəyə gəlmiş traxomu artıq dərman ilə müalicə etmək mümkün olmuyub, operasiyon yapılır, yəni yarılır. Ancaq operasiyona da ümid çox bağlamaq olmaz. Operasiyon bu hallarda ancaq-ancaq xəstəliyi azalda bilər, yoxsa işıqdan məhrum olana işıq vermək mümkün olmur.

Bu təhər qizlin traxom qeyri adamlara da siyarət edir, çünki həm troxomlu xəstə, həm də onun yan-yörəsində olan adamlar qabaqcadan ehtiyyatlı olmurlar.

**Köhnəlmiş traxom.**

Traxomun müalicəsinə vaxtında diqqət olunmasa, naxoşluq çox illər davam edər. Gah əziyyəti azalıb, gah da şiddət edər və qetdikcə gözü qüvvədən salar. Qapaqların, iç pərdəsində yaralar sağaldıqca, pərdəni büzər, böylə ki, iç pərdə büzülüb, kiçilməyilə göz qapaqını da büzüb kiçildər. Qapaqların kiçilməyinə görə, göz də, bütün örtülə bilməyib, açıqda qalar və hər bir toz, topraq içərisinə dolar. Bir də qapaqların kiprikləri gözün içinə tərəf əyilib, tikan dalıyan kimi gözü dalıyır. Çox vaxt göz qapaqları biri-biriylə yarıdan bitişik, gözün yarısı həmişə örtülü qalır. Çox vaxt da alt qapaq bayır (əzik) tərəfə çevrilər və gözün yaşı müttəsil xəstənin üzünə damcılayır. Naxoş isə, tez-tez gözünü dəsmalla və ələlxusus çirkli dəsmalla silərsə, gözünə daha artıq zərər verər. (bu cür naxoş gözləri hər gün Bakıda görürük)

Çox vaxt köhnəlmiş traxomdan göz yaşı quruyur. Göz yaşı quruyarsa, gözün zəifləməsinə səbəb olar, çünki göz yaşı gözü yumaq ilə onu təmiz saxlayar.

Traxomdan insan başına gələn bəlaların hamısını saymaq çətindir. Ancaq hamısından ağırı və dəhşətlisi kor olmaqdır.

**Traxomdan kor olmaq**

Bir korun gözündə ağ gördünüzsə, onun səbəbini əvvəl traxomda arayınız. İki korun biri traxomdan bədbəxt olmağına şübhə yoxdur.

Ancaq bunu da bilmək lazımdır ki, vaxtını keçirtmədən müalicə olunsa, traxomdan kor tapılmaz. Almaniya və Avstriya dövlətlərində 30 il bundan irəli traxom xəstəliyi hədsiz idisə də indi orada bu cür naxoşlar az tapılar. Həmən dövlətlərdə traxomdan kor olan yoxdur desək də, yarar.

**Nə üçün traxom ağır və dəhşətli naxoşliq sayılır?**

Traxom bir xəstəlikdir ki, öz-özünə müalicəsiz yaxşı olmaz. Çox vaxt, yüngül belə bir dərəcədə traxom bir qədər vaxtdan sonra ağırlaşıb, büsbütün xəstənin halını dəyişir. Belə şiddətli halda naxoş əlbətdə işə yaramır; uşaqlar dərs oxuya bilmir, böyüklər işsiz və uşaqlar dərssiz qalırlarsa, axarı nə olar?

Traxomun ağrı acısı çox olmasa da, uzun müddət





sürdüyündən, əlbəttə insanı rahatsız edər.

Traxom ağır bir naxoşluqdur, çünki bu xəstəlikdən tez xilas etmək çətindir. Mirur ilə müalicə etmək gərəkdir. Azar batman ilə girər, miskal ilə çıxar misalı traxom xəstəliyinə yaraşan bir misaldır.

Traxom qorxulu və dəhşətli mərəzdir, çünki traxom qədər heç bir göz ağrısı adamı, kor etməz. Üç korun biri başqa göz ağrısından kor olarsa, ikisi yəqin ki traxomdan kor olur.

Ah, bu zavallı korların yaşamağı!

Bunlar özlərini hamıdan bədbəxt hesab edərlər. Kor olmaqdansa, ölümü artıq istərlər. Üzlərindən və səslərindən pünha qəmlərini bilmək mümkündür.

**Traxom xəstəliyi xalqın bədbəxtliyidir.**

Traxom Bakıda artıq dərəcədə şiddət etməkdədir. Nə qədər traxoma mübtəla olan var? Nə qədər adam bu traxomdan şikəst olub, şəhərlərdə qalıbdır, yemək içməkdən başqa heç nəyə yaramırlar. Müalicəyə bunlar nə qədər pul sərf ediblər? Nə qədər uşaq traxom tutub, oxumaqdan məhrum qalıblar? Bunların hamısının hesabını hələ bilən yoxdur. Bunların hesabları bilinsə idi, o vaxt yalnız bir Bakı şəhərinə ildə nə qədər zərər olmağı məlum olardı.

Bir neçə rəqəmləri burada söylərsək o vaxt bu dəhşətli xəstəliyin Bakıda nə dərəcədə intişar tapmağını düşünmək olar.

Bakıda şəhər xəstəxanalarında traxom müalicəsi edənlərin sayı 1908-inci ildən 1912-inci ilə kimi, yəni 5 ilin müddətində 15.658 traxom xəstəsi müalicədə bulunmuşdur. Bunların 12.000 nəfəri müsəlmanlardır.Bakıda türk məktəblərində bu xəstəlik daha artıq intişar etmişdir. 1913-cü ildən 7-ci rus məktəbinin 283 qız şagirdlərinin 5 nəfəri traxomdan xəstələnmiş olduğu halda, həmin il türk məktəblərinin birində 295 uşağın 86 nəfəri həmən xəstəlikdən naxoş imiş. 9-uncu rus məktəbində 419 uşağın 18-i naxoş olduğu olan halda, 6-ıncı türk məktəbində 418 uşaqdan 155 nəfəri turk balası, traxomdan göz ağrısı çəkirmiş. (Bu məlumatı, d-r N.Rozanof cəm etmişdir)

Məlum olur ki, Bakıda türk məktəblərində oxuyan uşaqların üçdə bir hissəsi traxomlu xəstə imiş.

Yalnız bir Bakı şəhərini götürsək, bu şəhərdə türk əhalisindən 20.000 nəfərə yaxın adam troxomludur.

Yuxarıda söyləmiş olduğumuz məlumata görə bir tək Bakıda

türk xalqının traxom xəstəliyinə sərf etdiyi pulu hesaba alsaq, milyonlarca rubl edər. Hələ şikəst olub, işdən qalan nə qədər olur, o başqa...

1897 ilində Finlandiyanı, kənara çıxdıqdan sonra, Rusiyada 247.900 kor var idi. 1917 ilinə kimi bu korların ədədi 300.000-ə qədər artmışdır.

Tutalım, xalq tərəfindən hər bir korun dolanacağı üçün üstüstə gündə 50 zər qəpik pul sərf edilir; o vaxt bir il müddətində bu 300.000 korların xərci 54 milyona yaxın pul istər. Və bir daha, bu korlar şikəst olmayıb da, işləsə idilər, gündə bir rubl qazanc etmək hesabı ilə ildə 100 milyona qədər rubla fayda etmiş olardılar. Korlar bu pulları qazanmıyırlar və xalq da onların dolanacağı üçün xərc edir.

Almaniya və Avstriya dövlətlərində, söylədiyimiz kimi, əvvəllər traxom xəstəliyindən kor olanların sayı hədsiz idi. İndi isə bu dövlətlərdə troxomdan kor olan yoxdur. Səbəbi nə imiş?

Anlaşılır ki, bu bədbəxtliyi camaatın, millətin və dövlətin içərisindən qaldırmaq mümkün imiş.

Hazırda tibb elmi o qədər yüksəlmiş və tərəqqi etmişdir ki, traxomu ilk süftədən müalicə edərlərsə, xəstəliyin hər bir qorxu və dəhşətindən xilas olmaq olar. Traxomun əsl səbəbini bilib, onun ilə mübarizə aparmaq əsas şərtdəndir.

**Traxomun sirayət etmək yolları.**

Yuxarıda dedik ki, traxom sirayət edici mərəzdir. Traxomlu adamın göz yaşı və ya gözünün irini salamat gözə düşərsə, ö gözü də traxom azarına salar. Traxomun səbəbi toz və ya torpaq deyil, traxomlu gözün irininin içərisində olan mikroblardır. (mikrob çox xırda heyvandır, ancaq zərrəbin ilə görünə bilir).

Çiçək və qızılca kimi naxoşluqlar yel və hava vasitəsilə bir adamdan o biri adama keçər. Çaxotka (vərəm) kimi naxoşluqların mikrobları insanın tüpürdüyü bəlğəmdə olub, toza qarışar və oradan da nəfəs almaqla başqa bir salamat adamın ciyərinə daxil olub, onu da naxoşladar. Tif (yatalaq) və koler (vəba) kimi naxoşluqların da mikrobları suda yaşarlar. Həmən suyu salamat adam içdikdə,xəstələnər. Traxomun mikrobu isə, ancaq yeni xəstələnmiş göz irinində olar. Bir az keçdikdən sonra traxom mikrobları tələf olub gedər. Bü özü böyük xoşbəxtlikdir. Suda, havada və ya başqa şeylərin üzərində traxom mikrobları çox davam edib yaşaya bilmirlər.





Vərəm xəstəliyinin mikrobları hava vasitəsilə sirayət edən kimi, traxom mikrobları hava vasitəsilə yoluxmur.

Buna görə traxom xəstəsindən qorxmamalı. Traxom çirki (irini) ağrılı gözdən salamat gözə düşüb, onu da traxomlu edər. Traxomun intişar tapıb, yayılmasına və artmasına səbəb əlbətdə nadanlıqdır. Nadanlar ehtiyatsız olub, traxomu azarlıdan sağlam gözə salırlar.

Traxomlu ana əllərini gözlərinə vurub, sonra da əllərini yumamış, uşağının üz gözünü yuyur, silir, paltarını dəyişir. Ya da həmin ana gözlərinin yaşını, irinini köynəyinə silir və sonra da uşağını qucağına alıb əmcək verir (əmizdirir). Uşağın da gözləri bu ananın irinli-çirkli köynəyinə sürtüşür. Traxomlu arvad çarşav örtürsə, gözünün yaşını-irinini çarşavına da silər.

Belə analardan traxom əlbətdə uşaqlarına da keçər, onları da xəstə edər və belə: Bir pis adət daha vardır: gözü ağrılı ana uşağı ilə bir yastıqda yatar. Traxomlu ananın göz yaşı, irini yastığa tökülür; uşaq da üz-gözünü bu yastığa sürtər; ondan da uşağın gözünə traxom azarı düşər. Külfətdə çox vaxt traxom birindən o birinə üz silən dəsmalı vasitəsi ilə keçir. Buna artıcaq diqqət olunmalıdır. Traxomlu üzünü sildiyi dəsmala başqaları da üzlərini silərlərsə traxomlunun göz irini də sağlam gözlərə düşüb xəstə edər. Bir dəsmala neçə adamın üz silməyi çox pis adətdir. Bizim türk-tatar qardaşlarımızda bu adət var: külfətdəki adamların hamısı bir dəsmala üzlərini silərlər. Bu adəti tərgitmək lazımdır. Hər kəsə məxsus özünün üz dəsmalı olmalıdır. Yuxarıda söylədiyimiz kimi analar sevdiklərindən balalarını özləri ilə bir yastıqda yatırdırlar. Bununla, bilməyərək, onlara traxom xəstəliyi salıb kor edirlər. Görək analarımız bu acı həqiqəti düşünürlərmi ya da düşünəcəklərmi?

**Traxomdan gözü necə mühafizə etməli.**

Demişdik ki, traxomlu gözün yaşı və irini salamat gözə düşərsə, həmin gözə də traxom sirayət edər. Bəs nə təhər etməlidir ki, salamat gözə traxom sirayət etməsin?

Əvvələn çirkli və yuyulmamış əllərlə gözləri silməmək; külfətdə adam başına bir üz silən dəsmal olmalıdır ki, iki və ya daha artıq adam üzünü bir dəsmala silməsin. Bir yastığa iki-üç adam baş qoyub yatmasın, yastıqların üzü ağ olsun ki, çirki tez görünsün və

üzləri də tez-tez dəyişdirilsin. Yastıqları hər gün səhər günəş qabağına qoymalı, çünki günəş işığından traxom mikrobları tələf olurlar. Traxomlu adam ilə salamat adam bir yorğanın altında gərək yatmasın.

Traxomlular gözlərinə gərək tez müalicə etdirsinlər, çünki traxom tez müalicə olunarsa onun sirayətedici qüvvəti tez azalar. Sirayətedici başqa xəstəliklər kasıbları tez tutduğu kimi traxom xəstəliyi də onları tez tutar. Bu cürə xəstəliyi önünü almaqdan kasıblar acizdirlər. Çünki yuxarıda zigir olunan şərtlərə əməl etməyə mümkünləri olmur.

Ananın gözləri ağrıyırsa əllərini təmiz yumamış uşaqlarının üz-gözlərini silməsin. Hər halda gözləri salamat olan adamlar traxomlu adamdan qorxmuyub ancaq təmizlik barəsində ehtiyyatlı olmalıdırlar.

Hər bir naxoşliq zəif bədəni tez tapan kimi, traxom da zəifləmiş gözə tez sirayət edər. Bu səbəbə görə gözlərə artıq dərəcədə diqqət olunsun gərək. Gözləri saxlamaq mümkün qədər və toz-torpağdan kifayət qədər mühafizə etmək gərəkdir.

Traxomdan xilas olmaq üçün, səbrli olub müalicə etmək lazımdır.

Müalicəsi üçün elmli həkimlərə müraciət edib yalançı, cındar və dua yazanlardan qaçmalı.

Traxom mikrobları göz qapaqlarının iç pərdəsi üzərində olmuyub, dərində, əncir toxumuna bənzər, tumurcuqların içində gizlənirlər. Damcı dərmanları göz qapağının ancaq pərdəsini yuyub, pərdənin altına təsir etmir. Damcı dərmanı, traxom tumurcuqlarının deşilmişlərindən çıxan irindəki mikrobları qırıb tələf edir, amma deşilməmiş tumurcuqlardakı mikroblar qalır. Buna görə də traxomdan xilas olunmaq üçün uzun müddətli müalicə və səbirli olmaq lazımdır.

Bir sıra avamlar olur ki, gözlərini müalicə etmək üçün cindara dua yazan, «küpə girən» qarılara, daha bu cür «həkimlərə» inanıb onlardan dərman götürürlər. Bu qisim yalançı həkimlərin hərəsinin bir cür dərmanı olur. Bu dərman ilə bu yalançılar istər traxom, istər başqa göz ağrısı və istər nə cür xəstəlik olursa hamısını «müalicə» etməyə hazırdırlar.

Hazırkı hallarda elm çox yüksək dərəcələrə çatmışdır. Artıq avam olub, şarlatan həkimlərə inanmamalı. Göz müalicəsini oxumuş doğruçu həkimlərə müalicə etmək gərəkdir.

Adını yalandan həkim qoymuş cindar şarlatanların biri mazut





ilə, biri heyvan təzəyi ilə, bir başqası sidik ilə, nəcis ilə daha nə bilim nə ilə gözə müalicə edərlər, gözü də kor edib, boşlarlar.

Keçmiş illərdə Rusiyanın Vyatka qubemiyasında bir arvad traxomu və başqa göz xəstəliklərini dili ilə yalamaqla güya müalicə edirmiş. Axırda məlum olur ki, bu arvadda siflis naxoşluğu var imiş. 8 nəfər də gözlərini yalatmaqla bu arvaddan siflis tutmuş. Görünür ki, müsəlmanlardan savayı qeyriləri də bu cür yalançı həkimlərə inanırmışlar.

**Nə etməli?**

Traxom naxoşluğu dəhşətli bir sürətdə örüyüb yeriş etməkdədir. Dünya işığına məhrum qalan korların ədədi günbəgün artmaqdadır.

Nə etməli? Bunun önünü necə almalı? Bu dəhşətli düşmənlə necə mübarizə etməli?

Bu bədbəxtlik ümumi bir bədbəxtlikdir. Hamı bununla var qüvvətilə mübarizə etsin gərək.

**Bizim təsəvvürümüzcə:**

1) hər şəhər idarəsi göz naxoşluqlarına məxsus müalicəxanalar açsınlar gərək və bundan savayı bu naxoşlar üçün xüsusca bir azarlıxana olsun gərək. Məktəblər üçün də xüsusi həkimlər təyin etdirilsin.
2) Traxomdan xilas olmuş adam, traxom xəstəliyinin azalmasına səbəb olur, çünki artıq ondan başqa adamlara xəstəlik sirayət edəməz.

## OĞLUNA BİTMƏMİŞ MƏKTUBU

**Moskva, 28 yanvar 1925-ci il.**

1885-ci il yanvarın 15-də Bakıda Tağıyev Teatrında ilk dəfə mənim «Nadanlıq» pyesim tamaşaya qoyuldu. Həmin günü mən ədəbi işimin başlanğıcı hesab edirəm. Bu gün 1925-ci il yanvarın 28-i həmin hadisədən 30 il keçir. Dostlarımdan bəziləri bunu bilib həmin günü qeyd etmək istədilər. Onlardan teleqramlar alınmışdır.

Əlbəttə, əgər ciddi düşünsən, demək olar ki, mən heç bir şey etməmişəm. 30 il! Bu müddət ərzində bəzi şeylər etmək olardı. Həmin müddəti mənim bu illərdə yazdıqlarımla müqayisə etdikdə utanmalı olursan...

Digər tərəfdən isə həmin vaxtı təsəvvür etdikdə, bütün şəraiti, həyatımın keçdiyi dolanbac yolları nəzərə aldıqda, bir şeydə təskinlik tapırsan ki, az da olsa bir iş görülüb. Məni əhatə edən mühit, bu mühitin geriliyi, irəliyə hərəkətindən ədalət, ətrafımızdakı həyat təzahürlərinə soyuq münasibət, millətlər arasında gedən mənasız çəkişmələr, buradan da doğan iztirablar: qan, göz yaşları, yoxsulluq, yalan və bir sıra başqa şeylər, bunlar mənə rahatlıq verməyib. Mənim yazdıqlarım bütün bunları göstərir. Bəlkə də bu, çox sönük, bədiilikdən uzaq, bacarıqsızlıqla təsvir olunub, mənim öz qüvvə və məkanlarım daxilində yazılarım göstərir ki, mən bir çoxları kimi ətraf mühitə laqeyd qala bilməzdim, mənim qəlbim sakit deyildi, mən istəyirdim ki, bəşəriyyətə heç olmazsa bir xeyir verim.

Bu və yalnız bu, mənə bir qədər təskinlik verir ki, 30 il ərzində ictimai sahədə işləmişəm. Əgər öz işimlə heç olmazsa on nəfəri həmin «xəstəliyə» yoluxdurmağa nail olmuşamsa, deməli, mən, mənim şüurum o mənada sakit olar ki, mən hədər yerə yaşamamış, bu geniş, lakin darısqal dünyada bir guşə tuta bilmişəm...

Əziz oğlum Nəcəf! Əgər hələ yaşamaq qismətim varsa, mən səni elə hazırlamağa çalışacam ki, sən bəşəriyyət üçün daha çox iş görəsən. Lakin əgər mən əbədi məzara tez köçməli olsam, təvəqqe edirəm başqaları üçün daim əzab çəkən atan qədər kiçik bir iş görəsən.

Mənim həyatım daim qayğılarla dolu olmuşdur: Mən iyirmi yaşımdan qardaş və bacılarımın ailəsinə baxmış, bu 30 ildə 11 adam





tərbiyə etmişəm. Onlardan 8 qızı ərə vermiş, qardaşımın 3 oğlunu öz az maaşımla böyütmüşəm. Bütün bunların hamısını icra etdikdən sonra mən yenə də təhsil almağa başladım. 30 yaşında universitetə daxil olmuş, onu bitirdikdən sonra bütün qüvvəmlə qardaşım Salmanın uşaqlarının tərbiyəsi ilə məşğul oldum. Bütün bu işlərdən mən yalnız indi, qardaşımın sonuncu qızı Xanımı 1924-cü ildə ərə verdikdən sonra azad olmuşam. Mən bunu bir il keçdikdən sonra azad olmuşam. Mən bunu bir il keçdikdən sonra, yəni 1925-ci ildə yazıram. Bütün bunları ona görə yazıram ki, sən məni bəşəriyyət üçün az iş gördüyüm üçün məzəmmət etməyəsən.

Ümidvaram ki, bu mənada sən öz işinlə mənim əməllərimi davam etdirəcəksən.

Əziz oğlum! Əgər mənim həyatımı araşdırsan, sən əmin olacaqsan ki, mən 1925-ci ilədək başqaları üçün yaşamışam. Bəs sonra? Sonra belə də davam edəcək. Məhz belə ictimai fəaliyyətdə mən təskinlik tapıram, xüsusilə ona görə ki, hazırda Rusiyadakı quruluş mənim mənəvi aləmimlə uyğun gəlir.

Mən insanın insan tərəfindən istismarının əleyhinəyəm. Mən bütün varlığımla harada olursa-olursa köləliyin əleyhinəyəm. Mən bəşəriyyətin tezliklə azadlığa çıxması, nadanlıqdan, habelə kölələikdən azad olması yollarını axtarırdım.

Mən sosial-demokrat idim, lakin bu təşkilat getdikcə daha çox idealdan uzaqlaşır. Mən bolşeviklərin proqramını xüsusi inamla qəbul etmişəm, belə ki, mən bunda öz məramımın: dünyada köləliyin məhvinin həyata keçməsini görürdüm.

Bəlkə də sən bu sətirləri oxuyan vaxt bolşevizm olmayacaq. Ancaq bu o demək deyil ki, bolşevizm lazım deyil. Bu ona dəlalət edəcək ki, biz onu qoruya bilməmiş, ona lazımi qiymət verməmiş, işimizə pis yanaşmışıq. Açıq demək lazımdır: biz əldə etdiyimiz hakimiyyətdən o qədər təkəbbürlü olmuşuq ki, boş işlərlə və çəkişmələrlə məşğul olaraq, əsl işi əldən buraxmışıq.

Hakimiyyət çoxlarını korlayır. Belə də oldu: hakimiyyət bir çox görkəmli işçiləri korladı. Onlar nəhəng bir dövlətin müqəddəratını öz əllərinə almaq və diktator olmaq qərarına gəldilər... Bu, ilk zamanlarda zəruri idi. Lakin indiyədək bu vəziyyəti davam etdirmək, bolşevizmi süquta aparmaq demək idi.

İndi mən bu sətirləri sənə yazarkən iş o yerə çatıb ki, Lenindən sonra özlərini onun «qanuni varisləri» adlandıranların

dövləti idarə etməyi bacarmamaları nəticəsində əmələ gəlmiş böyük nöqsanlarımız barədə kommunistlər öz aralarında da danışa bilmirlər.

Bütün bunlar haqda sən mənim MK-ya yazdığım geniş məruzəmdən biləcəksən. Bu məruzədə sənə çox şey aydın olacaqdır. Həmin məruzədən sənə bəlli olacaq ki, bir çoxlarının cəsarəti çatmadığı, öz vəzifə və hakimiyyətlərini itirəcəklərindən qorxaraq susduqları şeylər haqqında sənin atan danışmaqdan çəkinməmişdir.

Mənim əziz Nəcəfim! Hakimiyyət dalınca qaçma, çünki o, adamı korlayır. Əgər sən adamı tanımaq, onun bütün daxili aləmini bilmək istəyirsənsə, həmin adamı bir müddət vəzifə başına qoy. Həmin adam bütün bacarığını və nöqsanlarını biruzə verəcəkdir. Buna görə də əgər sən kütləni müvəffəqiyyətlə, aldatmadan, öz arxanca aparmağa hazır deyilsənsə yaxşısı budur, bu işdən imtina et... Əgər kütlə (fəhlələr və kəndlilər) sənə qiymət qoyurlarsa, sənin hakimiyyət başında qalmağını labüd hesab edirlərsə, sənə inanırlarsa və bu inamla əlaqədar ümumi işə müəyyən mənfəət verəcəksənsə, onda imtina etmə. Əgər sən zərrə qədər də olsa hiss etsən ki, səni seçməyə kimsə məcbur edir, onda imtina et. Əks halda sən nəinki, kütlənin, hətta öz qarşında da ləyaqətini itirərsən. Hər dəfə dərk edəndə ki, səni hakimiyyətə qabiliyyətin üçün deyil, məcburən təyin etmişlər, onda sən daim vicdan əzabı çəkəcək, öz qarşında da ləyaqətini itirərsən. Hər dəfə dərk edəndə ki, səni hakimiyyətə qabiliyyətin üçün deyil, məcburən təyin etmişlər, onda sən daim vicdan əzabı çəkəcək, öz mənliyini təkcə kütlə qarşısında deyil, habelə öz qarşında da itirəcəksən. Sənin dünyagörüşündəki sonrakı pozulma məhz buradan başlayacaqdır.

Bu, ictimai xadimin həyatında ən qorxulu andır. Bütün bunlara o vaxt dözmək olar ki, sən sərbəst həyata hazır olasan. Bu nə deməkdir? Sənə aydın olmaq üçün mən öz həyatımdan misal gətirmək istəyirəm.

Sən artıq bilirsən ki, mən 30 yaşında kamal attestatı imtahanı vermişəm ki, universitetə daxil olum? — sualı qarşısında durdum. Həyatımın bütün şəraiti və yaşım məcbur edirdi ki, tezliklə universitet təhsili alım. Ona görə də elə fakültə seçmək lazım idi ki, az vaxt tələb etsin.

Mənim qarşımda belə bir sual dururdu: hüquq fakültəsinə (o vaxtlar o asan fakültə hesab olunurdu) və ya təbiyyat fakültəsinə (burada 4 il oxumaq lazım idi). Həmin fakültələri bitirdikdən sonra





ayrı-ayrı şəxsiyyətlərdən və idarələrdən asılı vəziyyətə düşmək olardı. Ona görə də mən onlardan imtina edib tibb fakültəsinə daxil oldum ki, həyatımda başqalarından az asılı olum. Bu, bir səbəb idi.

Digəri: Sənin nənən və mənim anam Həlimə ürəyi yumşaq, sadə qadın idi. O, ehtiyacda olanlara yardım edir, xəstə qonşulara qayğı göstərir, bir parça çörəyi onlarla bölürdü və s. Uşaq yaşlarından mən bütün bunları görürdüm və bunlar mənə təsir edirdi... Ona görə də tibb fakültəsində oxumaq müddətinin uzun olması və çətinliyinə baxmayaraq mən həmin fakültəyə daxil olmağı qərara aldım ki, ayrı-ayrı şəxsiyyətlərdən və idarələrdən asılı olmayıb daha artıq mənəvi zövq alım.

**N.Nərimanovun V.İ.Leninə məktubu**

Əziz Vladimir İliç!

Mənim teleqramlarımdan birində verilmiş məlumatı demək olar ki, təkrar etmək lazım gəlir.

Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda o, Mərkəz, Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana verilmiş olsaydı, əfkari-ümumiyyə ilə bir təhər mübarizə aparmaq olardı, lakin Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan pis nəticələr verə biləcək səhvdir. Bu barədə bizim nümayəndəmiz ətraflı danışacaqdır.

Bizi dəhşətli vəziyyətdə qoyan Mərkəzin başqa bir münasibəti: Mərkəzdən hər gün nümayəndələr gəlib əllərində olan mandatlara əsasən bu və ya digər səbəbə görə tanınmış xalq komissarına tabe olmaq haqqında bizə göstəriş verirlər.

Əziz Vladimir İliç, məgər «Müstəqil Azərbaycan» Sizin dilinizdən çıxmamışdırmı? Axı, məhz buna əsaslanaraq, biz Müsavatın qurduğu fitnəkarlığı məhv edə bildik.

İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır. İndiyə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir.

Vladimir İliç! Çoxmillətli əhalinin hüquq və hissləri ilə bir zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu, kobud səhvdir. İndi Bakıda şüurlu müsəlman fəhlələrinin sayı iki dəfə çoxdur. Bəs, bütün Azərbaycanın kəndliləri?

Mən qəti surətdə bildirirəm ki, əgər Siz də bizim dəlillərə diqqət yetirməsəniz, məcbur olacağıq ki, bizim geri çağırılmağımız barədə Mərkəz qarşısında məsələ qoyaq. Onda qoy tarixən dolaşıq milli məsələləri belə asanlıqla həll edənlər bura gəlsinlər. O zaman bilərik ki, bizim mənasız Şərqə doğru çığırtımız nə deməkdir. Belə olan halda Şərqə necə gedəcəyik?

Yeganə ümidimiz inqilabımızı Şərqdə siyasətləri müdafiə etmək ümidi də alt-üst oldu. Və bütün bunların müqəssiri kimdir? 1-ci





Mərkəzin xəbərsizliyi və 2-ci Mərkəzdə oturmuş erməni daşnak-kommunistlərinin iyrənc işi.

Mən Sizin diqqətinizi buna cəlb edirəm.

Əgər qısa müddətdə Mərkəz daşnak-kommunistlərin bütün bu murdar hərəkətlərinə son qoymaq iqtidarında olmasa, bütün müsəlman Şərqi bizdən üz döndərəcəkdir. Mən bu barədə Sizə ciddi surətdə bildirirəm və əgər Şərq məzlumlarının mənafeyi həqiqətən bizə əzizdirsə, Sizin də bu məsələyə ciddi yanaşmağınızı xahiş edirəm.

## SÖZARDI, YAXUD N.NƏRİMANOV MƏNİM HƏYATIMDA

Tələbkar oxucularıma təqdim edilən bu kitab xalqımızın unudulmaz oğlu, gənc nəslin təlim-tərbiyə və təhsili yolunda həyatını məşəl kimi yandıran Nəriman Nərimanovun pedaqoji ideyalarının elmi şərhinə həsr edilmişdir.

Bu monoqrafiya əslində 1975-ci ildə "Maarif" nəşriyyatında yığılmış, lakin özünü sovet-bolşevik ruhlu qlavlit başçısı hesab edən və onlara züytutanların səxavəti sayəsində çapına icazə verilməyən və təxminən 25 il müəllifin arxivində qorunub saxlanılan, "şikəst övladım" hesab etdiyim əsərimin bu gün demokratiya, suverenlik və müstəqillik işığında bərpa edilərək yenidən işlənmiş nəşridir. Bu kitab, eyni zamanda 1979-cu ildə yuxarıda göstərilən nəşriyyatda müəyyən ixtisarla çap edilmiş monoqrafiyamın ikinci nəşridir.

Bəs, o zamanlar bu kitabın çapına niyə icazə verilmədi?

Sualın cavabı bəllidir. Məsələn, mən yazırdım ki, "N.Nərimanov rus çarizminə qarşı mübarizə aparırdı"— qlavlit "rus" sözünü pozur, yalnız "çarizm" sözünü saxlamağa təklif edirdi. Mən isə inadkarlıq edir, razılaşmırdım. Bu və digər xarakterli söz-söhbət çapa imzalanmış kitabın nəşrini dayandırdı. Yuxarı təşkilatlara müraciətim onunla nəticələndi ki, bu kitabı Partiya tarixi institutuna əlavə rəyə göndərdilər. Oradan da bir cavab hasil olmadı. Nəhayət, kitab rəy üçün Vəli Məmmədova verildi.

Mərhum V.Məmmədovla biz hələ komsomol vaxtımızdan tanış idik. Yəni o, ADU-da, mən isə APİ-də komsomol komitəsinin I katibi olarkən rayon, şəhər və respublika toplantılarında bir yerdə olardıq. Ən əsası isə V.Məmmədovun "N.Nərimanov" adlı kitabına mən o vaxtlar xüsusi rəy yazmışdım və həmin rəy qəzetdə çap olunmuşdu. ("Qiymətli tədqiqat əsəri" Bax: "Azərbaycan gəncləri" qəz., 20 noyabr 1957-ci il.) Sonralar biz N.Nərimanov ilə bağlı apardığımız araşdırmalar, gələcəkdə görəcəyimiz işlər, hansı arxivlərdəki materialları əldə etmək haqda fikir mübadiləsi aparardıq.

Vəli Məmmədov bu kitabı diqqətlə oxudu və demək olar ki, o dövrün tələblərinə uyğun redaktə xarakterli düzəlişlər etdikdən sonra çapa məsləhət bildi. Kitab yuxarıda deyildiyi kimi, 1979-cu ildə çap edildi və geniş oxucu kütləsinin, həmçinin nərimanşünasların rəğbətini qazandı, desəm, səhv etmərəm. Bu kitab isə N.Nərimanovun





unudulmaz xatirəsinə, anadan olmasının 130 illiyinə həsr edilir. Güman edirəm ki, onun vaxtı ilə irəli sürdüyü pedaqoji fikirlər bu gün də öz təravətini saxlayır və müstəqil Azərbaycan respublikasında orta və ali məktəblərdə uşaq və gənclərin mənəvi tərbiyəsinin formalaşdırılması işinin təşkilində ondan lazımınca faydalanmaq olar.

Onu da deyim ki, bu əsər mənim nə namizədlik, nə də doktorluq dissertasiyamdır. Bu mövzunu tədqiq etmək mənim Nərimanov şəxsiyyətinə, onun çoxsahəli fəaliyyətinə vurğunluğum, əzablı-əziyyətli günlərinə, sürgün illərinə baxmayaraq, xalqının mənəvi tərəqqisinə çalışmasına bizim nəslin hörmətlə yanaşması və qiymətləndirilməsi ilə bağlı olmuşdur.

Bizlər, yəni 30—40 və 50-ci illərin uşaq və gəncləri nə orta, nə də ali məktəbdə oxuyarkən N.Nərimanov adlı şəxsiyyət barəsində nə müəllimlərimizdən bir söz eşitmişdik, nə də kitablardan, qəzet və ya jurnallardan bir şey oxumuşduq.

Bəs necə oldu ki, nəinki ali məktəbi, hətta aspiranturanı bitirib alimlik dərəcəsi almağa hazırlaşan bizlər N.Nərimanov kimi bir dövlət xadiminin fəaliyyətindən bixəbər olduğumuz halda, birdən-birə onun tədqiqatçısına çevrildik. Bu da bir təzad, bu da bir tariximizdi.

Bu məsələni də açıqlamaq yerinə düşərdi. Aspiranturanın əyanı şöbəsini bitirmişdim, müdafiə ərəfəsində idim. Kafedrada yer olmadığından elmi rəhbərim mərhum professor Əhməd Seyidov (Allahdan ona rəhmət diləyirəm.) Azərbaycan ETPEİ-nun direktoruna mərhum Məmməd Ələkbərliyə zəng vurub, məni işə qəbul etməsini xahiş etdi. 1957-ci ilin yanvarında həmin instituta kiçik elmi işçi vəzifəsinə qəbul olundum və elmi-tədqiqat işi kimi N.Nərimanovun pedaqoji fikirlərini araşdırmaq məsləhət bilindi. O vaxtlar, N.Nərimanov haqqında təzə-təzə söz-söhbət gedir, məqalələr yazılırdı. Həsən Şahgəldiyevin, gərək ki, "Təşviqatçı" jurnalında iri həcmli bir məqaləsi dərc edilmişdi. Sonra isə V.Məmmədovun kitabçası ilk yol göstəricilərim oldu.

O vaxtdan başlayaraq N.Nərimanovla bağlı şəhər və kəndləri gəzdim, Tiflis, Leninqrad, Moskva, Həştərxan dövlət arxivlərini ələk-vələk etdim. Qızıl Hacılı kənd məktəbində oldum, xatirələr topladım, xeyli arxiv sənədləri yığdım. Nərimanovun müxtəlif dillərdə, müxtəlif qəzet və jurnallarda çap olunmuş əsər və məqalələrini əldə etmək o qədər də asan olmadı.

Bunun üçün xeyli vaxt və vəsait də sərf etdim, indi xatirəyə çevrilmiş bəzi hadisələrlə də rastlaşdım. Məsələn, 1957-ci ilin

yayında Tiflis şəhərində saxlanılan Zaqafqaziya (Qori) müəllimlər seminariyasının arxivində işlərkən N.Nərimanovun anadan olduğu ev ilə də maraqlandım. Şəhərin azərbaycanlı sakinlərinin köməyi ilə onun anadan olduğu evi müəyyən etdik.

Məlum oldu ki, bu ev sonralar kiməsə satılıb, sonra da indi orada yaşayanlar alıb və s. Gəlişimizin səbəbini bilən ev sahibi - bir cavan gəlindən öyrəndik ki, N.Nərimanovla bağlı evdə elə bir Əşyayi-dəlil saxlanmayıb, yalnız bir fotoşəkildən başqa. Müsahibim həmin fotoşəkli bizə təqdim etdi. Şəkil 1925-ci ildə Moskvada Qızıl Meydanda N.Nərimanovun dəfn mərasimi ilə bağlı idi. Şəkildə N.Nərimanovun cənazəsinin əsgərlərin müşayətilə top lafetinin üstündə son mənzilə yolasalma mərasimi öz əksini tapmışdır. Şəklin arxasında SSRİ MİK-nin möhürü aydınca oxunurdu («ÜİK SSSR»). Həmin fotoşəkli o vaxtlar Azərb. EA Azərbaycan tarixi muzeyinə (Muzeyin direktoru mənim hörmətli müəllimim professor Məmməd Qazıyev idi.) verdim. Həmin sənəd muzeydə saxlanılır və nümayiş etdirilir.

Burada diqqətimi başqa bir şey də cəlb etdi. Məlum oldu ki, N.Nərimanovun anadan olduğu evin yerləşdiyi küçənin adı Nikolay vaxtı necə idisə, elə də qalıbdır. Yəni, keçmişdəki «Tatarskiy pereulok» adı yenə də saxlanılıb.

Əlbət ki, sovetlər hakimiyyətinin 37-ci ilində bu adın dəyişdirilməməsinin diqqətdən kənarda qalması bizlərə, orada yaşayan azərbaycanlılara bir növ təhqir idi ....

Az-çox fikirləşdikdən sonra qərara gəldim ki, şəhər sovetinə müraciət edim və eləmədim tənbəllik rus dilində yalan-yalnış bir ərizə də yazdım. Qeyd etdim ki, bəs sizə məlum olduğu kimi N.Nərimanov böyük şəxsiyyətdir, məşhur partiya və dövlət xadimi olub, sizin şəhərdə anadan olub, Qori şəhərindəki müəllimlər seminariyasını bitirib, Borçalı qəzasında Qızıl Hacılı kəndində müəllimlik edib, sonralar Zakfederasiyada İttifaq Şurasının sədri kimi Tiflisdə yaşamış və işləmişdir. Bütün bunlar əsas verir ki, N.Nərimanovun doğulduğu evin yerləşdiyi küçəyə onun adı verilsin. Həm də əlavə etdim ki, axı «tatar» sözü bizlərə təhqirdir. Ərizəm bu sözlərlə bitirdi:«N.Nərimanovun yarısı sizin, yarısı bizim deyilmi?».
İndi qalırdı Tiflis şəhər soveti sədrinin qəbuluna düşmək.

Bu, ən çətin və müşkül işlərdən idi. Nə isə, qəbul günü getdim Şəhər Sovetinə. Gördüm ki, çox basırıqdır. Xülasə, milis nəfərlərinə birtəhər izah etdim ki, nə ev istəyirəm, nə də elə bir şikayətim yoxdur. Sadəcə olaraq ezamiyyətdə olan bir elmi işçi kimi bu ərizəni məhz sədrin özünə verməliyəm... Çox çətinliklə də olsa sədrin qəbuluna düşdüm. Ərizəni oxuyan sədr yerindən qalxıb təzədən oturdu və əsəbi halda telefonların knopkasını basdı. Bir neçə adam dərhal tövşüyə-tövşüyə sədrin hüzurunda dayandılar. Mən gürcü dilini bilməsəm də, söhbətdən, sədrin əsəbi danışmasından başa düşdüm ki, sədr onları danlayır, irad tutur və məni göstərərək deyir ki, «Görün bu tatar balası bizə nələr deyir». Danlaq səhnəsi qurtardı. Sədr mənə təşəkkür etdi və bildirdi ki, hökmən bu işlə məşğul olacaqdır.

Növbəti ili yenidən Tiflis Dövlət Arxivində işləmək üçün ezamiyyətə getdim. Şübhəsiz ki, ilk iş günüm həmin küçənin adının dəyişdirilib dəyişdirilməməsilə başladı. Küçənin başına çatanda gözlərimə inanmadım. Küçəyə yeni ad verilib: «Mirzə Şəfi Vazeh küçəsi». Deyəsən, məqsədimə ikiqat çatmışdım. Bu küçəyə vaxtı ilə Tiflis qəza məktəbində və gimnaziyasında Azərbaycan dili müəllimi olan Mirzə Şəfinin adı verilmiş, şəhərin iri bir prospekti isə Nərimanov prospekti adlandırılmışdı.

1890-cı ildə Nərimanovun pedaqoji fəaliyyətə başladığı Qızıl Hacılı (Borçalıda) kənd məktəbində olarkən, həmin məktəbə Nərimanovun adının verilməsi barədə təklifim də sonralar həyata keçirildi.

Həştərxanda da Nərimanovla əlaqədar yerləri müəyyən etmək üçün az iş görmədim. Məlumdur ki, N.Nərimanov Həştərxanda iki dəfə olub, yəni birinci dəfə 1909-1913-cü illərdə sürgündə, ikinci dəfə isə Sovetlər hakimiyyəti illərində, 1918-ci ilin sentyabrından 1919-cu ilin iyuluna qədər, orada yaşayıb işləmişdir. Onun Həştərxandakı fəaliyyətini öyrənmək üçün mən iki dəfə - 1957-ci və 1959-cu illərdə, hər dəfə bir ay olmaqla elmi ezamiyyətdə olmuşam. Əvvəlcə onu deyim ki, Həştərxan sakinləri, xüsusilə də orada yaşayan tatarlar Nərimanovu çox sevirlər. Məhz bunun nəticəsi idi ki, Azərbaycanda Nərimanovun adı yasaq olanda da Həştərxanda Nərimanovun adına rayon, balıqtutma vətəgəsi var idi. Mən arxivdə işləməklə yanaşı, onun yaşadığı və işlədiyi evləri, binaları müəyyən etdim və onların fotosunu çəkdirdim.

Bu işdə mənə yerli sakin, vaxtı ilə 1918-1919-cu illərdə tibb bacısı sifətilə İrana, Ənzəli şəhərinə gizli partiya işinə göndərilən köhnə bolşevik qadın Aişə Komayeva çox kömək etdi. A.Komayeva məni bir tatar evinə apardı. Ev sahibi yaşlı kişi idi. Mənim gəlişimin məqsədini biləndə yataqdan qalxdı. Əvvəlcə Nərimanovun ruhuna bir

salavat çevirdi və dua oxudu, ayağa qalxıb taxçadan bir kitab götürdü. Bu kitab Həştərxanda tatar teatrının tarixinə aid kitab idi (1912-ci ildə çap edilmişdi). Kitabda Nərimanovun tatar teatrının təşkilindəki xidmətlərinə aid ayrıca yazı və teatr truppasının üzvlərinin şəkilləri var idi. Ev sahibi marağımı görüb həmin səhifələri cırıb mənə verdi. Həmin sənəd bu gün də mənim şəxsi arxivimdə saxlanılır.

Həştərxanda olarkən «Bilik» cəmiyyəti xətti ilə silsilə mühazirələr də oxudum. Həştərxan vilayət partiya komitəsinin orqanı olan «Volqa» qəzetinin redaksiyasında oldum və həmin qəzetdə «Светлая и героическая жизнь» adlı bir məqalə ilə də çıxış etdim. (bax: «Volqa» qəzeti, 15 aprel 1958 ).

Həştərxandan xeyli zəngin material gətirdim. Həmin sənədlərin bir surətini o vaxtlar Azərbaycan tarixi muzeyinə verdim. qalanları şəxsi arxivimdədir.

Bu sənədlərin içində N.Nərimanovun tədqiqatçılara məlum olmayan bəzi məqalələri də vardır ki, bunlar tərəfimizdən aşkar edilib yenidən nəşr edilərək oxuculara çatdırılmışdır. (N.Nərimanovun bir naməlum məqaləsi haqqında. Bax: «Azərbaycan məktəbi». 1976, №5, səh. 51-55.).

N.Nərimanovu təkcə tədqiq deyil, təbliğ etmək işini də unutmadım. Bakıda silsilə məqalələr çap etdirməklə kifayətlənməyib Moskvada «Советская педагогика» və «Народное образование», Tiflisdə «Məktəb və həyat» (gürcü dilində), İrəvanda «Sovet pedaqogikası» (erməni dilində) adlı jurnallarda, Moskvada nəşr edilən «Azərbaycan pedaqoji fikir antologiyası»nda N.Nərimanovun pedaqoji irsinə aid məqalələrlə çıxış etdim. 1975-ci ildə Ulyanovsk şəhərində keçirilən Ümumittifaq konfransında oxuduğum mühazirə 1977-ci ildə Saratov Universitetində nəşr olunan iri həcmli məqalələr toplusuna daxil edilmişdir.

Beləliklə, mən illər uzunu N.Nərimanov mövzusu üzərində işləməyimə, aylarla arxivlərdə çalışmağıma, üstünü toz basmış sənədlərə yeni həyat verməyimə və gəncliyimin çox hissəsini bu böyük insanın keşməkeşli yolunun, zəngin pedaqoji irsinin araşdırılmasına həsr etməyimə təəssüflənmirəm, əksinə onunla nəfəs alıram, fəxr edirəm.

N.Nərimanovun həyatı və fəaliyyəti, onun bu və ya digər hadisəyə münasibəti həqiqətən mənim istər şəxsi həyatımda, istərsə də məişət və ailə həyatımda mühüm rol oynamış, örnək olmuş və istiqamət vermişdir. Mən həyatımda rast gəldiyim hadisələrə münasi-





bətdə, düşdüyüm çətinliklərdən çıxmaq yolunu arayanda həmişə bir növ N.Nərimnova müraciət etmişəm, fikrən ondan məsləhət almışam. Bu, bir həqiqətdir.

Xalqımızın bu böyük oğlunun mənim həyatımda oynadığı rola aid iki misal gətirmək, daha doğrusu, iki epizodu xatırlatmaq yerinə düşərdi.

Bunlardan birincisi mənim elmi fəaliyyətimlə bağlıdır. Belə ki, 1958-ci ildə müdafiə etdiyim namizədlik dissertasiyasının təsdiqi yubanırdı. Hər dəfə dissertasiyanın bu və ya digər fəslinin rus dilinə tərcüməsini tələb edirdilər ki, bu da həm vaxt, həm də vəsait tələb edirdi.

Nə isə, iş elə gətirdi ki, işimin dalınca Moskvaya gedərək ekspert şurasının iclasında çıxış etməli oldum. Sorğu-sualdan sonra mənə verilən əlavə suallardan biri bu oldu: «Müdafiədən sonra neçə məqaləniz dərc olunub?». Mən 13 jurnal məqaləmin nəşr edildiyini söylədim və əlavə etdim ki, sonuncu məqaləm «Советская педагогика» jurnalında çap olunub. (№5, 1961-ci il). Şuranın sədri akademik N.K.Qonçarov üzümə baxıb, təəccüblə soruşdu: O məqalənin müəllifi Sizsiniz?. Mən, Bəli — dedim. Elə bil ki, Qonçarov belə bir məqam axtarırmış ki, məni müdafiə etsin. Həmin əlverişli məqam gəlmişdi. O, bir neçə dəqiqə mənim məqaləmin məziyyətlərindən, başqa sözlə, N.Nərimanovun şəxsiyyətindən, onun pedaqoji ideyalarından danışdı və dedi ki, biz bu məqaləni alanda, heç yerə rəyə göndərmədən onu çap etməyi qərara aldıq.

Akademik N.K.Qonçarov, həm də «Советская педагогика» Jurnalının baş redaktoru idi. Qonçarovun çıxışından sonra mənə şuranın iclas salonundan çıxıb gözləməyi təklif etdilər. İclas qurtarandan sonra Qonçarov mənə yaxınlaşdı və qolumdan tutub dedi: Muradxanova salam söylə və de ki, onun professorluğunu təsdiq etdik. Sənin işin də təsdiq olundu. (M.Muradxanov doktorluq dissertasiyası müdafiə etmədən professor adına layiq görülən ilk pedaqoq alim idi).

Beləliklə, həmin məqalə o vaxtlar mənim namizədlik dissertasiyamın təsdiqində həlledici rol oynadı, desəm, yerinə düşər.

İkinci epizod isə N.Nərimanovun aşağıda deyəcəyim hadisəyə bilavasitə birbaşa münasibəti ilə bağlıdır.

1960-cı illər idi. Anam xəstələndi və dedi ki, həkim - filan lazım deyil. Öz yuxumu görmüşəm. Ot biçilən vaxt mənim vaxtım tamamdır. Çoxdan vəfat etmiş filan-filan arvadlar (öz qohum-qonşuları) mə-

nə deyirlər ki: «Ay Mələk, niyə gəlmirsən? Sənə yanımızda yer saxlamışıq». Anam isə deyir ki, bu il ot biçini vaxtı gələcəm. Beləliklə, anam özünün ölümünü yəqin edərək vaxtın tamam olmasını gözləyirdi.

Anamın yuxusu və öz yuxusunu belə yozması bizi həqiqətən dilxor elədi. Yuxuya inanmaq bizlərdə adamların əqidəsində bir növ hakim idi. Yuxu görməyə inam elə qüvvətli idi ki, bu inamı insanların qəlbindən çıxarmaq çox çətin idi və bəlkə də mümkün deyildi. Mənim rəhmətlik Ramazan dayım da o vaxtlar özünün nə vaxt öləcəyi barədə yuxu görmüş, özü üçün qəbrüstü daşları, ehsan üçün lazım olan ərzaq, hətta yanacaq və s. tədarük etmiş, gəlib Gəncəbasarda yaşayan qohum-əqrabaları ilə görüşüb getmiş və yuxuda deyildiyi vaxt dünyasını dəyişmişdi.

Bunu biz hamımız yaxşı bilirdik. Anam da həmin hadisəni əsas götürmüşdü. Ancaq burasını da bilirdik ki, yuxuda adamlara ölüm vaxtının deyildiyi kimi, ömrün uzadılması da deyilir. Mən də fikrimi həmin səmtə yönəltdim və bu işlərdə, yəni insanlarda inam yaratmağa aid N.Nərimanovun fəaliyyətinə müraciət etdim. Məlum olduğu kimi, Nərimanov fanatizmin dini xurafatın puçluğu haqqında adamlarda inam yaratmaq üçün dindən, şəriətin kəlamlarından istifadə edir, məscidlərdəki çıxışlarında dinin əsaslarına istinad edərək, cahil mollaların iç üzünü açıb göstərir və bununla da insanlarda bu və ya digər hadisəyə münasibətdə inam yaratmağa müvəffəq olurdu.

Çox götür-qoy etdikdən sonra belə qərara gəldim ki, anamın yuxuda gördüyü ölmək məsələsini onun beynindən çıxarmaq lazımdır. Bunu da müəyyən etdim ki, yuxu yozumunu ancaq yuxu yozumu ilə təsdiq və ya rədd etmək daha inamlı olar. ("Pazı pazla çıxararlar" zərb məsələsində deyildiyi kimi).

Burasını da deyim ki, hər gün səhər tezdən "sabahın xeyir" demək üçün anamın yataq otağına gedəndə onun çarpayıda üzü divara tərəf uzandığını görürdüm və səbəbini soruşanda onun "qərib öləndə üzünü divara çevirər",—deməsi də bizi bir təhər edərdi. Bundan başqa anamın vəziyyəti qonum-qonşulara da yayılmışdı və qonşu arvadlar iki-bir, üç-bir anamın yanına gələr, ondan halallıq alar və ya ona halallıq verərdilər. Bu proses də anamın yuxusunu bir növ gerçəkləşdirirdi... Bütün bunları götür-qoy etdikdən sonra, günlərin birində özümdən belə bir yuxu uydurdum və adətim üzrə səhər tezdən anama baş çəkərkən həmin yuxunu ona danışdım. Dedim ki, "Ana, muştuluğumu ver, bu gecə yaxşı bir yuxu görmüşəm". Soruşdu ki, nə görmüsən, dedim, rəhmətlik dədəmi gördüm. Dədəmin adını eşitcək arvad yönünü bəri çevirdi və dedi:"Allah ona rəhmət eyləsin. Molla Əhmədin oğlu məni heç vaxt incitməzdi". (Anam dədəmi atasının adı ilə çağırırdı. Atam da ona Məhərrəmin qızı deyərdi).





Beləliklə, düzüb-qoşduğum yuxunu anama danışmağa başladım. Yuxunun məzmunu belə idi. Yuxuda gördüm ki, rəhmətlik dədəm gəlib, deyir ki, ay oğul, bu il ananın vaxtı tamam idi. (Burada anamın yuxusunu təsdiq edirəm, məqsəd onu inandırmaqdır.) Ancaq görürəm ki, əlində-ovcunda bir şeyin yoxdu. (Yəni dəfn mərasimi üçün lazım olan vəsaitə malik deyiləm). Odur ki, ananın vaxtını 7 il uzatdım və özü ilə bərabər 7 kömbə çörək də gətirmişdi. Dedi ki, bu da onun 7 illik azuqəsidir." Bu sözləri çox ciddi dedim və fikrim anamda idi. Gördüm ki, onun əhvalı dəyişdi, durub oturdu. Mən isə işə getdim.

Axşam işdən qayıdanda küçənin başında qonşumuz rəhmətlik Fatma xala ilə (proffessor Nurəddin Rzayevin anası) rastlaşdım. O, sevinə-sevinə xoş məramla mənə tərəf gəlib yuxumun təsirini söylədi və dedi ki, Mələk qarının yanına getmişdik. O, dedi ki, ay Fatma bacı, Söyün yuxumu görüb, daha öləsi olmadım. Molla Əhmədin oğlu mənim vaxtımı 7 il uzadıb... Beləliklə, anam sonralar 7 il yox, bəlkə də daha çox - 17 il yaşadı və 1990-cı ildə 107 yaşında dünyasını dəyişdi. Lakin mənim yuxumun uydurma olduğunu bilmədi. Yuxunu elə danışdım ki, onda inam yarandı. Necə ki, N.Nərimanov xalq kütləsi qarşısında çıxışlarında geniş əhali kütləsində bu və ya digər məsələyə, hadisəyə inam yaratmağa nail olurdu.

Son söz olaraq onu da deməyi lazım bilirəm ki, son on illiyin təcrübəsi göstərdi ki, bəziləri bu və ya digər mövzularda namizədlik və ya doktorluq dissertasiyaları müdafiə edib alimlik dərəcəsi aldılar. Lakin zəmanə dəyişəndə onlar da dəyişdilər və öz tədqiqatlarının əksinə oldular, dönük çıxdılar.

Ancaq N.Nərimanov mövzusu mənim qəlbən bağlandığım mövzu olmuş və olaraq da qalır.

*Müəllif*
*23.03.2000-ci il.*

# QEYDLƏR VƏ İZAHLAR

## Teatr barəsində bir neçə söz

## (səh 125-126)

*«Teatr barəsində bir neçə söz»-1899-cu il yanvarın əvvəllərində Gəncə şəhərində M.F.Axundovun «Hacı Qara» pyesinin tamaşaya qoyulması münasibəti ilə N.Nərimanov tamaşaçılar qarşısında söylədiyi nitqdir.*

*İlk dəfə 1899-cu ildə Bakıda Azərbaycan və rus dillərində bir yerdə «Gəncədə teatr barəsində deyilmiş N.Nərimanovun sözü» kitabçasında çap edilmişdir.*

***Məqalə 1956-cı ildə Azərbaycan Dövlət nəşriyyatında çap edilmiş «Nəriman Nərimanov Əsərləri» adlı kitaba və 1971-ci ildə nəşr edilən «N.Nərimanov Məqalələr və Nitqlər» (I cild, fevral 1896-mart 1920) adlı kitaba daxil edilmişdir. Səh. 32-34***

## Həftə fəryadı
## (səh 127-131)

***Bu məqalə (felyeton) ilk dəfə «Həyat» qəzetinin 26 may 1906-cı il tarixli 113-cü nömrəsinin 2-3-cü səhifələrində «Nər» imzası ilə dərc olunmuşdur.***

***Məqalə 1973-cü ildə «Elm» nəşriyyatında nəşr olunmuş «Nəriman Nərimanovun seçilmiş əsərləri»nə daxil edilmişdir. Səh. 252-262.***

## Həftə fəryadı
## (səh 132-142)

***Felyeton «Həyat» qəzetinin 2,9 iyun 1906-cı il tarixli 119-cu və 124-cü nömrəsinin 2-3-cü səhifələrində «Nər» təxəllüsü ilə dərc olunmuşdur.***

***Məqalə Nəriman Nərimanovun «Seçilmiş əsərləri»nə daxil edilmişdir. «Elm» nəşriyyatı, Bakı-1973, səh. 267-277***





## Mühüm bir məsələ
## Qori seminariyası nerədə olmalı?
## (səh 143-150)

***Bu məqalə silsilə şəklində «Həyat» qəzetinin 11,14,18 iyun 1906-cı il tarixli 125, 128 və 131-ci nömrəsinin 2,3-cü səhifələrində «Nər» təxəllüsü ilə dərc olunmuşdur. 1973-cü ildə «Elm» nəşriyyatı tərəfindən nəşr edilmiş N.Nərimanovun «Seçilmiş əsərləri»nə daxil edilmişdir. səh.278-285***

## Müəllimlər ictimaına dair
## (səh 151-165)

***Bu məqalələr silsilə şəklində «Həyat» qəzetinin 3, 6, 8, 9, 13 avqust 1906-cı il tarixli 171, 173, 175, 176, 179-cu nömrələrinin 2, 3-cü səhifələrində «Nər» təxəllüsü ilə dərc olunmuşdur.***

***1973-cü ildə «Elm» nəşriyyatı tərəfindən çap olunmuş Nəriman Nərimanovun «Seçilmiş əsərləri»nə daxil edilmişdir. səh. 314-327.***

## Bu gün
## (səh 166-168)

***1906-cı il avqust ayının 15-də Bakıda Qafqaz müsəlman müəllimlərinin birinci qurultayı olmuşdur. Məqalə də qurultayın açılışına həsr edilmişdir. Qurultayın sədri H.B.Zərdabi, sədr müavini isə N.Nərimanov seçilmişdir.***

***Məqalə «Həyat» qəzetinin 15 avqust 1906-cı il tarixli 181-ci nömrəsinin 1-2-ci səhifələrində «Nər» təxəllüsü ilə dərc olunmuşdur.***

***1973-cü ildə «Elm» nəşriyyatı tərəfindən çap olunmuş Nəriman Nərimanovun «Seçilmiş əsərləri»nə daxil edilmişdir. səh. 332-334***

## Doktor Nəriman bəy
## (səh 169-170)

***1909-cu il martın 1-də Tiflis şəhərində həbs edilən Nərimanov 7 ay «Metek» qalasında saxlanıldıqdan sonra 1909-cu ilin oktyabr ayında 2 il***

*müddətdə Qafqazdan xaricə, Həştərxana sürgün edilir. Nərimanovun siyasi məhbus kimi sürgün edilməsinə baxmayaraq, yerli əhali onu rəğbətlə qarşılamışdı. Həştərxana gəlməsindən 5 gün sonra, oktyabrın 11-də yerli «Burhani-tərəqqi» qəzetində dərc edilmiş həmin məqalədə Nərimanovun şərəfinə xoş sözlər deyilmiş və onu sürgünə göndərilməsini yerli əhali sevinclə qarşılamışdı.*

*«Burhani-Tərəqqi» qəzeti (Həştərxan) 1909, №98, səh 8*

## 200 rubl ştraf

## (səh 171-172)

*N.Nərimanovun Həştərxana sürgün edilməsinə baxmayaraq onun rəğbətlə qarşılanmasına aid məqalə ilə çıxış edən «Burhani-tərəqqi» qəzetinin redaktoru Mustafa İsmayılov Həştərxan qubernatoru tərəfindən 200 manat cərimə edilmişdir.*

*«Burhani Tərəqqi» qəzeti (Həştərxan) 1910, №99, səh.3*

## Tibb və islam

## (səh-173-184)

*N.Nərimanovun eyni adlı silsilə məqalələri 1909-1911-ci illərdə Həştərxanda sürgündə olduğu illərdə yazılmış və yerli tatar dilində nəşr edilən «Burhani-tərəqqi» adlı qəzetdə «Nər»,: «doktor Nərimanbəy» imzaları ilə çap edilmişdir.*

*N.Nərimanov bu məqalələrində bir pedaqoq və həkim kimi çıxış edir və əhali arasında elmi-pedaqoji və tibbi bilikləri yayır, geniş xalq kütləsini maarifləndirmək məqsədi güdürdü. Məqalənin başlığındakı «İslam» sözünün mənası isə, fikrimizcə, bəzi məsələləri islam qanunlarına uyğunlaşdırmaq, başqa sözlə desək şəriətə, islam ehkamlarına istinad etmək və beləliklə həm əhalinin şüurunda dinin dərin kök saldığı bir mühitdə məqaləni oxunaqlı etmək idisə, digər bir başlıca məqsədi özünün siyasi-inqilabi ideyalarını sətirlər arasında yaymaq və dövlət nəzarətinin, senzuranın diqqətini yayındırmaq idi.*

*«Tibb və islam» başlıqlı məqalələrin başlıca qayəsi əhali kütləsini hifz üs-səhhə biliklərinə yiyələnmək zərurətini elmi cəhətdən əsaslandırmağa çalışmaqdan ibarətdir.*





*Məqalələrdən birində oxuyuruq: «Şəriətə görə şərab içmək olmaz. Amma tibb elmi yəqin etsə ki, xəstə bədən üçün lazımdır, o vaxt şərab içmək halal hesab edilir». Ümumiyyətlə bu məsələdə müəllifin gəldiyi nəticə belədir «İslam insaniyyətə böyük xidmət göstərərək bu spirtli içkilərin hamısını qadağan edib»*

*Müəllif uşaqların oruc tutmalarını məsləhət bilmir. Əksinə uşaqların vaxtlı-vaxtında qidalanmalarının vacibliyini göstərir.*

*Belə ki, uşaqlar daimi hərəkətdə olduqları və çox enerji sərf etdikləri üçün onların orqanizmləri də daim qida tələb edir. Başqa bir yerdə isə deyilir: İslam səfər üstündə olan adama oruc tutmağı vacib bilmir. Çünki səfərdə olan adam üçün vaxtında lazım olan yeməyi yeməlidir ki, bədənə zərər yetişməsin. Müəllifin gəldiyi nəticə belədir: «İslamın bu barədə olan qanunları tibb qanunlarına uyğundur».*

*Məqalələri əski əlifbadan latın əlifbasına ABU-nun «İlahiyyat və regionşünaslıq» fakültəsinin əməkdaşlarından T.Q.Rüstəmov, M.H.İsgəndərov çevirmişlər.*

## Tibb və islam

## (səh 173-175)

*«Burhani tərəqqi» qəzeti 14 noyabr 1910, №121*

## Tibb və islam

## (səh 176-177)

*«Burhani tərəqqi» qəzeti 1910, №122, səh 2*

## Tibb və islam

## (səh 178-179)

*«Burhani tərəqqi» qəzeti 1910-cu il 29 dekabr №123*

## Tibb və islam

## (səh 180-182)

*«Burhani tərəqqi» qəzeti 1910, № 124*

## Tibb və islam
## (səh 183-184)

*«Burhani tərəqqi» qəzeti 1910, №126*

## Cavabı? Ya «hədərən-pədərən»
## (səh 185-189)

*«Burhani tərəqqi» qəzeti 1911, №135*

## Aman anlamaz əlindən!
## (səh 190-191)

*«Burhani tərəqqi» qəzeti 1911, №14*

## Məktəbyaşlı uşaqların döş qəfəsinə diqqət yetirmək nə üçün zəruridir?
## (səh 192-200)

*Nəriman Nərimanovun elmi-ədəbi, tibbi-pedaqoji irsində onun publisistikası da böyük yer tutur. N.Nərimanovun publisist məqalələri əsasən Bakı və Həştərxan dövri mətbuatında Azərbaycan və rus dillərində çap olunmuşdur.*

*N.Nərimanov 1909-cu ildən 1913-cü ilədək Həştərxanda sürgündə olarkən yazdığı məqalələr onun yaradıcılığında xüsusi yer tutur. Bu illərdə o, Azərbaycan və tatar dillərində çıxan «Burhani tərəqqi», «Прикаспийский край», «Астраханский вестик», «Астраханский листок» və s. qəzetlərlə əməkdaşlıq etmişdir. 1911-ci ildə Həştərxan şəhərində keçirilən həkimlərin ikinci qəza qurultayında iştirak etmişdir. Onun buradakı çıxışı Həştərxan həkimlər cəmiyyətinin «Известия» jurnalında dərc olunmuşdur.*





*Ümumiyyətlə, N.Nərimanovun publisistikası, xüsusilə Həştərxan dövrü, müxtəlif sahələrdə çalışan mütəxəssislərin diqqətini cəlb etmiş və əsasən Nərimanşünasların tədqiqat işlərində öz əksini tapmışdır.*

*Lakin son illərdə dərindən aparılan tədqiqatlar göstərir ki, N.Nərimanovun indiyədək tədqiqatçılara və oxuculara məlum olmayan məqalələri də vardır. Belə naməlum məqalələrdən birini biz tapmışıq.*

*Nərimanovun sürgündə olduğu dövrdə Həştərxanda nəşr olunan qəzet və jurnalların komplektlərini nəzərdən keçirərkən 1911-1914-cü illərdə nəşr olunan aylıq «Новый журнал рационального воспитания» jurnalının 1912-ci il 5-ci nömrəsində «Doktor Nərimanbəy Nərimanov» imzası ilə «Məktəbyaşlı uşaqların döş qəfəsinə diqqət yetirmək nə üçün zəruridir?» adlı bir məqaləyə rast gəldik. Bu jurnalın naşiri və redaktoru A.A.Dernova-Yarmolenko familiyalı bir qadın olmuşdur. Onun şəxsiyyəti hələlik bizə məlum deyildir.*

*N.Nərimanovun yaradıcılığının öyrənilməsində həmin məqalənin əhmiyyətini nəzərə alaraq onun rus dilindən tərcümə olunmuş tam mətninin dərcini faydalı hesab edirik.*

*Həmin məqalə tərəfimizdən tərcümə edilərək «Azərbaycan məktəbi» jurnalında 1976-cı il, №5, s.51—55.. çap edilmiş, akademik Hüseyn Əhmədovun «Seçilmiş Pedaqoji əsərləri»nin II cildinə daxil edilmişdir. (Bakı 2003, səh.113-120)*

## Baxçasaray imtahan meydanı
## (səh 201-202)

*Türk dünyasının böyük maarifpərvər oğlu və ideoloqu Rusiyada müsəlman mədəniyyəti xadimi, pedaqoq, yazıçı, məşhur «Tərcüman» qəzetinin təsisiçisi İsmayıl bəy Qasprinskinin (8 (20), 3, 1851-11 (24),9,1914) vəfatı münasibəti ilə yazılan bu məqalə Doktor Nərimanov N. imzası ilə Bakıda nəşr edilən «Bəsirət» adlı qəzetin 20 sentyabr 1914-cü il 2-ci nömrəsində çap edilmişdir. Məqaləni Sankt-Peterburq şəhərindəki Saltıkov-Şedrin adına kitabxananın fondundan Abbas Abdulla Hacaloğlu əldə edərək, «Tanıtım» qəzetində (№19(26), 19-25 iyun 1994-cü il) «Dünyamızın türk dünyası» ümumi başlığı altında çap etdirmişdir. Məqalədə müəllifin üslubu və dili olduğu kimi saxlanılmışdır.*

## Həştərxanda mollaların və tatar məktəbləri müəllimlərinin yığıncağındakı nitqindən.

(səh 203-208)

*1918-ci ilin dekabrında dinin dövlətdən, məktəbin dindən ayrılması haqqında dekretlə əlaqədar olaraq Həştərxanda və onun ətrafında fitnəkarlar belə bir şayiə yaymışlar ki, guya bolşeviklər quranları toplayıb yandırırlar və məscidləri bağlayırlar. Partiya təşkilatının qərarı ilə zəhmətkeşlər arasında yığıncaqlar keçirilir və N.N.Nərimanov həmin yığıncaqlarda çıxış edib dekreti və partiyanın xəttini izah edirdi. 1918-ci ilin dekabrında mollaların və tatar məktəbləri müəllimlərinin və müsəlman məsul işçilərinin və kommunistlərinin yığıncaqlarında N.N.Nərimanov kommunistlər tərəfindən din əleyhinə aparılan işin metodu və formaları haqqında böyük məruzə edib göstərdi ki, yerli şəraitin xüsusiyyətlərini nəzərə alaraq tam ehtiyatla, təmkinlə hərəkət etmək lazımdır.*

*Din əleyhinə aparıldn işdə təmkinli və ehtiyatlı olmağa dair 1921-ci ilin martında RK(b)P MK tərəfindən müsəlmanlar yaşayan vilayətlərin partiya təşkilatlarına müraciətnamə hazırlandığı zaman G.V.Çiçerin RK(b)P MK-ya yazdığı məktubunda N.N.Nərimanovun yuxarıda göstərilən çıxışını qeyd edib yazmışdır: «Vaxtı ilə Nərimanov yoldaş Şərqdəki təşviqatçılara məhz bu məsələ barəsində çox qiymətli göstərişlər vermişdir. Din ilə dövlətin bir-birindən ayrılması haqqında onun mollalara söylədiyi nitq müsəlman camaatına təmkinlə yanaşmağın nümunəsidir». V.I.Lenin G.V.Çiçerinə məktubunda həmin cümlənin altından cızıq çəkmiş və G.V.Çiçerinə məktubunda yazmışdı: «... (buraya (müraciətnamə-red) Nərimanovun nitqinin hamısını daxil etmək və ya heç olmasa onu tövsiyə etmək olmaznı-hamısı daha yaxşı olar).*

*Emkaya təqdim edin*

*Bu zəruridir» (bax: V.I.Lenin, Əsərləri, 45-ci cild, səh.72).-199*

*Nitq -1971-ci ildə Azərbaycan dövlət nəşriyyatı tərəfindən çap edilən N.Nərimanov «Məqalələr və nitqlər» adlı kitaba daxil edilmişdir. (Bax. I-ci cild səh. 199-203)*

## Elmlərini yenicə tamam etmiş müəllimlərə açıq məktub

(səh 209)

*Nərimanovun bu məktubu ilk dəfə «Ali pedaqoji institutun salnaməsi» (Bakı, 20 may 1924-cü, il səh 39) adlı məcmuədə çap olunmuşdur.*

*Həmin məktub akademik H.Əhmədov tərəfindən olduğu kimi «Azərbaycanmüəllimi» qəzetində çap olunmuşdur (bax: «Azərbaycan müəllimi» qəzeti 1957 №1).*





## Ответ некоторым товарищам

(səh 210-213)

*Məqalə "Бакинский рабочий". qəzetinin 15 iyun 1922-ci il nömrəsində çap edilmişdir.*

## Traxoma

(səh 214-223)

N.Nərimanovun tibb sahəsində nəşr etdirdiyi əsərlər içərisində Traxomaya aid kitabçası ayrıca əhəmiyyət kəsb edir. Müəllifin «Traxom» adı ilə nəşr etdirdiyi bu kitabça 1924-cü ildə Bakıda yeni türk əlifba komitəsi tərəfindən nəşr edilmişdir. cəmi 17 səhifədən ibarətdir. Kitabın titul səhifəsində Doktor N.Nərimanov ilə bərabər Doktor N.Rozanov adlı başqa bir müəllifin də adı qeyd olunmuşdur. Əsərin dili və üslubu saxlanılmışdır. Kitabçadakı həkim məsləhətlərinin zəmanəmiz üçün aktuallığını nəzərə alaraq onu bütövlükdə «Əlavələr»ə daxil edirik.

Doktor N.Nərimanov, Doktor N.Rozanov «Traxom», Yeni türk əlifba komitəsi nəşriyyatı, Bakı, 1924, səh. 3-17

## OĞLUNA BİTMƏMİŞ MƏKTUBU

(səh 224-227)

*Nəcəf Nərimanov (2.12.1919, Moskva — 19.9.1943, USSR Volnovaxa ş.) — N.Nərimanovun oğlu. Böyük Vətən müharibəsi qəhrəmanı, qvardiya baş leytenantı. 1942-ci ildən Sov.İKP üzvü. Moskvada orta məktəbi bitirmiş, 1938-ci ildə Sovet Ordusuna çağırılmışdır. Kiyevdə hərbi məktəb qurtarmışdır (1940). Böyük Vətən müharibəsi illərində tank vzvod komandiri olmuş, Stalinqrad və Donbasın azad edilməsində fərqlənmiş, Volnovaxa şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.*

***Nəriman Nərimanovun oğlu «Nəcəf Nərimanova bitməmiş məktubu» adlı məqaləsi, Azərbaycan Dövlət nəşriyyat-poliqrafiya birliyi tərəfindən 1992-ci ildə Bakıda nəşr olunmuş «Ucqarlarda inqilabımızın tarixinə dair» sənədlər toplusuna daxil edilmişdir. s.64.***

### N.Nərimanovun V.İ.Leninə məktubu

(səh 228-229)

*Məktub -Nəriman Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» adlı kitaba daxil edilmişdir. Bax Azərbaycan Dövlət Nəşriyyatı poliqrafiya birliyi. Bakı, 1992, səh.62*

### Erməni xalqının bədbəxtliyi

(səh 274-282)

*Məqalə professor Şamil Qurbanovundur. İlk dəfə "Respublika" qəzetində çap edilmişdir. Bax «Respublika» qəzeti 29 oktyabr, 2002-ci il.*

*Məqalə Şamil Qurbanovun «Nəriman Nərimanov ömrünün son illəri» adlı kitabından götürülmüşdür. Bakı 2003, səh 362-372*





## LÜĞƏT

**A**

**Adab**-qaydalar, ənənələr
**Alam**-dərdlər
**Amal**-əməllər, arzular
**Amir**-əmr edən, başçı
**Asar**-əsərlər, yadigarlar
**Axirüləmr**-işin axırı, nəhayət

**B**

**Baql**-daimi, əbədi qalan
**Bədr**-on dörd gecəlik ay, gözəl sifət
**Bəradər**-qardaş
**Bəsirət**-gözüaçıq, fərasət
**Bəhr**-dəniz, dərya
**Bəhri-zəkarar**-ağıllı,dənizçi
**Bəhri-zəkər**-ağıllı kişi
**Bibəhrə**-faydasız, əbəs
**Binaən-əleyh**-ona əsasən, ona görə

**C**

**Cansiparanə**- canından keçərək, canla-başla, sədaqətlə
**Caiz**- icazə verilmiş
**Cədid**- yeni, təzə
**Cəmiyyəti-əhbab**- dostların cəmiyyəti
**Cila**- pardaxlama, sığal vermə, saflaşdırma

**Ç**

**Çarəsiz**- çarə görən, tədbir tökən
**Çefayda**- nə faydası, nə xeyri

**D**

**Dəsturüləməl**-təlimat, iş üsulu
**Darüləcəzə**-əlillər evi

**Dəğdəğə**-qorxu, təhlükə
**Dəmgüzar**-vaxt keçirən
**Dərığ**-heyif
**Dəstavüz**-töhfə, bəhanə, sənəd
**Dəhr**-dövr, zəmanə
**Darülbəqa**-axirət dünyası

E
**Eyş**-zövq-səfa, nəşə
**Elmi**-əxlaq-etika
**Elmi-heyət**-astronomiya
**Etidal**-doğru yola getmə, orta hədd, mülayimlik

Ə
**Əbr**-bulud
**Əbri-şərərbar**-od yağdıran bulud
**Əqval**-sözlər, söhbətlər
**Ədabə**-ədəb
**Əlhan**-gözəl səslər, gözəl mahnılar
**Əmvac**-ləpələr, dalğalar
**Əməl**-iş
**Əməli-qəlbiyyə**-ürək açan iş, əməl
**Ənzare-qareə**-oxucuların fikri
**Əsab**-əsəblər
**Ətvar**-hərəkətlər, hallar, tövrlər
**Əsvat**-səslər, qırmanclar
**Əfzəl**-daha yaxşı
**Əxz**-əldə etmə, ələ keçirmə
**Əxlaq**-ətvar-xasiyyəti, rəftarı
**Əhadisi-şərif**-müqəddəs rəvayətlər
**Əşxasi-müzürr**-zərərli, qorxulu adamlar.
**Əcz**-cüzlər, zəriflik, üzvlər, acizlik

F
**Fazil**- fəzilət sahibi, gözəl əxlaqlı; üstün, yüksək
**Fəna**-pis, yoxluq, boşluq
**Fərda**- sabah
**Fərzənd**- övlad





**Fəsad**- fitnə
**Fəsih**- fəsahətlə danışan
**Fiqh**- din və şəriət elmi
**Fikri-ziyarət**- ziyarət fikrinə düşmək, görüşmək, arzusunda olmaq
**Fitrət**- təbiət, xasiyyət
**Fitrətən**- təbiətcə, xasiyyətcə
**Födt**- əldən qaçırma, ölüm

G
**Gərdiş**-gəzinti, seyr, dolanma
**Girdab**-burulğan, təhlükəli, xatalı yer
**Güşeyi**-nisyan-xatırdan çıxma

Ğ
**Ğizai-mənəviyyə**-ruhi qida
**Ğiza**-qida

H
**Hakəza**- habelə, bunun kimi
**Hami**- himayə edən
**Hail**- qorxunc, nəhəng, manеə
**Himmət**- çalışma, səy, cəhd, birlik, comərdlik, yüksək fikirlər
**Həsənat**- xeyir işlər, gözəllik
**Həsud**- həsəd aparan, paxıl
**Hüquqi-insaniyyə**- insanlıq hüququ,
**Hürriyyət**- azadlıq
**Həmiyyət**- birlik, şərəf hissi, qeyrət, ruh yüksəkliyi, nəciblik, cəsurluq
**Hənuz**- hələ, hələ ki, indicə, bu saat
**Hiyn**- zaman, vaxt
**Hikmət**- fəlsəfə
**Hilal**-ay
**Hürr**- azad

X
**Xabi-qəflət**- qəflət yuxusu, cəhalət
**Xamuş**- sakit, dinməz

**Xar**- həqir, zəlil
**Xədəmə**- ev qulluqçuları, xidmətçilər
**Xah**- istər, ya

İ
**İğva**-azdırma, yoldan çıxarma
**İkmali-təhsil**-təhsili başa vurma, məktəbi qurtarma
**İzhari məhəbbət**-məhəbbət bildirmə
**İctima**-bir yerə toplaşma, yığışma, bir məclisin toplanması
**İniqad**-bağlanma, təşkil edilmə
**İntişar**-yayılma, ağızlara düşmə
**İnşa**-yaratma, meydanaçıxarma, ədəbi şəkildə yazılmış yazı
**İsmi-xas**-xüsusi isim
**İsmi-şərif**-mübarək, şərəfli ad, əsil ad
**İstemal**-işlətmə, işlənmə
**İstiqbal**-gələcək
**İttihad**-birlik, ittifaq
**İcma**-bir səslə qəbul edilmiş qərar
**İşrət**-kef, kef çəkmə

K
**Kərrat**-dəfələrlə
**Kəsalət**-yorğunluq, süstlük, kefsizlik
**Kürəvati-beyza**-ağ qan kürəcikləri
**Kürəvati-həmra**-qırmızı qan kürəcikləri
**Kibr**-böyük olma, qürurlanma
**Kisvət**-paltar, qiyafə, zahiri görkəm
**Kizb**-yalan, uydurma
**Kuhi-atəşfişan**-od yandıran dağ, vulkan yanardağ
**Küdurət**-sıxıntı, qüssə, xəcalət, aclıq

Q
**Qabili-zaval**-məhvə, məhkum
**Qayeyi-həyatiyyə**-həyat eşqi, arzusu.
**Qəlməqal**-dedi-qodu, hay-küy
**Qare**-mütaliə edən, oxucu
**Qəvaid**-qaydalar
**Qibleyi-müştərəkə**-müştərək qiblə





**Qövl**-söz
**Qüdsiyyət**-müqəddəslik
**Qüsurat**-nöqsanlar, günahlar

L
**Laməhalə**-heç olmazsa
**Lisan**-dil
**Lisani-mədərzadi**-anadangəlmə dil

M
**Madər**-ana
**Madərzad**-anadangəlmə, fitri
**Mazidə**-keçmişdə
**Mali**-varlı, dolğun
**Masəva**-ondan başqa
**Mahtab**-aydınlıq gecə, ayın aydınlığı
**Məbud**-allah, ibadət olunan büt, pərəstişgah, məftunluq
**Məvadd**-maddələr
**Məqami**-haiz-ali rütbə
**Məqsud**-məqsəd, niyyət, arzu edilən
**Məali**-mənalar, ali fikirlər, idrak
**Məzkur**-zikr olunmuş, adı çəkilmiş
**Məknun**-gizli
**Mərəz**-xəstəlik
**Məriz**-xəstə
**Mətuf**-əyilmiş; ərəb qrammatikasında bağlayıcı ilə birləşdirilmiş söz
**Mövc**-dalğa, ləpə
**Müamilə**-rəftar, alver, sələm
**Müqatilə**-çarpışma, vuruşma, müharibə
**Müqəddəm**-zaman etibarilə qabaq, əvvəl, irəlidə gedən
**Müqəllid**-təqlid edən; yamsılayan; saxtakar
**Müqərrəb**-yaxın, yaxınlaşmış
**Mühafizət**-mühafizə
**Mühəvvəl**-dəyişdirilmiş, tapşırılmış, öhdəsinə verilmiş
**Müzlim**-qaranlıq, məchul, mənfur
**Mükəb**-kub, kub şəklində olan
**Mümaniət**-mane olma, əngəl törətmə

**Mümarisə**-təcrübə, idman hərəkətləri
**Münəqqid**-tənqidçi
**Mürəccəh**-başqalarına üstün tutulan
**Mürur**-keçmə, ötmə, cərəyan etmə
**Müruri-zaman**-zaman keçdikcə
**Müsavat**-bərabərlik
**Müsənnif**-əsər yazan, müəllif
**Müstəid**-istedadlı, bacarıqlı
**Mütəvaze**-başıaşağı, diliqısa
**Mütəvəffi**-vəfat etmiş, mərhum
**Mütəmmədin**-mədəni
**Müfid**-ifadə edən, mənalı, faydalı
**Mücahid**-səy edən, bir məqsəd uğrunda vuruşan
**Müştərək**-şərikli, ortaqlı
**Müştaq**-arzu edən, heyran olan

N
**Nabud**-mövcud olmayan, yox olmuş
**Nazir**-nəzarət edən, baxan, idarə edən
**Nam**-şöhrət, san
**Nasiyə**-alın, üz, sifət
**Nasıl**-necə, nə cür, nə təhər, necədir, nə təhərdir
**Narəva**-rəva görülməyən, yaraşmayan
**Nəğməzan**-nəğməkar
**Nəfbərdar**-mənfəət götürən
**Nəf**-qovma, rədd etmə, qadağan etmə
**Nisyan**-unutma, yaddan çıxarma
**Nisf**-yarı
**Nüfus**-əhali

Ö
**Övdət**-qayıtma, qaytarma

P
**Pərəstar**-qulluqçu, xadim
**Piri-salxordə**-yaşlı, qoca, qocaman
**Pişvaz**-qarşıya çıxma, səfərdən gələni qarşılama





R
**Rəd**-göy gurultusu, ildırım
**Rəf**-yüksəltmə, ləğv etmə
**Rəfiq**-yoldaş, dost
**Ruznamə**-qəzet
**Rüfəqa**-yoldaşlar
**Rüsxət**-izn, icazə

S
**Saqid**-etibardan düşmüş, ləğv olunmuş
**Sadir**-çıxan, baş verən
**Sail**-sual verən, dilənçi
**Sərkeş**-dikbaş, itaət etməyən
**Sərf**-nəhv- qrammatika
**Sövt**-səs, səda
**Salik**- bir təriqətə mənsub olan, bir yolu təqib edən
**Siyanət**- mühafizə etmə, himayə etmə
**Siratəl**-müstəqim-düz yol, düz körpü
**Səfayi-xatir**-könlü xoş olma
**Sənayei-ariz**- təbii olmayan, əsli olmayan, sənətlər, sonradan əmələ gələn sənətlər

Ş
**Şəkkiyyat**- islam dininə aid qayda-qanun
**Şərü**-kizb- yalançılıq
**Şəşəə**-parlaqlıq, təmtəraq, dəbdəbə
**Şikar**- ov

T
**Təvarix**-tarixlər
**Tədənni**-aşağıya enmə, geriləmə
**Təğyir**-dəyişmə, dəyişdirmə, pozma
**Təğyiri-libas**- paltarını dəyişdirmə, xarab etmə
**Təğyir tapmaq**- dəyişikliyə uğramaq
**Təəyyüş**- yaşama, keçinmə, məişət, kef çəkmə
**Təəhhül**- evlənmə
**Təlifat**- əsər yazma, kitab tərtib etmə , əsərlər
**Tənəzzül**- aşağı düşmə, get-gedə geri düşmə

**Tərbiyeyi-ətfal-** uşaqların tərbiyəsi
**Tərd etmək-** ayırma, təkləmə, qovma
**Təriq-** yol,, üsul
**Təriz-** etiraz etmə, genişləndirmə
**Təsviyə**-təmizləmə, saflaşdırma
**Təsnifat-** siniflərə ayırma, əsər, əsər tərtib etmə
**Təharət-** təmizlik, paklıq
**Təhəyyüc-** həyəcan
**Təhəmmül-** səbr etmə, dözmə
**Təhəvvül-** dəyişmə, haldan-hala keçmə
**Təhəmmülfərsa-** süstləşdirən, səbri tükəndirən, yoran
**Təhzizi-əxlaq-** əxlaq tərbiyəsi
**Təhsin-** tərif etmə; bəyənmə, alqışlama
**Təşnə-** susuz, susamış
**Təşrif-** şərəfləndirmə, gəlmə, gəliş
**Təşxis-** ayırma, seçmə, təyin etmə
**Tövr-** cür, növ
**Tövsi-** vüsətli, geniş, bol etmək

**Ü**
**Ümdə-** başlıca, əsas
**Ümuri-beytiyyə-** ev işləri, dolanacaq, ailə-məişət işləri
**Üləma-** alimlər
**Üsuli-ziraət-** əkinçilik qaydaları
**Ümmət-** xalq, millət, icma

**V**
**Vaqiə**-hadisə, əhvalat, yuxu
**Vəqf**-savab bir iş üçün ayrılmış mülk, mal

**Y**
**Yavuq**-yaxın
**Yağı**-düşmən
**Yekta**-tək, bərabəri olmayan
**Yəd**-əl; kömək, vasitə, zor, güc
**Yədi**-hicran-ayrılıq əli
**Yövm**-gün, gecə-gündüz, sutka





**Z**
**Zəkavət**-ağıl, fərasət, bir fikri tez anlama qabiliyyəti
**Zəlalət**-alçalma, əzab-əziyyət
**Zərəbə-yəzrub**-ərəb qrammatikasında felin təsrifi
**Zərəbat**-döyünmək, zərblə vurmaq
**Zəxm**-yara
**Ziyadə**-daha çox, daha artıq
**Zikr**-yada salma, adını çəkmə, dua, tərif etmə
**Zimistan**-qış
**Zindəganlıq etmək**-həyat sürmək, həyat keçirmək
**Zinnət**-bəzək, yaraşıq
**Zükur**-kişilər, zikrlər

## N.Nərimanovun həyatı və fəaliyyətinin əsas tarixləri

**1870**

Aprel, 2 (14) — Nəriman Nəcəf oğlu Nərimanov Tiflis şəhərində anadan olmuşdur.

**1882**

Sentyabr. — Qori şəhərindəki Zaqafqaziya müəllimlər seminariyası nəzdindəki ibtidai məktəbə daxil olur.

**1890**

İyun. — Qori müəllimlər seminariyasını bitirir.

Avqust. — Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kəndinə müəllim təyin edilir.

**1891**

Yazda. — Bakıya gəlir. Geniş ədəbi və ictimai, siyasi fəaliyyətə başlayır.

Bakıda xüsusi progimnaziyanın hazırlıq sinfinə müəllim təyin edilir.

**1892**

Oktyabr. — N.V.Qoqolun «Müfəttiş» əsərini Azərbaycan dilinə tərcümə edir.

**1894**

Aprel-avqust. — Bakıda birinci xalq qiraətxanasını təşkil edir.

Nərimanovun «Nadanlıq» pyesi nəşr edilir.





**1895**

Yanvar. — «Nadanlıq» pyesi Bakıda tamaşaya qoyulur.

«Dilin bəlası» yaxud «Şamdan bəy» pyesi nəşr edilir.

**1896**

May. — Bakıda əvvəlcə realnı məktəbə, sonra isə Bakı kişi gimnaziyasında sinif mürəbbiləri köməkçisi vəzifəsində, çalışır.

«Bahadır və Sona» romanının birinci hissəsi Bakıda nəşr edilir.

Həmin əsər erməni dilində Tiflisdə çıxan «Mürc» jurnalında dərc olunur.

Nərimanovun iştirakı ilə Bakıda N.V.Qoqolun «Müfəttiş» komediyası tamaşaya qoyulur.

**1897**

Aprel. — Nərimanov qiraətxana nəzdində kitabxana təşkil etmək üçün icazə alır.

Oktyabr. — Çar hökuməti Nərimanovun təşkil etdiyi qiraətxananı zərərli təsirinə görə bağlatdırır.

**1899**

Yanvar. — Gəncədə teatrın açılışında M.F.Axundovun «Hacı Qara» əsərinin tamaşasına baxır, orada teatr haqqında nitq söyləyir.

«Bahadır və Sona» romanının ikinci hissəsi

| | |
|---|---|
| | Bakıda nəşr edilir. |
| | «Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü asan kitabçadır» əsəri nəşr olunur. |
| Təxminən iyun ayında | «Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi» əsəri Bakıda nəşr edilir. |
| Oktyabr. | Azərbaycan dilində «Təzə xəbərlər» adlı qəzet nəşr etmək üçün təşəbbüs edir. |
| | **1900** |
| Yanvar. | «Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabçadır» əsəri nəşr edilir. |
| | **1901** |
| Noyabr. | «Məktəb» adlı elmi-pedaqoji jurnal nəşr etmək üçün icazə istəyir. |
| | **1902** |
| May — İyun. | Ali məktəbə girmək üçün ekstern qaydası ilə imtahan verib gimnaziyanı qurtarmaq haqqında kamal attestatı alır. |
| Avqust. | Odessa (Novorossiysk) universitetinin tibb fakültəsinə daxil olur. |
| Avqust, 10. | Bakı şəhər dumasının məktəb komissiyasına Odessadan xahişnamə yazır, kömək istəyir. |
| | **1903** |
| Yanvar. | Qış tətilini Krımda keçirir. |





| | |
|---|---|
| Noyabr, 17 (30). | Odessada tələbələrin inqilabi yığıncağında iştirak edir. |
| | Odessada liman fəhlələri arasında inqilabi iş aparır. |
| | **1904** |
| Dekabr, 2 (15). | Odessadan F.Köçərliyə məktub yazır. |
| | «Nadir şah» əsərinin bir nüsxəsini Peterburqa Ali Senzor Komitəsinə göndərir. |
| | **1905** |
| Təxminən yanvar - fevral. | Odessada böyük bir yığıncaqda respublikanın monarxiyadan üstünlüyü haqqında referat oxuyur. |
| Mart, 21. (4 aprel). | Ona pul göndərilməsi haqqında Odessadan Bakı şəhər dumasına məktub yazır. |
| İyul - Sentyabr. | Odessa universitetindən Kazan universitetinə köçürülməsi haqqında ərizə verir, lakin icazə alırsa da bütün universitetlər müvəqqəti olaraq bağlandığından Bakıya qayıdır. |
| | RSDFP-nin «Hümmət» təşkilatına daxil olur. |
| | İran inqilabçılarının işində yaxından iştirak edir. |
| | **1906** |
| Yanvar, 22 (fevral 4). | Bakıda birinci dəfə «Tibb və islam» haqqında mühazirə oxuyur. |
| Fevral. | «Nadir şah» əsəri Bakıda rus dilində tamaşaya qoyulur. |

| | |
|---|---|
| | M.Əzizbəyovla birlikdə «Nicat» maarif cəmiyyəti sədrinin müavini seçilir. |
| Mart. | Bakı kommerçeski (ticarət) məktəbinə Azərbaycan dili müəllimi vəzifəsinə dəvət edilir. |
| Avqust, 15. | Nərimanun fəal iştirakı ilə Bakıda Qafqaz müsəlman müəllimlərinin birinci qurultayı açılır, o, Həsənbəy Zərdabi ilə birlikdə qurultaya rəhbərlik edir. |
| | Odessaya oxumağa qayıdır. |

1907

| | |
|---|---|
| İyunun axırı | Odessadan Bakıya tətilə gəlir. |
| Avqustun axırı | Odessaya təhsilini davam etdirməyə qayıdır. |

1908

| | |
|---|---|
| Yanvar. | Odessadan «Molla Nəsrəddin» jurnalına dərc olunmaq üçün ona yardım göndərən yoldaşlara təşəkkür məktubu yazır. |
| Oktyabr, 20 (noyabr, 2). | Odessa Universitetinin komissiyasında imtahan verib həkim adı alır. |
| Noyabr, 14 (27). | Universiteti müvəffəqiyyətlə qurtarıb Bakıya qayıtması münasibəti ilə tərəqqipərvər tələbələr onun şərəfinə təntənəli məclis düzəldirlər. |
| Noyabr. | Bakıda şəhər xəstəxanasında işləməyə başlayır. |
| Dekabr. | «Vəba və onun sirayəti» mövzusunda mühazirə oxuyur. |





1909

| | |
|---|---|
| Fevralın əvvəlləri. | İrticaçı qüvvələr tərəfindən təqib edildiyindən Tiflisə köçməyə məcbur olur. |
| Fevralın axırları. | Tiflisdəki mənzilində polis axtarış aparır. |
| Mart 1 (24). | Tiflisdə tutulub Metax qalasına salınır. |
| Avqust, 21 (sentyabr, 3). | Tiflisdə altı ay Metax qalasında qaldıqdan sonra iki il müddətinə Həştərxana sürgün edilir. |
| Oktyabr, 6. | Həştərxana gəlir, burada polisin açıq nəzarəti altında yaşayır, «Darülədəb» məktəbində həkim vəzifəsində çalışmağa başlayırlar. |
| Dekabr. | «Xolera-vəba» kitabçası Həştərxanda nəşr edilir. |

1910

| | |
|---|---|
| | Həştərxanda çıxan «Bürhan-tərəqqi» qəzetində elmi-pedaqoji, həmçinin «Tibb və islam» mövzusunda məqalələrlə çıxış edir. |
| (dekabr), Noyabr | «Tibb və vəba» kitabçası Həştərxanda nəşr edilir. |
| | «Aləmi-nisvan» yaxud «Xatunlara məxsus» kitabçası Həştərxanda nəşr edilir. |
| İyul | Xalq şairi Mirzə Ələkbər Sabir Tahirzadənin vəvatı münasibəti ilə Həştərxandan Bakıya taziyədarlıq teleqramı göndərir. |
| Dekabrın əvvəlləri | Bakıya, M.F.Axundovun anadan olmasının 100 illiyini keçirən yubiley komitəsi adına, Həştərxandan təbrik teleqramı göndərir. |

1912

Həştərxanda xalq universitetinin işində fəal iştirak edir, universitetə əvvəlcə müdir müavini, sonra da müdir seçilir.

«Rossiya» sığorta cəmiyyətinin Həştərxanda vəkalətli həkimi vəzifəsində işləyir.

1913

Yanvar, 23 (fevral, 5).. Şəhər dümasına qlasnı (üzv) seçilir.

«Pir» povesti Bakıda nəşr edilir.

Aprel, 21 (may, 4). Həştərxan şəhərində yoxsul tatarlar üzərində himayə cəmiyyətinin fəxri üzvü seçilir.

İyun Nərimanovun təşəbbüsü ilə müsəlman gəncləri Həştərxanda dram dərnəyi təşkil edirlər.

İyun Həştərxan şəhər dümasının məktəb komissiyasının üzvü təsdiq edilir.

İyul, 14. Həştərxan sürgünündən Bakıya qayıdır.

1914

Yanvar, 31 (fevral, 13). Bakıda 6-cı rus-müsəlman məktəbində «mikrob» mövzusunda mühazirə oxuyur.

Fevral, 7(20). «Yoluxucu xəstəliklər» mövzusunda mühazirə oxuyur.

Fevral 14(27). Məktəb şagirdləri üçün «vərəm xəstəliyi» mövzusunda mühazirə oxuyur.





May, 22 (iyun, 5). Bakıda Qara şəhərdəki müalicəxanaya həkim təyin edilir.

İyun, 25 (iyun 8) Bakıda bir qrup müsəlman ziyalılarının xüsusi müşavirəsində «qan intiqamı» və onunla mübarizə mövzusunda nitq söyləyir.

Avqust, 18(31) Nərimanov «Rossiya» sığorta cəmiyyətinin Bakıda vəkalətli həkimi təyin edilir.

Sentyabr, 21 (oktyabr, 4). «Bahadır və Sona» romanını pyes şəklinə salıb qurtarır.

Oktyabr. «Nicat» maarif cəmiyyətinin pedaqoji bölməsinə sədrlik edir.
Bakıda, əsli şamaxılı olan Mir Kazımın qızı Gülsüm xanımla evlənir.

1915

Oktyabr, 11-15(24-28) «Bir kəndin sərgüzəşti» məqaləsi «Açıq söz» qəzetinin 7, 10 və 11-ci nömrələrində dərc edilir.

Bakıda «Qənaət» və «Samopomoş» adlı kooperativ təşkilatı yaradılmasında iştirak edir.

1916

Fevral, 14(17). «İstehlakçılar cəmiyyəti nədir» mövzusunda Şəhər düması binasında mühazirə oxuyur.

Mart. Tiflisdə «cəmiyyəti-xeyriyyə»də nitq söyləyir.

Dekabr, 13(26). «Fikir» adlı jurnal nəşr etmək üçün Bakı qradonaçalnikinə ərizə verir.

Dekabr, 15(28). Özünün səhnələşdirdiyi «Bahadır və Sona» əsəri müsəlman dram cəmiyyəti tərəfindən tamaşaya qoyulur.

| | |
|---|---|
| | «Qənaət» kooperativi idarə heyətinin sədri seçilir. |
| Dekabr. | Bakıda M.Basin, A.Stopani və başqa bolşeviklərlə birlikdə Xalq evi idarə heyəti tərkibinə seçilir. |

1917

| | |
|---|---|
| Fevral, 24 (Mart, 9). | «Cəmiyyəti-xeyriyyə» zalında «Suyun səhhət və yaşayış üçün əhəmiyyəti» mövzusunda mühazirə oxuyur. |
| Martın 2(15)-dən sonra | «Hümmət» təşkilatının konfransında Nərimanov da daxil olmaqla «Hümmət»in müvəqqəti komitəsi seçilir. |
| Aprel. | Qars vilayətinin hərbiçi zərər didələrinə yardım göstərən komitənin iclasında çıxış edir, fəhlə və kəndlilərin hakimiyyəti öz əllərinə almaq zərurətini göstərir. |
| Aprel. | Qafqaz müsəlmanları qurultayında çıxış edir. |
| Mayın ortaları. | Azərbaycan dilində mühazirə oxumaq üçün Bakı Sovetinin İcrayyə Komitəsi tərəfindən Tiflisə göndərilir. |
| İyun. | RSDFP Bakı Komitəsindən Partiyalararası Məlumat bürosunun müşavirəsinə nümayəndə seçilir. |
| İyun. | Sabunçuda «Siyasi partiyaların əroqrammı və üsul-idarə formasına onların baxışı» mövzusunda mühazirə oxuyur. |
| İyun, 16(29). | «Hümmət» təşkilatı üzvlərinin yığıncağında Nərimanovun sədrliyi ilə komitənin yeni heyəti |





| | |
|---|---|
| | seçilir. |
| İyun, 25(iyul, 8). | RSDFP Bakı Komitəsinin tərkibinə seçilir. |
| İyun, 30 (iyul, 13). | Bakıda yaşayan Volqaboyu tatarlarının xahişilə onlara siyasi partiyalar barəsində mühazirə oxuyur. |
| | «İnsan» cəmiyyətinin xahişilə cəmiyyət üzvləri üçün hazırkı vəziyyət haqqında mühazirə oxuyur. |
| İyul, 3(16) | Bolşevik təşkilatının «Hümmət» olan orqanı «Hümmət» qəzeti Nərimanovun redaktorluğu ilə çıxmağa başlayır. |
| İyul, 21 (avqust, 3). | «Hümmət» təşkilatı tərəfindən mərkəzi seçki komitəsinə seçilir və Tiflisə yola düşür. |
| İyul-sentyabr. | «Fransa inqilabı» adlı böyük məqaləsi «Hümmət» qəzetinin 1-3; 7-12; 14, 16 və 18-ci nömrələrdə dərc edilir. |
| Sentyabr, 26 (oktyabr, 9). | Bakı «Qənaət» kooperativi cəmiyyətinin ümumi yığıncağında cəmiyyətin işi haqqında məruzə edir və yenidən cəmiyyətin sədri seçilir. |
| Oktyabr. | RSDFP Bakı Komitəsi tərəfindən irəli sürülən siyahıda Şəhər dümasına seçilmək üçün namizəd göstərilir. |
| Oktyabr, 18(31). | «Hümmət» təşkilatının Ümumbakı iclasına sədrlik edir. |
| Oktyabr, 27 (noyabr, 9). | Bakı Şəhər dümasına yeni seçkilər münasibəti ilə «Hümmət» və «Birlik» təşkilatları tərəfindən Təzəpir məscidinin həyətində çağırılmış mitinqdə nitq söyləyir. |

| | |
|---|---|
| Noyabr. | RSDFP Qafqaz ölkə komitəsi tərəfindən irəli sürülən siyahıda müəssisələr məclisinə seçilmək üçün namizəd göstərilir. |
| Noyabr, 28(11). | Nargin adasında saxlanan müharibə əsirlərinin vəziyyətindən bəhs edən «Göz yaşı tökdürən cəzirə» adlı məqaləsi «Hümmət» qəzetinin 21-ci nömrəsində dərc edilir. |
| Dekabr. | Nargin adasında müharibə əsirlərinin vəziyyətini yoxlayıb Bakı İcraiyyə Komitəsi komissiyasına məlumat verir. |
| Dekabr, 5(18). | «Bir az da utanmaq lazımdır» məqaləsi «Hümmət» qəzetinin 22-ci nömrəsində dərc edilir. |
| Dekabr, 8(21). | «Hümmət» təşkilatının ümumi yığıncağında Nərimanov da daxil olmaqla «Hümmət» təşkilatının yeni komitəsi seçilir. |
| Dekabr, 12(24). | «Hümmət» qəzetinin 23-cü nömrəsində dərc etdirdiyi elanda camaata bildirir ki, o Nargin cəzirəsindəki əsirlərə kömək təşkil etmək üçün Bakı İcraiyyə Komitəsi tərəfindən müvəkkil təyin olunmuşdur: Kömək etmək istəyənlər «İsmailiyyə» binasındakı «Hümmət» idarəsində ona müraciət etməlidirlər. |
| Dekabr, 14(27). | Nargin cəzirəsində saxlanan müharibə əsirlərinin vəziyyəti haqqında fəhlə və əsgər deputatları Soveti İcraiyyə Komitəsinin iclasında məruzə edir. |
| Dekabr, 17(30). | «Hümmət» təşkilatı tərəfindən çağırılmış Qafqaz sosialistlərinin qurultayını təbrik edir və qurultaya sədr seçilir. |





1918

| | |
|---|---|
| Yanvar, 5(18). | «Hümmət» təşkilatı tərəfindən çağırılmış azərbaycanlı fəhlələrin yığıncağında «hal-hazırkı vəziyyət haqqında» iki saat məruzə edir. |
| Yanvar, 21 (fevral, 3). | Sabunçuda azərbaycanlı, rus, erməni və gürcü fəhlələri yığıncağında Oktyabr Sosialist inqilabı haqqında məruzə edir. |
| Yanvar, 31 (fevral, 13). | «Natiqlər və mitinqlər» kollegiyasına seçilir. |
| Fevral, 8. | Bakıda «İsmailliyə» binasının zalında «Bizim Rusiya inqilabına nəzərimiz» mövzusunda mühazirə oxuyur. |
| Fevral, 9. | Bakıda Qaraşəhər Nobel firması aşxanasında İran Azərbaycanından olan fəhlələr üçün «Rusiya inqilabı və İrana təsiri» mövzusunda mühazirə oxuyur. |
| Fevral, 15. | «Nə üçün biz sosialistlər tutduğumuz yolu müqəddəs bilirik» mövzusunda mühazirə oxuyur. |
| Fevral, 29. | «İsmailiyyə» binasında mühazirə oxuyur. |
| Mart, 1. | «İsmailiyyə» binasının zalında mühazirə oxuyur. |
| Mart, 2. | Bakıda işləyən İran siyasi partiyalarının nümayəndələri ilə söhbət edir. |
| Mart, 19. | «Tif-yatalaq» məqaləsi «Hümmət» qəzetinin 34-cü nömrəsində dərc edilir. |
| Mart 30 | Ermənilərin Bakıda törətməyə hazırlaşdıqları mart soyqırımının qarşısını almaq üçün S.Şaumyan, A.Çaparidze və.b öz evinə çağırıb |

| | |
|---|---|
| | iclas keçirir. |
| Mart, 31. | İnqilabį müdafiə komitəsi tərkibinə daxil olur. |
| Aprel 3 | Ermənilərin Bakıda törətdikləri soyqırımın qarşısının alınması tələbi ilə fövqəladə səlahiyyətli komissar S.Şaumyan və A.Çaparidzeyə göndərdiyi məktubunun məzmunu «Hümmət» qəzetində çap olunur |
| Aprel, 25. | Bakı Xalq Komissarları Soveti tərkibinə şəhər təsərrüfatı komissarı sifətilə daxil olur. |
| May, 1. | Bakıda (Təzəpirdə) 1 May münasibəti ilə çağırılmış mitinqdə nitq söyləyir. |
| Mayın ortaları. | İkinci Bakı stansiyasına gedib, Quba və Muğandan Rusiyaya köçənlərin səhiyyə və ərzaq vəziyyətini və necə yerləşdiklərini yoxlayır. |
| May, 26. | Bakı qəzası kəndli deputatları Soveti qurultayında qurultayın sədri seçilir, qurultayı təbrik edir və sosializmin mahiyyəti barəsində geniş nitq söyləyir. |
| May, 27. | Bakı qəzasının kəndli deputatları Soveti qurultayında (ikinci iclasda) hakimiyyət məsələsi haqqında məruzə edir. |
| May, 28. | Bakı qəzası kəndli deputatları Soveti qurultayı adından N.Nərimanovun, S.Şaumyanın və A.Caparidzenin imzaları ilə Moskvaya, RSFSR Xalq Komissarları Sovetinin sədri V.İ.Leninə təbrik teleqramı göndərilir. |
| İyun, 10. | «Hümmət» qəzetində Nərimanovun xəstələndiyi haqqında məlumat verilir. |
| İyunun axırları. | Xəstəliyinin ağırlaşdığına görə Həştərxana getməyə məcbur olur. |





| | |
|---|---|
| Sentyabr. | Həştərxanda quberniya maarif komissarı və müsəlman sanitar şöbəsi müdiri vəzifəsində işləməyə başlayır. |
| Sentyabr, 2. | Nərimanov daxil olmaqla Həştərxan müsəlman kommunist (bolşeviklər) təşkilatı üzvlərinin iclası bir qrup yoldaş seçib onlara RK(b)PMK ilə əlaqə saxlamağı və onun göstərişi ilə çalışmağı tapşırır. |
| Oktyabr, 1. | Həştərxan quberniya icraiyyə komitəsinin hərbi şöbəsi yanında sanitar bölməsi müdiri vəzifəsinə təsdiq edilir. |
| Oktyabr, 3. | Həştərxan müsəlman hərbi komissarlığına məktub yazıb qızıl əsgər qışlamalarının sanitar vəziyyətini yoxlamaq üçün hərbi hissələrin harada yerləşdiyi haqqında məlumat istəyir və birgə yoxlama aparmaq üçün nümayəndə göndərilməsini xahiş edir. |
| Oktyabr, 26. | Həştərxan kommunist (bolşeviklər) təşkilatı tərəfindən müsəlman qızıl əsgərlər arasında hər gün axşam 4-dən 6-dək mühazirə oxumaq üçün mühazirəçi təsdiq edilir. |
| Noyabr, 2. | Qızıl əsgər qışlamalarının vəziyyətinin yoxlanışı nəticələrini və tibb bacı və qardaşları kursu açıldığını müsəlman hərbi komissarlığına xəbər verir. |
| Noyabr, 3. | Həştərxan müsəlman kommunist (bolşeviklər) təşkilatı üzvlərinin yığıncağında Böyük Oktyabr sosialist inqilabının ildönümü haqqında məruzə etmək üçün natiq təyin edilir. |
| Noyabr,13. | Həştərxan kommunist (bolşeviklər) təşkilatının qərarı ilə təşviqatçılar hazırlayan siyasi kurs açılır |

| | |
|---|---|
| | və Nərimanov iki həftəlik kursun mühaziraçisi təsdiq edilir. |
| 20 dekabr | Həştərxanda tatar məktəblərinin molla və müəllimləri qarşısında çıxış edir. |
| 28 dekabr | Həştərxanda müsəlman kommunistlərinin və məsul işçilərinin yığıncağında çıxış edir. (Sonralar, 1921-ci ildə hər iki çıxış RSFSR Xalq Xarici İşlər Komissarı K.V.Çiçerin və V.İ.Lenin tərəfindən yüksək qiymətləndirilmişdir.-H.Ə.) |

1919

| | |
|---|---|
| Yanvar, 4. | Kommunistlərin Həştərxan müsəlman təşkilatı üzvlərinin fövqaladə iclasında Zaqafqaziya müsəlmanları işlərinə baxan komissar seçilir. |
| Yanvar, 7. | Həştərxanda turk vətəndaşları və hərbi əsirlərin yığıncağında türk əsirləri üçün kommunist özəyi yaratmaq mövzusunda çıxış edir. |
| Yanvar, 19. | Həştərxan bolşevik təşkilatının müsəlman bölməsinin ümumi yığıncağında milli məsələ barəsində məruzə edir və həmin yığıncaqda bölmənin üzvü seçilir. |
| Mart, 17. | Həştərxanda ağqvardiyaçıların martın 10-dakı çıxışı haqqında kommunistlərin Həştərxan müsəlman bölməsi iclasında məruzə edir. Məruzə üzrə aşağıdakı qərar qəbul edilir: «1. Son hadisələrlə əlaqədar olaraq bütün üzvləri təcili surətdə yenidən siyahıya almaq, hadisələr zamanı onların göstərdikləri fəaliyyəti aydınlaşdırmaq; 2. Müsəlman fəhlə sinfi içərisində partiya işini lazımi yüksəkliyə qaldırmaq; 3. Tez-tez müsəlman fəhlələri konfranslarını çağırmaq; 4. Axtarış bəhanəsi altında baş verən soyğunçuluğa göz qoymaq; 5. Həştərxan burjuaziyasını ictimai işlərdə işlətmək və onu uçota almaq üçün |





| | |
|---|---|
| | quberniya partiya komitəsi qarşısında məsələ qoymaq». |
| Aprel, 15. | Həştərxan Quberniya İcraiyyə komitəsi yanında milli işlər şöbəsi təşkili məsələsini müzakirə etmək üçün Həştərxan müsəlmanları kollegiyasının, Zaqafqaziya müsəlmanları işlərinə baxan komissarlığın, ermənilərin işinə baxan komissarlığın, Kalmık İcrayyə komitəsinin və Qırğız şöbəsinin üzvlərinin birgə yığıncağında iştirak edir. |
| May, 27 — İyun, 6. | RKP Həştərxan təşkilatının tapşırığı ilə Nərimanov Urda şəhərində 3-cü Qırğız qurultayında iştirak edir. |
| İyul. | Moskvaya gedir və G.V.Çiçerinlə görüşür. |
| İyulun axırları. | Şərq xalqları kommunist təşkilatları mərkəzi bürosu iclasında Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri sifətilə büroya məşvərətçi səslə daxil edilir. |
| Avqust, 25. | Bakıdan H.Sultanovdan və D.Bünyadzadədən Azərbaycandakı hadisələr haqqında məlumatlar alır. |
| Sentyabr. | Moskvada Şərq xalqları kommunist təşkilatlarının II qurultayında çıxış edir. |
| Dekabr, 20. | RK(b)P MK Siyasi bürosu iclasında Şərq xalqları Kommunist təşkilatları Mərkəzi bürosu tərkibinə daxil edilir. |
| Dekabr, 24. | Şərq xalqları kommunist təşkilatları Mərkəzi bürosu üzvlərinin iclasında iştirak edir. Beynəlxalq təbliğat kollegiyası tərkibinə seçilir. |
| Dekabr, 25. | Türkiyə, Azərbaycan, Türküstan, İran. |

| | |
|---|---|
| | Qırğızıstan, Dağıstan və başqa yerlərdən olan kommunistlərin məsul işçilərinin iclasında Nərimanov RSFSR-in Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin işi haqqında məruzə edir. |
| Dekabr. | RSFSR xalq milli işlər komissarının müavini və Komissarlığın kollegiya üzvü sifətilə kollegiyanın iclaslarına sədrlik edir. |
| | 1920 |
| Yanvar-aprel. | Moskva RSFSR Xalq Milli İşlər Komissarlığı Yanındakı Millətlər Soveti iclaslarında və komissarlığın kollegiya iclaslarında sədrlik edir. |
| Fevral, 11. | AK(b)P İ gizli qurultayında fəxri sədr seçilir. |
| Mart. | RK(b)P MK-sının qərarı ilə Şimali Qafqazda Sovet hakimiyyəti bərpa etmək işinə baxan Büro üzvü təyin olunur. |
| Aprel, 5. | Zaqafqaziya müsəlmanları işlərinə baxan komissar vəzifəsi tapşırılır. |
| Aprel, 28. | Azərbaycan İnqilab komitəsinin qiyabi olaraq sədri təyin edilir. O, həmçinin qiyabi olaraq Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri təyin edilir. |
| May, 17. 1920. | Bakı zəhmətkeşlərinin mitinqində çıxış edir. |
| Sentyabr, 30. Oktyabr, 12. | Respublikamızın Ucar, Göyçay, Şuşa, Qazax, Tovuz, Salyan və digər rayonlarını gəzir. |
| Sentyabr, 12. | Şərq xalqlarının Bakıda keçirilən I qurultayının çağırılmasının fəal təşəbbüskarı və təşkilatçısı olur. |





| | |
|---|---|
| Sentyabr 19. | Bakı şəhərində maarif və sosialist mədəniyyəti işçilirəinin I Ümumazərbaycan qurultayında çıxış edir. |
| Mart-may. 1982. | İtaliyanın Genuya şəhərində keçirilən beynəlxalq konfransda iştirak edir. |
| Mart, 12, 1922 | Zakfederasiya İttifaq Sovetinin sədrlərindən biri təsdiq edilmişdir. |
| Dekabr, 30. 1922. | SSRİ MİK-nin sədirlərindən biri seçilmişdir. |
| Fevral, 15. 1925. | Ümumittifaq Şərqşünaslıq Cəmiyyəti onun ictimai, inqilabi və ədəbi fəaliyyətinin 30 illik yubileyini təntənə ilə qeyd etdi. |
| Mart, 19. 1925. | Axşam saat $19^{00}$ SSRİ MİK-nin — sədri N.Nərimanov müəmmalı şəkildə vəfat etdi və Qızıl meydanda Kreml divarları yanında dəfn edildi. |
| 1972(2) | Anadan olmasının yüzillik yubileyi təntənə ilə qeyd olundu və Bakıda onun möhtəşəm heykəli ucaldıldı. |

**Şamil Qurbanov**

## ERMƏNİ XALQININ BƏDBƏXTLİYİ

2000-ci ildə Suren Ayvazyan Moskva şəhərində «ИСТОРИЯ РОССИИ. Армянский след» adlı son dərəcə iyrənc, murdar, saxta bir kitab çap etdirmişdir. Mən indiyə qədər bu boyda oxu kitabını az görmüşəm. 41 çap vərəqli 650 səhifədən ibarət olan bu kitab erməni xalqının bədbəxtliyidir. Başdan-ayağa saxtakarlıqdan, böhtandan, yalandan ibarət olan bu kitab guya tarixi hadisələrdən bəhs edir. Guya Kiyev knyazı Vladimir Monamaxın oğlu Yuri Dolqorukinin arvadı erməni imiş və s. Rus dvoryanlarının hansının barmağını kəssən oradan türk qanı axacaq və yaxud yazıçı A.İ.Kuprin ölənə qədər tupoteyka gəzdirir və öz keçmişi ilə fəxr edirdi. Bunları rusların özləri yazır. Nə olsun. İndi bunlar erməni olsaydı görün Suren Ayvazyan nələr edərdi. Gürcüstanın milli iftixarı Şota Rustaveli sən demə erməni imiş. Onun yeganə şedevr əsəri "Pələng dərisi geymiş pəhlivan» əsəri ona məxsus deyilmiş və Firdovsinin əsəri olub vaxtilə erməni dilinə tərcümə edilərək "Vaqrenavor" adı ilə 1937-ci ilə qədər Eçmiədzində saxlanırmış. Beriyanın agenti onu oğurlayıb aparmış və 1939-cu ildə Stalinin təşkil etdiyi Şota Rustavelinin yubiley təntənəsində "Vaqrenavor" əsəri "gürcülərə təqdim olunmuşdur". İndiyə qədər onun taleyi məlum deyil. O, yalnız Mikayıl Baştuni 882-ci ildə yazdığı "Şan qızı dastanı"nı oxusaydı görərdi ki, Şota Rustavelinin bütün əsas qəhrəmanlarının adı burada eyni ilə vardır, hələ mən oxşar hadisələri demirəm. Şairin özünün yazdığı "İnci kimi şerə düzdüm dildə gəzən nağılları" sözləri həm də bu dastana işarə deyilmi?

Suren Ayvazyanın nəzərində hər şeyə qadir xalq bircə ermənilərdir. Başqaları bir şey deyil. Akademik Tofiq Köçərli təzəcə - 2002-ci ildə çapdan çıxmış "Erməni saxtakarlığı" adlı 80 səhifəlik bir əsərində ermənilərin başqa dövlətlərlə yazışmalarından aşağıdakı xarakterik sözləri misal göstərir: "Dünyanın yaranması bizim ölkədən başlamışdır. Nuhun gəmisi Ararat dağında dayananda Nuh o gəmidən çıxmış və dünyayi-aləm, o gəmidən yaranmışdır. Bütün dövlətlərin





açarı məhz bizim əlimizdədir. Çarlıqların çoxu bizim ölkənin tərkibindən ayrılmışdır... Bizim dövlətimiz bütün dövlətlərdən qədimdir".

Buna nə deyəsən? Yəqin ki, qudurmuş adam belə cəfəngiyyat yaza bilər və bunlar da heç vaxt heç kəsə lazım deyildir. Ermənilərin hər işdə saxtakarlığını hamı bilir. Ona görə inanılmayan bir yalanı eşidəndə deyirsən: "bu, erməni işidir". 1908-ci ildə Rusiya Daxili İşlər Nazirliyinin hazırladığı hesabatda deyilirdi: "Özlərinə şəfqət qazanmaq üçün ermənilər öz dinləri ilə dələduzluq etdilər və özlərini provaslav kimi qələmə verdilər.... onlar xristianlığın müdafiəçisi adını alanda ermənilər nümayəndələr göndərərək çardan erməniləri öz himayəsinə götürməyi xahiş etdilər. 1799-cu ildə hətta I Pavelə İosif Arqutinskinin tərtib etdiyi liturgiya təqdim olundu. Liturgiyada deyilirdi ki, provaslav Ümumirusiya imperatoruna və Avqust evinə ibadət edilməlidir. O zamandan Rusiyada erməniləri provaslavın kiçik qardaş hesab etməyə başlayıblar. Az qala yüz il belə davam etdi. Bütün bu fırıldaq 1891-ci ildə erməni keşişi Ter-Voskakovun məhkəmə işinin gedişində üzə çıxdı".

Budur ermənilərin saxtakarlığı. Düz deyiblər ki, yalan ayaq tutar, amma yeriyə bilməz. Sən birini aldatdın, ikisini aldatdın, sonra sənin yalanın üzə çıxacaq və heç kəsi aldada bilməyəcəksən.

Suren Ayvazyanın bu murdar kitabı haqqında mən geniş rəy vermək fikrində deyiləm. Sadəcə bir neçə "faktını" misal gətirib oxuculara göstərmək istəyirəm ki, onlar da bilsinlər ki, bu müəllif nə tipdir, hansı quşun yumurtasıdır.

Müəllifin nəzəriyyəsinə görə nəinki tarixi ədəbi abidələr, hətta tarixi şəxslərin böyükləri, xüsusən Stalin də ermənidir. Onun anası bir erməni ilə yaşamış, arvad iki canlı olanda həmin erməni şəhərdəki kasıb çəkməçiyə pul verir ki, o bu arvada evlənsin. O da evlənir və 1879-cu ildə balaca Soso anadan olur. Suren Ayvazyan sübut eləməyə çalışır ki, Stalin "gürcü olmamışdır", o ermənidir, damarlarında erməni qanı axır. Amma tale elə gətirmişdir ki, Rusiya kimi bir dövlətin başçısına çevrilmişdir.

Lakin ermənilər "öz qan qardaşından" gözlədiklərini ala bilməyəndə ona qarşı çevrildilər. Bu, Stalin öləndən sonra oldu. Suren Ayvazyan indi bütün zəhərini tökür Stalinin üstünə. Ermənilər ona çox inanırdılar, amma həmişə ermənini məğmun eləmişdir. "Onun

ağlı zadı yox idi," yəni yaradıcı ağılı, buna görə də çox vaxtı ermənilərin əsassız arzularının əksinə gedirdi. Ermənilərin torpaq iddiası olan kimi və buna yaşıl işıq yanan vaxtda Stalin buna mane olurdu. 1921-ci ildə Rusiyanın kəndliləri "acından qırıldığı halda" Stalin Türkiyəyə on million qızıl pul vermiş (yalandır, bu qədər qızıl pul verilməmişdir) və "1921-ci il 16 martda Türkiyə ilə Rusiyanın arasında bağlanan müqaviləni biabırçı müqavilə" hesab edir. Ona görə ki, "Türkiyə Ermənistanı" məsələsinə son qoyulurdu. Bəs necə olmalı idi? Türkiyəni Antanta dövlətlərinin hamısı parçalamaq istəyirdi, sizin də Respublika yaranan günlərdə bir qarış torpağınız yox idi, Azərbaycanın torpaqlarını mənimsəmək istəyirdiniz. Gənc Sovet Rusiyası bütün çətinliklərini buraxıb sizinlə məşğul olmalı idi? Başqa dövlətlərlə müqavilə bağlamamalı idi? Ayıb olsun sizə, bu cür tarix yazmaq olmaz! Bu cür tarix heç kəsə lazım deyil. Bir də ayıb olsun Moskvada sizə yardım eləyən adamlara!

Guya belə bir imkan 1945-ci ildə də yarandı. Ermənistan Kommunist partiyasının katibi Arutinov Stalinə məktub yazıb xahiş eləmişdir ki, "1923-cü ildən Azərbaycanın tərkibində olan və bizim respublika ilə həmsərhəd olan, əhalisinin əksəriyyəti ermənilərdən ibarət olan Qarabağı Ermənistana verin». Suren Ayvazyan yazır ki, Stalin buna da qəti mane oldu. Əslində belə olmamışdır. Suren Ayvazyan ya bilmir, ya da özünü bilməməzliyə qoyur. Stalin məktubu Malenkova göndərmiş, Malenkov isə öz tərəfindən həmin məktubu Azərbaycan Kommunist Partiyasının Birinci katibi M.C.Bağırova yollamışdır.

Bu çox ciddi məsələdir. Müharibənin sonu, Stalinin şöhrəti dünyanı götürüb. Bağırov nə etməli idi? O, çox maraqlı bir gediş getdi: dedi ki, mən Qarabağı ermənilərə verirəm, lakin vaxtilə Ermənistanda qalmış, əhalisi də azərbaycanlılardan ibarət olan Əzizbəyov, Vedi və Qaradağlar rayonlarının və başqa bölgələrin Azərbaycana verilməsi məsələsinə baxmanızı xahiş edirəm. Malenkov bu cavabı Stalinə göstərəndə Stalin hirslənmiş və Ermənistandan gələn məktubun üstünə bu sözləri yazmışdır: "Dəli-zad olmamısınız ki?" - Sonra "Arxivə" sözlərini də əlavə etmişdir. /T.Köçərli, Qarabağ, Bakı, 2002, səh 398/.

Buna görə "Stalinin ağlı yox" idi. Suren Ayvazyan yazır ki, ermənilər Stalinə, öz düşmənlərinə inanmaqda çox "azmışdırlar", onun şə-





killərini çəkməçi budkalarından tutmuş maşın kabinələrinə qədər gəzdirir, özlərinə ata bilir, o isə öz "qan qardaşlarına" belə divan tuturdu.

Suren Ayvazyanın sözlərinə inansaq Gürcüstanın gözəl şairi İlya Çavçavadzeni də Stalin öldürtdürmüşdü.

Müəllifin fikrincə Stalindən sonra gələn Xruşşov lap ipəmə imiş. Guya, torpaqlarını qaytarmaq imkanı bir də Xruşşovun vaxtında yarandı. O zaman Mikoyan onu qılıqlayır və deyir ki, Krımı Ukraynaya verdiniz, heç səsi də çıxmadı, indi də gəlin Dağlıq Qarabağı Ermənistana birləşdirin. Yuri Pompeyevin yazdığına görə, Xruşşov demişdi: "Dağlıq Qarabağ ermənilərini bir sutka ərzində Ermənistana köçürmək üçün 12 min hərbi yük maşını verməyə hazıram. Bu, Sizi təmin edir?"

Görürsünüz, bunlar erməni xalqının arzularının həyata keçmək yolunda necə mövqe tutur, necə daşlar dığırlayırdılar. Buna görə həmin ölkə rəhbərlərinin "ikisi də dəli imiş". Suren Ayvazyan müayinəsində başqa xəstəlik adı yoxdur, kim bizim arzumuza mane olursa, o dəlidir, başqa cür ola bilməz. Hərçənd Suren Ayvazyan onların əsassız iddialarına kəskin sözləri verməkdən çəkinir. Stalin Ermənistanın böyüklərinə deyəndə ki, "Dəli-zad olmamısınız ki?" deməli, indi həmin sözü onun özünə qaytarırsınız, dəli onun özüdür. Yenə də ayıb olsun sizə!

Puşkindən şer misal gətirirsiniz. Amma erməniləri söyən şerini unudursunuz. Puşkin "Tazit" poemasında atasının sözündən çıxan, qardaşının qatilini öldürməyən oğlunu söyür və deyir:

*Cəhənnəm ol, itil, sən mənə oğul deyilsən,*
*Sən çeçen olmadın, adi bir qoca arvad yarandın,*
*Sən qorxaqsan, sən köləsən, sən ermənisən.*

*/Sətri tərcümə/*

Görürsən, ermənilərin də Rusiya tarixində belə izləri vardır, bunları heç vaxt unutmaq olmaz.

Biz azərbaycanlılar, heç yer üzündə yox imişik. Bizə köçəri qarapapaq deyərmişlər. 1918-ci ildə gənc türklər Stalinin razılığı ilə "Bakı kommunasını dağıdıb yerində oyuncaq "Azərbaycan" türk

respublikası yaratdı. Bu respublikanın mərkəzi şəhəri Bakuraket, yəni Bakı oldu" /səh.565/.

Sənin üçün bu sözləri yazmaq eyib deyilmi? Özü də şair nəvəsisən, şair millətin qabağında gedən, millətin sözünü deyən bir adamdır. İndi sənə və ona mən nə deyim.?

Görünür, Suren Ayvazyan hər şeyi saxtalaşdırdığı kimi tarixi hadisələrdən də xəbərsizdi və yaxud özünü xəbərsiz kimi aparır. Mən güman etmirəm ki, ermənilərin hamısı Suren Ayvazyan, Zori Balayan kimi cahil və nadan olsun. Amma düşmən olanda da insanlığını gərək itirməyəsən. Suren Ayvazyanın hesablamasına görə o zaman Bakı əhalisinin yarıdan çoxu erməni idi.

Suren Ayvazyan yenə də yalan danışır, özünün xeyrinə olanları şişirdir, zərərinə olanların üstündən keçir. Keçən əsrin əvvəllərində İrəvanın əhalisinin 47 faizi azərbaycanlı idi. Bunu siz ermənilər özünüz yazırsınız. Hamısını qırdınız, dağıtdınız, heç bir nəfər qalmadı orada. Sizin dövlətiniz yarananda siyasi mərkəziniz yox idi. Azərbaycan hökumətinin başçısı F.Xoyski may ayının 29-da Milli Şuranın toplantısında məsələ qaldırır ki, "Ermənistan federasiyası yaratmaqdan ötrü onlara siyasi mərkəz lazımdır. Aleksandropol türklər tərəfindən tutulduğundan belə bir siyasi mərkəz İrəvan şəhəri ola bilər, ona görə bu şəhərin ermənilərə güzəşt edilməsi labüddür".

Belə oldu İrəvanın sizə keçməsi. Qonşu qonşuya əl tutmalı, kömək etməlidir, daha sizin kimi düşmənçilik etməməlidir.

Suren Ayvazyan yenə yazır ki, "erməni Zaxariy Paliyan /Paliaşvili/ gürcü operası yazdı, Konstantin Marcanişvili /Marcanyan/ gürcü teatrı yaratdı. Türk Üzeyir Hacıbəyov erməni melodiyaları əsasında "Arşın mal alan" operettasını yaratdı." Bu nədir, siz durub gözləməlisiniz ki, kimin şedevr əsərini kim yazıbsa, siz onu öz adınıza çıxacaq və mənimsəyəcəksiniz? Siz dəli olmusunuz, nədi? Sizin yazdığınıza görə o zaman "Tiflisin əhalisinin 80 faizi ermənilərdən ibarət idi", buna görə Tiflisə birinci müharibəni 1918-ci ildə siz elan elədiniz, bir qədər də vuruşdunuz. Fikriniz bu idi ki, Tiflisdə dövlət qurasınız, amma alınmadı. Yenə də qanınızın arasına Azərbaycan girdi və dövlət səviyyəsində İrəvanı sizə güzəşt elədi.

Yaxşı, siz dediyiniz kimi, tutaq ki, Bakı əhalisinin yarıdan çoxu erməni olmuşdur! Nə olsun, biz qonşularımıza həmişə belə bax-





N. Nərimanov. Tiflis, 1882-ci il.



СВИДѢТЕЛЬСТВО.

1) Законъ Божiй
2) Педагогика
3) Русскiй языкъ
4) Татарскiй языкъ
5) Арифметика
6) Геометрiя и землемѣрiе
7) Исторiя
8) Географiя
9) Естествовѣдѣнiе
10) Чистописанiе
11) Рисованiе и черченiе

N.Nərimanovun Zaqafqaziya Müəllimlər Seminariyası bitirmək haqqında şəhadətnaməsi.



N. Nərimanov. 1890-cı il.



N. Nərimanov müəllimlik illərində.



Bakı oğlan gimnaziyasının müəllimi
N.Nərimanov. 1900-cü il.



Свидѣтельство

Дано сіе Помощнику классныхъ наставниковъ Бакинской Императора Александра III-го мужской гимназіи Нариману Нариманову въ томъ, что ему разрѣшается открыть при содержимой имъ дешевой читальнѣ дешевую библіотеку, съ тѣмъ, что бы онъ, Наримановъ, являясь отвѣтственнымъ лицомъ по содержанію этой библіотеки, выполнялъ всѣ какъ нынѣ дѣйствующія, такъ и впредь могущія послѣдовать на сей предметъ узаконенія. Изложенное подписью и приложеніемъ казенной печати удостовѣряется. Гербовымъ сборомъ оплачено. Апрѣля 18 дня 1897 года гор. Баку

Бакинскій Губернаторъ [illegible]

Правитель Канцеляріи [illegible]

N. Nərimanovun qiraətxana açması haqqında Bakı qubernatorunun verdiyi şəhadətnamə. 18 aprel 1897-ci il.




N. Nərimanovun əsərlərinin titul səhifələri.




N. Nərimanovun “Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü asan kitabça” dərsliyinin üz qabığı.




N. Nərimanovun tərtib etdiyi dərsliklər.



N. Nərimanovun 1906 -cı ildə çıxış etdiyi dövri mətbuat.



N. Nərimanovun məslək dostları. Oturanlar (soldan): Əlisgəndər Cəfərzadə, Cəlil Məmmədquluzadə, Sultanməcid Qənizadə, Qurbanəli Şərifzadə; ayaq üstə duranlar: Əlǝddin Əfəndizadə və Ömər Faiq Ne`manzadə.



N. Nərimanov "Səfa" xeyriyyə cəmiyyəti məktəbinin müəllim və şagirdləri arasında. 1914-cü il.



N.Nərimanovun Azərbaycan qəzalarına səfəri zamanı Şəki kəndliləri ilə görüşü. 1920-ci il.



N. Nərimanov Şuşa məktəbliləri arasında.



N. Nərimanov bitərəf Azərbaycan qadınları I qurultayının nümayəndələri arasında. Bakı, fevral 1921-ci il.

baxmışıq, çörəyimizi yarı bölmüşük, özümüz yeməmişik, onları yedirtmişik. Çünki onlar qonaqdır. Bizim üçün ayıb olar onlar incisələr. Siz neylədiniz? Bizdə Cümhuriyyət yarananda 120 deputat yerlərinin 21-i siz ermənilərin idi. Sizinkilər gəlmədi, gələndə də qalmaqal saldı. 1920-ci il dövlət dəyişəndə, yəni Sovet hakimiyyəti qurulanda siz neylədiniz? Bütün rəhbər orqanlarda sizinkilər idi, elə bil irsən ermənilərə keçməli idi rəhbərlik. Mikoyan getdi, Sərkiz gəldi, Sərkiz getdi, Mirzoyan gəldi. Çünki Bakı partiya təşkilatında bunlar idi və əsas məqsəd Bakını Azərbaycandan ayırıb ermənilәşdirmək, Rusiyaya tabe etmək idi. Deyirsən ki, Bakının əhalisinin yarıdan çoxu erməni idi, deməli bu yalandan belə məlum olur ki, yarıdan azı da köklü azərbaycanlılar idi. O, azərbaycanlıların başına sizinkilər nələr açmadı?!

Ermənilər 1918-ci ilin mart ayında Bakıda qırğın saldılar, azərbaycanlıların qanı su yerinə axdı. Yalmz Bakı şəhərində 30 minə yaxın azərbaycanlı amansızlıqla qətlə yetirildi, Şamaxı qəzasında 58 kənd dağıdıldı, 7 min nəfərlik adam, o cümlədən 1653 qadın və 965 uşaq öldürüldü. Zəngəzur başdan-başa xərabəyə çevrildi. İrəvanın ətrafındakı 211 kəndi yandırıldı, yerlə yeksan edildi. Bu idi sizinkilərin elədikləri. Bakıda qırğınla kifayətlənmirdilər, azərbaycanlılara məxsus gözəl binaları yandırır, külünü göyə sovururdular. Bakının xeyriyyə mərkəzi adlanan "İsmailiyyə" binasını yandırdılar, Şamaxıda camaatı məscidə doldurub hamısını kül elədilər. Hansını deyim? Siz bircə fakt gətirə bilməzsiniz ki, azərbaycanlılar ermənilərin filan kilsəsini, filan abidəsini yandırdılar. Kitabda insan sümüklərini əhatə eləyən ermənilər "ölmüş ermənilərin" yasını saxlayır, yaxşı bəs, biz quyuları açsaq nə görərik? Görərik ki, nə qədər azərbaycanlı arvad-uşaq amansızcasına məhv edilmişlər.

Sizin prof.M.Q. Nersesyanın ümumi redaksiyası altında 1983-cü ildə Yerevanda çap olunmuş «Геноцид армян в османской империи» adlı kitabında söhbət ancaq sənətlərdən və materiallardan gedir və əsərin 591-ci səhifəsində fransız dilindən tərcümə olunmuş bir materialda göstərilir ki, "Türkiyədəki ermənilərin sayı 1915-ci il hadisələrinə qədər 2 100 000 nəfərdən ibarət idi. Bu, erməni patriarxının rəqəmidir. Bunlardan 182 000 Qafqaza qaçmış, 4200 Misirə getmiş və s." Türklər yalan danışan deyil, onlar 1 milyon 500

min erməninin öldüyünü etiraf edirlər. Özləri bundan da çox qırılmışdı. Ölənlərin sayını bundan bir qədər az sovet tədqiqatçıları göstərirlər. İndi isə erməni kilsəsi ölənlərin saymı 6-7 milyona çatdırır. Suren Ayvazyan isə şəxsi hesablamasına görə ölənlərin sayını gor eşən kimi bir-bir qəbirlərə girib 15 milyona qaldırır. Ayıbdır sizin üçün. Bu saatın özündə bütün yer üzündə 4 milyon erməni yoxdur. Siz hansı yolla türkləri, o cümlədən azərbaycanlıları qırmısınızsa, arvadları, uşaqları diri-diri yandırmısınızsa, ağılasığmaz işgəncələrlə öldürmüsünüzsə, əlinizə harda keçib orada başını kəsmisinizsə, bunların hamısını siz öz düşməninizin elədiyi kimi göstərirsiniz. Ona görə dünyanın ağılsız adamlarını da öz yalanınıza inandırmağa çalışırsınız. Onlardan biri də Fransanın prezidentidir. O, sizin yazdığınız yalanlara inanmasa idi, genosidi təsdiq eləməzdi.

Suren Ayvazyan Bakıdan, Sumqayıtdan, Şamxordan və s. yerlərdən köçüb gedən ermənilərdən danışır, onların necə amansızcasına qırılmasına göz yaşı tökür, onlara yas saxlayır. Belə şey olmayıb, ey saxtakar tarixçi! Biz onların hamısını səliqə-sahmanla yola saldıq. Daha sizin kimi vahimə yaradıb hərəsini bir tərəfə qovmadıq, qırıb məhv eləmədik. Mən özüm həmin qarışıq zamanda Bakı Dövlət Universitetində dekan idim. Erməni uşaqlar gəldilər ki, müəllimlər bizi kəsirlər. Getdim hamısının imtahanlarına, birini də kəsilməyə qoymadım. Dedim istəyirsiniz qalın burada, sizə heç kəs heç nə deməyəcək, istəyirsiniz gedin. Gedənləri insan kimi yola saldıq, Moskvaya, Aşqabada və başqa yerlərə getdilər, Ermənistana gedən az oldu, qalanlar qaldı. Bu saat Azərbaycanda 30 mindən çox erməni yaşayır, bəs sizdə neçə nəfər azərbaycanlı var? Heç bir nəfər də yoxdur. Milləti başqa millətlərdən təmizləmək budur. Yer üzündə yalnız Ermənistandır ki, ancaq bir millətdən ibarətdir. Hətta rusları da qovursunuz. Vaxt gələcək siz buna cavab verəsi olacaqsınız. Yuqoslaviyanın keçmiş prezidenti Miloşeviç nəyin üstə məhkəmədən canını qurtara bilmir? Belə bir tarix sizi də gözləyir.

Bir murdar əhvalatı da sizin yadınıza salmalıyam. Erməni toyunun qızğın vaxtında bir erməni dığası qışqırır: "Camaat, sakit olun, görün sizə nə deyirəm. Bu günkü toyun şərəfinə cavan bir türk balasını oğurlayıb gətirmişəm. Onu indi sizin gözünüzün qabağında bəylə gəlinin ayaqları altında boğazlayacağam".





Budurmu insanlıq! Bu, qatı vəhşilikdir. Yəni o tayda bir nəfər ağılı üstündə olan adam yox idi ki, desin belə şey insanlığa yaraşmaz! Amma siz belə biabırçılığı özünüzə yaraşdırdınız. Siz belə millətsiniz. Ən vəhşi insan düşmən də olsa, insanlığını gərək itirməsin, amma siz hər şeyinizi itirdiniz. Özü də dünya xalqlarının gözünün qabağında!

Bakının əhalisinin yarıdan çoxu erməni deyildi, heç olmamışdı da, həmin qarışıqlıq zamanı biz rəsmi adamlar gecələr yataqxanalarda, məhəllələrdə ermənilərə keşik çəkirdik. Deyirdik ki, Ermənistandan pis xəbərlər gəlir, birdən burdakı ermənilərə sataşarlar yaxşı olmaz. Bütün ermənilərin bizdə ünvanları vardı. O zaman Bakıda 217 min erməni yaşayırdı. Onların birinin də burnu burada qanamadı. Axı, yalan danışmaq, faktları şişirtmək sizə nə verir. Nə eləmisiniz eləmisiniz, gəlin sizdi-bizdi bunların üstünü örtək. Elə belə düşmən olmayacayıq ki! Sizin və sizin kimi adamların hərəkəti düşmən hərəkətidir, yola gələn adamlara oxşamırsınız. Son on ildə siz Azərbaycanda 40-dan çox terror aktı törətmisiniz, nə qədər azərbaycanlını qırmısınız. Bir papağınızı qabağınıza qoyub fikirləşin. Biz azərbaycanlılarda misal var, deyir, sülh yaşadar, nifrət öldürər. Yaşamaq istəyirsinizsə sülh ilə yaşamalısınız. Kitab yazanda lazımsız şeylərə toxunmayın, hər şeyə aludəçilik göstərməyin, olmayan şeydən olan şey kimi danışmayın. Məsələn, siz yazırsınız: "Qərb dövlətləri bir şeyə fikir vermirlər ki, Bakı-Bakurakert nefti əslində Ermənistana məxsusdur. Bakı bizim Şərqi Ermənistanın paytaxtıdır. Onu 70 il əvvəl türklər zəbt etmişdir.

Ağlı başında olan adam bəzi fars şovinistləri kimi belə şeirləri yazmamalıdır. Bəs biz harada idik? Dənizdən üzə-üzə gəlmişik, ya da havadan uça-uça.

Nəriman Nərimanovdan danışarkən göstərirsiniz ki, onun "şəhərdən kənardakı sarayında" xidmətçi işləyən erməni qadını xəbər verdi ki, Bakıda saxlanan altı yüzdən çox erməni uşağının hər gün biri yoxa çıxır, yaxud Roza Kasparovanın məlumatına görə Nərimanov, Əzizbəyov, Beriya, Stalin hamısı müsavatın adamları olublar. Onu da yazırsınız ki, o zaman Nərimanov bizimkiləri qorxutdu ki, bir də siz Dağlıq Qarabağ məsələsini qaldırsanız Ermənistanı neftə həsrət qoyacağam". Ermənilər də bundan qorxdular və bir müddət Dağlıq

Qarabağ məsələsi qaldırılmadı. Amma kitabın əsas hissəsi Dağlıq Qarabağdır, "satqın Stalinin biabırçı müqavilələridir", indiyə qədər nə dövləti, nə də adı olan Azərbaycan xalqıdır. Stalin və Nərimanov Sovet Rusiyasında Türkiyənin agentləri imiş, buna görə də Rusiya özünün və Ermənistanın düşməni Türkiyəyə meyl etmişlər".

Mən bir faktı da deyib bu murdar kitab haqqında söhbətimi qurtarıram: Əhmədbəy Ağayev /Ağaoğlu/ 1906-cı il fevralın 28-də Tiflisdə Qafqaz canişininin yanında keçirilən müşavirədə "Daşnak" partiyasının hərəkətlərinə göz yuman hökumətin özünü tənqid və ifşa edərək demişdi: "İndi ki, belədir, indi ki, bir müsəlləh partiya on beş ildən bəri təşkil olunub, hökumət adamları bunu bilib də, nəinki əlac etməyib, bəlkə onunla həməqidədirlər, onda lazımdır ancaq özümüz özümüzün əlacını edək".

Əhmədbəy bunun əlacını onların terrorunu dəf etməkdə görürdü. Bununla o, "Difahi" təşkilatını yaratmaq fikrinə düşdü və yaratdı. Həmin təşkilat milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan xalqına divan tutanlar öldürülməlidir. Belə də oldu. Yığıncaqda deyilirdi: Filankəsi kim öldürməlidir? Cavab verirdilər: Mən! Filankəsi kim öldürməlidir? Mən! Həmin adamlar tez bir zamanda aradan götürüldü.

Bu terror deyildi. Açıq-aydın intiqam idi. Qalaşanov günün gün ortası Tiflisdə öldürüldü, o birisi Gəncədə öldürüldü. Onda ermənilər qorxdular və sülh bağlamağı təklif etdilər. 1907-ci ildə Tiflisdə sülh bağlandı. Bunun ömrü az oldu, 1918-ci ilə qədər davam elədi. Siz indi yenə "Difahiçilik" gözləyirsiniz.

Kitab müəllifi 568-ci səhifədə yazır ki, Moskvada terror aktı düzəldən Stepan Zatikyanın hərəkətindən sonra metrolara yazmışdılar:"İtlərə və ermənilərə metroya girmək qadağandır".

Sonralar terrorun əsasını təşkil edənlər tapılsa da həmin elan düz idi. Əgər siz özünüzü düzəltməsəniz, belə saxtakarlığa, yalan və böhtanla, onun-bunun torpağına, malına, mənəvi sərvətlərinə göz tikməklə məşğul olmağı davam etdirsəniz, terrordan əl çəkməsəniz sizi nəinki metroya, ümumiyyətlə heç bir mədəni yerə buraxmayacaqlar.





*Alxan Bayramoğlu*

**N.Nərimanova vurğunluğun səngiməyən yanğısı.**

Milli-mədəni düşüncəmizin inkişaf edib milli mənlik şüurumuzun formalaşmasında özgün yeri olan görkəmli ədib və dövlət xadimlərimizdən biri də Nəriman Nərimanovdur. Xalqımızın tarixindəki bənzərsiz xidmətləri zaman-zaman məqsədli şəkildə təhrif və qadağalara məruz qoyulsa da, bu vətənpərvər şəxsiyyətin işıqlı sabaha ünvanlanmış görüşlərinin və fəaliyyətinin həyatverici istisi öz cazibədar nurunu itirməmişdir. Digər tədqiqatçılarımızla yanaşı təəssübkeş və cəfagar alim, pedaqoji elmlər doktoru, professor, keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü, Rusiya Təhsil Akademiyasının xarici üzvü Hüseyn Əhmədovun N.Nərimanov şəxsiyyətinə və irsinə ardıcıl və qayğıkeş münasibətini bu baxımdan təsadüfi hesab etmək olmaz. O, «Nəriman Nərimanovun pedaqoji fikirləri» monoqrafiyasının «bərpa edilmiş və yenidən işlənmiş ikinci nəşri»nə yazdığı «sözardı, yaxud N.Nərimanov mənim həyatımda» başlıqlı məqaləsində bu vətəndaş alim yanğısının səbəblərini belə izah edir:

«... Bu əsər (Nəriman Nərimanovun pedaqoji fikirləri – A.B.) mənim nə namizədlik, nə də doktorluq dissertasiyamdır. Bu mövzunu tədqiq etmək mənim Nərimanov şəxsiyyətinə, onun çoxsahəli fəaliyyətinə vurğunluğum əzablı-əziyyətli günlərinə, sürgün illərinə baxmayaraq, xalqının mənəvi tərəqqisinə çalışmasına bizim nəslin hörmətlə yanaşması və qiymətləndirməsi ilə bağlı olmuşdur...»

N.Nərimanova öz yaşdaşları adından göstərdiyi minnətdarlıq və qədirşünaslıq duyğusu H.Əhmədovun Bakı, Tiflis, İrəvan, Leninqrad, Moskva, Həştərxan və s. arxivlərdə və bir çox kitabxanada yorulmadan araşdırmalar aparıb bu görkəmli şəxsiyyət haqda monoqrafiya və məqalələr çap etdirməsi ilə məhdudlaşıb qalmamışdır. O, milli təəssüb hissi ilə Tiflisdə və Həştərxanda N.Nərimanovla bağlı yaşayış yerlərinin müəyyənləşdirərək öz qəhrəmanının (N.Nərimanovun) adının əbədiləşmdirilməsi və xatirəsinin əziz tutulması naminə də çalışmış və məqsədinə çatmışdır. Yuxarıda xatırlatdığımız «sözardı»nda bu və digər məsələlər barədə maraqlı məlumatlar vardır.

N.Nərimanov şəxsiyyətinə və irsinə Hüseyn Əhmədov yanğısının alovu bu gün də səngiməyib. O, Nəriman Nərimanovun

tarixi xidmətləri və şəxsiyyəti haqda gənc nəslə daha dolğun məlumat vermək məqsədilə monoqrafiyasının növbəti üçüncü nəşrinə ədib və ictimai xadimin indiyədək geniş oxucu kütləsinə məlum olmayan xeyli məqaləsini də daxil etmişdir. Həmin məqalələr «Doktor N.Nərimanov»un öz xalqının həm elmi və mənəvi əxlaqının zənginləşməsi, həm də bioloji, fizioloji sağlamlığının, bütövlükdə milli-mədəni tərəqqisi yolunda ardıcıl və məqsədyönlü fəaliyyətinin ayrı-ayrı istiqamətləri haqda mövcud təsəvvürün xeyli genişlənməsinə xidmət göstərməsi ilə diqqəti cəlb edir. Çünki burada N.Nərimanovun 1906 və 1907-ci illərdə Azərbaycan müəllimlərinin I və II qurultayları ilə bağlı təşkilati və elmi-pedaqoji fikirləri, soydaşlarını elm və maariflənmə yolu ilə tərəqqi və inkişafa səsləyən vətəndaş yanğılı çağırışları, xalqın tibbi və islami (dini) baxımdan maariflənməsi yolunda göstərdiyi xidmətlər və oxuduğu mühazirələri və s. məsələlər haqqında elə birbaşa onun öz qələm məhsullarından şərhsiz-filansız, obyektiv, daim təzə-tər və dolğun təsəvvür əldə etmək olur.

Təqdim olunan məqalələrdə Nəriman Nərimanov vətəninin və millətinin möhkəm, elmi, mənəvi-əxlaqi, sosial-siyasi və milli-ideoloji təməllər üzərində işıqlı sabaha inamla addımlaması, milli istiqlaliyyət qazanması yolunda apardığı çoxşaxəli fəaliyyəti ilə yanaşı, təmənnasız xidmətləri müqabilində ona bəslənən ümumxalq məhəbbətinin şahidi oluruq. Nərimanovla xalq arasında olan bu qarşılıqlı qədrşünasdıq özlüyündə bugünkü və gələcək nəsillər üçün də bir tərbiyə məktəbi, örnəkdir.

Kitaba daxil edilən məqalələr haqqında onun «Qeydlər və şərhlər» bölməsindəki izahlarda ayrı-ayrı məqalələri ərəb qrafikasından transliterasiya edən müəllimlərin xidmətləri də öz əksini tapmışdır. Bu isə pedaqoq Hüseyn Əhmədov tərəfindən yetirmələrinin ona öz əməkləri ilə göstərdikləri ehtirama bəslənən minnətdarlıq duyğusunun əksi ilə yanaşı, tərbiyə məktəbidir. Çünki Hüseyn müəllim həmin hərəkəti ilə bəzi alimlərdən fərqli olaraq əməli şəkildə halallıq, gözütoxluq, elmi vicdan və obyektivlik nümayiş etdirmişdir.

Yuxarıda göstərilənlər «Nəriman Nərimanovun pedaqoji fikirləri» monoqrafiyasının üçüncü nəşrinin də rəğbətlə qarşılanacağına bəslədiyimiz inamı xeyli möhkəmləndirir.

***Alxan Bayramoğlu,***
***filologiya elmləri doktoru***





***Ədəbiyyat***

1. *N.Nərimanov - «Əsərləri», Azərbaycan Dövlət Nəşriyyatı, 1956*
2. *N.Nərimanov – Məqalələr və nitqlər. Bakı, 1971.*
3. *N.Nərimanov - Seçilmiş əsərləri «Elm nəşriyyatı» Bakı 1973.*
4. *Nəriman Nərimanov – Seçilmiş əsərləri. Tərtib edəni Teymur Əhmədov. Bakı, "Azərnəşr", 1985.*
5. *N.Nərimanov - Ucqarlarda inqilabımızın tarixinə dair. Azərbaycan Dövlət Nəşriyyatı- Poliqrafiya birliyi. Bakı 1992.*
6. *Alxan Bayramoğlu – Nəriman Nərimanov: tarix, zaman və müasirlik //Respublika, 25 aprel 2000.*
7. *Alxan Bayramoğlu «Ermənilərin törətdikləri soyqırım və Azərbaycan ədibləri-A.Səhhət, N.Nərimanov». «Ədəbiyyat» qəzeti, 19 mart 2004.*
8. *M. Məmmədov – Nərimanov və ana dili. Bakı, 1971.*
9. *F. Köçərli – Nəriman Nərimanov yeni təfəkkür işığında. AEA xəbərləri, 1991, №1.*
10. *Firdovsiyyə Əhmədova. - Nəriman Nərimanov – ideal və gerçəklik. "Elm və həyat" nəşriyyatı. Bakı, 1998.*
11. *H.M.Əhmədov – N.Nərimanovun pedaqoji fəaliyyəti haqqında (Həştərxan dövrü). //Azərbaycan məktəbi, 1959, №5.*
12. *H.M.Əhmədov – N.Nərimanovun həyatı və pedaqoji fəaliyyətinin ilk dövrü (1871–1890). //V.İ.Lenin adına APİ-nin Əsərləri, 1961, XVIII cild.*
13. *H.M.Əhmədov – N.Nərimanovun həyatı və maarifçilik fəaliyyəti (Həştərxan dövrü). // V.İ.Lenin adına APİ-nin Əsərləri, XXI cild, 1962.*
14. *H.M.Əhmədov – N.Nərimanov əmək tərbiyəsi haqqında.// Məktəbdə istehsalat təlimi, 1964, №2.*
15. *H.M.Əhmədov – Tarixi qurultay. //Azərbaycan məktəbi, 1966, №8.*
16. *H.M.Əhmədov – N.Nərimanovun maarifçilik fəaliyyəti və pedaqoji fikirləri. Bakı, "Elm", 1971.*
17. *H.M.Əhmədov – N.Nərimanovun bir naməlum məqaləsi haqqında. //Azərbaycan məktəbi, 1976, №5.*
18. *H.M.Əhmədov – N.Nərimanovun pedaqoji fikirləri. Bakı, "Maarif", 1979.*

19. *H.M.Əhmədov –XIX əsr Azərbaycan məktəbi. Bakı, "Maarif", 1985.*
20. *H.M.Əhmədov – N.Nərimanov təlim və tərbiyə haqqında. // Azərbaycan məktəbi, 1990, №4.*
21. *H.M.Əhmədov – N.Nərimanovun pedaqoji fikirləri. Bakı, "Maarif" 2000.(II nəşr).*
22. *T.Əhmədov «N.Nərimanov» «İşıq» nəşriyyatı. Bakı, 1977.*
23. *T.Əhmədov N.Nərimanov «Həyatı, mühiti, ədəbi yaradıcılığı». Yazıçı, Bakı 1982.*
24. *Şamil Qurbanov «N.Nərimanov Ömrünün son illəri». Azərbaycan nəşriyyatı, Bakı, 2003.*
25. *Нариманов Н.Н. Избранные произведения. т. –I, II, Баку, 1988–1989.*
26. *Ахмедов Г.М – Просветительская и педагогическая деятельность Н.Нариманова. //Советская педагогика, 1961, №5.*
27. *Ахмедов Г.М – Видный деятель народного образования Азербайджана. //Народное образование, 1971, № 4.*
28. *Ахмедов Г.М – Нариман Нариманов – В кн: Антология педагогической мысли Азербайджанской ССР. – Москва, Педагогика, 1989.*
29. *Ахмедов Г.М – Жизнь и педагогические идеи Н.Нариманова – В кн: Очерки истории школ и педагогической мысли народов СССР. Конец XIX, начало XX века. М., 1990.*
30. *И.Дубинский-Мухадзе «Н.Нариманов» «Молодая Гвардия». Москва 1977. Из серии биографии «Жизнь замечательных людей».*
31. *П.Азизбекова, И.Мосесова «Честь семьи», Гянджлик, Баку, 1971.*






## *MÜNDƏRİCAT*


Üçüncü nəşrə müqəddimə ........ 5
Redaktordan: «Şikəst edilmiş övlad» yaxud milli elmi düşüncənin repressiyası ........ 6
Giriş ........ 13
N.Nərimanovun həyatı və maarifçilik fəaliyyəti ........ 17
Müəllim və müəllim kadrları hazırlanması problemi ........ 36
Əqli təhsil haqqında ........ 55
Ana dili və onun tədrisi məsələləri ........ 68
Qadın təhsili ........ 74
Şəxsiyyətin formalaşmasında tərbiyənin məqsədi və rolu ........ 81
Xalqlar dostluğu və beynəlmiləlçilik tərbiyəsi haqqında ........ 99
Vətən və vətənpərvərlik haqqında ........ 107
Əmək və əmək tərbiyəsi məsələləri ........ 113
Dini baxış və gənc nəslin tərbiyəsi problemləri ........ 116
Əlavələr ........ 126
Teatr barəsində bir neçə söz ........ 127
Həftə fəryadı ........ 129
Həftə fəryadı ........ 134
Mühüm bir məsələ ........ 145
Müəllimlər ictimaına dair ........ 153
Bu gün ........ 168
Doktor Nəriman bəy ........ 171
200 Rubl ştraf ........ 173
Tibb və islam ........ 175
Tibb və islam ........ 178
Tibb və islam (Xüsusi parçalanma) ........ 180
Tibb və islam ........ 182
Tibb və islam ........ 185
Cavab? Ya «hədərən-pədərən» ........ 187
Aman anlamaz əlindən ........ 192
Məktəbyaşlı uşaqların döş qəfəsinə diqqət yetirmək nə üçün zəruridir ........ 193

Baxçasaray imtahan meydanı ........................................................... 199
Həştərxanda mollaların və tatar məktəbləri müəllimlərinin yığıncağındakı nitqindən müraciət ........................................................... 200
Elmlərini yenicə tamam etmiş müəllimlərə açıq məktut ........................ 204
Ответ некоторым товарищам ........................................................... 205
Traxoma ........................................................... 209
Oğluna bitməmiş məktubu ........................................................... 218
Nərimanovun V.İ.Leninə məktubu ........................................................... 222
Sözardı, yaxud N.Nərimanov mənim həyatımda ............................ 224
Qeydlər və izahlar ........................................................... 232
Lüğət ........................................................... 241
N.Nərimanovun həyatı və fəaliyyətinin əsas tarixləri ......................... 250
Erməni xalqının bədbəxtliyi ........................................................... 268
A.Bayramoğlu N.Nərimanova vurğunluğun səngiməyən yanğısı ...... 277
Ədəbiyyat ........................................................... 279
Mündəricat ........................................................... 281



HÜSEYN MUSTAFA OĞLU ƏHMƏDOV

# SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ

VI cild

(NƏRİMAN NƏRİMANOV. Həyatı, fəaliyyəti pedaqoji və tibbi fikirləri)

Bakı-«Təhsil»-ABU-2006

Redaktor: A.Bayramoğlu
Korrektorlar: T.İsmayılov
S.F.İsrafilova
Kompüter yığımı: E.Əhmədova

Yığılmağa verilmişdir: 10.12.2005. Çapa imzalanmışdır: 29.03.2006
Formatı. 60x84 1/16. Fiziki həcmi. 17,15 ç.v.+16 şəkil. Tiraj 500.
Sifariş 24.

Ünvan: «Beynəlxalq Universitet» nəşriyyat və poliqrafiya mərkəzi.
Bakı şəhəri, 7-ci mikrorayon, Xarici dairəvi küçə 179.
Azərbaycan Beynəlxalq Universiteti.